# İCTİMAİ-SİYASİ MÜTALİƏLƏRİN ƏSASLARİ

**BİRİNCİ CİLD**

**MÜƏLLİF: DOKTOR MƏHƏMMƏD RZA HAFİZİNİYA**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:................İctimai-siyasi mütaliələrin əsasları**
**Müəllif:.....................Doktor Məhəmməd Rza Hafiziniya**
**Çap növbəsi:...............................................................Birinci**
**Çap tarixi:.........................................................................**
**Tiraj:...............................................................................**
**Naşir:..............................................................................**

Mündəricat

MÜQƏDDİMƏ....6
BİRİNCİ FƏSİL....8
SİYASƏT ELMİNİN ƏSASLARİ....8
(1-1) SİYASƏT ELMİNİN TƏRİF VƏ MƏFHUMU....8
(1-2) SİYASƏT ELMİ İLƏ DİGƏR ELMLƏR ARASİNDA OLAN ƏLAQƏLƏR....12
(1-2-1) SİYASƏT ELMİ VƏ TARİX....13
(1-2-2) SİYASƏT ELMİ VƏ SOSİOLOGİYA....14
(1-2-3) SİYASİ ELMLƏR VƏ İQTİSADİYYAT....15
(1-2-4) SİYASƏT VƏ COĞRAFİYA....18
(1-2-5) SİYASƏT VƏ PSİXOLOGİYA....20
(1-3) DÖVLƏT VƏ ONUN QURULUŞU....21
(1-3-1) DÖVLƏTİ TƏŞKİL EDƏN ÜNSÜRLƏR....22
(1-3-2) DÖVLƏTİN MƏNŞƏYİ....24
A) İLAHİ İRADƏ NƏZƏRİYYƏSİ....24
(1-4) DÖVLƏT QURULUŞU....28
(1-4-1) QANUNVERİCİLİK....29
(1-4-2) İCRAEDİCİ ORQAN....32
(1-5) SİYASİ PARTİYA VƏ QÜDRƏTLƏR....36
(1-5-1) SİYASİ PARTİYALAR....38
(1-6-) DÖVLƏTLƏRARASİ ƏLAQƏLƏR....43
İSTİFADƏ OLUNAN MƏNBƏLƏR....47
İKİNCİ FƏSİL....48
XARİCİ SİYASƏT VƏ İSLAMDA BEYNƏLXALQ ƏLAQƏLƏRİN ƏSASLARİ....48
(2-1) İSLAMDA BEYNƏLXALQ ƏLAQƏLƏRİN TARİXİ....49
(2-1-1) QƏBİLƏLƏR ARASİ ƏLAQƏLƏR....50
(2-1-2) DÖVLƏTLƏRLƏ ƏLAQƏ....51
(2-1-3) PEYĞƏMBƏRİN (S) ZAMANİNDA RUM VƏ İRAN İMPERATORLUQLARİ İLƏ YARADİLAN ƏLAQƏLƏR....53
(2-1-4) XƏLİFƏLƏR DÖVRÜ VƏ İSLAMDA BEYNƏLMİLƏL ƏLAQƏLƏR....54
XİLAFƏT DÖVRÜNÜN NƏTİCƏLƏRİ....55
(2-1-5) MÜSƏLMANLARİN BEYNƏLMİLƏL SİYASƏTDƏN UZAQ DÜŞMƏLƏRİ....57
(2-1-6) OSMANLİ İMPERATORLUĞU VƏ BEYNƏLMİLƏL ƏLAQƏLƏR....58
(2-1-7) MÜASİR DÖVR VƏ İSLAM DÜNYASİNDA BEYNƏLMİLƏL ƏLAQƏLƏR....60
İSLAMİN BEYNƏLXALQ ƏLAQƏLƏRİNƏ HAKİM OLAN ÜMUMİ QANUNLAR....63
(2-2-1) SÜLH VƏ ƏMİN-AMANLİQ ŞƏRAİTİNDƏ MÜŞTƏRƏK HƏYAT PRİNSİPİ;....64
(2-2) PEYĞƏMBƏRİN (S) RƏFTAR VƏ DAVRANİŞLARİ....65
SÜLH VƏ ƏMİN-AMANLİQ ŞƏRAİTİNDƏ MÜŞTƏRƏK HƏYAT TƏRZİ....65
İSLAM FİQH VƏ İQTİSADİYYATİNDA MÜŞAHİDƏ OLUNAN MÜŞTƏRƏK HƏYAT PRİNSİPİ....66
(2-2-2) ÜMUMBƏŞƏRİ ÇAĞİRİŞ PRİNSİPİ....67
(2-2-3) MÜDAXİLƏ PRİNSİPİ....69
(2-2-4) QARŞİLİQLİ MÜBARİZƏ PRİNSİPİ....70
(2-2-5) ƏHDƏ VƏFA PRİNSİPİ....72
(2-2-6) DÖVLƏTLƏRİN TAM AZADLİQ HUQUQUNA DAİR BƏRABƏRLİK PRİNSİPİ....73
MÜSTƏQİLLİK VƏ HAKİMİYYƏT....73
(2-2-7) AZADLİQ HƏRƏKATLARİNDAN MÜDAFİƏ PRİNSİPİ....75
(2-3) QURAN VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR....81
(2-3-1) İSLAMA DƏVƏT....83
(2-3-2) QURANİN İCBARİ ƏQİDƏYƏ MƏNFİ MÜNASİBƏTİ....85

(2-3-2) QURANİN QEYRİ-MÜSƏLMANLARLA SAXLANİLAN ƏLAQƏ VƏ SƏMİMİ DOSTLUQ MÜNASİBƏTLƏRİNƏ OLAN BAXİŞİ ........ 86
(2-3-4) QURANİN HÖKMRANLİQ MƏSƏLƏSİNƏ OLAN MƏNFİ MÜNASİBƏTİ ........ 87
(2-3-5) QURANİN MÜXTƏLİF MİLLƏTLƏRİN TANİNİLMASİNA OLAN BAXİŞİ ........ 88
(2-3-6) QURANİN BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ ƏLDƏ OLUNMALİ OLAN SÜLH VƏ BİRLİYƏ BAXİŞİ ........ 90
(2-3-7) QURANİN MÜQAVİLƏ ƏSASİNDA BƏRQƏRAR OLUNAN ƏLAQƏLƏRƏ OLAN MÜNASİBƏTİ ........ 91
(2-3-8) QURANİN CİHADA OLAN BAXİŞİ ........ 92
(2-4) DÖVLƏT KONSTİTUSİYASİNİN İRANİN XARİCİ SİYASƏTİNƏ OLAN BAXİŞİ ........ 95
ÜÇÜNCÜ FƏSİL ........ 99
SİYASİ COĞRAFİYA VƏ GEOPOLİTOLOGİYA ........ 99
ÖN SÖZ ........ 100
(3-1) SİYASİ COĞRAFİYA ........ 103
(3-1-1) SİYASİ COĞRAFİYANİN MƏFHUM VƏ TƏRİFİ ........ 103
(3-1-2) SİYASİ MƏNTƏQƏ ........ 106
(3-1-3) SİYASİ MƏNTƏQƏLƏRİN XÜSUSİYYƏTLƏRİ ........ 106
4-SİYASİ İQTİDARİN MƏRKƏZDƏN ƏTRAFA DOĞRU ZƏİFLƏMƏSİ ........ 108
(3-1-4) SİYASİ MƏNTƏQƏLƏRİN NÖVLƏRİ ........ 114
2-ÖLKƏ DAXİLİNDƏ YERLƏŞƏN SİYASİ MƏNTƏQƏLƏR ........ 115
(AVTONOM VİLAYƏTLƏR) ........ 115
(3-1-5) ÖLKƏ VƏ YA MÜSTƏQİL SİYASİ MƏNTƏQƏ ........ 117
(3-1-6) MİLLİ DÖVLƏT VƏ YA SİYASİ MƏNTƏQƏLƏRİN NÖVLƏRİ ........ 127
1-SADƏ VƏ YA UNİTAR DÖVLƏTLƏR ........ 128
SADƏ (UNİTAR) DÖVLƏTLƏRİN NÖVLƏRİ ........ 128
UNİTAR DÖVLƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ ........ 129
UNİTAR DÖVLƏTLƏRİN ÜSTÜNLÜKLƏRİ ........ 131
UNİTAR DÖVLƏTİN ÇATİŞMAMAZLİQLARİ ........ 131
2-FEDERAL DÖVLƏTLƏR ........ 132
FEDERAL DÖVLƏTLƏRİN NÖVLƏRİ ........ 132
FEDERAL DÖVLƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ ........ 133
FEDERAL DÖVLƏTİN FƏALİYYƏTLƏRİ ........ 134
FEDERAL DÖVLƏTİN ÇATİŞMAMAZLİQLARİ ........ 135
FEDERAL VƏ KONFEDERAL DÖVLƏTƏLƏR ARASİNDA OLAN FƏRQLƏR ........ 135
3-REGİONAL DÖVLƏTLƏR ........ 137
(3-1-7) MÜSTƏQİL DÖVLƏT VƏ YA ÖLKƏNİN TƏHLİL VƏ ARAŞDİRMASİ ........ 138
1-DÖVLƏTİN MEYDANA GƏLMƏ SƏBƏBLƏRİ ........ 138
2-COĞRAFİ MÖVQE VƏ ONUN SİYASİ ROLU ........ 143
3-ƏRAZİ ........ 145
ƏRAZİ GENİŞLİYİ ........ 146
ƏRAZİ QURULUŞU ........ 146
RELYEF ........ 147
TƏBİİ MƏNBƏLƏR ........ 148
MİLLƏT ........ 149
SİYASİ MƏRKƏZ DAİRƏSİ ........ 150
PAYTAXTLARİN TƏSİS OLUNMASİNA TƏSİR GÖSTƏRƏN ƏN MÜHÜM AMİLLƏR ........ 151
SƏRHƏD ........ 153
SƏRHƏDLƏRİN İFA ETDİYİ ROL ........ 153
SƏRHƏD NÖVLƏRİ ........ 154
TORPAQ SƏRHDLƏR ........ 154
DƏNİZ SƏRHƏDLƏRİ ........ 155
HAVA SƏRHƏDLƏRİ ........ 155
ƏRAZİNİN SİYASİ İDARƏETMƏ VƏ TƏŞKİLATÇİLİĞİ ........ 156
ƏRAZİLƏRİN SİYASİ TƏŞKİLATÇİLİĞİNA NƏZARƏT EDƏN AMİLLƏR ........ 156
ƏRAZİLƏRİN SİYASİ TƏŞKİLATÇİLİĞİNDAN MƏQSƏD VƏ YA ÖLKƏ BÖLGÜSÜ ........ 157
ƏRAZİNİN MÜTƏŞƏKKİL HAL TAPMASİ ÜÇÜN LAZİM OLAN ŞƏRTLƏR ........ 157

SİYASİ ƏRAZİNİN (ÖLKƏ VƏ MƏNTƏQƏ) TƏŞKİLATLANDİRİLMASİNDA DİQQƏT YETİRİLMƏSİ LAZİM OLAN MƏSƏLƏLƏR....158
COĞRAFİ ƏSASLAR....159
BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ MÖVCUD ZİDDİYYƏTLƏR....159
İSTİFADƏ OLUNAN MƏNBƏLƏR....163
(3-2) GEOPOLİTOLOGİYA....165
(3-2-1) GEOPOLİTOLOGİYANİN TƏRİF VƏ MƏFHUMU....166
BƏZİ GEPOLİTİK TERMİNLƏR....169
(3-2-2) GEOPOLİTİK AMİLLƏR....171
1-SABİT GEOPOLİTİK AMİLLƏR....172
2-DƏYİŞKƏN GEOPOLİTİK AMİLLƏR....177
İQTİSADİ POTENSİAL....181
(3-2-3) XX ƏSRİN GEOPOLİTİK NƏZƏRİYYƏLƏRİ....183
1-RATZELİN HƏYATİ ATMOSFER NƏZƏRİYYƏSİ (1895)....184
2-DƏNİZ QÜDRƏTİ NƏZƏRİYYƏSİ (1890)....185
3-TORPAQ QÜDRƏTİ NƏZƏRİYYƏSİ (1904)....186
4-REYMLANDEN NƏZƏRİYYƏSİ (1942)....187
5-HAVA QÜDRƏTİ NƏZƏRİYYƏSİ (1950)....188
6-KOHENİN SİSTEM NƏZƏRİYYƏSİ....188
DÜNYANİN GEOPOLİTİK QURULUŞU....190
7-SİVİLİZASİYALARİN TOQQUŞMA NƏZƏRİYYƏSİ....193
(3-2-4) MİLLİ QÜDRƏT....197
1-MİLLİ QÜDRƏTDƏN İSTİFADƏ OLUNAN MƏRƏHƏLƏLƏR....198
2-MİLLİ QÜDRƏTDƏN İSTİFADƏ OLUNMASİNİN İRADLARİ....199
3-MİLİ QÜDRƏTİN DƏRƏCƏLƏRİ....199
4-MİLLİ QÜDRƏTİN MƏNBƏLƏRİ VƏ YA QÜDRƏTƏ SƏBƏB OLAN AMİLLƏR....200
(3-2-5) MİLLİ MƏNAFE VƏ HƏDƏFLƏR....203
(3-2-6) MİLLİ STRATEGİYA....205
İSTİFADƏ OLUNAN MƏNBƏLƏR....207

## *MÜQƏDDİMƏ*

İslamın əziz peyğəmbəri və məsum imamlar (Allahın salamı olsun onlara) Quranın elmi əsaslarını yaşatmaqla, cəmiyyətdə müqəddəs İslam dininin mədəni inqilabının bünövrəsini qoymuş və bu yolda təlim-tərbiyəyə xüsusi yer verərək, üzərlərinə ağır yük götürməyə qadir olan şəxslərə hər bir lazımi köməklik göstərmişlər.

Hal-hazırki dövrdə istemarçı qüvvələr ruhani və dini elm ocaqlarına qarşı qərəzli mövqe tutub, onların inkişafının qarşısını almağa çalışmalarına baxmayaraq, möhkəm iradə ilə bütün maneələrə sinə gəlir və böyük fəxr hissi ilə öz inkişafına davam edirlər.

Bu elmi-mədəni mərkəz, yarandığı ilk gündən müxtəlif nəsillərin ehtiyaclarını aradan qaldırmış, habelə bəşəriyyətin hidayət olunmasında, dost və düşmənləri maraqlandıran suallara cavab verməkdə böyük nailiyyətlər əldə etmişdir.

Belə bir xüsusiyyətə isə o, daha çox uğur və nailiyyətlər əldə etdiyi bir dövrdə nail olmuşdur.

Bu günkü dini-elmi mərkəzlər aşağıdakı xüsusiyyətlərə malikdirlər:

1- İslamın bütün elmi sahələrinə diqqət yetirərək, bu sahələrin hər birində yorulmaz fəaliyyət göstərir;
2- Yeni tədris üsullarının tətbiqi və günün tələblərini ödəyən elmi kitabların təlifi, habelə əldə olunan yeniliklərin dinlə olan bağlılıqlarını qoruyub saxlayır;
3- Bu günkü məsələlərlə (və ya gündəlik) tanışlıq və Quranın elmi əsasları, əqli dəlillərə istinad etməklə, zamanın tələbləri ilə ayaqlaşır.

Belə bir şəraitdə xarici ölkələrdə fəaliyyət göstərən dini-elm ocaqları mütəxəssislərin apardıqları geniş təhqiqatlardan istifadə edərək, yeni tədris üsullarının tətbiqi və dərsliklərin zamanın tələblərinə uyğun olaraq yeni səbkidə dərc olunmasını nəzərdə tutmuşlar.

Nəzərdə tutulan məsələlər isə aşağılardan ibarətdir:

1- Nəzərdə tutulan hər bir fənnin hədəflərinə riayət olunmalı;
2- Tələbələrin nəzərdə tutulan mərhələdə elmi səviyyələrinə riayət olunmalı;

3- İl ərzində tədris olunan kitablarda dərc olunan mətləblərin bir-biri ilə bağlılığına riayət edilməli;
4- Dərslik kitablarının nəzərdə tutulan səbkidə dərc olunmasına riayət etməli.

Qarşınızdakı kitab, bokalavr tələbələrinin ictimai-siyasi məlumatlarını genişləndirmək üçün nəzərdə tutulmuşdur. Hər şeydən əvvəl kitabın müəllifi doktor Məhəmməd Rza Hafiziniyaya belə bir dəyərli kitab təlif etdiyi üçün öz minnətdarlığımızı bildiririk.

Dərslik kitablarının ictimai-siyasi elmlər bölümü, 2000-ci il (1379-cu hicri şəmsi)

## *BİRİNCİ FƏSİL*

## *SİYASƏT ELMİNİN ƏSASLARİ*

Siyasət, uzaq keçmişdən götürülmüş bir kəlmədir. Hələ qədim zamanlardan insanlar onunla yaxından tanış və sıx əlaqədə olmuşlar. Siyasi tərzi-təfəkkürün qədim İran və Yunana qayıdan dərin kökləri vardır. Onun elm halına düşməsi isə, son illərə qayıdır. Siyasət kəlməsi üçün müxtəlif məna və məfhumlar qeyd etmişlər. O cümlədən, hökmranlıq, ölkə idarə etmə, tənbeh, cəzalandırma, hiylə, kələk, düşünüb-danışmaq və s...

Bu səbəbdən siyasət (politologiya) elmi, günün siyasi məsələləri, diplomatiya, beynəlxalq əlaqələr, dövlət, hakimiyyət və bu kimi mövzuları əhatə edir.

Keçmiş zamanlarda siyasi məsələlər əksər hallarda hakim təbəqə tərəfindən həll olunurdu. Lakin zaman keçdikcə, ölkə və dövlətlərin əhatə dairəsi genişlənmiş və onların sayəsində azadlıq və demokratiya məfhumu geniş vüsət halını taparaq, böyük insan kütləri dövlət və siyasi məsələlərdə iştirak etməyə başlamışdır. Siyasi partiya, sinfi və siyasi təşkilatlar kimi ictimai birliklər meydana gəldikdən sonra səsvermə və hakim təbəqənin əhali tərəfindən seçilib təyin olunması, siyasi bir məsələ kimi cəmiyyətdə geniş vüsət halını tapmışdır. Beləki, bu kimi cəmiyyətlərdə cəncəl və ixtilaflara səbəb olan da, məhz siyasi məsələlərdir. Xüsusilə də, demokratiyanı təzə təcrübə edən İranda şahənşahlıq dövlətinin süqut etməsi bir tərəfdən, digər tərəfdən də müxtəlif ölkələrin məntəqə uğrunda bir-birləri ilə rəqabət aparması, əhalinin böyük bir hissəsində siyasi şüur və tərzi-təfəkkürün meydana gəlməsinə səbəb oldu. Belə ki, hal-hazırda elə bir məclis və yığıncaq tapmaq olmaz ki, orada siyasi məsələlər haqqında söhbət açılmasın və cəsarətlə deyə bilərik ki, İran əhalisinin diqqətini cəlb edən də, məhz siyasi məsələlərin cəmiyyətdə açıqlanması və ümumi kütlənin diqqət mərkəzində olmasıdır.

### *(1-1) SİYASƏT ELMİNİN TƏRİF VƏ MƏFHUMU*

İnsan, ictimai və həyatı qarşılıqlı münasibətlərdən asılı olan bir varlıqdır. O, həyatda göstərdiyi fəaliyyətləri nəzmə salmaq və

qarşısına qoyduğu hədəf və məqsədlərə çatmaq üçün bir sıra qanun və qaydalara ehtiyac duyur. Bərqərar etdiyi ictimai münasibətlər və onunla əlqəli olan məsələlərdə isə o, xüsusi qanun, cəmiyyətin özündən olan qüdrətli qanunvericilik və onun icraçısına ehtiyac duyur. Belə olduqda isə həmin qüdrət, yalnız "dövlət" və "hakimiyyətdən" ibarət olur. Qanunları təyin və onları qüvvəyə mindirdikdən sonra icra edən də dövlətdir. O, tutduğu mövqe və ixtiyarında olan qüdrətdən istifadə edərək, istədiyi qanunları qüvvəyə mindirir və onların icrasına nəzarət edir. Qanuna tabe olmayanları isə cəzalandıraraq, hərc-mərcliyin qarşısını alır. Dövlət, ictimai münasibətlərin nəzmə salınması və ictimai ədalətin bərqərar olunması üçün cəmiyyət üzvlərinin hüquqlarının keşiyində durur və onların hüquqlarının tapdanmasının qarşısını alır. Qanunların icra olunduğu belə bir cəmiyyət "siyasi formalaşmış cəmiyyət" və ya "dövlət" adlanır.

Əslində siyasəti, dövlət idarəetmə elmi və ya siyasi qanunlar əsasında formalaşmış cəmiyyət də adlandırmaq olar.

Dövlət isə iki ünsürdən, yəni qanuna tabe olan qüdrətli hakimiyyət və müəyyən hüquq və vəzifləri olan azad millətdən ibarətdir.

Siyasət (politologiya) hökumət quruluşu, qüdrət və iqtidarı, hakimiyyət, cəmiyyət üzvləri ilə hökumət arasında olan münasibətlər və azadlıq çərçivəsində insanların üzərlərinə düşən vəzifələr haqqında söhbət açan bir elmdir. Başqa sözlə desək, siyasət, hökumətin iqtidarından başlayaraq insanların azadlıqlarınadək, şamil olan bütün ictimai məsələlərə deyilir. Dövlətlərarası qarşılıqlı münasibətlər və yaradılan əlaqələr də, eyni qayda olaraq siyasət elminə daxildir. Dövlət, özünə məxsus xüsusiyyətlərə malik olmaqla yanaşı, dünyanın hansı nöqtəsində olursa-olsun sabit qalmayıb, daim dəyişikliklərə məruz qalır.

Bəşər dünyaya qədəm qoyduğu ilk gündə nə dövlət olmuşdur, nə də dövlətçilik. Lakin sonralar cəmiyyət inkişaf etdikcə, tədriclə müxtəlif xüsusiyyətlərə malik olan dövlətlər meydana gəlmişdir. İranda - qədim Həxamənеşin, Hindistanda - Muryan, cənubi

Avropada - Camaat və Qədim Yunanda - Şəhərlər dövləti[1] imperatorluqlarını buna misal çəkmək olar.

Sonrakı dövrlərdə dünyanın digər məntəqələrində Osmanlı, İngilis müstəmləkəsi, Jermen, Sovet İttifaqı dövlətləri, habelə Amerika və Hind federal imperatorluqları meydana gəlmişdir.

1648-ci ildə bağlanılan "sülh müqaviləsi" nəticəsində meydana gəlmiş və bu günlər bir çox dövlətlər üçün örnək olan milli dövlətçiliyi, tarix boyu fəaliyyət göstərən dövlətlərdən biri hesab etmək olar.

Dövlət və hökumətlərdə baş verən dəyişikliklər, hal-hazırda da davam etməkdədir və bu dəyişikliklər bəlkə də gələcəkdə böyük birliklərə səbəb olacaqdır.

Dövlətlərdə baş verən dəyişikliklər və bu dəyişiklərə təsir göstərən qüvvələr, siyasət elmində araşdırılır. Dövlətlərin meydana gəlməsi, habelə onlarla əlaqəli olan nəzəriyyələr, məhz siyasət elmi çərçivəsində araşdırılır. Bu səbəbdən də siyasət, tarixi baxımdan qədim, müasir və gələcək dövlətlər çərçivəsində müzakirə olunur. Nəzəri baxımdan siyasət elmlərində dövlət və dövlətçilik barədə söhbət açılır. Burada dövlət nəzəriyyələri, hökumət, qanun vericilik, habelə dövlətin meydana gəlmə səbəbləri, onun fəlsəfə və fəaliyyətlərinə geniş yer verilərək, onların hər biri haqqında geniş söhbət açılır. Cəmiyyət üzvlərinin siyasi səhnədə ifa etdikləri rol, dövlət və hökumətlərin meydana gələrək göstərdikləri fəaliyyətlər və əhali ilə hökumət arasında olan münasibətlər burada müzakirə olunduğu üçün siyasət, bir elm kimi bir çox sahələri əhatə etməyə başlamışdır.

Bir çox mövzuları əhatə etdiyi üçün də, politoloqlar siyasət elminə müxtəlif təriflər vermişlər. Üç amerikan alimi deyir: "Siyasət elmini, dövlətçilik elmi və ya dövlətin quruluş terriyası ilə əlaqəli olan sosialogiya elminin bir qolu kimi də tərif etmək olar"[2]. Əbdül Həmid Əbul Əhəd özünün "Siyasət elmlərinin əsasları" adlı kitabında yazır: "Siyasət elə bir elmdir ki, müxtəlif dövr və

[1] Qədim Yunanda bütün məntəqələr mərkəzi şəhərləri ilə birlikdə "şəhərlər dövləti"ni təşkil edirdi (sity-state). Aten şəhər dövlətlərindən biri olmuşdur.

[2] Əbdül Həmid, Əbul Əhəd "Siyasət elmlərinin əsasları", 1-ci cild, 7-ci çap. Tus nəşriyyatı, Tehran, 1376-cı il, 23-cü səh

məkanlarda qüdrətin (ölkə və dövlət) əlaqələrinin bütün çətinliklərini əhatə edib, ondan necə istifadə etməyi və hansı səmtə istiqamətləndirilməli olduğunu göstərir"[1]. Göründüyü kimi siyasət elminin mövzusu, verilən ilk tərifdə "dövlət"[2], ikinci tərifdə isə "qüdrət"[3] kimi mənalandırılmışdır.

Əlbətdə, bu iki məfhum (qüdrət və dövlət) arasında sıx bağlılıq vardır. Belə ki, qüdrət olmadığı bir yerdə hökumət və siyasət heç bir məna və məfhum kəsb etmir. Qüdrət, siyasətin təyin, icra, açıqlanma və formalaşmasının ən başlıca ünsürünü təşkil edir. Buna görə də, Rassel, Hans Morkent, Harvel Lassel və Maks Veber kimi mütəfəkkirlər, qüdrəti, siyasətin ən başlıca məfhumu hesab etmişlər[4]. Alimlərin başqa bir qismi isə, siyasəti belə tərif etmişlər: "Siyasət, insan, partiya və qruplar, ictimai birliklər, ölkələrarası və ya ölkələr daxilində əlaqələr yaradan sülhməramlı və ya qeyri-sülhməramlı məsələlərə rəhbərlik edən bir qüdrətdir"[5].

Ümumilikdə götürsək, verilən təriflər ya dövlət və onun quruluşu ətrafında dövr edir ya da məsələyə daha dərindən nəzər salıb, millətin siyasi əks əməlini, ölkənin daxilində baş verən siyasi keşməkeşləri, siyasi fəaliyyətlər nəticəsində əldə olunan nəaliyyətləri, habelə beynəlmiləl səviyyəni diqqət mərkəzində saxlayır. Bir sözlə dövlət və qüdrət, siyasət elminin əsas mövzusunu təşkil edir.

Son dövrlərdə dövlət və siyasətin məna və məfhumu bir qədər dəyişilmiş və başqa məna daşımağa başlamışdır. Məsələn, professor Katlin belə bir fikirdədir ki, siyasi qüdrət dedikdə, mümkün qədər çox qüdrət əldə etmək üçün qrup, birləşmə və ictimai təbəqələr arasında gedən ixtilaf və keşməkeşlər nəzərdə tutulur. Belə bir nəzəriyyəyə əsasən, dövlət bir qüdrət stimulu kimi ictimai qüvvələrin bir-birləri ilə toqquşması nəticəsində meydana gəlir və bunun üçün də biz onu "qüdrət və qüvvə birliyi" də adlandıra

---

[1] Həmin mənbə

[2] State

[3] Power

[4] Alim Əbdürrəhman, "Siyasət elminin əsasları", 3-cü çap, Ney nəşriyyatı. Tehran, 1376-cı səh, 28-ci səh

[5] Həmin mənbə

bilərik. Beləliklə siyasət elmini, "cəmiyyətdə formalaşmış qüdrət elmi" kimi tərif etməli olacağıq.

Bu, olduqca ümumi bir tərifdir. Çünki, bəzi cəmiyyətlər kifayət qədər qüdrətə malik olmalarına baxmayaraq, dövlət kimi tanınmırlar. Qəbilə və sülalələri buna misal çəkmək olar. Onlarla yanaşı, cəmiyyətdə qüdrətli ordu, təsir və nüfuz, əqidə, sərvət, şan-şöhrət, ictimai mövqe və sair formalarda da müşahidə etmək olar.

Belə ki, onlardan bir qismi siyasi mahiyyətə malik, digərləri isə ondan məhrumdurlar. Bəzən siyasət yalnız qüdrətlə əlaqəli olmur. Belə ki, bəzən ictimai rifah kimi ümumi xarakter danışmalı olur. Bu səbəbdən, siyasət elminə daha geniş tərif vermək lazımdır.

Siyasət elmi sosioloji elmlərinin bir qolunu təşkil edir. O, vahid formada dövlət və hökumətin mahiyyət və mənşəyini, təkamül və inkişafını, habelə onun müxtəlif formalarını dəqiqliklə araşdırır, hədəf, quruluş və iş strukturunu ortaya çıxarır. Bütün bunlarla yanaşı siyasət elmi, dövlətlərarası və cəmiyyət üzvləri arasında bərqərar olunan əlaqələrə diqqət yetirib, onların mahiyyətini üzə çıxarır.

* * * *

## *(1-2) SİYASƏT ELMİ İLƏ DİGƏR ELMLƏR ARASİNDA OLAN ƏLAQƏLƏR*

Müxtəlif elmlər, xüsusilə də humanitar elmlər müştərək mövzuya, bir-birlərinə oxşar xüsusiyyətlərə malik olmaqla yanaşı, bir-birlərinin təkmilləşdirilməsində də böyük rol oynayırlar. Onlardan hər birinin özünəməxsus baxışı olsa da, bəzən aralarında ixtilaf və ziddiyyətlər də meydana gəlir.

Elmin bəzi şaxələri digər sahələr arasında bir növ vasitəçi rolunu oynayır. Bunun üçün də bəzən elə bir məsələlərə toxunulur ki, digər sahələrdə də həmin mətləb barədə fikir irəli sürülmüş olsun. Demək, bütün elmi sahələr istər sadə və ya mürəkkəb, istərsə də humanitar və ya texniki, bir-birləri ilə sıx əlaqəli və həmahəng olurlar.

Siyasət elmi sadə olsa da, digər elmi sahələrlə eyni xüsusiyyətə malik olub, humanitar elmlərə daxil olduğu üçün digər humanitar elmlərlə sıx əlaqədə olur. Tarix, iqtisadiyyat, coğrafiya, hüquq, sosiologiya, əxlaq və statistika elmlərini buna işarə etmək olar. İndi

isə, siyasət elmi ilə onlardan bəziləri arasında olan əlaqələr haqqında söhbət açaq.

### *(1-2-1) SİYASƏT ELMİ VƏ TARİX*

Siyasətlə tarix arasında olduqca sıx əlaqə mövcuddur. Can Seyli bu haqda deyir: "Siyasət elmi olmadan tarix, tarixdə olmadan da siyasət elmləri heç bir məna və məfhum kəsb etmir." Bunun isə səbəbləri artıq məlumdur. Çünki, siyasət elminin bünövrəsi tarixdə baş vermiş hadisə və yaranmış cərəyanlar nəticəsində qoyulmuşdur. Belə ki, tarix keçmişdə baş vermiş hadisələrin mahiyyət və səbəblərini axtarıb üzə çıxarır və bizə məlumat dairəmizi daha da genişləndirməyə imkan verir. Tarix, müxtəlif dövlət və cərəyanların meydana gəlib göstərdiyi fəaliyyətlər haqqında söz açır və siyasət elminin meydana gəlməsinə lazımi şərait yaradır.

Lazımi şəraitlər isə aşağıdakılardan ibarətdir:

1-Keçmiş zamanlarda meydana gəlmiş dövlət və hökumətlərin keçdikləri təkamül mərhələləri, fəaliyyət, tətbiq etdikləri qanun və nizamnamələr barədə kifayət qədər məlumatlara yiyələnməli;

2-Siyasət elminin qanun və nizamnamələrini tətbiq və tənzim etmək üçün lazımi təcrübələr əldə etməli;

3-Siyasi rəftar və tərzi-təfəkkürün məhdudiyyətlərini, habelə keçmiş zamanlarda siyasətin əldə etdiyi müvəffəqiyyət və uğradığı məğlubiyyətləri biruzə verməli.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, siyasət tarixə böyük ehtiyac duyur. Lakin bu ehtiyac qarşılıqlı xarakter daşıyır. Siyasət elmi, tarixi hadisələrin əsasında baş verən təkamül qanunlarının təməlini qoymağa qadirdir. Bununla yanaşı o, tarixi cərəyanların mahiyyətini, habelə onların hansı istiqamətdə aparıldığını özündə əks etdirir. Məsələn, götürək iki qonşu ölkə olan Hindistan və Pakistanın son yüz illik tarixini. Bu dövr bizə bir çox mühüm hadisələrdən xəbər verir. Onlardan biri də budur ki, həmin dövrdə bu iki ölkədə azadlıq uğrunda ingilis istemarına qarşı mübarizə aparılmış və bütün bu hadisələr siyasi milliyyətçiliyin təsiri altında baş vermişdir.

Göründüyü kimi, tarixlə siyasət arasında sıx bağlılıq vardır və onlar baş verən hadisə və cərəyanların səbəb və mahiyyətlərini

aşkara çıxarmaqda bir-birlərinə yaxından köməklik edirlər. Daha dəqiq desək, biri digərinə ehtiyac duyur.

### *(1-2-2) SİYASƏT ELMİ VƏ SOSİOLOGİYA*

Ağacla budaq arasında hansı bağlılıq və əlaqə varsa, sosiologiya elmləri (ictimaiyyət) ilə siyasi elmlər arasında da həmin əlaqə mövcuddur. Yəni siyasət elmi, ictimaiyyət elmlərinin bir hissəsi, ictimaiyyət elmləri də öz növbəsində humanitar elmlərin bir hissəsini təşkil edir. Cəmiyyətin quruluş və xüsusiyyətlərini araşdıran sosiologiya elmi, ictimaiyyət elmlərinin əsasını təşkil edir. İctimai bir varlıq kimi insan müxtəlif rəftar və fəaliyyətlərə malik olur. Onun barəsində ayrı-ayrılıqda və eləcə də, ümumilikdə də söhbət açmaq olar.

İctimaiyyət elmi, insanın bütün ictimai məsələlərinə xüsusi diqqət yetirib onun mahiyyəti, meydana gəlmə və digər sahələri haqqında da geniş söhbət açır. Burada həmçinin iqtisadi, dini, siyasi məsələlərə də toxunulur və ictimai təbəqələr, onların şüur və tərzi-təfəkkür səviyyəsi geniş şəkildə araşdırılır və müxtəlif dərəcələrə bölünür. Bir haldakı, siyasət "dövlət" adını öz üzərinə götürərək cəmiyyətin yalnız siyasi məsələlərini araşdırır, bu səbəbdən də siyasət, insanın siyasi həyatından bəhs edən ictimaiyyətə xas olan bir elmdir. İctimiyyət elmi, ictimaiyyətin xüsusiyyətlərini araşdırdığı bir halda, siyasət ona fərd kimi nəzər yetirir. İctimaiyyət elmi müxtəlif ictimai qurumlardan, siyasət isə onun yalnız "dövlət" adlı bir qolundan söhbət açır. İctimaiyyət elmi böyük əhatə dairəsinə malikdir. Bu səbəbdən də onun siyasi yönümünü, yalnız siyasət elmi təşkil edir. Lakin bütün bunlarla yanaşı, bu iki elmi sahə bir-birlərinə yaxından köməklik edirlər. Məsələn, siyasi elmlər ictimaiyyətə dövlətin quruluş, fəaliyyət, tətbiq etdiyi qanunlar, mənşə və meydana gəlməsi haqqında dəyərli məlumatlar verir və eyni zamanda, özü ictimai qanunlara ehtiyac duyur. Bir çox sahələrdə onlar bir-birlərini təkmilləşdirir və ehtiyacları qarşılıqlı olaraq aradan qaldırılır. Professor Qidinqez bu haqda deyir: "Siyasi elmlər fakultəsinin tələbələri öz elmi işlərini, ictimai məsələləri mütaliə etməklə başlamalıdırlar. Çünki, ictimaiyyətin ibtidai məsələləri ilə tanış olmayan şəxsin dövlət nəzəriyyəsini öyrənmək istəməsi, Nyutonun

hərəkət qanununu bilmədən, astronomiya və ya termodinamika elmlərinə yiyələnməsi kimi bir şeydir."

Bu səbəbdən də, hər bir siyasətçi alim eyni zamanda sosioloq, sosioloq da öz növbəsində siyasətçi olmalıdır.

Bu iki elm arasında bütün bu yaxınlıqların olmasına baxmayaraq, müəyyən fərqlər də vardır:

1-İctimaiyyət elminin mövzu və əhatə dairəsi daha geniş və çox şaxəlidir: Çünki, ictimaiyyət bir elm kimi insanın həyatının bütün sahələrinə şamil olur. Bir haldakı, siyasət yalnız insanın özü tərəfindən meydana gəlmiş siyasi məsələlər və siyasi baxımdan formalaşmış cəmiyyət haqda söhbət açır;

2-Cəmiyyət dövlətdən əvvəl meydana gəldiyi üçün ictimaiyyət elmi də siyasət elmindən əvvəl fəaliyyət göstərməyə başlamışdır. İnsan, siyasətçi olmazdan əvvəl, ictimai varlıq olmuşdur;

3-Siyasət, insanın siyasi bir varlıq olduğunu fərz edir, lakin ictimaiyyət bunun səbəblərini, insanın siyasi həyatının sair cəmiyyət və təşkilatlardan necə mütəəssir olduğunda açıqlayır;

4-İctimaiyyət, tarixdəki həqiqi ictimai orqan və təşkilatları, siyasət isə keçmiş, gələcək və hal-hazırki dövlətlər və siyasi təşkilatların vəziyyətini təhlil və mütaliə edir.

Lakin necə olursa-olsun, hər iki sahə qarşılıqlı olaraq bir-birlərinə təsir göstərir. Aparılan yeni ictimai mütaliələr isə, siyasi tərzi-təfəkkürə daha çox təsir bağışlayır.

### *(1-2-3) SİYASİ ELMLƏR VƏ İQTİSADİYYAT*

İqtisad, keçmiş zamanlarda dövlətçiliyin bir hissəsini təşkil etmiş və "Siyasi iqtisadiyyat" adını daşımışdır. Klassik iqtisadiyyatın atası kimi şöhrət tapmış Adam Smit, özünün "Sərvət və millətlər" adlı kitabında yazır: "İqtisadiyyat iki mühüm mövzu haqqında söhbət açır:

1-Camaatın gəliri kifayət qədər təmin olunmalı;

2-Əldə olunan kifayət qədər gəlirdən istifadə edərək, ümumi rifahı yaxşılaşdırmalı və cəmiyyətə xidmət etmək üçün lazımi tədbirlər görülməli".

Onun fikrincə siyasi iqtisadiyyat, əhali və hakim təbəqənin varlanma yollarını göstərir. Müasir iqtisadiyyat bu elmin siyasətdən

ayrı olduğunu hesab edir, lakin bununla belə, bir neçə halda onunla müştərək xüsusiyyətə malik olmalı olur. İqtisadiyyat, dörd mühüm hissədən - insanların ictimai rifahını araşdırmaq, istehsal, mübadilə və istehsal olunmuş malların yayılmasından ibarətdir. Onların hər biri digəri ilə müştərək xüsusiyyətə malik və bununla yanaşı, həmin müştərək məsələ həmçinin müştərək nəzəriyyə əsası fəlsəfənin diqqət mərkəzindədir. [iqtisadiyyat dörd mühüm hissədən ibarətdir: istehsal, bölgü, mübadilə və istehlak]

İqtisadiyyatla siyasət isə bir-birləri ilə aşağıdakı hallarda əlaqəli olur:

1-İqtisadiyyat və siyasi əmin-amanlıq;

İqtisadi fəaliyyətə yalnız siyasi əmin-amanlığın bərqərar olduğu bir şəraitdə nail olmaq olar. Belə ki, hərci-mərclik və qanunsuzluq daim iqtisadi fəaliyyətin qarşısını alıb, ümumi rifaha nail olmağa maneə törədir.

2-İqtisad və ümumi rifahın yaxşılaşdırılması;

Sağlam həyat və ictimai təbəqələrin yaşayış səviyyəsini yaxşılaşdırmaq, hər bir dövlətin qarşısına qoyduğu ən başlıca məqsədlərdən birini təşkil edir. Məhz bu səbəbdən, dövlətlər iqtisadi məsələlərə müdaxilə edir və bu sahədə müxtəlif tədbirlərə əl atırlar. Məsələn, qiymətlər gözlərilmədən qalxdıqda, dövlətlər müxtəlif yollara əl atır və yaranmış böhran vəziyyətindən çıxmağa çalışırlar. Onlar ya iş vaxtını artırır, ya yeni qanunlar tətbiq edir, ya da şəraitdən asılı olaraq, digər lazımi yollar axtarıb tapırlar. Əslində yeni dövlət, ictimai rifah dövlətidir.

3-Məsrəf, iqtisadi mübadilə və bank sistemi.

Bu günlər. yeni yaranmış dövlətlər bütün iqtisadi fəaliyyətlərdə o cümlədən pul, qiymət, bank sistemi və s. məsələlərə bir başa nəzarət edirlər. Böyük həcmli pulun əllərdə olması, milli iqtisadiyyat üçün ciddi təhlükə yaradan infilyasiya və qiymətlərin armasından xəbər verir. Bunun üçün dövlət infilyasiya və qiymətlərin artmasının qarşısını almaq məqsədilə, pul dövriyəsi, eləcə də malların istehsalı (və ya istehsalat) və satışına (və ya istehlaka)ciddi nəzarət edir.

Dövlətlər, xüsusilə də geridə qalmış ölkələrdə [və ya inkişaf etməkdə olan ölkələr (İEOÖ)] istehsal və əkinçiliyi bank sisteminin köməyi ilə genişləndirməyə çalışırlar.

İqtisadiyyat ilə siyasətin bir-birləri ilə əlaqəli olmasına səbəb olan amillərdən biri də, bir tərəfdən istehsal olunmuş malların və xidmətin bərabər şəkildə bölünüb göstərilməsi, digər tərəfdən də milli sərvət pula çevrilərkən (mübadilə) baş verir. Pul vahidinə çevrilməsi də milli sərvətin ya xammal, ya emal olunmuş məhsul kimi istehlak olunmasından sonra baş verir] və gəlirin cəmiyyət üzvləri arasında ədalətli bölüşdürülməsidir. Bölgü və xidmətin bərabər şəkildə aparılması üçün dövlət bütün bunları öz nəzarəti altında saxlamalıdır, məsələn, kapitalizm iqtisadiyyatında istehsal olunmuş mal cəmiyyət üzvləri arasında ictimai bərabərsizliyə səbəb olduğu bir tərzdə bölünür və bunun nəticəsində təbii olaraq ictimai inqilablar və siyasi iğtişaşlar meydana gəlir. Sosializm və komunizmin siyasi və iqtisadi fəlsəfəsinin, habelə Çin və keçmiş Sovet İttifaqı, kommunist və sosialist dövlətlərin meydana gəlməsinə səbəb olan ən başlıca amillərdən biri də, məhz bu olmuşdur.

İqtisadiyyat ilə siyasətin bir-biri ilə əlaqəli olmasına səbəb olan amillərdən biri də, istehsal olunmuş malların və ya mənfəətin bölüşdürülməsidir. Burada bir-birinə zidd olan iki nəzəriyyə mövcuddur: sosiolizm və kapitalizm nəzəriyyəsi.

Sosializm nəzəriyyəsinə görə, istehsal olunmuş mal və ya mənfəət cəmiyyət üzvləri arasında bərabər bölüşdürülməlidir. Lakin kapitalistlər bu nəzəriyyəni rədd edirlər. Onlara görə, istehsal olunmuş malların və ya mənfəətin bölüşdürülməsi, hər bir cəmiyyət üzvünün sərf etdiyi əmək müqabilində, ədalətli bölüşdürülməlidir. Onlar ədalətli bölüşdürməni "Əməyə görə Bölgü Qanunu"na əsaslandırırlar.

Kapitalizm iqtisadiyyatında istehsal olunmuş malların bölgüsü ictimai bərabərsizliyə səbəb olduğu üçün təbii olaraq, ictimai inqilablar və iğtişaşlar meydana gəlir. Bu amil bəzi kapitalist iqtisadiyyatı olan ölkələrdə (məsələn, Çin, Sovet İttifaqı) iqtisadiyyatın sosializmə keçməsinə səbəb olmuşdur. Lakin nəzərdən qaçırmaq olmaz ki, sosializm iqtisadiyyatında yaranan və onun tənəzzül olmasına səbəb olan amil, məhz bu sahədə - istehsal olunmuş malların bölüşdürülməsi və bu bölüşdürmənin cəmiyyət üzvləri arasında bərabər aparılması olmuşdur]

Keçmiş zamanlarda cəmiyyətdə belə bir tərzi-təfəkkür hökm sürülmüşdür ki, ölkənin iqtisadiyyatı, hökmən onun qanun və nizamnaməliyinin təsir və nəzarəti altında olmalıdır. Eyni zamanda belə bir əqidəyə malik olmuşlar ki, hər bir ölkə və ya dövlətin siyasi quruluşu, onun yaşayış və iqtisadi vəziyyətini özündə əks etdirir. Hətta sosializmin banisi olan Karl Marks belə, tarixin iqtisadi və siyasi cəbr məsələsini ortaya atmışdır. O, belə bir əqidədə olmuşdur ki, hər hansı bir cəmiyyətin iqtisadi şəraiti, onun ictimai-siyasi quruluşunu müəyyən edir. Bu nəzəriyyə iqtisadiyyatla siyasət arasında olan bağlılıq və əlaqəni açıq-aşkar üzə çıxarır. Hal-hazırki cəmiyyətlərdə də hər iki sahə bir-birlərinə qarşılıqlı təsir göstərir. Məsələn, dövlət qiymətlər barədə hər hansı bir qərar qəbul etdikdə, istər-istəməz cəmiyyətdə infilyasiyaya təsir göstərməli olur. Belə bir şəraitdə camaat dərhal əks-əməl göstərdiyi üçün dövlət məcburiyyət qarşısında məsələyə yenidən nəzər salmalı olur. Hətta infilyasiyaya səbəb olmadıqda belə, istehsal, ixracat və sair məsələlərə görə müəyyən dəyişikliklər edə bilər.

İqtisadiyyatla siyasət arasında olan əlaqələr günbəgün genişlənir və digər sahələrə də təsir göstərməyə başlayır. Məsələn; işçi qüvvəsi, istehsal və satış, ixracat və idxalat, pul və bank sistemi, qiymət və gəlir, sərmayəçi və qoyulan kapital, infilyasiya və büdcə gəliri, qiymətlərə nəzarət, ölkənin sənayeləşdirilməsi, əkinçilik və heyvandarlığın mexanizmləşdirilməsi, ümumi mülkiyyətdə əsaslı dəyişiklər aparılması, yer mülkiyyəti, istehsal alətləri və bu kimi bir çox sahələr iqtisadiyyatla siyasətin təsiri altına düşdüyü üçün bir başa dövlətin nəzarəti altına düşür.

### *(1-2-4) SİYASƏT VƏ COĞRAFİYA*

Siyasətlə coğrafiya arasında da qarşılıqlı əlaqələr vardır və onlardan hər biri digərinə öz təsirini göstərir. Siyasi elmlərlə coğrafiya arasında olan bağlılıq coğrafiyanın, siyasi coğrafiya və geopolitologiya kimi sahələrinin köməyi ilə meydana gəlir. Coğrafiya, insanın onu əhatə edən mühitə olan münasibətindən və bu münasibətdən əldə olunan nəticə barədə söhbət açır. İnsanın təbii mühit və insani amillərə qarşı göstərdiyi siyasi əks-əməl isə, siyasət elminin əhatə dairəsində müzakirə olunur. Siyasətdə nəzərdə tutulan

məsələlərin böyük bir hissəsi coğrafi mahiyyətə malik olur. Həmçinin coğrafiyada da nəzərdə tutulan məsələlərin böyük bir hissəsi siyasi mahiyyətə malik olur. Göy və göy cisimlərinə aid olan dəyişikliklərin əksəriyyəti, habelə insan və mühitin qarşılıqlı əks-əməllərinin böyük bir hissəsinin, ölkə və dövlətlərin rəftar və gəldikləri qərarlarla əlaqəlidir. Milli qüdrət və mövqeiyyət, milli müdafiə və əmin-amanlıq, beynəlxalq əlaqələr, dövlətlərin müharibə kimi göstərdikləri əks-əməllər, milli birlik, ictimai rifah, dövlət quruluşu, ətraf mühitin qorunması, iqtidarı gücləndirmək, yer və hava sərhədlərinin qorunması, məhəlli və beynəlmiləl həmrəylik kimi məsələlər daim həm siyasət, həm də coğrafiyanın diqqət mərkəzində olur və əslində bu iki elmin müştərək nöqtəsini təşkil edir. Siyasət yuxarıda qeyd olunan məsələləri araşdırmaqda istər sabit olsun, istərsədə dəyişkən, bütün coğrafi ünsürlərə ehtiyac duyur. Coğrafiya da öz növbəsində varlıqları təhlil etmək, insanla ətraf mühit arasında olan əlaqələri, dövlətlərin quruluş və tərkib hissəsini onun qəbul etdiyi qərarları və göstərə bildiyi təsiri arayıb-araşdırmaq üçün siyasətə böyük ehtiyac duyur. Məsələn, hər hansı bir millət və məntəqə sakinləri dövlət və hökumətin istər sadə olsun, istərsə də mürəkkəb, meydana gəlməsinə, hökumətin siyasi rəftar və davranışı da öz növbəsində həmin millətin ictimai quruluşuna və onun oxşarlığının az və ya çox olmasına öz təsirini göstərir. Bu dəyişikliyin özü də yenidən hökumətin özünə örnək götürdüyü sahəyə də təsir bağışlayır. Dövlət və hökumətin quruluşuna nəzər saldıqda bir daha məlum olur ki, coğrafiya ilə siyasət arasında sıx bağlılıq vardır.

Coğrafi amillərdən biri kimi qeyd olunan amillərdən biri də mövqeiyyətdir. Belə ki, hər hansı bir ölkənin malik olduğu coğrafi mövqe, onun digər ölkələrlə sıx əlaqələr yaradıb siyasi əks-əməl nəticəsində qüdrət baxımından zəifləmə və güclənməsinə səbəb ola bilər. Məsələn, iki qüdrət arasında yerləşən hər hansı bir coğrafi mövqe müxtəlif əks-əməl göstərə bilər. Çünki, bütün bu əks-əməllər, hökumətin siyasi quruluşundan və idarəetmə sistemindən asılıdır. Dövlət bitərəf və fəal əks-əməl göstərməklə, öz mövqeiyyətini qüdrətə çevirərək, beləliklə öz milli təhlükəsizliyini təmin edə bilər.

Başqa bir dövlət isə özünü siyasi səhnədən uzaqlaşdırıb, fəaliyyətsizliyi ilə özünü başqa dövlətlərdən asılı vəziyyətə sala bilər.

### *(1-2-5) SİYASƏT VƏ PSİXOLOGİYA*

Psixologiya insanın zehni bacarığı, onun fərdi və ya kütləvi rəftar və davranışları haqqında söhbət açır. Habelə, həmin rəftar və davranışların səbəblərini açıqlayıb ayrı-ayrılıqda izah edir. İctimai psixologiya isə insanın ictimai münasibətləri haqqında söhbət açır.

Psixologiya insanın siyasi faliyyətləri ilə əlaqəli olan münasibətlərini siyasi elmlərin ixtiyarına qoya bilər. Götürək, insanların (istər namizəd olsun, istərsə də adi səs verən) seçkilər zamanı təbliğat və rəy sorğusunda biruzə verdikləri rəftar və davranışlarını. Əslində bütün bunlar barədə psixoloji təhqiqatlar aparılmalıdır. Bu sahədə təhqiqat aparmış psixoloqlar siyasətçilərin ixtiyarına dəyərli məlumatlar qoymuşlar. Onlar məhz bu təhqiqatlar əsasında ümumi rəyi özlərinə cəlb edib, camaatın rəğbətini qazana bilərlər. Bunun üçün də məhz belə bir üsuldan istifadə edərək, hər hansı bir millətin rəftar və davranışlarını əvvəlcədən təyin etmək olar. Millətin rəftar və davranışları din, ictimai və iqtisadi məsələlərlə, fərdi ruhiyyə və nümayəndə olaraq seçilmiş şəxslərin cismi və fiziki xüsusiyyətləri ilə formalaşa bilər. Nümayəndələrdə camaatın ehtiyac və tərzi-təfəkkürü ilə tanış olmaqla, apardıqları təbliğatlarda onların rəy və rəğbətini qazana bilərlər. Siyasətçilərin ən başlıca məqsədi, tutduqları mövqeiyyəti qoruyub-saxlamaq olduğu üçün bu mövqeiyyəti, qüdrət və hakimiyyətə meyilli olan şəxslərin ixtiyarına qoymaq məqsədilə, demokratiyanın geniş şəkildə yayıldığını və camaatın fəal iştirakını nəzərə alaraq, onların razılığını mümkün qədər çox qazanmağa çalışmalıdırlar. Onlar ictimai psixologiya və cəmiyyətin siyasi tərzi-təfəkkürü ilə yaxından tanış olduqları üçün qüdrət əldə edib, bir müddət ona arxalana bilərlər. Əlbətdə diqqət yetirmək lazımdır ki, bu kimi hallarda heç də hər zaman camaatın siyasi tərzi-təfəkkürü hər şeyi həll etmir. Belə ki, iqtisadi qüdrət bu kimi şeylərdə öz təsirini göstərib, həlledici rollardan birini oynayır. Çünki siyasi tərzi-təfəkkürün təbliğ və öz yerini tapması iqtisadi mənbələrin təmin olunmasına böyük ehtiyac duyur.

Sonda bunu da qeyd etmək lazımdır ki, siyasət humanitar elmlərinin hüquq, əxlaq, idarəetmə və sair sahələri ilə sıx əlaqəli və onlardan ayrılmazdır. Lakin biz burada bununla kifayətlənib, bu əlaqələrin hər biri haqqında ayrı-ayrılıqda söhbət açmırıq. Maraqlananlar əlavə məlumatlar əldə etmək üçün siyasət elminin əsasları barədə təlif olunmuş digər kitablara müraciət edə bilərlər.

## *(1-3) DÖVLƏT VƏ ONUN QURULUŞU*

Dövlət kəlməsi iki məna daşıyır:

Onlardan biri müəyyən quruluşa malik olan ümumi məna ifadə edir. Bu məna siyasi coğrafiyada müstəqil ölkə müqabilində işlənilir. Lakin siyasi elmlər və hüquq kimi sahələrdə müstəqil ölkə və ya dövlətin quruluş ünsürü, siyasi coğrafiyada nəzərdə tutulan ünsürdən qat-qat aşağıdır. Yəni siyasi coğrafiyada bu ünsürlər siyasət və hüquq sahələrində nəzərdə tutulan ünsürlərlə iştirak etməklə yanaşı, bir çox başqa ünsürlərə də malikdir və onlar yalnız siyasi coğrafiyada diqqət mərkəzində olur və biz növbəti fəsillərdə onlar barədə ayrı-ayrılıqda söhbət açacağıq. Dövlət kəlməsinin daşıdığı ikinci məna, yəni hökumət və ölkənin siyasi təşkilatı birinci mənadan məhdud olmaqla yanaşı, daim siyasət və hüquq sahələrinin əsas mövzularından birini təşkil etmişdir. Belə bir ünvan hökumətin tərkibində olan icraedici orqana da verilmişdir. İngilis dilli ölkələrin bəzilərində dövlət yerinə, hökumət kələməsindən istifadə olunur. Burada isə dövləti təşkil edən ünsürlər barədə ayrı-ayrılıqda izahatlar vermək istəyirik[1].

[1] Iranda hökumət və dövlət kəlmələri bir-birlərinin yerində istifadə olunur. Bəlkə də bu söz ilkin adlandırılmalardan irəli gəlmişdir (Belə ki, dövlət sözü state, hökumət sözü isə GOVERNMENT kimi tərcümə olunmuşdur. Lakin dövlət sözünün GOVERNMENT, hökumətin isə state kimi tərcümə olunmaları daha məqsdə uyğundur).

## *(1-3-1) DÖVLƏTİ TƏŞKİL EDƏN ÜNSÜRLƏR*

Bir qədər əvvəl qeyd etdik ki, dövlət özünün ümumi mənasında quruluş ünsürləri - siyasi coğrafiya, hüquq və siyasət baxımından fərqli olan müstəqil ölkə mənasında işlənilir. Burada yalnız hüquq və siyasətin diqqət mərkəzində olan beş ünsür barədə söhbət açacaq, digər ünsürlərə isə siyasi coğrafiya bölümündə işarə edəcəyik.

**1-Ərazi**

Ərazi, dövlət və hökumətin səlahiyyətini özündə əks etdirən hər hansı bir siyasi-coğrafi əraziyə deyilir. Belə ki, o burada lazımi qanun və nizamnamələr tətbiq edib, əməli olaraq icra və ondan boyun qaçıran şəxsləri cəzalandıra bilsin. Bunun üçün ərazisiz dövlət heç bir məna və məfhum kəsb etməyir.

Hal-hazırda yer kürəsi 200 siyasi-coğrafi məntəqəyə bölünmüş və onların hər biri onları digər məntəqələrdən ayıran müəyyən siyasi sərhədlərə malikdir. Bu sərhədlər quru, dəniz və havada təyin və bütün ölkələrin razılığı ilə dəqiqliklə müəyyənləşdirilir. Hər bir dövlət (ya hökumət) öz əhatə dairəsində müxtəlif səlahiyyətlərə malik olur. O, öz təbii sərvətlərindən bəhrələnir, iqtisadiyyat və ictimai rifahı yaxşılaşdırmaq məqsədilə, müxtəlif tədbirlərə əl atır və digər dövlətlərin müdaxiləsi olmadan istədiyi qərarları qəbul edir.

* * * *

**2-Cəmiyyət**

Dövlətin əsasını təşkil edən ikinci ünsür cəmiyyətdir. Müştərək xüsusiyyətləri səbəbindən bir-birləri ilə əlaqəlidirlər. Dövlət və hökumət, cəmiyyət və millət olmadıqda heç bir məna və məfhum kəsb etməyir. Belə ki, sakin və əhalisi olmadığı üçün Antarktida qitəsində nə bir dövlət var, nə də hökumət. Bunun üçün də digər dövlətlər onu öz aralarında bölmüş və hal-hazırda şərikli olaraq oradan istifadə edirlər.

Mühüm məsələlərdən biri də cəmiyyətin, yerli əhalinin həmin əraziyə hakim olan dövlətə tabe olmasından ibarətdir. Onlar yalnız belə bir şəraitdə ictimai, siyasi, iqtisadi hüquqa malik ola bilərlər.

**3-Hökumət**

Dövlətin əsasını təşkil edən üçüncü mühüm ünsür, Hökumət və siyasi idarəetmədir. Hökumət sərhədləri müəyyən olunmuş ərazi də

millətin siyasi formalaşması nəticəsində meydana gəlir və öz qanuni fəaliyyətini həmin məntəqənin əhalisindən alır. Hökumət, millətin işlərini idarə edən siyasi bir təşkilatdır. Onun üzərinə düşən digər vəzifələrdən biri də, ictimai ədaləti və coğrafi bərabərliyi təmin edib, milləti yadelli dövlətlərin təhlükəsindən qorumaqdır. O, millətin ehtiyaclarını aradan qaldırıb, maddi və mənəvi təkamülünü, yəni milli təhlükəsizliyini təmin etməlidir.

Hökumətlər müxtəlif quruluşa malik olurlar. Coğrafi baxımdan onlar sadə, federal, məhəlli və ya hər hansısa bir məntəqəyə xas olan hökumətlərə bölünürlər. Quruluş və mahiyyət baxımından da onlar bir-birlərindən fərqli xüsusiyyətlərə malik olurlar. Dünyanın bir çox ölkələrinə hakim olan respublika, Böyük Britaniya krallığı, demokratik, Səudiyyə Ərəbistan səltənəti, İran İslam respublikasının dini hakimiyyəti, diktatorluq, sosializm, faşizm, və anarxiya hakimiyyət üsullarını buna misal çəkmək olar.

Dövlət kabineti, ordu və məhkəmə bütün dövlətlərin müştərək sahələrini təşkil etsə də, bütün bunlara baxmayaraq, onların hər biri özünə məxsus quruluş və idarəetmə strukturuna malik olur.

**4-Hakimiyyət**

Hakimiyyət, istiqlaliyyət və milli iqtidarı əks etdirən bir ünsürdür. Başqa sölə desək, hakimiyyət hər hansısa bir dövlətin ondan güclü və ya eyni səviyyədə olan dövlətlərin kənarında müstəqil olaraq istədiyi qanunları tətbiq edib, milli mənafelərini qoruyub-təmin edə bilməsinə deyilir. Lakin belə bir tərif əsasən istemarçı ölkələri hakimiyyət hesab edə bilmərik. Hərçənd bəzən müstəqil ölkələr də digər ölkələrin nüfuzu altına düşərək, öz azadlıqlarından məhrum olurlar.

**5-Rəsmi tanınma**

Bu ünsür hüquqi və etibar baxımından əhəmiyyət kəsb edir və bu səbəbdən də sair ünsürlər kimi həlledici rol oynamayır. Onun təkmilləşdirici xüsusiyyətinə yalnız dövlətin quruluşda diqqət yetirilir. Çünki, əgər hər hansı bir müstəqil dövlət digər dövlətlər tərəfindən tanınmadıqda, təklənib olduqca ağır şəraitlə üzləşmiş olur. Siyasi, iqtisadi, ictimai və mədəniyyət baxımından bir-birlərindən asılı olan millət və dövlətlər qarşılıqlı olaraq bir-birlərinin ehtiyaclarını aradan qaldırır və qarşılaşdıqları çətinlikləri

həll edirlər. Bunun üçün də sair dövlətlər hər hansı bir dövləti rəsmi olaraq tanımadıqda, onunla əlaqə yartmaqdan imtina edir və onu bir çox çətinliklərlə qarşı-qarşıya qoymuş olur. Bu səbəbdən də təkmiləşdirici xarakter daşıyan tanışlıq ünsürü, hər bir müstəqil dövlətə beynəlmiləl səhnədə öz uğurlu addımlarını atmağa yaxından köməklik edir.

### *(1-3-2) DÖVLƏTİN MƏNŞƏYİ*

Dövlət və hökumətin mənşəyi haqqında adətən irəli sürülən nəzəriyyələr iki hissəyə - zehni və tarixi nəzəriyyələrə bölünür.

Zehni nəzəriyyələr aşağıdakılardan ibarətdir:

1-İlahi iradə nəzəriyyəsi;

2-Güc və zorakılıq nəzəriyyəsi;

3-İctimai qərardad nəzəriyyəsi.

### *A) İLAHİ İRADƏ NƏZƏRİYYƏSİ*

Qədim zamanlardan bəri haqqında söz açılan nəzəriyyələrdən biri də, dövlətin mənşə və meydana gəlməsinin Allahın istək və iradəsindən asılı olması ilə əlaqəlidir. Bu nəzəriyyəyə əsasən, dövlət Allah tərəfindən yaradılmış, Onun hakim nümayəndəsi də yer üzərindədir. Hakim təyin etdiyi şəxsin verdiyi hökmlər də Onun əmr və qanunları ilə tamamilə müvafiq olmalıdır. Ona tabe olmaq vacib, verdiyi hökmlərdən boyun qaçırmaq isə günah hesab olunur.

Nəzəriyyə sahibləri həm dini rəhbərlər, həm də padşah və hakimlər olmuşlar. Padşahlar daim öz hakimiyyətlərinin qanuni olduğunu sübuta yetirməyə və bu yolla camaatı özlərinə tabe etməyə çalışmışlar. Bu kimi hakimlər həm müsəlmanlar, həmdə digər dinlərə mənsub olan millətlər arasında hökmüranlıq etmiş və din rəhbərlərinin köməyi ilə hakimiyyətlərinin qanuni olduğunu sübuta yetirməyə çalışmışlar.

İslam dini bu nəzəriyyəni qəbul etmiş və hakimin hansı şəraitdə təyin olub və nə kimi xüsusiyyətlərə malik olmalı olduğunu əvvəlcədən müəyyən etmişdir. Dini rəhbərlər, dünyəvi rəhbərliklə yanaşı, cəmiyyətin mənəvi və ruhi rəhbərliyini də öz üzərlərinə götürmüşlər. Nisa surəsinin 59-cu ayəsində onlara tabe olmağın

vacibliyi beləcə bəyan olunur: *"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!".*

İslam dini (xüsusilə də şiə məzhəbi) baxımından, qeyri-dini hakimlərin rəhbərliyə heç bir hüquq və səlahiyyəti çatmır və cəmiyyətə rəhbərlik edən şəxslər əslində din rəhbərlərinin çıxardıqları hökmlərin icraçısı hesab olunurlar.

* * * *

*b) Güc və zorakılıq nəzəriyyəsi*

Bu nəzəriyyəyə əsasən dövlət zorakı güclülərin gücsüzlərə göstərdikləri təziqlər nəticəsində meydana gəlmişdir. Belə ki, onlar güc və qüdrətdən məhrum olan şəxsləri özlərindən asılı vəziyyətə salaraq, dövlət qurmuş və bunun, tamamilə qanuni olduğunu sübuta yetirməyə çalışmışlar. Qəbilə, dövlət və güclü ictimai təbəqələri buna misal çəkmək olar.

*v) İctimai müqavilələr nəzəriyyəsi*

Siyasi təşkilatın meydana gəlməsi üçün ictimai birlik və həmrəyliklə birgə olan bu nəzəriyyə ictimaiyyətin təbii halda iğtişaş və hərci-mərcliyə düçar olduğu halda meydana gəlmişdir. Yaranmış belə bir şəraitdə cəmiyyət üzvləri bir yerə toplaşaraq, cəmiyyəti idarə etmək üçün vahid siyasi təşkilatin yaradılmasının zəruriliyini müzakirə etmişlər və bu siyasi təşkilat sonralar dövlət və ya hökumət adlandırılmağa başlamışdır. Bu nəzəriyyənin tarixi kökləri olub qədim Rum və Yunanıstana qayıtsa da, son dövürlərdə Habez, Lak və Russo kimi mütəfəkkirlər məhz belə bir əqidəyə əsaslanmışlar. O şəxslər ki, irəli sürdükləri nəzəriyyələr uzun müddət Avropaya hakim olmuşdur.

Tarixi dövlət nəzəriyyələri isə bunlardan ibarətdir;

*a) Təbii dövlət nəzəriyyəsi;*

Bu nəzəriyyə Aristotel tərəfindən irəli sürülmüşdür. Belə bir tərzi-təfəkkürə əsasən, dövlətin əsası insanların təbii ehtiyacları ilə əlaqəli olur. Çünki, dövlətin meydana gəlməsinin ən başlıca fəlsəfəsi, insan və insanın fizioloji ehtiyacları əsasında meydana gələn ailənin ehtiyaclarını aradan qaldırmaqdan ibarətdir. O da cəmiyyətlərin bütün ehtiyaclarını aradan qaldıra bilmədiyi üçün dövlət və hökumətin mövcud olması zəruri bir hala çevrilir, belə çıxır ki, dövlət cəmiyyətlərin bütün bu ehtiyacları ödəyə bilmədiyi üçün

dövlət və hökumətin mövcud olması zəruri bir hala çevrilir. Dövlət mövcud olduğu bir halda, "dövlətin mövcud olması zəruriliyi" uyğun gəlmir. Bu fikir bu cür ola bilər ki, cəmiyyət təkbaşına öz ehtiyaclarını ödəyəbilmə qüdrətinə malik olmadığı üçün dövlət və hökumətin mövcud olmasını zəruri bir hala çevrilir]

*b) Dövlətin varislik nəzəriyyəsi*

Bu nəzəriyyəyə əsasən, dövlət ailənin genişlənməsi nəticəsində meydana gəlir. Yəni vahid bir ailə bir neçə hissəyə bölünərək, getdikcə genişlənmişdir. Belə olduqda, bu böyük ailəyə daha dəqiq desək sülaləyə, yaşlı bir şəxs rəhbərlik etməyə başlayır. İlkin olaraq qəbilə başçıları qadınlar olmuş və bu səbəbdən belə bir rəhbərlik matriarxat üsul adlandırılmışdır. Bir çox hallarda isə kişilər rəhbərlik etdikləri üçün belə bir rəhbərlik patriarxat üsul adlandırılmışdır. Bəzən də bu sülalələr müəyyən məntəqədə məskunlaşmış qəbilə və tayfalara çevrilmiş və beləlik də, dövlətin meydana gəlməsi üçün münasib şərait yaranmışdır.

*v) Dövlətin tarixi təkamül nəzəriyyəsi*

Doktor Karnerin fikrincə, dövlətlər nə Allah tərəfindən, nədə zorakılıq və ailələrin genişlənməsi nəticəsində meydana gəlmişdir. O, dövlətlərin meydana gəlməsinin ən başlıca səbəbini, insanın ictimai təkamülündə görür. İctimai təkamüldə payı olan ən başlıca amillər isə bunlardan ibarətdir:

1-Qohumluq əlaqələri;

2-Din və məzhəb;

3-Sehr və cadu;

4-Malikiyyət və iqtisadi təbəqələrin meydana gəlməsi;

5-Müharibə və zorakılıq;

6-Zirəklik və siyasi bacarıq;

Yeni dövlətlərədək bütün ilkin dövlətlər qeyri-münəzzəm təkamül mərhlələrini ötüb keçmişlər. Dövlətlərin tədrici təkamülünü isə aşağıdakı hissələrə bölmək olar:

*1-"İlkin imperatorluqlar"*

Bu imperatorluqlar qəbilə dövlətlərinin patriarxat və ya matriarxat formasında yarandıqdan sonra meydana gəlmişdir. İlk dəfə olaraq belə bir imperatorluqlar şərqdə yaranmışdır. Sumeriya,

Aşuri, İran, Misir və Çinlilərin imperatorluqlarını buna misal çəkmək olar.

*2-İlkin şəhərlər dövləti*

Bu dövlətlər ilk dəfə olaraq Egey dənizinin sahilində və Balkan yarmadasının müxtəlif məntəqələrində meydana gəlmişdir. Bu məntəqələrin təbii şəraiti sükunət yerlərinin bir-birlərindən ayrı düşmələrinə səbəb olmuş və nəticədə, yarımadada məskunlaşmış qəbilələr dövlət halına çevrilmişlər. Qədim Afina və Spartada yaranmış dövlətləri buna misal çəkmək olar. Yunanlılar yaranmış bu kiçik dövlətləri "polis" adlandırardılar. Onlar adətən yüksəkliklərdə möhkəm qalalar qurar və təhlükə ilə üzləşdikdə oraya pənah aparardılar. Bu şəhər və ya polislərin hər biri təbii şəraiti (adanın coğrafi mövqeiyyəti) nəzərə alaraq, ümumi sığınacaq yerini möhkəmləndirmək üçün əhatə dairələrini genişləndirməyə çalışardılar.

*3-Rum imperatorluğu*

Rumlular çox gözəl idarə olunan imperatorluq təsis etməyə nail olurlar və bunun üçün bir sıra qanun və nizamnamələr yazıb, əməli olaraq onları icra etməyə başlayırlar. Onlar birlik olmadan demokratiyanı əldə edən yunanların əksinə olaraq, siyasi birliyə demokratiyanı qurban verməklə nail olurlar.

*4-Feodal hökuməti*

Feodal hökumətin dəqiq tarixi bizə bir o qədər də bəlli deyildir. Lakin bəlli olan budur ki, o Rum imperatorluğunun süqutundan və daxili hərc-mərclik yarandıqdan sonra meydana gəlmişdir. Rum imperatorluğuna qarşı çıxan nisbi azadlıq və muxtariyyata malik olan qəbilələr, ixtiyarlarında olan əraziləri ən başlıca gəlir mənbəyi hesab edirdilər. Yaranmış belə bir şəraitdə böyük mülkədarların rəhbərlik etdikləri qüdrətlər meydana gəlir. Mülkədarların torpaqlarından istifadə edən əkinçilər isə onların tam tabeçiliyində idilər. Feodallara gəldikdə isə onlar dövlətin meydana gəlməsinə böyük maneə yaradırdılar.

*5-Yeni dövlət*

Feodalizm genişləndikcə və latın dili öz yerini məhəlli dillərə verdikcə, müxtəlif millətlərin yaşadıqları ərazilər bir-birlərindən fərqlənməyə və milliyyətçilik hissi özünü biruzə verməyə başlayır.

Eyni zamanda, şəhərlər inkişaf edərək genişlənir və ticarət daha geniş vüsət halı tapmağa başlayır. Yeni-yeni ixtiralar olunur və protestant hərəkatının köməyi ilə camaat arasında dini inqilab baş verir. Fərdi və ümumi tərzi-təfəkkür getdikcə güclənir və vətən sevgisi qəlblərdə özünə yer etməyə başlayır. 1648-ci ildə İngiltərədə baş verən inqilab İngiltərənin özündə, Fransa və İspaniyada dövlət və dövlətçiliyin yeni məfhumunun meydana gəlməsinə səbəb olur. Orta təbəqənin meydana gəlməsi və ümumi kütlənin siyasi azadlıq və demokratiya istəyi, tədriclə dövlətlərin güclənməsinə gətirib çıxarır. İndinin özündə də müstəqil ölkələrin bir çoxunu məhz belə bir hakimiyyət üsulu idarə edir və hal-hazırda bu müstəqil ölkələrin sayı iki yüzə çatır.

## *(1-4) DÖVLƏT QURULUŞU*

Dövlət, qüdrətlərin ayrılması nəzəriyyəsinə əsaslanan üç hissədən ibarətdir. Aristotelin zamanında qədim Yunanda siyasi mütəfəkkirlər hökumətin ixtiyarında olan qüdrətləri üç hissəyə bölmüşlər;

1-Qanunverici (və ya qanunları tənzimedici qüdrət);

2-İcraedici (icraçı qüdrət);

3-Məhkəmə.

Onlardan hər biri isə özünə məxsus quruluşa malik olur.

XVİİİ əsrin görkəmli fransız mütəfəkkiri Mentesyu, fərdi azadlıq və hüquqları müdafiə etmək məqsədilə, qüdrətin ayrılma nəzəriyyəsini müdafiə edən ilk şəxs olmuşdur. Onun dövründə Fransaya zalım və sitəmkar padşahlar hökmüranlıq edirdi. Lakin İngiltərə heç də bu vəziyyətdə deyildi. Monteskyu İngiltərədə olduğu müddətdə orada Fransadan fərqli olaraq camaatın fərdi azadlıqdan bəhrələndiyini və onlara dövlət tərəfindən heç bir zorakılığın tətbiq olunmadığını müşahidə edir. Gördüyü şəraitdən mütəəssir olaraq o, 1748-ci ildə özünün "Qanunular ruhu" adlı məşhur əsərində qüdrətlərin ayrılma nəzəriyyəsini geniş şəkildə şərh edir. O, irəli sürdüyü bu nəzəriyyədə hökumətin üç əsas qüdrətinə, yəni qanunvericilik, icraedici və məhkəmə sisteminə işarə edərək, fərdi azadlığa nail olmaq üçün bu üç qüdrətin və ya onlardan ikisinin fərd və ya kütlənin ixtiyarına qoyulmamasına təkid edir.

Çünki, bütün bunlar zorakılıq və diktatorluğa gətirib çıxarır. Monteskyu qüdrətlərdən birinin digəri ilə birləşməsini nəzərə alaraq, bütün fərdi azadlığa zərbə vura biləcəyini açıqlamış və buna görə də, qüdrətlərin bir-birlərindən ayrı olmalarını zəruri hesab etmişdir. Sonralar İngilis və Amerikan mütəfəkkirləri də Monteskyunun irəli sürdüyü bu nəzəriyyəni dəstəkləmiş və qüdrətlərin bir-birlərindən ayrı olmalarının zəruriliyinə təkid etmişlər. Xüsusilə də ona görə ki, bu nəzəriyyə fərdi azadlığın zəruriliyə və onun müdafiə olunmasına xüsusi diqqət yetirmişdir. Monteskyunun irəli sürdüyü bu nəzəriyyə, Amerika cəmiyyəti və İngilis istemarçılarına qarşı mübarizə aparmalarına böyük təsir qoymuşdur. Onlar İngilis istemarını yaxından hiss edir, onun ağrı və acılarını dadmalı olurdular. Həmin dövrdə icraedici qüvvə ilə qanunverici qüvvələr arasında ardı-arası kəsilməyən ixtilaf və qarşıdurmalar müşahidə olunurdu və bütün bunlar təbii olaraq onları narazı salırdı. Buna görə də, hökuməti idarə etmək üçün bu iki qüdrəti bir-birindən ayırmağı ən uğurlu addım hesab etmişlər.

Məhz bu səbəbdən, Monteskyunun irəli sürdüyü bu nəzəriyyə federal dövlətin konstitusiyasına böyük təsir qoyur və Amerika bu qanunu təsdiq etdikdən sonra qeyd olunan teoriyanı əməli olaraq icra etməyə başlayır. Əlbətdə, bu heç də qüvvələrin tam mənada bir-birlərindən ayrılması demək deyildi. Bəlkə əksinə olaraq, onlar bir-birlərinə qarşılıqlı təsir göstərməyə başlayırdı. Qüvvələrin ayrılma nəzəriyyəsi özünün bəzi çatışmamazlıqlarına baxmayaraq, hökumətin siyasi quruluşuna böyük təsir göstərə bilir və özünü demokratik ölkələrin konstitusiya qanunlarında əks etdirərək özünəməxsus yer tapa bilir. Bu prinsip, respublika ölkələri ilə yanaşı İngiltərə (inqilabdan əvvəl), İran, Tayland və s. şahənşahlıq ölkələrində qanunun diqqət mərkəzinə çevrilirdi.

### *(1-4-1) QANUNVERİCİLİK*

Qanunverici, verilən yeni-yeni qanunlarda müdaxilə etmək hüququna malik olan xüsusi dövlət orqanına deyilir. Bu orqan fərdin bütün cəmiyyət üzvlərinin, habelə dövlətin rəftar və davranışlarını müəyyən edərək cəmiyyəti fərdin ictimai hüquqlarının qorunması və

təkamülə doğru qədəm qoyması üçün nəzm, intizama doğru sövq edir.

Müxtəlif ölkə və cəmiyyətlərdə qanunvericiliklə əlaqəli olan orqanlar müəyyən oxşarlıqlara malik olsalarda, bəzi məsələlərdə bir-birlərindən fərqli və müxtəlif xüsusiyyətlərə malik olurlar.

Bir çox ölkələrdə fəaliyyət göstərən mühüm qanunvericilik orqanlarından biri də, ölkənin Milli Məclisidir. MM camaat tərəfindən seçilmiş nümayəndələrdən ibarət olur və onların sayı hər bir ölkənin qanun çərçivəsində müəyyənləşdirilir. Dövlət tərəfindən gündəliyə salınmış və ya nümayəndələrin özləri tərəfindən irəli sürülmüş təkliflər burada müzakirə olunur və yetkin qərara gəldikdən sonra MM-in ümumi yığıncağına təqdim olunur. Nəzərdə tutulan məsələ qəbul olunduqda, qanunvericilikdən başqa daha yüksək orqan olmadıqda, qərarın qəbul olunduğu dövlətə xəbər verilir.

İkinci qanunverici orqan MM-in qəbul etdiyi qərarlara nəzarət edir. Bu orqanın iş funksiyası müxtəlif ölkələrdə adətən bir-birindən fərqli olur. Bəzi ölkələrdə bu orqanlara "Senat", bəzilərində isə "Lordlar Palatası" deyilir. Orqan üzvləri isə, ya dövlətin bir nömrəli şəxsi (prezident, baş nazir və s.) tərəfindən ya da digər yollarla seçilir. Bəzi ölkələrdə isə (xüsusilə federal ölkələrdə) onlar bərabər olaraq bütün əyalətlərdən seçilir və həmin bu şəxslər federal əyalətlər arasında olan əlaqələrin qorunub-saxlanılmasında mühüm rol oynayırlar.

Bu orqan bəzən qəbul olunmuş qərarlara yenidən nəzər salıb, onları araşdırmaq hüququna da malik olur. Qəbul olunmuş qərarları dini hökmlərlə müqaisə edib, onlara qarşı öz nəzərlərini bildirən orqanları buna işarə etmək olar. Məsələn, Pakistanda İslami ideolaji və İran İslam Respublikasında isə Nəzarətedici şura, MM-in qəbul etdiyi qərarların dini hökmlərlə və konstitusiya qanunları ilə həmahəng olub-olmadıqlarına nəzarət edib son nəticədə öz rəyini bildirir.

Üçüncü qanunverici orqan, sadə federal dövlətlərdə bir-birlərindən fərqli olan ayrı-ayrı məntəqələrə xas olan qanunverici orqanlardır. Federal dövlətlərin əyalət və məntəqələrində əhali tərəfindən seçilmiş nümayəndələrdən ibarət olan əyalət qanunverici

məclislərdə fəaliyyət göstərir. Onların üzərinə düşən ən başlıca vəzifə əyalətə məxsus qanunlar qəbul etməkdən ibarətdir. Sadə quruluşa malik olan dövlətlərdə məhəlli qanunları təsdiq etmək üçün iqtisadi, ictimai, abadlıq, mədəni və sair məslələrə dair qanun təyin edəcək dövlət funksiyasını daşıyan məhəlli orqan fəaliyyət göstərir. Bu orqanlar bəzən məhəlli şura, məhəlli təşkilat, məhəlli idarəetmə orqanı və s. ünvanlarla adlandırılır. Məntəqə sakinləri yaşadıqları kənd, qəsəbə, rayon və şəhər çərçivəsində məhəlli orqanlara üzv seçirlər. Şübhəsiz ki, bu orqanlar MM-dən tam asılı vəziyyətdə olub, onun tək müstəqil qanunvericilik hüququna malik olmurlar.

Ümumilikdə götürsək, qanunvericilik orqanın üzərinə müxtəlif vəzifələr düşür və onlar aşağıdakılardan ibarətdir:

*1-Qanunvericilik*

Üzərinə düşən ən başlıca vəzifə qanunları təsdiq və qüvvəyə mindirmək mindirməkdən ibarətdir.

2-Əsas qanuna yenidən baxış

Bir müddət keçdikdən sonra ölkələrin əsas qanunlarına yenidən baxış zərurəti qarşıya çıxır. Buna görə də qanunverici qüvvə əsas qanunu yoxlamaq və onda dəyişiklik aparmaq işi ilə məşğul olur; onu referendum və xalqın ümumi müzakirəsi şəklində həyata keçirir.

*3-Dövlət adamlarının təyin və çıxarılması*

Qanunverici orqan prezident, nazir və digər dövlət adamlarının təyin və çıxarılmasına müdaxilə edir və dövlət nümayəndələrinin rəy və təkliflərini nəzərə alaraq, onlar barədə fikir irəli sürür. Əlbətdə, ayrı-ayrı ölkələrdə bu iş bir-birlərindən fərqli olaraq, müxtəlif formalarda həyata keçirilir. Məsələn, İran İslam Respublikasında qanunvericilik orqanının bir hissəsi olan Nəzarət şurası, seçkilər zamanı üzərinə düşən vəzifələri yerinə yetirməli olur.

*4-İqtisadiyyata müdaxilə*

Dövlət gəlirinə nəzarət, illik büdcənin təyin olunması və iqtisadi, ictimai və mədəni tərəqqi yolunda atılan addım və görülən tədbirlər ölkənin qanunvericilik orqanının üzərinə düşən digər vəzifələrdən birini təşkil edir.

*5-Bəzi icra olunası işlərə müdaxilə*

Qanunverici orqanlar icra olunacaq işlərin bir qisminə müdaxilə etmək hüququna malik olurlar. Ölkənin beynəlmiləl təşkilatlara üzv olması, dövlətin maliyyə işlərinə nəzarəti, qəti qərar qəbul edən orqan və təşkilatlarda iştirak etməyi buna misal çəkmək olar.

*6-Mühakimə*

Qanunverici orqan Amerika və Fransa kimi ölkələrdə dövlətin yüksək vəzifəli icraçı şəxslərini mühakimə etmək hüququna malikdir.

*7-Təhqiq və araşdırma*

MM nazir və nazirliklərin göstərdikləri fəaliyyət və iş funksiyası, habelə dövlətin qarşılaşdığı böhran vəziyyətini təhqiq və araşdırma hüququna malikdir.

*8-Məlumatlandırma*

Qanunvericiliyə dair baxış və məlumatların genişləndirilməsi ən ömdə və zəruri məsələlərdən biridir. Bu səbəbdən qanunverici orqan ona lazım olan məlumatları genişlərdirmək məqsədilə, bu istiqamətdə addım atır. İran İslam Respublikasının İslam şurasını buna misal çəkmək olar. Qarşıya qoyulan bu məqsədə çatmaq üçün kompyüterləşdirilmiş informasiya və MM-in Təhqiqatlar Mərkəzi dövlət vəkillərinin məlumatlarını daha da genişləndirmək üçün müxtəlif mövzularda məqalə yazmağa və seminarlar keçirməyə başlamışlar.

### *(1-4-2) İCRAEDİCİ ORQAN*

İcraedici orqan dövlətin ixtiyarında olan qüdrətin böyük bir hissəsini təşkil edir. Tarix boyu aparıcı rol oynayan və tam şəkildə dövlətin qüdrət və gücünə nəzarət edən bu orqan, demokratiya genişləndikdən sonra məhkəmə və qanunvericilik orqanları ondan ayrıldıqları üçün öz funksiyasını məhdudlaşdırmalı olmuşdur. Maliyyə, idari məsələlər, nizam-intizam, təhlükəsizliyin təmin olunması və məlumatların əldə olunmasına nəzarət edən bu dövlət orqanı, digər sahələrə də öz təsirini göstərə bilir.

Halbuki, icraedici orqanda hegemon qurumların işləri qanuna salınmış və onlara zəmanət verilmişdir. Lakin, əmələ gəldikdə hegemon qurumlar tərəfindən sui-istifadə olunmuşdur.

İcraedici orqan dövlət strukturunun bir hissəsini təşkil edir və o iki hissədən yəni dövlət rəhbərindən (prezident) və baş nazirdən ibarətdir. İran və Amerika kimi ölkələrdə isə, hər iki vəzifəni dövlət rəhbəri yəni prezident idarə edir. İran İslam Respublikasında prezident qanunverici, icraedici və məhkəmə orqanlarını bir-birlərini həmahəng edən rəhbərliyin nəzarəti altında icraedici orqana rəhbərlik edir. Dünyanın bir çox ölkələri respublika və demokratik üsulla idarə olunurlar. Ölkəyə rəhbərlik edən prezident üçlük təşkil edən dövlət orqanlarını (yəni qanunvericiliyi, icraedici və məhkəməni) bir-birləri ilə həmahəng etməklə yanaşı, icraedici orqanda da üzərinə düşən vəzifələri yerinə yetirir. Prezident icraedici orqana daha çox meyl etdiyi üçün onun rəhbərlik etdiyi bu orqan digər sahələrə daha çox təsir göstərir.

İcraedici orqanın özü isə bir neçə təşkilatlardan ibarət olur:

*1-Nazirlər kabineti*

Müxtəlif nazirliklərdən ibarət olan bu orqan, cəmiyyətin idarə olunması, ehtiyaclarının aradan qaldırılması və dövlətlər arasında sıx əlaqələrin yaradılması və sö məsələləri öz üzərinə götürür və bütün bunlar icraedici orqanın qanunları çərçivəsində həyata keçirilir. Dövlət üzərinə düşən vəzifələrin öhdəsindən gəlmək üçün bütün nazirlik və təşkilatlarda idarəetmə üsulunu genişləndirməli olur. Qəbul olunmuş qanunları icra etməklə yanaşı, özü də qanunvericilik prosesində yaxından iştirak edir. Onun iştirakı isə, aşağıdakı iki halda mümkün olur:

1-Hər hansı bir layihəni təklif və təşkil etməklə nəzərdə tutulmuş qanun layihəsi parlamentə təklif olunur və onun əsasını qoyur.

2-Qəbul olunmuş qanunlar üçün nizamnamə hazırlayıb, onu təsdiq edir. Bu isə tək qanuni və siyasi xarakter daşımayıb, bəzən hətta qəbul olunmuş qanunları açıqlayır.

Əslində qanunvericiliyin mahiyyətini təşkil edən də məhz nizam-intizamın bərqərar olunmasıdır.

Nazirlər kabineti bir çox ixtiyarlara malik olsa da, qanunverici orqana tabe olur və bunun üçün də öz fəaliyyəti üçün parlamentdən etimad rəyi almalı olur.

Özünün qanuni fəaliyyətinə isə, yalnız millət vəkillərinin müsbət rəylərini aldıqdan sonra başlayır. Parlamentin etimadını

qazanmadıqda, onlar üzərlərinə düşən məsuliyyətlərdən dərhal kənarlaşdırılırlar.

*2-Ordu və müdafiə*

Böyük qüdrətə malik olan ordu, ölkənin təhlükəsizliyini təmin etmək və xarici təcavüzlərin qarşısını almaq məqsədilə təsis olunur. Orduya rəhbərlik və ondan istifadə isə, birbaşa ölkə başçısının öhdəsinə düşür. Çünki ordu icraedici orqanın bir hissəsini təşkil edir.

Ordudan istifadə qanuni olsa da, lakin nizam-intizamı bərqərar etmək məqsədilə, qiyam və çevrilişlərin yatırılmasında icraedici orqanın ixtiyarında olur. Belə bir istifadə qanuni olsa da, yadelli təcavüzkarların qarşısını almaq və təhlükəsizliyi təmin etmək məqsədi ilə yaradılmış ordunun iş funksiyası bir qədər fərqlənməyə başlayır. Bu kimi hallarda ordu özünün müdafiəetmə funksiyasını təhdükəsizliyi təmin etməklə, əvəz edərək tənəzzülə uğrayır.

*3-Kütləvi informasiya vasitələri (KİV)*

Cəmiyyətin dünya görüşü və tərzi-təfəkkürünün artmasına səbəb olan ən başlıca amillərdən biri də, kütləvi informasiya vasitələridir. Radio, televiziya, qəzet, jurnal və müxtəlif vasitələrlə yayımlanan elmi, iqtisadi, ictimai, siyasi və s. məlumatlar, ümumi kütlənin dünya görüşünü daha da genişləndirir və onlara daha sağlam tərzi-təfəkkürə yiyələnməyə köməklik edir.

KİV-in apardıqları təbliğatlar o qədər güclü olur ki, bir çox hallarda dövlət və dövlət orqanlarının məkirli niyyətlərini araşdırıb üzə çıxarır. KİV istər dövlətin olsun, istərsə də ayrı-ayrı şəxslərin, bir çox hallarda icraedici orqanın sui-istifadəsinə səbəb olur.

(1-4-3) *Məhkəmə*

Məhkəmə orqanının üzərinə düşən ən başlıca vəzifəsi, fərdi və ya ictimai hüquqları qorumaq, qanunsuzluğa yol verən şəxsləri müvafiq qanunlar çərçivəsində cəzalandırmaq və cəmiyyət üzvlərinin bir-birlərinə qarşı yürütdükləri ittihamların qarşısını almaqdan ibarətdir.

Məhz bu orqan sayəsində cəmiyyət üzvləri və cəmiyyətlə dövlət arasında olan münasibətlər daha da yaxşılaşaraq, öz adi axarına düşmüş olur. Başqa sözlə desək, qanun icra olunmaqla, cəmiyyətdə ictimai ədalət bərqərar olunmuş olur. İctimai ədalətin bərqərar olunması məhz məhkəmə orqanının üzərinə düşür.

Hər bir ölkənin məhkəmə orqanı öz hüquq və ixtiyarlarını həmin ölkənin konstitusiyasından, o da öz növbəsində qanunverici orqanın qəbul etdiyi qanunlardan götürür.

Məhkəmə, ictimai pozğunluqların qarşısını almaq üçün polis və onun tabeliyində olan digər təşkilatlardan istifadə etmək hüququna malikdir. Bununla yanaşı o, son anda icraedici orqanın tabeliyində olan təhlükəsizliyi təmin edən digər qüvvələrdən də kömək ala bilər.

Məhkəmə sisteminin özüdə müxtəlif vəzifələr icra edən ayrı-ayrı hissələrdən ibarət olur.

*1-Konstitusiya məhkəməsi*

Üzərinə düşən ən başlıca vəzifə, konstitusiyaya nəzarət və onu qorumaqdan ibarətdir.

*2-Ümumi məhkəmə*

Ümumi qanun pozuntuları barədə müvafiq hökm çıxarır.

*3-Mətbuat məhkəməsi*

Mətbuatda yol verilən qanun pozuntularına dair müvafiq hökmlər çıxarır.

*4-Ordu məhkəməsi*

Orduda yol verilən qanun pozuntularına dair müvafiq hökm çıxarır.

*5-Siyasi məhkəmə*

Siyasi qanun pozuntularına dair müvafiq hökm çıxarır. Bəzi ölkələrdə siyasi məhkəmə təhlükəsizlik komitəsinin nəzarəti altında olur.

*6-Sinfi məhkəmə*

Ticari məsələlərdə yol verilən qanunsuzluqlara dair müvafiq hökmlər çıxarır.

*7-Xüsusi məhkəmə*

Xüsusi hallarda təşkil olunur: İnqilab məhkəməsi, ailə məhkəməsi, yoldaşlıq məhkəməsi və s. məhkəmələri buna misal çəkmək olar.

*8-Hakimlər məhkəməsi*

Hakim və məhkəmə işçilərinin yol verdikləri qanun pozuntularına dair müvafiq hökmlər çıxarır.

*9-Müştərək məhkəmə*

Digər orqanlarla, xüsusilə icraedici orqanla birgə təşkil olunur və ictimai təhlükəsizlik kimi məsələlərə dair müvafiq hökmlər çıxarır.

*10-Tabeçilikdə olan digər təşkilatlar*

Cəmiyyət üzvlərinin hakimiyyət orqanlarından etdiyi şikayətlərə baxan Dövlət idarələri üzrə Ədalət Məhkəməsi və Dövlət Baş Nəzarət İdarəsini bu misal çəkmək olar.

Məhkəmə sistemi sair orqanların, xüsusilə də icraedici orqanın müdaxiləsi olmadan fəaliyyət göstərməlidir. Bu məsələ müxtəlif ölkələrdə bir-birlərindən fərqli olsa da, bir çox ölkələrdə məhkəmə və onun çıxardığı hökmlər dövlət və qeyri-dövlət partiya və siyasi qurumlarının təsiri altına düşür. Belə ki, bəzən siyasi partiya və qururmların arasında məhkəmədən hesabat aparıcı bir vasitə kimi istifadə olunur. Bu günlər isə, məhkəmə sisteminin üzərinə düşən vəziflərin icrasında əldə etdiyi müstəqilləyə xüsusi diqqət yetirmək lazımdır.

## *(1-5) SİYASİ PARTİYA VƏ QÜDRƏTLƏR*

Rəy və tərzi-təfəkkür, inam və etiqadların və cəmiyyət üzvlərinin bir-birlərindən fərqli olan təmayülü, cəmiyyətdə müxtəlif siyasi cərəyanların meydana gəlməsinə səbəb olmuşdur. Yaranmış belə bir şəraitdə millət müxtəlif ictimai quruplara bölünür və təbii olaraq, onların hər biri özünə məxsus tərzi-təfəkkür və siyasi amala tabe olmalı olur. Bu isə, cəmiyyətdə siyasi fəaliyyətə gətirib çıxaran və mürəkkəb qalmaqal və qarşıdurma ilə nəticələnən siyasi qüdrətlərin meydana gəlməsinə səbəb olur.

Hər hansı bir cəmiyyətin siyasi quruluşu, milli və ya məhəlli səviyyədə meydana gəlir. Milli səviyyədə olan siyasi qüdrətlər öz üzvlərini bütün ölkə boyu cəmiyyətin öz içindən seçdikləri üçün milli birliyə, onun möhkəmlənməsinə və cəmiyyət üzvlərinin ölkədən asılı olduqlarını dərk etmələrinə köməklik edirlər. Lakin bəzi siyasi qüdrətlər, hərəkət və dəyişikliklərdə olduqları müddətdə ya dövlətlə qarşı-qarşıya durur, ya müstəqillik, ya da dövlətin öz qüdrət və səlahiyyətini azaltma tələblərini irəli sürürlər. Başqa sözlə

desək, milli səviyyədə olan siyasi qüdrətlər, milli birliklə əlaqəli olaraq həmrəylik, məntəqə səviyyəsində olan siyasi qüdrətlər isə, bunun əksinə olaraq, pərakəndəlik xüsusiyyətinə malik olurlar. Əlbətdə, irəli sürülən tələblər heç də tam müstəqillik və mərkəzi dövlətdən ayrılmaq xarakteri daşımır. Sadəcə olaraq dövlətlə sülh və həmkarlıq şəraitində yaşayıb, daha çox azadlıq və məntəqələrə aid olan məsələlərin həll olunmasında onlara da müəyyən hüquqların verilməsini tələb edirlər. Belə bir vəziyyəti federal dövlətlərdə daha çox müşahidə etmək olar.

Aydındır ki, siyasi quruplaşmaların və cəmiyyətdə gizli və aşkar, rəsmi və qeyri-rəsmi təşkilatların meydana gəlməsi, siyasi iradənin yaranması üçün siyasi fəaliyyətləri özündə əks etdirir və ya özünün siyasi maraqlarını tətbiq edib nəzərdə tutduğu hakimiyyəti təsis etmək üçün ya siyasətlər üzərinə təsir qoyur, ya da siyasi mövqeyə malik olub, mühüm vəzifələri ələ keçirir.

Ümumilikdə götürsək, siyasi quruplaşmaları iki hissəyə bölmək olar:

1-Dövlətlə müxalif və ona qarşı mübarizə aparan siyasi quruplar;

2-Dövlətlə həmrəy olan siyasi quruplar.

Adətən, dövlətlər onlarla müxalif olan qruplaşmaların fəaliyyətinə dözməyib, onları oradan götürməyə çalışırlar. Yaranmış belə bir şəraitdə hər iki tərəf digərini məhv edib aradan götürmək istəyir. Dövlətlər onların havadarlarının kim olduğunu, harada və necə meydana gəldiklərini üzə çıxarıb əks təbliğat apararaq, ümumi münasibətin onlara qarşı mənfi olmasına çalışırlar. Mübarizə üsulları isə, dövlətlərin hakimiyyət quruluşundan fərqli olaraq qətl, edam, işgəncə, ictimai fəaliyyətdən məhrum etmək, terror və sair üsullarla aparılır. Dövlətlə müxalif olan siyasi qurumlar öz növbələrində terror, şayiələr yaymaq, üsyan və çevrilişlər etmək, ölkədaxili və xaricində dövlət əleyhinə əks-təbliğat aparmaq, ictimai və iqtisadi böhranlardan bəhrələnmək, gizli məktub və elanlar yaymaq və bu kimi digər üsullardan istifadə edərək dövlətin nüfuzunu azaldıb, onu camaatın gözündən salmağa çalışır. Müxalif siyasi qruplaşmalar qarşılarına qoyduqları hədəfə çata bildikdə, hakimiyyəti çevirib qüdrəti öz əlinə ala bilərlər.

Hal-hazırda, müxtəlif ölkələrdə qüdrəti əldə etmək üçün aparılan mübarizələrin şahidi oluruq və bütün bunlar son nəticədə qüdrətlərin yerbəyer olmaları ilə başa çatır.

İkinci hissəyə aid olan siyasi qüdrət və dövlət daxili qruplar adlanır. Bu kimi qruplar ayrı-ayrılıqda təşkilat halında gizli və ya aşkar, rəsmi və ya qeyri-rəsmi şəkildə fəaliyyət göstərir. Qarşılarına qoyduqları ən başlıca məqsəd isə, yalnız dövlətin siyasi qüdrətini ələ keçirib, ölkənin idarə olunması üçün təyin olunan siyasətə öz təsilərini göstərməkdədir. Onlar ölkənin qanun və siyasi struktrunu qəbul edir və qanun çərçivəsində öz məqsədlərinə çatmaq üçün dövlətlə qərəzli və ya sülhamiz rəqabət aparırlar. Əlbətdə, bəzi hallarda onların siyasi tələbləri ilə konstitusiya arasında ixtilaf və ziddiyyətlərdə meydana gəlir. Belə olduqda, onların fəaliyyəti dövlət tərəfindən pislənir və mənfi münasibət bəslənməyə başlanır. Son nəticədə isə, bu kimi qruplaşmalar ya öz fəaliyyətini dayandırır, ya da siyasətini yeni istiqamətə yönəldib, dövlətə müxalif qruplaşmalardan birinə çevrilirlər. Bunun əks tərəfi də baş verə bilər. Yəni müxtəlif səbəblər üzündən məsələn, müxalif siyasi qruplar qüdrət əldə etməklə, dövlətin onlara olan münasibəti tamamilə dəyişib, hətta hakimiyyətdə onlara yer belə verə bilər. Nikaraqua və Tacikistanda baş verənləri buna misal çəkmək olar. Dövlətlə siyasi qruplar arasında meydana gələn bu qarşıdurma başa çatmaya da bilər, lakin bu onların hər ikisinin zəifləyib və ya geriləməsinə səbəb ola bilər.

Siyasi qüdrətlərin özləri isə üç hissəyə bölünürlər:

1-Siyasi partiyalar[1];

2-Qruplaşmalar[2];

3-Təziqgöstərici qruplar[3].

### *(1-5-1) SİYASİ PARTİYALAR*

Siyasi partiyalar cəmiyyətin formalaşmış siyasi qüdrətini təşkil edir və eyni zamanda müasir və demokratik dövlətlərin ən bariz

---

[1] Political party

[2] Factions

[3] Pressure Groups

xüsusiyyətlərindən biri hesab olunur. Onlar ilk dəfə olaraq XİX və XX əsrlərdə İngiltərə və Amerikada meydana gəlmişlər.

Siyasi partiyaların meydana gəlməsi, cəmiyyətin müxtəlif qrupların siyasi formalaşmasına və rəsmi qüdrət əldə etmələrinə şərait yaradır. Siyasi partiyanın ən başlıca məqsədi, qüdrəti ələ keçirməkdən ibarətdir. Qüdrət dedikdə isə, ölkəyə rəhbərlik, baş nazir, müxtəlif nazirliklər və bu kimi yüksək vəzifələr nəzərdə tutulur.

Partiyanın rəhbər və mərkəzi komitəsinin üzvləri, onun siyasi yolunu təyin edir və partiyanın amal və ideologiyasına sadiq olan şəxslərin namizədliyini dövlət postlarını tutmaq üçün irəli sürür.

Bütün bunlarla yanaşı, seçkilərdə əhalinin rəy və rəğbətini qazanmaq üçün onlarla geniş şəkildə müzakirə və təbliğata başlayır. Məsələn, Pakistan kimi ölkələrdə prezident senat və qanunverici məclis tərəfindən seçilir. Lakin İran İslam Respublikasında və digər ölkələrdə prezident vətəndaşlar, ölkəyə rəhbərlik isə ruhanilərin təşkil etdiyi "xubrəqan məclisi"[1] tərəfindən seçilir. Əlbətdə, bütün bunlar siyasi formalaşmış, xüsusilə də demokratik ölkələrin əldə etdikləri nəticələrdir.

Bu kimi cəmiyyətlərdə qüdrəti əldə etmək üçün siyasi partiyalar arası rəqabət aparılır. Lakin Səudiyyə Ərəbistanı tək qeyri-demokratik, ya Birma kimi ordu tərəfindən idarə olunan və ya təkpartiyalı İraq, eləcə də sosialist və kommunist kimi ölkələrdə partiyalararası rəqabət və mübarizə heç bir məna və məfhum kəsb etmir.

Siyasi partiyaların müxtəlif tələb və dayaq nöqtələri olur. Onlardan bəziləri insanın təbiəti əsasında, cəmiyyətin adət-ənənələrinə sadiq qalaraq meydana gəlir. Məsələn, mühafizəkarlıq, təəssüb, azadlıqsevərlik və bu kimi hisslərə yiyələnmək, hər hansı bir siyasi partiyanın meydana gəlməsinə səbəb ola bilər.

Bəziləri isə yoxsul və varlıların, fəhlə sinfinin tərəfdarı olan partiyalar kimi, ictimai-iqtisadi fərq və ictimai təbəqələr arasında olan qarşıdurmalar əsasında meydana gəlir.

Siyasi partiyalar məntəqəyə xas olan xüsusiyyətlər əsasında da meydana gələ bilər. Kanadada meydana gəlmiş ingilis, fransız və ya

---

[1] Yüksək Mütəxəsislər Məclisi

müəyyən məntəqəyə xas olan kürd və puştun partiyalarını buna misal çəkmək olar.

Siyasi partiyaların başqa bir qismi isə, dinə və məzhəbə olan etiqad əsasında meydana gəlir. İrandakı "İslam" və Pakistanda fəaliyyət göstərən "İslami camaat", "Cəfəriyyə təhrik" [Cəfəriyyəyə təhrik] partiyalarını buna misal çəkmək olar.

Siyasi pariyaların başqa bir qismi isə kommunist fəlsəfi tərzi-təfəkkür və ideologiya əsasında meydana gəlir. İraq və Suriyyadakı "Bəs" partiyaları kimi. Bu partiyaların üzərinə bir neçə mühüm vəzifə düşür:

1-Millət və əhali arasında birliyi bərqərar etmək;

2-Siyasi rəqabətlər zamanı əhaliyə nəzəri, əməli və siyasi təlimlər vermək;

3-Əhali ilə dövlət arasında vasitə amillərini təmin etmək;

4-Əhalinin ümumi siyasi məlumatlarını genişləndirmək və seçki azadlığı üçün lazımi şərait yaratmaqla, demokratiyanın verdiyi nəticələri geniş şəkildə işıqlandırmaq;

5-Mətbuat, çıxış və yığıncaqlar vasitəsilə dövlətin buraxdığı səhvlərə irad tutmaq;

Bütün bunlar dövlət adamlarının ictimai məsələlərə etinasız olmalarının qarşısını almaqla yanaşı, tənqid olunmasınlar deyə, hər zaman gördükləri işləri diqqət yetirmələrinə və səhvə yol verməmələrinə səbəb olur.

6-Nüfuz sahibi olan qüdrətləri aşkara çıxarıb, onları cəmiyyətə tanıtdırmaq;

Çünki, partiyalar nüfuza malik olan bu kimi şəxslərlə yaxından tanış olmaqla, seçkilərdə vətəndaşlara daha layiqli şəxslərə səs vermələrinə köməklik edə bilərlər.

7-Ümumi əqidə və tərzi-təfəkkürü nizama salıb, vətəndaşların istək və arzularının həyata keçməsi üçün lazımi şərait yaratmalı, onlara milli və ümumi məsələlərin həll olunmasında müdaxilə etməyə köməklik etməli;

8-Qüdrəti ələ keçirib rəy toplamaq üçün sadiq nümayəndələrin namizədliyini irəli sürməli və rəqib partiyaların qüdrəti ələ keçirmələrinə mane olmalı.

Bütün bu tədbirlərlə yanaşı, siyasi partiyalar şəraiti nəzərə alaraq, ümumi mənafeyə səbəb olan işlərdə, ictimai məsələlərdə, partiyanın büdcəsini ödəmək üçün iqtisadi fəaliyyətlərdə, xüsusi nəşriyyənin buraxılmasında, kitabların çap və ya vətəndaşların ümumi məlumatlarının artırılmasında yaxından iştirak edə bilərlər. Ölkə və millətlər isə, siyasi partiyaların fəaliyyəti baxımından bir hissəyə bölünürlər:

*1-Partiyasız dövlətlər*

Şahlıq hakimiyyət üsulu ilə idarə olunan bu ölkələrdə heç bir siyasi partiya fəaliyyət göstərmir.

Fars körfəzinin şahlıq hakimiyyət üsulu ilə idarə olunan bəzi ərəb dövlətlərini buna misal çəkmək olar.

*2-Tək partiyalı ölkələr*

Onların özləri də iki hissəyə bölünürlər:

1-Vahid kommunist partiyası tərəfindən idarə olunan sabiq Sovetlər İttifaqı və Çin kimi ölkələr:

2-İraqdakı "Bəs" və inqilabdan əvvəl İranda bütün partiyalara Dirçəliş partiyasının fəaliyyətində məhdudlarşdıran Pəhləvi diktatorluğu kimi.

*3-İki partiyalı ölkələr*

Bəzi ölkələrdə iki qüdrətli siyasi partiya fəaliyyət göstərərək, hakimiyyəti əldə etmək üçün daim bir-birləri ilə mübarizə aparırlar. Əlbətdə, onlarla yanaşı digər siyasi partiyalarda fəaliyyət göstərə bilər, lakin nüfuz və qüdrət baxımından onlardan üstün ola bilməzlər. Respublikaçı və demokrat partiyalı ABŞ-ı, İşçi və mühafizəkar partiyalı İngiltərəni bu ölkələrə aid etmək olar.

*4-Çox partiyalı ölkələr*

Çox partiyalı ölkələrdə bir neçə siyasi partiya fəaliyyət göstərsə də, orada adətən bir, iki və ya üç siyasi partiya qüdrətə, nüfuza malik olur. Bu kimi ölkələrdə siyasi partiyalar daim bir-birləri ilə rəqabət apararaq, qüdrəti əldə etməyə can atırlar.

Siyasi partiyaların oxşarlıqlar, malik olduqları fərqlər və qüdrətin parçalanması bu kimi ölkələrdə adi hal hesab olunur. Türkiyə və Hindistan kimi çox partiyalı ölkələri bu ölkələrin sırasına daxil edə bilərik.

(1-5-2) *Qrup və dəstələr*

Onlar milli mənafe, dövlətin istək və tələblərinin müqabilində öz istəklərinə nail olmaq istəyən birləşmiş azad, lakin vahid təşkilat halında olmayan qruplaşmalardan müştərək əqidəvi, ideoloji, məhəlli və sinfi xüsusiyyətlər əsasında meydana gələ və ya hər hansı bir siyasi partiyanın bir hissəsini təşkil edə bilərlər. Bir sözlə, rəsmi siyasi partiyalar tək fəaliyyət göstərmirlər. Onlar bəzən dövlətlə qarşı-qarşıya durub, onun müxaliflərindən birinə çevrilə bilərlər Əlbətdə, onlar qüdrəti əldə edib çevirə belə bilərlər.

(1-5-3) *Təzyiqedici qruplar*

Onlar müxtəlif cəmiyyətlərdə fəaliyyət göstərən və ən başlıca məqsədi dövlətin siyasətinə təsir göstərmək olan rəsmi və qeyri-rəsmi, gizli və aşkar qruplaşmalardan ibarətdirlər. Təzyiqedici qruplaşmalar, qəbul olunan qərar və siyasəti öz mənafelərinə doğru istiqamətləndirər və ya onlara qarşı hər hansı bir qərarın qəbul olunmasına mane olarlar.

Milli mənafe haqqında çox az fikirləşən bu şəxslərin ən başlıca məqsədi, adətən yalnız sinfi mənafe təmin etmək olur. Qarşılarına qoyduqları məqsədə çatmaq üçün nüfuzlu şəxs və təbəqənin diqqətini özünə cəlb edər, mühüm dövlət orqanlarına nüfuz edər, elanlar paylayar, hədə-qorxu gələr, kimlərisə şirnikləndirər [rüşvət vasitəsilə satın alar], terror edər, mitinq, piket, küçəyürüşü keçirər, qərar qəbul edən şəxslərin diqqətlərini cəlb etmək üçün müzakirələr aparar və s. tədbirlərə əl atarlar. Beləliklə, təzyiqedici qruplaşmalar müştərək sinfi maneələrini müdafiə etmək üçün dövlətdən xaricdə və mədəni təşkilatlar çərçivəsində meydana gəlir və dövlət adamlarını yerbəyer etməklə, istədiyi hökmün icrası, islahat işlərinin aparılması və ümumi siyasətin tətbiq olunmasına nail olarlar. Sinfi təşkilatlar, iqtisadi və ictimai komitələri bu kimi qruplaşmalardan hesab etmək olar.

Təzyiqedici qruplaşmaların ən başlıca xüsusiyyətləri isə bunlardan ibarətdir:

1-Şəxsi mənfəət;

Qrup üzvləri şəxsi mənafeə xatirinə bir yerə toplaşır və onun uğrunda birgə fəaliyyət göstərirlər.

2-Gizli və ya aşkar siyasətə yiyələnmək;

Onların şəxsi mənafeləri ciddi təhlükə ilə qarşı-qarşıya gəldikdə, mübarizə aparmaq üçün gizli və ya aşkar üsullara əl atır və onlara dəyən xəsarəti aradan aparmağa çalışırlar.

3-Ümümilik;

Təzyiqedici qruplaşmalar bütün dövlət və cəmiyyətlərdə ümumdünya ictimai təşkilat kimi fəaliyyət göstərirlər. Bəlkə də, milli beynəlmiləl səviyyədə qeyri-dövlət təşkilatları[1] təzyiqedici qruplaşmaların bir hissəsini təşkil edir.

## *(1-6-) DÖVLƏTLƏRARASİ ƏLAQƏLƏR*

Öz ölkə və millətinin nümayəndəsi olan dövlətlər istər-istəməz bir-birləri ilə sıx əlaqələr yaratmalı olurlar. Bu əlaqələr qədim zamanlardan bəri qarşılıqlı ehtiyaclar əsasında bərqərar olunmuşdur. Ehtiyaclar isə, digər sahələrdə hiss olunsa da, adətən özünü yalnız iqtisadiyyat və ticarətdə biruzə verirdi. Keçmiş zamanlarda tacirlər öz mallarını bir ölkədən başqa bir ölkəyə aparar və beləliklə, qarşılıqlı ticarət əlaqələrinin meydana gəlməsinə lazımi şərait yaradardılar. Məsələn, İran tacirləri Şərqi Asiya tacirləri ilə Aralıq dənizinin sahillərində, cənubi Asiya tacirləri ilə ədəva, qiymətli daşlar, dəmir, paltar və s. şeylərin alqı-satqısını aparırdılar. Beləliklə, qitələrarası böyük quru və dəniz ipək yolları meydana gəlmişdir.

Müxtəlif millətlər arasında bərqərar olunan ticarət əlaqələri, onların bir-birləri barədə kifayət qədər məlumat əldə etmələrinə və bu məlumatların digər ölkələrdə yayılmasına, bütün bunlar isə, ölkələrarası siyasi əlaqələrin yaranmasına səbəb olurdu. Bu səbəbdən, dövlətlər bir-birləri ilə sıx əlaqələr yartmış və siyasi, mədəni, hərbi və s. sahələrdə birgə əməkdaşlıq etmişlər.

XVİ və XVİİ əsrlərdə İranda Səfəvi və Hindistan yarımadasına hakim olan Teymuri padşahlarının qeyd olunan sahələrdə etdikləri sıx əməkdaşlıqlarını buna misal çəkmək olar. Əlaqələr genişlənməklə, təbii olaraq dini və milli dəyərlər, mədəniyyət və adət-ənənələr də yayılmağa və geniş vüsət tapmağa başlamışdır. Belə ki, yeddi əsr əvvəl İranın dini və mədəni dəyərləri, Seyyid Əli

[1] Non-Govermental-Qrganization.

Həmədaninin və onunla birgə Kəşmirə səfər edən şəxslərin vasitəsilə ilk dəfə olaraq orada tanınmış və zaman keçdikcə, dərin köklər salmağa başlamışdır. Həmin cərəyan siyasi məmurlar, dini və ticari missionerlər tərəfindən Afrika, Asiya və Amerika qitələrində də təkrar olunmuş və beləliklə, məsihiyyət dini və Avropa mədəniyyəti həmin məntəqələrdə geniş şəkildə yayılmağa başlamışdır. Bütün bu proseslər isə millətlərin və onların ardınca da dövlətlərin bir-birlərinə yaxınlaşmalarına səbəb olmuşdur.

Dövlətlərarası əlaqələrə gəldikdə bilməliyik ki, dövlətlərarası əlaqələr heç də hər zaman sülh və dostluq şəraitində olmamışdır. Belə ki, tarix boyu dəfələrlə dövlətlərarası ixtilaf və münaqişələr baş vermiş və bu müharibələrin bəziləri tarixin qara səhifələrində qalaraq, sonralar da öz mənfi təsirini göstərmişdir.

Bu günlər dövlətlər arasında bərqərar olunan əlaqələri keçmiş zamanlarla müqaisə etdikdə, onun qat-qat artıq və çox şaxəli olduğunun şahidi oluruq. Belə ki, heç bir ölkə digər ölkələrlə əlaqə yaratmadan, təklikdə öz həyatına davam edə biləcəyinə heç cür zəmanət verə bilməz. Bunun üçün dövlətlərarası əlaqələr onların hər biri müəyyən müsbət xüsusiyyətə yiyələndikləri üçün istər-istəməz bərqərar olunur.

Dövlətlərarası qarşılıqlı münasibətlər bir çox hallarda iqtisadi, ticari, siyasi, mədəni, təhsil, elmi, sənət və müdafiə (hərbi) sahələrində daha çox genişlənmiş və vüsət halını tapmışdır. Zaman keçdikcə bu münasibətlər ya yaxşılaşmış, ya da əksinə olaraq, pisliyə doğru getmişdir. Qarşılıqlı həmkarlıq, yaxınlıq və uzaqlıq, sülh və müharibə, dostluq və düşmənçilik, dövlətlərarası iki müxtəlif münasibətlərdən xəbər verir. İki dövlət uzun müddət sülh və dostluq şəraitində yaşaya bilər, lakin hər hansı bir xarici və ya daxili cərəyan nəticəsində milli mənafenin təhlükə ilə üzləşdiyini görüb, bir-birlərinin qatı düşmənlərinə çevrilib, hər şeyi alt-üst edə bilərlər. Dövlətlərarası əlaqələr iki tərəfli surətdə bərqərar olunur və bu əlaqələr ümumilikdə qanun, müstəqillik və qarşılıqlı hörmət və ehtiram əsasında qurulur. Əlbətdə, bu heç də hər zaman belə olmur. Belə ki, bəzən əlaqələr bərabər olaraq dəyişilir və eyni səviyyəli əlaqələrə çevrilir və beləliklə birtərəfli əlaqə, hökmüranlıq və hökmüranlığa tabeçilik və ya asılı müstəqilliyə çevrilir. İEÖ-lə geridə

qalmış və ya İEOÖ arasında yaradılan əlaqələr, müstəqillik, şərəf və asayiş baxımından zəif ölkələri öz tabeçiliyində saxlayan İEÖ-in yaratdıqları birtərəfli əlaqələrdən xəbər verir. Sülh şəraitli ikitərəfli əlaqələr qarşılıqlı ehtiyac və münasibətlər əsasında meydana gəlir. Çox tərəfli əlaqələr isə, bir neçə ölkənin müştərək ehtiyac və ya müştərək təhlükə əsasında meydana gəlir. Belə bir əlaqələri, müştərək ölkələrin işlərini bərabər hüquq, ixtiyar və məsuliyyətlər əsasında idarə etmək üçün beynəlmiləl çərçivədə müşahidə etmək olar. XİX və XX əsrlərdə təsis olunmuş beynəlmiləl təşkilatlar bir o qədər də böyük tarix və təcrübəyə malik deyillər. Birinci və ikinci dünya müharibələrinin baş verməsi, bu təşkilatların təsis olunmasına səbəb oldu və hal-hazırda özünü ümumdünya işlərinin nəzarətçi və icraçısı hesab edən BMT, bu təşkilatların ən əhəmiyyətlisi hesab olunur.

Hal-hazırki dövrdə dövlət və millətlər bir-birlərinə qarşılıqlı ehtiyac duyub siyasi, iqtisadi, ictimai, mədəni, elmi, sənət və bu kimi sahələrdə əməkdaşlıqlarını genişləndirdikləri üçün, beynəlmiləl, ümumdünya və ya müəyyən məntəqələrə xas elan təşkilatlar günbəgün artmaqda və genişlənməkdədir. Bəzi nəzər sahibləri gələn əsri, beynəlmiləl təşkilatlar və milli dövlətlərin iqtidarının zəifləyəcəyi əsr olacağını hesab edirlər. Məsələn, Avropada milli dövlətlər öz ixtiyarlarını üzv olduqları beynəlmiləl təşkilatlara verir və beləliklə, milli iqtidarın nüfuz və qüdrətini azaltmış olurlar.

Konsulluq məmuriyyətləri diplomatiyadan daha qədim olsa da, ondan daha az əhəmiyyət kəsb edir. Müxtəlif şəhərlərdə fəaliyyət göstərən konsulluqların üzərinə aşağıdakı vəzifələr düşür: ölkə barədə mühüm məlumatlar əldə etmək, bazar tapmaq üçün ölkənin istehsal etdiyi mallar haqda məlumatlar vermək, yerləşdiyi və konsulluğunu qəbul etdiyi ölkələrin əhalisinə qarşılıqlı xidmətlər təklif etmək, fəaliyyət göstərdiyi ölkələrdə öz vətəndaşlarının hüququnu müdafiə etmək və s.

Səfirlik və Xarici İşlər nazirliklərində fəaliyyət göstərən diplomatların üzərlərinə düşən vəzifələr isə aşağıdakılardan ibarətdir:

1-Saziş və müqavilələrin bağlanması üçün iki və ya çoxtərəfli əlaqə və müzakirələrə lazımi şərait yaratmaq;

2-Ölkənin xarici siyasətinə təsir qoya biləcəyi bir halda baş verən iqtisadi, ictimai, siyasi və mədəni dəyişiklər barədə fəaliyyət göstərdiyi ölkəyə məlumat vermək;

3-Ölkə siyasətində qəbul olunan qərarlara dair lazımi tövsiyələr vermək;

4-Pasport və bu kimi mühüm sənədləri vermək;

5-Fəaliyyət göstərdiyi ölkələrin dövlət rəhbərlərini rəsmi və ya qeyri-rəsmi müzakirələr yolu ilə əlaqələrin genişlərdirilməsinə çağırmaq.

## *İSTİFADƏ OLUNAN MƏNBƏLƏR*


1-Əbul Həmid, Əbdül Həmid, "Siyasətin əsasları", cild İ, çap - 7, Tus nəşriyyatı, Tehran - 1376;

2-Reni, Astin; "Hökumət-siyasət elmi ilə tanışlıq", tərcümə edən Leyla Sazqar, Universitet nəşriyyatı, Tehran – 1374;

3-Roriş, Vilfred, "Siyasət elmi", tərcümə edən Məlik Yəhya Salehi, Semət nəşriyyatı, Tehran - 1372;

4-Tahiri Əbül Qasim, "Məhəlli hökumətlər", çap - 3, Qomes nəşriyyatı, Tehran - 1375;

5-Alim, Əbdürrəhman, "Siyasət elminin əsasları", çap - 3, Ney nəşriyyatı - 1376;

6-İran İslam Respublikasının Konstitusiyası, Ələmi nəşriyyatı, Tehran - 1372;

7-Mir Heydər, Durrə, "Siyasi coğrafiyanın əsasları", çap - 3, Simət nəşriyyatı - 1373;

8-Qazi, Əbülfəzl, "Hüquq və siyasi təşkilatlar", cild İ, Tehran universiteti - 1373;

9-Blondel, Jean, ComParative Government, Philip Allan, Great Britain – 1990;

10-Mahmood, Safdar, İnternational Affairs, Sang_e_Meel Poblications, Pakistan – 1990;

11-Mazhar-ul-Hag, Principles of Political Scince, Bookland, Pakistan (Lahore) – 1990;

## *İKİNCİ FƏSİL*

## *XARİCİ SİYASƏT VƏ İSLAMDA BEYNƏLXALQ ƏLAQƏLƏRİN ƏSASLARİ*

(2-1) İslamda beynəlxalq əlaqələrin tarixi;
(2-2) İslamdakı beynəlxalq əlaqələrə hakim olan ümumi qanunlar;
(2-3) Quran və beynəlxalq əlaqələr;
(2-4) Konstitusiyanın İranın xarici siyasətinə olan baxışı.

## *(2-1) İSLAMDA BEYNƏLXALQ ƏLAQƏLƏRİN TARİXİ*

Allaha Şeytanın şərrindən pənah aparıram. ([İslamın] digər bütün dinlərdən üstün olduğunu göstərmək üçün öz Peyğəmbərini hidayətlə [Quranla] və haqq dinlə göndərən Odur)[1] .

Bu fəsildə İslamda xarici siyasət, beynəlmiləl əlaqələr və onların əsasları haqqında söhbət açmaq istərdik. Lakin İslamda beynəlmiləl əlaqələr barədə söhbət açmazdan əvvəl xarici siyasəti tərif və onunla beynəlmiləl əlaqələr arasında olan münasibətlərə işarə etməyi daha məqsədə uyğun görürük.

Xarici siyasət hər bir dövlətin şəxsi mənafeini qorumaq məqsədilə, digər dövlətlərə qarşı olan rəftar və münasibətlərdən ibarətdir. Dövlətlərin bir-birlərinə qarşı olan rəftar və münasibətləri ümumilikdə beynəlmiləl əlaqələr adlanır.

Başqa sözlə desək xarici siyasət, hər hansı bir siyasi vahidin (təşkilat) digər siyasi vahiddən mümkün qədər çox bəhrələnməsi üçün ixtiyarında olan qüdrət və bacarığa deyilir.

Siyasi təşkilatın ən başlıca xüsusiyyətləri, qarşıya qoyduğu hədəf, milli mənafe və məntəqənin təhlükəsizliyini təmin etməkdən ibarətdir. Qarşıya qoyduğu məqsədə çatmaq üçün isə o, hər şeydən əvvəl ölkənin strateji mövqe, mili mənafe və ümumi maraqları ilə yaxından tanış olaraq, baş verən cərəyanları düzgün təhlil və qiymətləndirməyi bacarmalıdır.

Xarici siyasəti - beynəlmiləl strukturun həmahəngsizlik və siyasi təşkilatlara hakim olan müxtəlif dəyərlər səbəbindən - vahid nəzəriyyə halında bəyan etmək qeyri-mümkün olsa da, xarici siyasət amillərinin cəm hal daşıması, ümumiliyə şamilliyi və yayılma xüsusiyyətinə malik olması müəyyən qədər olsa da, onun iş strukturu barədə söz deməyə imkan verir.

İslam dinində beynəlmiləl əlaqələrin ən başlıca meyarı, Qurani-kərim və onun icraçısı Həzrəti Məhəmməd (s)-dır. Qurani-kərimdə sonuncu və ən kamil İlahi din[2] kimi adı çəkilən müqəddəs İslam dini, bütün insani, tarixi və coğrafi məsələlərə dair zamanın tələblərinə

---

[1] Fəth surəsi, ayə 28

[2] "Allah yanında (məqbul olan) din, əlbətdə, Islamdır". Ali-imran surəsi, ayə 19

uyğun olaraq, sabit və dəyişgən hökmlər çıxararaq, bəşəriyyətin tələbatını ödəməlidir.

Peyğəmbər (s)-ın gördüyü ən mühüm işlərdən biri də, ilk dəfə olaraq Mədinədə İslam dövlətini qurmaq olmuşdur. Əhzab surəsinin 21-ci ayəsində onun bütün sahələrdə örnək və nümunə olduğu göstərilir[1]. Bu səbəbdən onun həyata keçirdiyi xarici siyasət yolunu davam edən ardıcıllarına, dünyanın zülmət və qaranlığından işıqlı gələcəyə qovuşmaq üçün ən gözəl vasitə ola bilər.

Maraqların qorunması məqsədi ilə əgər xarici siyasəti bir ölkənin digər ölkələrə qarşı bir növ örnək götürəriksə bilməliyik ki, Peyğəmbər (s)-ın həyata keçirdiyi siyasət, hər bir şüurlu müsəlman dövlət rəhbəri üçün nümunəvi rəftar və davranış tərzi olmuşdur. Buna görə də, Peyğəmbər (s)-ın zamanında mövcud olmuş siyasi coğrafiya, fəaliyyət göstərən böyük və kiçik qüdrətlər və Peyğəmbər (s)-ın onlarla yaratdığı əlaqələrə diqqət yetirmək, hər bir alim və təhqiqatçı üçün lazım və zəruridir. Elə bir əlaqələr ki, Məkkənin qüdrətli qəbilələri, Mədinənin ətrafında məskunlaşmış Ous, Xəzrəc və üç yəhudi qəbilələri ilə bərqərar olunmağa başlamış, Rum və İran kimi hegemon imperatorluqlar və onların tabeliyində olan Yəmən, Həbəş (Efiopiya), Misir və s. məntəqələrədək davam etmişdir.

Burada qəbilələrarası əlaqələrə hakim olmuş siyasət və onlarla İran, Rum və digər dövlətlər arasında yaradılmış əlaqələr və nəhayət, Peyğəmbər (s)-ın böyük və kiçik dövlətlərə qarşı tətbiq etdiyi siyasət barədə söhbət açacağıq.

### *(2-1-1) QƏBİLƏLƏR ARASİ ƏLAQƏLƏR*

Həzrət Məhəmməd (s)-ın zamanında və onun peyğəmbərliyə təyin olunmasından əvvəlki dövrlərdə, Ərəbistan yarmadasında məskunlaşmış qəbilələr arasında bir o qədər də yaxşı münasibətlər olmamışdır. Təəssübkeşlik, təkəbürlük, qürur və təcavüz kimi mənfi xüsusiyyətlər onların düçar olduqları ağır şəraiti daha da gərginləşdirirdi.

---

[1] Həqiqətən, Allahın Rəsulu Allaha, qiymət günü ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allaha çox zikr edənlər üçün gözəl nümunədir.

Ərəbistan yarmadasının ardı-arası kəsilməyən qəbilələr arası keşməkeş və qarşıdurmalar, nizam-intizamın olmaması və yuxarıda qeyd olunan xüsusiyyətlər bu ərazidə vahid mərkəzi dövlətin fəaliyyət göstərməsinə mane olurdu. Pərakəndə qəbilələr arasında siyasi qüdrətə malik olan şəxslər tapılsa da, hakimiyyət qəbilə başçısının ixtiyarında olub, onun tərəfindən olunurdu. Qəbilə başçıları isə adətən qəbilənin ən qüdrətli şəxsləri olurdu. Bu vəziyyət Yəmən, Həmir, Hirə, Qəssan, Hicaz, Məkkə və Mədinə kimi səhra və şəhər qəbilələrində müşahidə olunurdu.

Həzrət Məhəmməd (s) peyğəmbərliyə təyin olunduğu zaman, qəbilə başçıları arasındakı əlaqələr o qədər acınacaqlı idi ki, ticarət, səfər və sair mühüm məsələlər üçün ilin dörd ayında bir-birləri ilə müharibə edib, qan tökərdilər və bu ayları "haram aylar" adlandırmışlar. Bununla belə, Peyğəmbər (s) ərəb qəbilələr ilə möhkəm əlaqələr yaratmağa çalışırdı. Həcc mərsimi ona bu işdə daha yaxından köməklik edirdi. Həcc mövsümündə ziyarətə gələnlərlə ayrı-ayrılıqda və ya cəm halında görüşür və onları müqəddəs İslam dininin təlimləri ilə tanış edirdi. Məhz bu istiqamətdə atılan addımlar, ona bir müddət əvvəl kin-küdurət girdabında qərq olan təəssübkeş qəbilələri vahid ümmət halına çevirməkdə yaxından kömək edir. Elə bir ümmət ki, çox az bir müddətdən sonra Rum və Rum kimi hegemon imperatorların qarşısında duraraq, rəqibsiz qüdrətə çevrilir.

Diqqət yetirmək lazımdır ki, bütün qəbilələr dövlətin bütün ünsürlərini, yəni ərazi və cəmiyyəti, müstəqil hökumət və hakimiyyəti özündə cəm edə bilmişdi. Bu qəbilələr ilə bərqərar olunan əlaqələr, Peyğəmbər (s)-ın qurduğu beynəlmiləl əlaqələrin bir hissəsini təşkil etmişdir.

### *(2-1-2) DÖVLƏTLƏRLƏ ƏLAQƏ*

Həzrət Məhəmməd (s) peyğəmbərliyə təyin olunmazdan əlavə Ərəbistan yarmadası ilə Həbəş, Əmarat, Qəssan və digər məntəqələr arasında bəzi ixtilaflar meydana gəlmişdir:

1-İki böyük imperatorluq, yəni Rum və İranla aparılan uzun müddətli mübarizələr;

2-Parçalanma və daxildə mövcud olan sabitsizlik.

Hirə və Qəssanın Rum və sonra İran imperatorluqları tərəfindən təcavüzə məruz qalaraq öz müstəqilliyini itirmələri və Neman ibn Munzirin İran imperatorluğu tərəfindən Hirəyə padşah təyin olunduğunu buna misal çəkmək olar.

Qureyşin düşmənçiliklərinə baxmayaraq, Peyğəmbər (s) qonşu ölkələrlə İslam təlimləri əsasında əlaqələr yaradır və onlarla səmimi münasibətdə olmağa çalışırdı. O, hər hər şeydən çox haqqa, ədalətə yer verərək qonşu ölkələrin rəhbərlərinə məktub göndərər, saziş bağlayar və bu yolla ilk dəfə olaraq qarşılıqlı əlaqələrin əsasını qoyardı. Bəhreyn, Həmir, Qəssan, padşahlarına, Oman əhalisinə, İ və İİ Nəcaşiyə, Rum imperatoruna və sair məntəqlərə göndərdiyi məktublar, bir daha dövlətlərarası əlaqələrə xüsusi diqqət yetirməsindən xəbər verir.

Qədim zamanlardan bəri ticarət mərkəzinə çevrilmiş və müxtəlif millət və qəbilələrinin ticarət karvanlarının gediş-gəliş etdikləri Məkkə şəhəri həm mövqeiyyət, həm də özünün müqəddəsliyi ilə daim diqqəti cəlb etmiş və mühüm əlaqələr mərkəzinə çevrilmişdir. Bütün bunlar isə Peyğəmbər (s)-a bu şəhərdə fəaliyyət göstərib, İslam dinini təbliğ etməyə yaxından kömək edirdi. Göndərilmiş məktublardan bir neçəsinə diqqət yetirin.

Allah peyğəmbəri Məhəmməddən (s) Həbəşə padşahı Nəcaşiyə:

*Bağışlayan və mehriban Allahın adı ilə*

"Sən bizimlə sülh şəraitindəsən. Sənin üçün hər şeyə sahib olan, bütün ehtiyacları aradan qaldıran, eyb və nöqsanlardan uzaq olan, qorxu və nigarançılıqları insanlardan dəf edən və onlara ruzi verib yaşadan Allaha həmd və səna edirəm. Şəhadət verirəm ki, İsa Məryəmin oğlu, Allahın ruhu və kəlamı olmuşdur. Allah onu pak, iffət və ismətli olan Məryəmin bətninə salmış və Məryəm onunla hamilə olmuşdur. Allah-təala Adəmi öz əlləri ilə düzəldib üfürərək, ona can verdiyi kimi öz ruhundan Məryəmədə üfürüb İsanı yaratdı.

Mən səni şəriki olmayan Allaha tabe olmağa davam etməyə və mənim davamçılarımdan olub, gətirdiyim səmavi kitaba iman gətirməyə dəvət edirəm və bu bir həqiqətdir ki, mən Allah tərəfindən göndərilmiş haqq peyğəmbərlərdənəm... Əmim oğlu Cəfəri bir neçə nəfər şəxslə sənin yanına göndərirəm. Onlar sənin yanına gəldikdə, qəbul et və inadkarlığı kənara qoy. Mən səni və

sənin tabeçiliyində olanları Allaha doğru çağırıram. Mən Allahın əmrini çatdırıb, öz xeyirxahlıq və tövsiyələrimi sənə bildirdim. Elə isə, nəsihətimi qəbul et. Allahın salamı olsun Hidayət yolunu tutmuş şəxslərə"[1].

Rum imperatoru Herakla göndərdiyi məktubda isə deyilir:

Bağışlayan və mehriban Allahın adı ilə.

Allah peyğəmbəri Məhəmməddən (s) Rum padşahı Herakla: "Haqq yolunu tutmuş şəxslər heç vaxt çətinliklərlə üzləşməzlər. Allaha həmd və səna etdikdən sonra səni İslamı qəbul etməyə dəvət edirəm. İslamı qəbul et və beləliklə, bütün pislik və xoşagəlməz şeylərdən uzaq ol. İslamı qəbul et və beləliklə, Allah-təala sənə iki dəfə mükafat versin. Əgər mənim təklifimi rədd edərsənsə bil ki, bütün camaatın günahı sənin boynunda olacaqdır. Ey kitab əhli! Sizinlə bizim aramızda eyni olan bir kələməyə tərəf gəlin! Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək! Əgər onlar yenə də üz döndərərlərsə, o zaman deyin: "İndi şahid olun ki, biz həqiqətən müsəlmanlarıq"[2].

### *(2-1-3) PEYĞƏMBƏRİN (S) ZAMANİNDA RUM VƏ İRAN İMPERATORLUQLARİ İLƏ YARADİLAN ƏLAQƏLƏR*

Daxili keşməkeşlərə baxmayaraq, Rum və İran imperatorluqları ətraf məntəqələri öz nəzarətləri altında saxlayır və bu imperatorluqlara hakim olan padşahlar özlərini hamıdan üstün tutaraq, özlərini "İlahi əmanət" adlandırır və onlara tabe olmağı hamıya vacib hesab edirdilər. İranda Ənuşirvanın və Rumda Yunestinyanusun hakimiyyətini buna misal çəkmək olar.

Ardı-arası kəsilmək bilməyən qarşıdurma və qanlı müharibələrə düçar olmuş bu iki imperatorluq, bəzən müvvəqəti olaraq bir-birləri ilə sülh sazişləri bağlasalar da, bir-birlərinə bəslədikləri kin-küdurət və düşmənçilik hissi heç vaxt onlara daimi sülh şəraitində yaşamağa imkan vermirdi.

---

[1] Həzrət Məhəmməd (s)-ın siyasi məktubları və Islamın zühur etdiyi illərin sənədləri səh 145-146

[2] Həzrət Məhəmməd (s)-ın siyasi məktubları və Islamın zühur etdiyi illərin sənədləri səh - 155

Ərəbistan yarmadasının o dövrki iqtisadi vəziyyəti və olduqca pis abu-həvası bu iki imperatorluğun nəzərindən uzaqda qalmasına və oraya qoşun yürütməmələrinə səbəb olmuşdur. Belə ki, mövcud şərait onlarda belə bir böyük əraziyə nəzarət etməyə maraq belə doğurmurdu.

İstər Rum, istərsə də İran imperatorluqları səhra əhalisinə yalnız aralarında qarşıdurma meydana gəldikdə, onlardan istifadə edə biləcəkləri qüdrət kimi nəzər salırdılar. Bunun üçün qəbilə başçılarını özlərinə yaxşılaşdırmağa və onları lazım gəldikdə, tərəf müqabilləri ilə mübarizə aparmağa razı salmağa çalışırdılar. Lakin Peyğəmbər (s) zühur etdikdən sonra Qureyş və yəhudi qəbilələri tərəfindən sıxışdırılmalarına baxmayaraq, Ərəbistan yarımadasının hakimiyyət quruluşunda əsaslı dəyişiklər baş verdi. Peyğəmbər (s) Rum və İran imperatorluqlarına məktub göndərməklə, onları özlərindən əks-əməl göstərməyə vadar edir.

Bu, beynəlmiləl əlaqələrin genişlənməsində atılan yeni və olduqca uğurlu bir addım idi. İran və Rum rəhbərləri Peyğəmbər (s)-ın elçiləri ilə layiqincə davranmasalar da, lakin bir qədər sonra lazımi əks-əməl göstərmək qərarına gəlmişdilər.

### *(2-1-4) XƏLİFƏLƏR DÖVRÜ VƏ İSLAMDA BEYNƏLMİLƏL ƏLAQƏLƏR*

İslam dininin Peyğəmbər (s)-ın zamanında və ondan sonra xəlifələrin hakimiyyət dövründə beynəlmiləl səhnədə geniş fəaliyyət göstərməsi, bir çox böyük qüdrətləri, yeni yaranmış bu dini yeganə böyük qüdrət hesab etməyə vadar etmişdi. Bu səbəbdən tarixçilər, müsəlmanların xəlifələrin hakimiyyət dövründə əldə etdikləri uğurları Peyğəmbər (s)-ın beynəlmiləl səhnədə həyata keçirdiyi siyasətin nəticəsi kimi qiymətləndirmişlər. Yəni xəlifələrin hakimiyyət dövründə əldə olunan naliyyətlər, Peyğəmbər (s)-ın gözəl rəftar və davranışları, habelə İslamın həqiqi simasını biruzə verməsi sayəsində əldə olunmuşdur. O ki qaldı xəlifələrin hakimiyyət dövrünə, daxili müharibələr və bir çox digər çətinliklər səbəbindən beynəlmiləl məsələlərə bir o qədər də diqqət yetirilməmişdi. Əgər Mədinəyə yaxın və uzaq məntəqələrdən

gəlsəydilər də, xəlifələrlə görüşərdilər. Onları maraqlandıran elmi suallara isə bir çox hallarda Əli (ə) özü şəxsən cavab verərdi.

## *XİLAFƏT DÖVRÜNÜN NƏTİCƏLƏRİ*

Məhəmməd (s)-dan sonra ilk üç xəlifənin hakimiyyət dövründə saysız-hesabsız ölkə və şəhərlər fəth olunub İslam ölkələrinin ərazisi birə on artsa da, daxili keşməkeşlər və aparılan siyasət əsaslı ideologiya əsasında olmadığı, habelə ətraf məntəqələrin hakimləri ilə mərkəzi xilafət arasında daimi əlaqə olmadığı üçün ölkə və şəhərlərin fəthi əks nəticə verərək, İslam mədəniyyətinə ağır zərbə vurmuşdur.

Bir çox məntəqələr İslam ölkələrinin sırasına daxil olsalar da, maddiyyata olan meyl, şan-şöhrət hissi, dini bidət və ideloji pozğuntular, İslamın öz həqiqi simasını itirməyə səbəb olmuşdu. İslam ölkələrində yaradılan əlaqələr İslam qanunları əsasında qurulmadığı üçün müsəlmanlar bu müqəddəs dini öz qonşu ölkələrinə lazımi qaydada çatdırmağa nail ola bilməmişdilər.

Xəlifələrin ölkə və şəhərlərin fəthinə dair həyata keçirdikləri siyasətlərin verdiyi zahiri nəticələr aşağıdakılardan ibarət olmuşdur:

a) *İqtisadi çətinliklərin həlli;*

Minlərlə ərəb Mədinəyə mühacirət etdikdən sonra şəhər mühiti onların məşğuliyyətini təmin etməyə qadir olmasa da, ölkə və şəhərlərdə aparılan fəthlər, xüsusilə də əldə olunan qənimətlər, onların döyüş meydanına üz tutmalarına səbəb olurdu.

*b) İqtisadi çətinliklərin həlli;*

Ətraf məntəqələrin fəthi genişlənməklə, İslama həqiqi can yandıran sadiq şəxslər Allah yolunda cihad etmək üçün Mədinəni tərk edib döyüş məntəqələrinə yola düşürdülər. Kafirlərlə müharibə, daxildə aparılan səhv siyasətin üzərini örtmək üçün ən yaxşı vasitə idi. Bu siyasətə etiraz edən şəxslər isə dərhal döyüş məntəqələrinə sürgün olunurdu və təssüflər olsun ki, daxili məsələlərə diqqətsizlik sonralar aradan qaldırılması mümkün olmayan bir neçə ağır faciəyə səbəb olur. O cümlədən:

1-Müaviyə və Xalid ibn Vəlidin hakimiyyət üçün hazırlanması;

2-İsrailiyyat (yəhudilik) tərzi-təfəkkürünə aludə olmuş kitab əhlinin İslam cəmiyyətinə nüfuz etməsi;

3-Xəlifələrin (şəxsi rəy əsasında) hökm çıxarmalarının qanuniləşdirilməsi və onların rəftar və davranışlarının "şəri sünnət" (şəriətə uyğun adət-ənənə) hesab olunması;

4-İctihad məsələsinin ortaya atılması ilə Peyğəmbər (s)-ın sünnətinə qarşı yaranan etinasızlıq və hədislərin yazılmasına dair qoyulan qadağalar.

Əli (ə) o dövrün ictimai vəziyyətini bu ibarətlərlə bəyan edir: "Bilin ki, Həzrət Məhəmməd (s) peyğəmbərliyə təyin olunduğu zaman hansı çətinliklərlə qarşılaşmışdısa, sizdə indi həmən çətinliklərə düçar olmusunuz"[1].

Başqa bir yerdə Peyğəmbər (s)-ın dilindən o dövrün camaatının gələcəyi haqqında buyurur: "Bu camaat öz var-dövlətlərinin fitnə-fəsadına düçar olub Allahın mərhəmətini arzu etməklə yanaşı, İslamı qəbul etdikləri üçün Ona minnət qoyarlar. Allahın haram etdiyi şeyləri öz yalan şübhələri ilə halal edər, şəraba nəbiz (şərbət), sələmə isə müamilə adı verməklə, onları özlərinə rəva bilərlər"[2].

Məlum olur ki, Peyğəmbər (s)-ın risaləti (gətirdiyi din) ümumbəşər və əbədilik kimi iki ən başlıca xüsusiyyətə malik olmuş və onun xarici siyasəti, müxtəlif dövlət və qəbilələr ilə yaratdığı əlaqələr Allaha təvəkkül etməklə, "Allahdan başqa Allah yoxdur deyin və nicat tapın" kəlməsini yaymaq, kafirlərlə dostluq etməyib onların İslam cəmiyyətinə hakim olmalarına imkan verməmək, haqq-ədalətə riayət etmək, ətraf məntəqələrlə səmimi münasibətdə olmaq, onlara yardım və əhdə vəfa etmək, İlahi qanunlardan boyun qaçırmamaq əsasında qurulmuşdur. Mühüm ictimai məsələlərdə əshabla məsləhətləşmək və aparılan danışıqlarla sülh və səmimiyyətin hər şeydən üstün tutulması, qəbilələrin müştərək xüsusiyyətlərindən istifadə edərək şəriət qanunlarını yaymaq və əmrə tabe olmadıqda, Allahın izni ilə mübarizəyə əl atmaq[3] və

---

[1] Rəuzətul Kafi, səh 67

[2] Nəhcül bəlağə, Subhi Saleh, səh 230

[3] "Zülmə məruz qaldıqlarına görə vuruşanlara (kafirlərə qarşı Allah yolunda döyüşmək) izn verilmişdir. Allah onlara kömək etməyə, əlbətdə qadirdir" (Həcc surəsi, ayə 39). "Müşriklərin fitnəsi aradan qalxana qədər və din ancaq Allaha edilənədək onlarla vuruşun; Əgər onlar (bu hərəkətlərə) son qoyarlarsa, siz onlarla vuruşmaqdan vaz keçin! çünki düşmənçilik ancaq zülm edənlərə qarşı olur" (Bəqərə surəsi, ayə 193).

nəhayət, sülh və barışığa razı olanlarla sülh şəraitində olmaqda[1] Peyğəmbər (s)-ın qurduğu yeni cəmiyyətdə tətbiq etdiyi siyasətin ən mühüm hissəsini təşkil etmişdir. Bir sözlə dövlət rəhbərlərinə xarici siyasət, beynəlmiləl hüquq və qanunlar üçün hər nə lazımdırsa, Peyğəmbər (s)-ın tətbiq etdiyi siyasətdə öz əksini tapmışdır.

Lakin təssüflər olsun ki, sonrakı xəlifələrin hakimiyyət dövründə xarici siyasət və beynəlmiləl əlaqələr get-gedə öz əhəmiyyətini itirmiş və öz axarından çıxaraq, uçuruma doğru yönəlmişdir. Bu bir həqiqətdir ki, əgər İslami cəmiyyət öz vüqar və şan-şöhrətini qoruyub mömin və əməlisalehlər cəmiyyət qurmaq istərsə, hökmən öz daxili və xarici əlaqələrini Quran və Peyğəmbər (s)-ın sünnəti üzərində qurmalıdır. Həşr surəsinin 7-ci ayəsində deyildiyi kimi: "Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi qadağan edirsə. ondan əl çəkin".

## *(2-1-5) MÜSƏLMANLARİN BEYNƏLMİLƏL SİYASƏTDƏN UZAQ DÜŞMƏLƏRİ*

Müsəlmanlar İslami hakim və hakimiyyət məsələsində ciddi çətinliklə qarşılaşdıqdan sonra bunun beynəlmiləl siyasətdə də təkrar olacağı təbii bir hal idi. Yaranmış gərgin vəziyyət Bəni Üməyyə xəlifəsi Müaviyyənin hakimiyyət dövründə özünün ən son həddinə çatır. O, daxili böhranı aradan qaldırmaq üçün Rum imperatorluğunun hakimiyyətini qəbul edir. Abbasi xəlifələrindən olan Harun Ərrəşidin dövründə isə, İslam hakimiyyəti özünün çiçəklənmə dövrünü keçirdiyi bir dövrdə, xarici siyasət zorakılıq və bac-xərac əsasında aparılır və bütün bunlarla yanaşı, din və İslam mədəniyyəti sahələrində heç bir təbliğat aparılmamışdır.

Müaviyyənin hakimiyyəti dövründə Peyğəmbər (s)-ın xarici siyasəti özünəməxsus diplomatiya ilə əvəz olunur. Peyğəmbər (s)-ın tətbiq etdiyi beynəlmiləl siyasət iman, Allaha təvəkkül, qətiyyətlik, özünə arxayınlıq və mənəvi dəyərlər əsasında qoyulduğu bir halda, Müaviyyənin zəiflik göstərərək daxili çətinliklərin öhdəsindən gələ bilməməsi, xüsusilədə Əli (ə)-ın sadiq tərəfdarlarının rəhbərlik

[1] "Əgər onlar sülhə (barışığa) meyl etsələr, səndə sülhə meyl et və Allaha bel bağla. Həqiqətən Allah (hamınızın sözlərini) eşidən və (niyyətlərini) biləndir" (Ənfal surəsi, ayə 61).

etdikləri hərəkatlardan yaranmış qorxu hissi, hakimiyyəti qorumaq və xarici siyasət onu bac-xərac üsulundan istifadə etməyə vadar edirdi. Belə ki, qərb sərhədlərinin qorunması və Rum imperatorluğu tərəfindən təcavüzə məruz qalması üçün hər il onlara külli miqdarda bac-xərac vermiş və beləliklə, Peyğəmbərin (s)-ın tətbiq etdiyi siyasət və idarə etdiyi dölətçilik üsulundan uzaq düşmüş olur.

Buraxılan böyük səhvlərdən birini də, hicrətin İİ yüzilliyinə Harun Ər-rəşidin xilafət dövründə müşahidə etmək olar. İslam ölkələrinin sərhədləri Avropada Fransadakı Luvr çayından başlayaraq, Asiyada Hindistan və mərkəzi Afrika dövlətlərini əhatə etdiyi bir halda, Peyğəmbər (s)-ın meyarları ilə beynəlmiləl siyasətin icra olunması üçün bütün lazımi şəraitin olmasına baxmayaraq, madiyyat və şan-şöhrət arzusu, Abbasi xəlifələrinə ixtiyarlarında olan qüdrətdən İslamın genişlənməsi yolunda istifadə etməyə mane olurdu.

### *(2-1-6) OSMANLİ İMPERATORLUĞU VƏ BEYNƏLMİLƏL ƏLAQƏLƏR*

Bu dövrdəki beynəlmiləl əlaqələr iki nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir.

1-Qüdrət baxımından Osmanlı imperatorluğunun son həddə çatması və əraziləri genişləndirmək məqsədi ilə müxtəlif ölkələrə qarşı olunan qeyri-məntiqi zorakılıq;

2-İmperatorluğun zəifləməsi və qərb tərzi-təfəkkürünün tətbiq etdiyi beynəlmiləl siyasət barədə yalnış təsəvvürün yaranması.

Belə bir yalnış tərzi-təfəkkür onlarda elə təsəvvür yaratmışdı ki, Osmanlı imperatorluğu beynəlmiləl əlaqələrdə sülh və əmin-amanlıq tərəfdarı olmuş və daim həmrəylik siyasətini irəli sürmüşdür. Lakin bu heç də belə olmamışdır. Çünki nə qədər ki osmanlılar hakimiyyətdə idi, bir an belə silah yerə qoyulmamış və daim cihad və müharibə əhval ruhiyyəsi hökm sürmüşdür. İxtiyarlarında olan qüdrəti əldən verib zəiflədikdən sonra sülh və atəşkəs şüarı verməyə başlamışlar. Digər tərəfdən də, qərb ölkələrini istismar edib və onların imkanlarından istifadə etmək üçün osmanlıların verdikləri sülh şüarlarından bəhrələnərək, öz istismar planlarını daha da genişləndirməyə başlamışdılar. Çünki onlar müsəlmanların

göstərdikləri bu zəifliyə hər şeydən daha çox diqqət yetirir və onların daha da zəifləməsinə şərait yaradırdılar.

1535-ci ildə fransız İ Fransua ilə Osmanlı əmiri İ Süleyman arasında ilk dəfə olaraq saziş bağlanılır. Osmanlı xəlifəsi sazişin birinci bəndinə əsasən, iki şeyə razı olur. Bu da, İslamın siyasi və hüquqi strukturunda böyük bir inqilabın baş verməsinə səbəb olur:

1-İslami və qeyri-islami ölkələr arasında gedən daimi müharibələrə son qoyub, əvəzində Fransa və Osmanlı dövləti arasında daimi sülhün bərqərar olunma istəyi;

2-Sazişin müddətini on ildən həmişəliyə əvəz edilib, xarici mənafenin qeyri-cihad yolu ilə əldə olunma istəyi.

Aydındır ki, beynəlmiləl siyasətdə aparılan belə bir dəyişiklik İslamın deyil, Osmanlı xəlifəsinin siyasəti olmuşdur. Bütün bunlara isə, 1529-cu ildə Osmanlı imperatorluğunun Vyenada etdiyi hücum və ağır məğlubiyyətə uğraması səbəb olmuşdur. Bunu nəzərə alaraq, Osmanlı imperatorluğu məcburiyyət qarşısında qalaraq, Avropa ilə sülh müqaviləsini bağlamağa razılıq verir.

Osmanlıların bağladıqları sazişlər, İslami beynəlmiləl hüquq və qanunlardan xəbər verməzdən əvvəl sazişin özünəməxsus şəraitdə bağlandığına dəlalət edir. Belə ki, Osmanlı dövlətinin Avropadakı nümayəndəsi bu mətləbə işarə edərək deyir: "Hər bir ölkənin iki siyasəti olmalıdır. Biri ölkənin xarici rəftar və davranışlarının əsasını təşkil edən daimi, digəri isə zamanın tələblərinə uyğun olaraq tətbiq olunan müvvəqəti siyasət".

Demək osmanlıların göstərdikləri zəifliyi ikinci, yəni müvəqqəti siyasətə aid edə bilərik. Bu səbəbdən osmanlıların həyata keçirdikləri siyasət, İslamın xarici siyasəti ilə tamamilə fərqli olmuşdur.

Əlbətdə, cihad və mübarizə üçün kifayət qədər qüdrət olmadıqda sülh siyasətini həyata keçirmək, İslamın beynəlmiləl siyasəti ilə heç də ziddiyyətlik təşkil etmir. Lakin bu bütün dövrlərə şamil deyil. Həyata keçirilən siyasətlər bəzən də beynəlmiləl qanunlar ilə müxalif olmuşdur.

İslam qanunlarından xaric olan xarici vətəndaşlara qarşı bağlanılan sazişlərdə kapitulasiya sisteminin[1] qəbul olunmasını buna

[1] Kapitulasiya sistemi - bir ölkənin digərinə məğlub olduğunu rəsmən etiraf edib, tanımasına deyilir.

misal çəkmək olar. Bütün bunlara baxmayaraq, həmin dövürdə Konstantinopolun müsəlmanlar tərəfindən fəth olunması mühüm tarixi hadisələrdən biri hesab olunur. 1452-ci ildə müsəlmanların əldə etdikləri bu böyük qələbə, Avropanın inkişaf etmiş müsəlman dünyasının elmi nailiyyətləri ilə tanış olmalarına və eyni zamanda, öz geriliklərini müşahidə etmələrinə səbəb olur. Bütün bunlar isə, kilsənin bütün Avropaya zülm etdiyi zorakılıq və yerli əhaliyə qarşı ağır cinayətlər törətdiyi dövrə təsadüf edir. Məhz həmin dövrdə siyasət və fəlsəfə alimləri, insanların nəfs və cəmiyyətlərin siyasətin üzərinə qoyduğu təsirlər haqqında yeni nəzəriyyələr irəli sürməyə başlamışlar. Bütün bu amillər əl-ələ verərək, yaradılan əlaqələrdə ciddi dəyişiklərə və "ronesans" adlı yeni dövrün meydana gəlməsinə səbəb oldu.

Beləliklə, "Siyasi", "hakimiyyət cəmiyyəti" kimi məfhumlar yeni tərzdə açıqlanmağa başlanmışdı. "Milliyyəçilik" tərzi-təfəkkürü tədriclə meydana gələrək, keçmişdə baş verən dini və əqidəvi müharibələr, ölkələr arasında milli döyüşlərə çevrilir.

Müxtəlif milliyyətlər əsasında milli dövlətlər və yeni dövlətçilik üsulu meydana gəlir və bütün bunlar başqa bir yeni elmin, yəni beynəlmiləl əlaqələrin meydana gəlməsinə münasib şərait yaradır.

### *(2-1-7) MÜASİR DÖVR VƏ İSLAM DÜNYASİNDA BEYNƏLMİLƏL ƏLAQƏLƏR*

Osmanlı imperatorluğu süquta uğradıqdan sonra dinin siyasətdən ayrılması, müsəlman millətlərin Qərbin siyasi və hüquqi üsullarına üz tutması, dövlət və qanunun şəriətdən ayrılması və bu kimi sair məsələlər ortaya çıxır və beləliklə, qərb həyatın bütün sahələrində, İslam ölkələrində hökmüranlıq etməyə başlayır. Müsəlmanların zəiflik göstərməsi siyasi, iqtisadi və mədəniyyət sahələrində qərbə olan asılılığa və İslam dünyasında İsrail adlı xərçəngin meydana gəlməsinə səbəb olur. Qərb tərzi-təfəkküründə artıq İslamın siyasi və hüquqi hakimiyyəti heç bir məna və məfhum kəsb etmirdi.

İİ Dünya Müharibəsi başa çatdıqdan sonra Qərbin İslam dünyasına hakim olması, İslami hakimiyyətin yenidən bərpa olunacağını demək olar ki, qeyri-mümkün hala çevirirdi. Çünki,

sonralar İslami ərazilərdə və beynəlmiləl səhnədə meydana gəlmiş yeni dövlətlər Qərb siyasəti, hüquq və tərzi-təfəkkürü əsasında formalaşırdı. Lakin panislamizm hərəkatlarının meydana gəlməsi, İslam konfranslarının təşkil olması və ən başlıcası son əsrdə İranda İslam İnqilabının baş verməsi və onun dünya siyasətində ifa etdiyi rol, müsəlman ölkələrinə və beynəlmiləl əlaqələrə böyük təsir qoymuşdur. Bu tarixi hadisə bir daha qəlblərdə ümumdünya İslami birlik çırağının şölələnməsi və beynəlmiləl İslami qanunların yaşadılmasına səbəb olmuşdur. Beləliklə, elm və əməl sahələrində edilən səylər nəticəsiz qalmır.

Böyük qüdrətlər arasında yaranmış ixtilafları və onların strateji baxımdan bir-birlərinə qarşı durmalarını nəzərə alaraq, dünya müsəlmanlarının birliyə can atıb, əvvəlki qüdrətini yenidən əldə edə biləcəyinə daha çox ümid bəsləmək olar.

Hal-hazırki dövrdə baş verən hadisələr - istər İslam dövlətlərinin bir-birləri ilə, istərsə də qeyri-islam dövlətlərlə yaradılan əlaqələr - İslam dünyasının beynəlmiləl əlaqələri kimi qələmə verilməlidir. Çünki islami əlaqələrə hakim olan təvəlla və təbərra (Allahın dostları ilə dostluq, düşmənləri ilə düşmənçilik) kimi mühüm bir məsələ artıq unundulub xatirələrdən silinmişdir.

Quran nöqteyi nəzərindən insanları üç qismə bölmək olar.

1-Müsəlman;

2-Qeyri-müsəlman;

3-Dinsiz (kafir).

Hal-hazırda bu üç ünsürün dünyada mövcud olduğunun şahidiyik

Qurani-kərim ayrı-ayrılıqda onların hər birinə müraciət edərək, müəyyən hüquq və ixtiyarlara malik olduqlarını bildirir. Ali-imran surəsinin 64-cü ayəsində buyurulur: “[Ya Məhəmməd!] Söylə ki: Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan [fərqi olmayan] bir kəlməyə tərəf gəlin! [O kələmə budur ki]: "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi [özümüzə] Rəbb qəbul etməyək!".

Göründüyü kimi, birinci hissəsi ümumilikdə müşrüklərə şamildir. Orada Allahdan başqa bir varlığa ibadət etməyib, ona şərik qoşulmamalı olduğu bildirilir. Ayənin ikinci hissəsi isə bütün

insanlara, o cümlədən ümumilikdə dinsizlərə şamil olub, onlara bir-birlərinə və ya digər Allah hesab etdikləri varlıqlara ibadət etməməli olduqları bildirilir.

Quran bu üç ünsürə müraciət etməklə yanaşı, müsəlmanlara onların hüquqlarını taptalamamağı, hətta onlarla ədalətlə rəftar etmələrini belə tövsiyə edir. Mumtəhinə surəsinin 8-ci ayəsində bu haqda buyurulur: "Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!".

Quranın müsəlmanlara verdiyi əsaslı hökmlərdən biri də bundan ibarətdir ki, bəşəriyyətə hörmət və ehtiramla yanaşmalı və yalnız o kəslərə üz çevirməlidirlər ki, onları ictimai və siyasi təyziqlər altına qoymuş olsunlar. Bununla yanaşı, onlara qarşı bağladıqları əhd-peymanı sındırmadıqlarınadək, sadiq qalmaqlarını əmr edir: "Onlar sizinlə doğru-düzgün davrandıqca [əhdi pozmadıqca], siz də onlarla doğru-düzgün dolanın[1].

Başqa bir ayədə Quran bizə başqaları ilə gözəl davranmağı əmr edir: "İnsanlarla xoş danışın"[2].

Başqa bir ayədə isə bizlərə din və milliyyətindən asılı olmayaraq, kimsənin haqqını taptamamaq əmr olunur: "İnsanların haqqını azaltmayın"[3].

Bu ayə Qurani-kərimdə üç peyğəmbərin dilindən bəyan olunur.

Deməli, Quranın dəvəti hər üç ünsürə şamil olunur.

Bilməliyik ki, Qurani-kərim tək məsum imamların dövründə yaşamış insanlara deyil, bəlkə bütün dövrlərdə yaşamış və müəyyən səhvlər buraxmaqla yanaşı, həqiqəti dərk edib dini hökmləri hər yerdə yaymağa qadir olan bütün insanlara şamil edilir.

Belə bir yüksək hədəfə çatmaq üçün Qurani-kərim üzərimizə iki mühüm vəzifə qoymuşdur. Onlardan biri yaxşı işlər görüb və başqalarını buna sövq etmək, digəri isə, pis işlərdən uzaq olub, başqalarını da ondan uzaq olmağa çağırmaqdan ibarətdir. Həcc surəsinin 41-ci ayəsində deyilir: "O kəslər ki əgər onları yer üzündə yerləşdirsək [onlara bir yer versək] namaz qılar, zəkat verər,

---

[1] Tövbə surəsi, ayə 7

[2] Bəqərə surəsi, ayə 83

[3] Əraf surəsi, ayə 85; Hud surəsi, ayə 85; Şüəra surəsi, ayə 83

[insanlara] yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər".

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, müqəddəs İslam dini bütün insanlara hörmət və ehtiram gözü ilə baxmaqla yanaşı, öz davamçılarına bütün bacarıqlarına islah olub xoşbəxt həyata nail olmalarına doğru istiqamətləndirmələrini əmr edir.

## *İSLAMİN BEYNƏLXALQ ƏLAQƏLƏRİNƏ HAKİM OLAN ÜMUMİ QANUNLAR*

Qədim zamanlardan bəri müxtəlif millətlər öz ehtiyaclarını aradan qaldırmaq üçün qonşuluqlarında yaşayan digər millətlərlə qarşılıqlı iqtisadi, ticari və mədəni əlaqələr yaratmış və bir-birlərinin hüquqlarına riayət edərək, keçirdikləri siyasəti səmimi münasibət və əlaqələr əsasında qurmuşlar.

Dövlətlər meydana gəlib onların aralarında sərhədlər təyin olunduqdan sonra beynəlmiləl əlaqələr özünün yeni mərhləsinə qədəm qoyur. 1789-cu ildə Böyük Fransa İnqilabı baş verməklə, milli hakimiyyət nəzəriyyəsi və beynəlmiləl əlaqələr bir elm kimi daha da təkmilləşmişdir.

Bu fəsildə riayət olunduğu təqdirdə, dövlət və millətlərin hakimiyyət və müstəqilliklərinin qorunmasına səbəb olan və müqəddəs İslam dininin beynəlmiləl əlaqələrdə qüvvədə olan pozulmaz qanunlarından biri hesab olunan prinsiplərə işarə etmək istəyirik. Prinsip isə, hər şeydən əvvəl əməli olaraq icra olunan bünövrəli qanuna deyilir. İslamın hüquqi prinsiplərinə gəldikdə, onlar zamanın keçməsinə baxmayaraq, öz etibarını itirməyən ümumi və əbədi qanunlar məcmuəsidir.

Onlar aşağıdakılardan ibarətdir:

1-Sülh və əmin-amanlıq şəraitində müştərək həyat prinsipi (beynəlmiləl anlaşıqlıq);

2-Ümumdünya çağırış prinsipi;

3-Müdaxilə etməmək;

4-Əhdə vəfa prinsipi (Beynəlmiləl sazişlərin zəruriliyi);

5-Qarşılıqlı mübarizə;

6-Dövlətlərin tam azadlıq hüququna dair bərabərlik prinsipi, müstəqillik və hakimiyyət;

7-Azadlıq hərəkatlarından müdafiə prinsipi.

### *(2-2-1) SÜLH VƏ ƏMİN-AMANLİQ ŞƏRAİTİNDƏ MÜŞTƏRƏK HƏYAT PRİNSİPİ;*

Müqəddəs İslam dini müsəlman və qeyri-müsəlmanların sülh və əmin-amanlıq şəraitində müştərək həyat tərzi sürmələrinə xüsusi diqqət yetirir. Halbuki, bəzi qeyri-müsəlman yazıçı və mütəfəkkirlər belə bir əqidədədirlər ki, müsəlman və qeyri-müsəlmanlar arasında bərqərar olunan adi əlaqələr, heç vaxt sülh və əmin-amanlıq şəraitində olmamış və onlar daim bir-birlərinə qarşı müxalif mövqe tutmuşlar. Beləliklə də, onları bir-birlərinə qarşı qoymağa çalışmışlar.

Böyük Fransız mütəfəkkiri Menteskyu deyir: "Biz məsihiyyət dinini əxlaqda dəyişikliyə səbəb olduğu üçün İslam dinindən üstün hesab edirik. Lakin İslam, əxlaqın daha da güclənməsinə səbəb olur."

Digər mütəfəkkirlər isə bu nəzəriyyənin müqabilində, İslamın müsəlman və qeyri-müsəlman millətlərin arasında bərqərar olunan əlaqələrin daha da genişləndirdiyini bildirmişlər.

Görkəmli Misir fəqihi Mahmud Şilten deyir: "İslam, müsəlmanlara sülh sevər siyasəti tətbiq etməyi tövsiyə edir. O, müsəlmanları unudub və qeyri müsəlmanların haqlarının taptalanmamasını istəyir və eyni zamanda, onların zor gücünə müsəlman olmalarını da tövsiyə etməyir. "İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?"[1].

Bir sözlə İslam, həm təcavüz xarakterli döyüşləri, həm də gedən döyüşlərdə hər hansı bir təcavüzü haram etdiyi üçün sülh və əmin-amanlıq şəraitində müştərək həyat prinsipinin ən başlıca tərəfdarıdır və bu insan fitrəti ilə tam mənada həmahəng olan islami beynəlmiləl əlaqələrdə ilk hüquqi prinsipi təşkil edir. Misal olaraq bir neçə ayəyə işarə edirik:

1-İman gətirmək icbari deyildir: "Kim istəyir inansın, kim də istəyir inanmasın [kafir olsun]"[2].

2-Sülh xarakterli dəvət üsulları: "[Ya Məhəmməd!] İnsanları hikmətə [Quranla, tutarlı dəlillərlə], gözəl öyüd nəsihət [moizə] ilə

---

[1] Yunus surəsi, ayə 99

[2] Kəhf surəsi, ayə 29

Rəbbinin yoluna [İslama] dəvət et, onlarla ən gözəl surətdə [şirin dillə, mehribançılıqla, əqli səviyyələrinə müvafiq şəkildə] mübahisə et)[1].

3-Sülh və müştərək həyatı yaşatmaq: "Əgər onlar sülhə [barışığa] meyl etsələr, səndə sülhə meyl et"[2].

4-Sülh: "Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə [İslama] gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir[3].

## *(2-2) PEYĞƏMBƏRİN (S) RƏFTAR VƏ DAVRANİŞLARİ*

## *SÜLH VƏ ƏMİN-AMANLİQ ŞƏRAİTİNDƏ MÜŞTƏRƏK HƏYAT TƏRZİ*

İstər hakimiyyətin ilk illərində, istərsə də kifayət qədər qüdrət əldə etdikdən sonra Peyğəmbər (s) müsəlmanlar və qonşu kafir qəbilələr ilə son dərəcədə mehribanlıq və gülər üzlə davranmışdır. Misal üçün ilk dəfə olaraq, Mədinədə yazılmış qanunun iyirmi beşinci bəndinə nəzər salaq: "Bəni Ouf yəhudiləri möminlərlə bir ümmətdirlər. Fərq yalnız bundan ibarətdir ki, yəhudilər öz ayinlərinə, müsəlmanlarda öz ayinlərinə əməl edirlər".

Mədinədə atılan bu uğurlu addım, Peyğəmbərin (s) sülh əhval ruhiyyəli müştərək həyata can atmasından xəbər verir. Belə ki, bir gündə altı müxtəlif məntəqəyə dəvət məktubu göndərir. İbni Səd yazır: "Göndərilən hər bir məktub həmin məntəqənin dilində yazılırdı və orada onlara tövsiyə olunaraq deyilirdi: "Yalnız Allah xatirinə Onun bəndələrinə tövsiyə edin. Allah-təala cənnəti, camaatın işlərini öhdəsinə götürmüş, lakin xeyirxahlıqla onların öhdəsindən gəlməyənlərə haram edər. İndi isə gedin və İsa (ə)-ın qasidləri kimi olmayın".

Edilən tövsiyədə sülh və əmin-amanlığa dəvət, qəzəb və kin-küdurətdən uzaq olmaq müşahidə olunur və bütün bunlar, İslamın sülh və müştərək həyat tərəfdarı olduğundan xəbər verir.

---

[1] Kəhf surəsi, ayə 125

[2] Ənfal surəsi, ayə 61

[3] Bəqərə surəsi, ayə 208

## *İSLAM FİQH VƏ İQTİSADİYYATİNDA MÜŞAHİDƏ OLUNAN MÜŞTƏRƏK HƏYAT PRİNSİPİ*

İslamın olduqca zəngin mədəniyyətində dostluq və səmimiyyətlə sıx bağlılığı olan müştərək həyat tərzinə dair kifayət qədər nümunələrə rast gəlmək olar. Ümumi kütlənin zəkat vergisindən istifadə etməsi, qeyri-müsəlmanların ödədikləri zəkatlardan bəhrələnib, zəkat vergisi ilə tikilmiş məktəb, xəstəxana və bu kimi ümumi yerlərdən istifadə etmələrini, habelə yoxsul və ehtiyacı olanlara olunan maddi yardımları buna misal çəkmək olar. Qurani-kərimdə zəkatın bölünməsi haqqında buyurulur: "Sədəqələr [zəkatlar] Allah tərəfindən müəyyən edilmiş bir fərz [vacib əməl] olaraq, ancaq yoxsullara [ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən], miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri [müsəlmanlığa] isnişib bağlanmaqda olanlara [iman gətirib hələ kamil mömin olmayanlara], həmçinin [borcu ödəməyə imkanı olmayan] borclulara, Allah yolunda cihad edənlərə və yolçulara [pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə] məxsusdur. Allah [hər şeyi] biləndir və hikmət sahibidir"[1]. Yəni zəkatdan istifadə etməyə hüququ çatan şəxs və hallar bunlardan ibarətdir.

1-Yoxsullar;

2-ehtiyacı olanlar;

3-zəkat vergisini toplayan İslam dövlətinin məmur və işçiləri;

4-qeyri-müsəlmanların İslama cəzb olunması;

5-köləlikdə olanların azadlığa buraxılması;

6-borcu olan və müflis olmuş şəxslər;

7-pulu qurtarıb yolda qalanlar;

8-Allah yolunda (yeni ümumi mənafeə xarakteri daşıyan məscid, xəstəxana, kitabxana, məktəb, yol və körpülərin tikilməsinə və s.)

Göründüyü kimi, zəkatın sərf olunduğu yerlərdən biri də, ürəkləri İslama isnişib bağlanmaqda olan qeyri-müsəlmanların İslama cəzb olunmasıdır.

---

[1] Tövbə surəsi, ayə 60

Zəkatın bir hissəsinin bu kimi şəxslərə sərf olunması dini termin olaraq "qəlblərin isnişlənməsi" adlanır. Tarixə nəzər saldıqda bu kimi hallara tez-tez rast gəlməli oluruq.

Hüneyn döyüşündən sonra Peyğəmbər (s)-ın əldə olunan qənimətlərin bir hissəsini iman gətirməmiş Səfvan bəni Üməyyə və Müaviyyəyə verməsini buna misal çəkmək olar. Həmin illərdə müsəlmanlarla yəhudilər arasında bağlanmış sazişi bu həqiqəti sübuta yetirən başqa bir hal hesab etmək olar. Misal olaraq, bağlanılmış sazişin bir neçə bəndinə nəzər salaq:

1-Müsəlmanlarla yəhudilər arasında nəsihət hökum sürməli;

2-Hər iki tayfa Mədinəyə hücum edən təcavüzkarlara qarşı mübarizə aparmalı;

3-Əhd-peyman bağlanılan yəhudilərə kömək olunmalı, müsəlmanlar onlarla sülh sazişi bağlamaq istədikdə qəbul etməli və qarşılıqlı olaraq yəhudilər sülh sazişi bağlamaq istədikdə, müsəlmanlar bunu onlardan qəbul etməlidirlər;

4-Hər iki tayfa xarici təcavüzkarlara qarşı mübarizə apardıqda, hər biri öz əhdinə sadiq qalmalıdır;

5-Bir-birləri ilə qarşılıqlı əhd-peyman bağlayan müsəlman və yəhudilər "vahid ümmət" və onların hər birinin öz dini olacaqdır;

6-Müsəlman və yəhudilər bu sazişə düşmənçilik edən şəxslərlə, birgə mübarizə aparmalıdırlar;

7-Kimsə saziş bağladığı şəxsin cinayət törətdiyi üçün mühakimə olunmamalıdır;

8-Hər zaman zülmə məruz qalanlaraköməklik olunmalıdır;

9-Hər iki tayfanın razılığı olmadan heç bir kafirə iş tapşırılmamalıdır;

10-Kimsə öz qonşusuna qarşı haqsızlıq edib, onların hüquqlarını taptamamalıdır.

### *(2-2-2) ÜMUMBƏŞƏRİ ÇAĞİRİŞ PRİNSİPİ*

Təkallahlığa dəvət, İslam dininin ümumdünya çağırışlarındandır. Peyğəmbər (s) dəvətinin ilk günündən sonunadək, yalnız Allahın vücudunu sübuta yetirən və ondan başqa hər şeyi inkar edən təkallahlıq (La ilahə illəllah - Allahdan başqa Allah yoxdur) şüarını əsas tutaraq, bir anda olsun geri çəkilməmişdir. Belə ki, Məkkə

müşrikləri, Əbu Talibdən onlarla müxalif olmaqdan əl çəkməsini istədikdə buyurur: "Mən onlardan bir kəlmə sözü iqrar etmələrindən savayı bir şey istəmirəm. Elə bir kəlmə ki, onu iqraq etməklə, bütün ərəblərə rəhbərlik edib, qeyri-ərəbləri də özlərinə tabe edə bilərlər. O, "La ilahə illəllah - Allahdan başqa Allah yoxdur" kəlməsidir və bunu iqrar etməklə, büt və bütpərəstlikdən əl çəksinlər".

O, məsihi padşahlarına göndərdiyi məktubların bir çoxunda Ali-imran surəsinin 64-cü ayəsinə işarə edər və onları gətirdiyi İslam dininə dəvət edərdi. Ayədə deyilir: "[Ey Məhəmməd!] Söylə ki, ey kitab əhli! Sizinlə bizim aramızda eyni olan [fərqi olmayan] bir kəlməyə tərəf gəlin! [O kəlmə budur ki] Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi [özümüzə] Rəbb qəbul etməyək!".

Peyğəmbər (s)-ın digər ümumbəşəri çağırışı, camaatın onun sünnətini yaşadıb ona əməl etmələridir. Çünki Qurani-kərim Peyğəmbər (s)-ın ən gözəl örnək və nümunə olduğunu bəşəriyyətə beləcə bəyan edir: "Həqiqətən, Allahın Rəsulu, Allaha, qiyamət gününə ümid bəsləyənlər [Allahdan, qiyamət günündən qorxanlar] və Allahı çox zikr edənlər üçün gözəl nümunədir"[1].

Bunun üçün ölkə rəhbərlərinə göndərdiyi məktublarda Allaha iman gətirib, Onun birliyinə şəhadət verməklə yanaşı, Allahın Peyğəmbərinə də iman gətirməyin zəruriliyinə də təkid edərdi. Göndərilən məktublarda deyilirdi: "Salam olsun haqq yolunun davamçılarına və Allaha, Onun Peyğəmbərinə iman gətirib Allahın birliyinə şəhadət verən şəxslərə! O Allah ki, nə şəriki, nə zövcəsi, nə də övladı var".

Səba surəsinin 28-ci ayəsi bir daha bu mətləbi sübuta yetirir: "[Ya Məhəmməd!] Biz səni [təkcə öz qövmünə deyil] bütün insanlara [möminlərə cənnətlə] müjdə verən, [kafirləri isə cəhənnəm əzabı ilə] qorxudan bir peyğəmbər göndərdik". Başqa bir ayədə isə buyurulur: [Ya Məhəmməd!] De ki, ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm[2].

İslam insan fitrəti ilə tam həmahəng olduğu üçün nə müəyyən zaman, nə də məkan tanıyır. Deməl, İslam əbədi bir dindir və onun

---

[1] Əhzab surəsi, ayə 21

[2] Əraf surəsi, ayə 158

ümumdünya çağırışı, bəşəriyyətə fitri din olduğunu çatdırmaqdan ibarətdir.

Deyilənlərdən belə məlum olur ki, ümumbəşəri çağırışla sülh şəraitli müştərək həyat prinsipləri arasında sıx bağlılıq və həmahənglik vardır. Hərçənd bəziləri bunun tam əksini fikirləşərək belə bir əqidədədirlər ki, ümumbəşəri çağırış küfr ilə birgə və müştərək həyat, habelə qarşılıqlı anlaşıqlıq onunla zidd olduğu üçün bir-birlərindən tam fərqli olurlar. Lakin müştərək həyat və qarşılıqlı anlaşıqlıq, küfrün qarşısını alaraq dinsiz şəxslərin islah olunmasında ən gözəl vasitə olduğu üçün belə bir nəzəriyyəni qəbul etmirik. İslam dininə gəldikdə isə bəzi hallar istisna olmaqla, insan hər zaman qəzəb və xəbislikdən uzaq olmalıdır.

### *(2-2-3) MÜDAXİLƏ PRİNSİPİ*

Duxan surəsinin 21-ci aysində deyilir: “Əgər mənə iman gətirməyəcəksinizsə, məndən uzaq olun”.

Başqa bir ayədə deyilir: “Ancaq sizinlə aralarında əhd olan bir tayfaya sığınanlar, yaxud sizinlə və ya öz qövmlərinə vuruşmaqdan ürəkləri sıxılaraq sizin yanınıza gələn şəxslər müstəsnadır. Əgər Allah istəsəydi, onları sizin üstünüzə qaldırardı və onlar da sizinlə vuruşardılar Əgər onlar sizdən aralanıb bir tərəfə çəkilsələr və sizinlə vuruşmayıb sülh təklif etsələr, o zaman Allah sizin üçün onların əleyhinə çıxmağa heç bir yol qoymaz”[1].

Ayənin məzmunundan belə məlum olur ki, düşmən bitərəf mövqe tutduqda, artıq müsəlmanların onlara qarşı təcavüz etmələrinə heç bir ehtiyac qalmır. Daha dəqiq desək, onların buna hüququ belə çatmır. Çünki, düşmən artıq düşmənçilik mövqeyindən çıxış etmir. Buna görə də, beynəlmiləl hüquqda bu haqda deyilir: "Bitərəf olmaq, tək kənarda durub tamaşa etmək demək deyildir. Bu o deməkdir ki, bir-birlərinə düşmən gözü ilə baxan hər iki tərəf yaranmış şəraiti nəzərə alaraq, qarşılıqlı sülh şəraitində yaşamağa razı olmuş olsun".

Tarixə nəzər salarkən bunun şahidi oluruq ki, Peyğəmbər (s) Mədinədə dövlət qurduqdan sonra müsəlmanların qüdrətlərini daha

---

[1] Nisa surəsi, ayə 90

da gücləndirmək məqsədilə, bəzi qeyri-müsəlman - xüsusilədə Məkkə və Şam ticarət yolunda yaşayan - qəbilələr ilə bir neçə bitərəf saziş imzalamışdır. Məsələn, hicrətin 2-ci ilinin səfər ayında Bəni Zəmrə qəbiləsi ilə bağlanılan sazişdə deyilirdi: "Həzrət Məhəmməd (s), Bəni Zəmrə qəbiləsinə hücum etməyəcəkdir və onlarda öz növbələrində müsəlmanlara hücum etməməlidir. Hər iki tərəf digərinin düşmənlərinə heç bir köməklik etməyib onları gücləndirməyəcəkdir".

Bütün bunlara əsasən, əgər İslamın beynəlmiləl əlaqələrində ümumbəşəri çağırış və müştərək həyat prinsipini qəbul edəriksə, onda sülhsevər ölkələrin daxili işlərinə müdaxilə olunmamasını da qəbul etməliyik. İslamda bu məsələyə hörmətlə yanaşılsa da, bəzi hallarda, xüsusilə müsəlmanların ümumi mənafeyi ciddi təhlükə ilə qarşılaşdıqda, pozulması zəruri bir hala çevrilir.

Başqa sözlə desək, bitərəflik prinsipi təbliğat və ümumbəşəri çağırışa maneəçilik yaradıb onu təxirə salmamalıdır. İslam dövləti müdaxilə etməmək prinsipini elan etməklə, iqtisadi və fikir mübadilələrin kəsilməsinin deyil, sülh və əmin-amanlıq tərəfdarı olduğunu bildirir. İslam, bitərəflik prinsipini qəbul etməklə, mədəni və ideoloji qarşılıqlı mübadilələrə can atır. O, belə bir prinsipi həyata keçirməklə, mədəni və ideoloji sahələrdə müxtəlif millətlərin üzünə geniş bir yol açdı. Bu yolda onun qarşısında duran və maneəçilik törədən bütün qüvvələrə qarşı isə barışmaz mövqe tutaraq, onlarla mübarizə aparır. Bunu da qeyd edək ki, İslam tarixində bu kimi hallara çox rast gəlmək olur.

### *(2-2-4) QARŞİLİQLİ MÜBARİZƏ PRİNSİPİ*

İslamın nəzərdən qaçırmadığı məsələlərdən biri də, qarşılıqlı mübarizə prinsipidir. Bu prinsipdən təcavüzün qarşısının alınması və ərazi bütövlüyünün qorunulması məqsədilə, beynəlmiləl konvensiya və bəyanatlarda istifadə olunur.

Bu günlərdə müxtəlif dövlət və millətlər ondan haqlı olaraq istifadə edərək, öz mövcudluğunu sübuta yetirir. Bu prinsip bəşəriyyət tərəfindən qanun şəklinə salınmazdan əvvəl Qurani-kərimdə belə açıqlanmışdır: “Sizə qarşı həddini aşanlara, sizdə

həmin ölçüdə həddi aşın [cavab verin]. Allahdan qorxun [qədərindən artıq əvəz çıxmayın] və bilin ki, Allah müttəqilərlədir”[1] .

Allah-təala ümumi bir höküm verərək, hər bir müsəlmana həddi aşmadan təcavüzkarın qarşısında dayanıb, onlarla göstərdikləri təcavüzün müqabilində mübarizə aparmağı əmr edir. Belə bir əks-əməl yaradılış qanunu ilə də tam həmahəngdir. Bunun nəticəsində hətta bədənin sellulları belə, zərərverici mikrobların qarşısında durub, onların orqanizmə nüfuz etmələrinə imkan vermir. Heyvanat və bitkilər aləmi də, məhz bu yaradılış qanunundan istifadə edərək, təbii hadisələrin müqabilində müqavimət göstərə bilirlər.

İslam, "Əgər bir tərəfinə sillə vurarlarsa, o biri tərəfinə də çevir, qoy oraya da vursunlar" deyən bu günki məsihiyyətin əksinə olaraq, heç vaxt öz davamçılarına belə bir hökü̈m verməmişdir. İslam deyir: "Sənə qarşı nə qədər haqsızlıq olunubsa, bir o qədər mübarizə aparıb haqqını tələb et". Bu səbəbdən Quran müqavimət dedikdə həyat, rüsvaycasına təslim olmaq dedikdə isə, ölüm və fəlakəti nəzərdə tutur. Hətta əgər ölümlə nəticələnsə belə. Budur İslam məntiqi! Əlbətdə, deyilənlər xarici düşmənlərə aiddir və bunun, dostların əfv və güzəşt olunması ilə heç bir ziddiyyəti yoxdur.

Bu kimi hallarda həddi aşmayıb təcavüzkara təcavüzünün müqabilində cavab vermək, olduqca vacib və riayət olunması zəruri olan məsələlərdəndir. Demək, düşmən təcavüz etməyənədək, bitərəflik və müdaxilə etməmək prinsipinə riayət olunmalıdır. Lakin hər hansı bir ölkə İslam ölkəsinə qarşı öz bitərəfliyini pozarsa, yaranmış şəraiti nəzərə alaraq, eyni əks-əməl göstərməlidir. Çünki, müvafiq əks-əməl göstərilmədikdə, müsəlman cəmiyyəti olduqca ağır şəraitlə üzləşməli olur. Demək, həddi aşmadan mübarizə aparmağın özünəməxsus məntiqi vardır. Bu bir növ cəzalandırma üsuludur. Elə bir cəzalandırma üsulu ki, onunla həm təcavüzə son qoyulur və eləcə də, özünümüdafiə qununi şəkildə həyata keçirilir. Bütün bu qarşıdurmaların məsuliyyəti isə, təcavüzkarın üzərinə düşür.

Bir sözlə, İslam dövlətinin qorunması üçün təcavüzkarlara qarşı mübarizə aparılmalıdır. Əks təqdirdə, qeyd olunduğu kimi

[1] Bəqərə surəsi, ayə 194

müsəlmanlara qarşı edilən təcavüzlərin sayı artacaq, hüquqları isə, daha da çox tapdalanacaqdır.

### *(2-2-5) ƏHDƏ VƏFA PRİNSİPİ*

Beynəlmiləl əlaqələrdə böyük əhəmiyyət kəsb edən məsələlərdən biri də, əhdə vəfa prinsipidir. Bu məsələyə İslam dinində də böyük yer verilir. Belə ki, Qurani-kərimdə bu mətləbə işarə olunaraq deyilir: "O möminlər ki, əmanətlərini və əhdlərini qoruyub saxlayarlar [onlara tapşırışlmış əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər"[1] , "Əhdə vəfa edin. Çünki [insan] əhd barəsində [qiymət günü] cavabdehdir"[2], "Ey iman gətirənlər! Əhdlərə sadiq olun"[3].

Yuxarıda qeyd olunan ayələrdən belə məlum olur ki, əhdə sadiq qalıb onu qorumaq, tək müsəlmanların daxili əlaqələrinə deyil, bəlkə İslamın beynəlmiləl əlaqələrinə şamil olan olduqca gözəl bir xüsusiyyətdir. Peyğəmbərinin (s) həyat tərzinə nəzər saldıqda, o böyük şəxsiyyətin bağladığı saziş və əhdnamələrə daim sadiq qaldığının şahidi oluruq. Məsələn, Qureyş qəbiləsi ilə bağladığı sülh sazişinin beşinci bəndində deyilirdi: "Qureyşdən kim ağasının icazəsi olmadan Məhəmməh (s)-a qoşularsa, dərhal geri qaytarılmalıdır". Əbu Bəsir Məkkədən Mədinəyə gəlib orada sığınacaq almaq istədikdə, Peyğəmbər (s) Qureyş qəbiləsindən olan İbni Məğmundan Əbu Bəsirin geri qaytarılmasına dair məktub alır. Məktubda deyilirdi: "Bilirsən ki, səninlə şərt bağlayıb belə razılığa gəlmişik ki, bizlərdən birisi sənin yanına gəlib orada sığınacaq almaq istədikdə, ona sığınacaq verməyib geri qaytarmalısan. İndi bizim adamımızı geri qaytar". Peyğəmbər (s) sazişin beşinci bəndinə əsasən Əbu Bəsiri Məkkəyə geri qaytarır. Hərçənd Qureyş Əbu Bəsiri təhvil aldıqdan sonra yenidən Məkkədən qaçıb Mədinədə müsəlmanların yanına gəlir.

Sülh sazişinin səkkizinci bəndinə - Umrətul quzaya əsasən, müsəlmanlar yalnız üç gün Məkkədə qala bilərdilər. Üç gün başa çatdıqdan sonra Qureyş onlara müddətin başa çatdığın elan edərdi.

---

[1] Möminun surəsi, ayə 8

[2] Isra surəsi, ayə 34

[3] Maidə surəsi, ayə 1

Peyğəmbər (s) müsəlmanlarla birlikdə Məkkəni tərk edər və buyurardı: "Müsəlmanlardan kimsə Məkkədə qalmamalıdır".

Tarixə nəzər saldıqda, biz Peyğəmbər (s)-ın bağladığı digər sazişlərin də şahidi oluruq. Misal olaraq onlardan bir neçəsinə işarə edirik:

1-Mədinədə kitab əhli ilə sülh və əmin-amanlıq şəraitində müştərək həyata dair bağlanılan saziş;

2-Qureyş müşrikləri ilə bağlanılan müvəqqəti sülh sazişi;

3-"Nəcran məsihiləri" ilə bağlanılan daimi sülh sazişi;

4-Müştərək müdafiə xarakteri daşıyan Bəni Qəffar və Bəni Zəmrə kimi müşrik ərəb qəbilələri ilə bağlanılan hərbi saziş.

Peyğəmbər (s)-ın həyat tərzinə nəzər saldıqda, bir daha bu həqiqətin şahidi oluruq ki, mövcud şəraitin olduqca ağır olmasına baxmayaraq, hər zaman bağlanılan saziş və əhd-peymanlara sadiq qalmış və bir dəfə də olsun şəxsi mənafei xatirinə onlara qarşı çıxamamışdır.

Onun sadiq davamçıları olan məsum imamların həyatında da bu kimi hallara tez-tez rast gəlmək olur. Misal olaraq Əli (ə)-ın Malik Əştərə göndərdiyi məktuba nəzər salaq. Məktubda deyilir: "Düşmənlərinlə saziş bağladıqdan sonra ona sadiq qalmağa çalış. Nəbada bağladığın saziş və əhd-peymana qarşı çıxasan... Çünki əhd-peymanı bədbəxt insanlardan savayı kimsə ayaqları altına atmayır".

Deməк, müsəlmanlar istər özlərinin daxili məsələlərində, istərsə də beynəlmiləl səhnədə öz əhdlərinə sadiq qalmalı və bunu da nəzərə almalıdırlar ki, bir qədər əvvəl qeyd olunan prinsiplərin özləri əhdə sadiq qalma prinsipinə səbəb olur. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, sülh əhval ruhiyyəli qarşılıqlı münasbət və ümumbəşəri çağırışlar üçün beynəlmiləl sazişlərin möhkəmlənib özünə yer tapması, olduqca vacib və zəruri məsələlərdəndir.

### *(2-2-6) DÖVLƏTLƏRİN TAM AZADLİQ HUQUQUNA DAİR BƏRABƏRLİK PRİNSİPİ*

### *MÜSTƏQİLLİK VƏ HAKİMİYYƏT*

Bu məsələyə böyük əhəmiyyət verən İslam dini hesab edir ki, bütün dövlətlərin azadlıq, müstəqillik və hakimiyyət baxımından bərabər hüquqa malik olub və bu hüquqdan daxili və xarici

əlaqələrində istədiyi kimi istifadə edə bilərlər. Hər hansı bir dövlətin bir qrup cəmiyyət üzvlərini bu hüquqdan məhrum etməsi İslam nöqteyi-nəzərindən, bəşəriyyətə qarşı xəyanətdir. Bütün bunlar diktator dövlətin daxili ixtiyar və hüquqlarından hesab olunmur.

İslam, hər hansı bir dövlətin istədiyi siyasəti yürüdərək digər millətləri istismar edənlərlə tamamilə müxalif olub, onların öz qanuni hüquqlarından istifadə edib azadlıq, müstəqillik və milli hakimiyyətdən bəhrələnmələrini dəstəkləyir. O, öz hüquqlarını müdafiə etməyi və lazım gəldikdə, təcavüzkar qüvvələrə qarşı dayanaraq, onlarla mübarizə etməyi bacarmalıdır. Bu kimi hallarda məzlumları müdafiə edib təcavüzkarı geri oturtmaq tək İslam dövlətinin deyil, bəlkə bütün müsəlmanların vəzifəsidir.

Quran ayələrinə, Peyğəmbər (s) və məsum imamların həyat tərzinə nəzər saldıqda, dəfələrlə dövlətlərin azadlıq, müstəqillik və hakimiyyət məsələlərində yiyələnməli olduqları bərabərlik prinsipinin şahidi oluruq.

Həzrət Məhəmməd (s) bəşəriyyətin cəhalət əsarətindən azad olunması üçün peyğəmbər təyin edilmişdir.

İslam, azadlıq dinindir. Əraf surəsinin 175-ci ayəsində bu haqda deyilir: "Onların ağır yükünü yüngülləşdirər və üstlərindəki buxovları açar [şəriətin çətin hökümlərini götürər] və onun yerinə insan fitrəti ilə müvafiq olan asan din gətirər".

Qurani-kərim "Hər firqə öz dininə sevinir"[1] ayəsini bəyan etməklə atdığı ilk addımda, dinin təbliğ olunmasına geniş yer verir və heç bir qurumun azadlığını təhlükə ilə qarşı-qarşıya qoymur.

"Dində məcburiyyət [zorakılıq] yoxdur!"[2] ayəsi ilə də insana xurafat və cəfəngiyyatdan yaxa qurtarıb, həqiqi İslamı dərk etmək üçün azadlıq hüququ bəxş edir. Qurani-kərim müsəlmanlara, onlarla düşmənçilik etməyən şəxslərlə ədalətlə rəftar edib, onları rəsmi olaraq tanımağa icazə verir. "Allah, din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlara ədalətlə rəftar etməyi sizə qadağan etməz"[3].

---

[1] Möminun surəsi, ayə 53

[2] Bəqərə surəsi, ayə 256

[3] Mumtəhinə surəsi, ayə 8

### *(2-2-7) AZADLİQ HƏRƏKATLARİNDAN MÜDAFİƏ PRİNSİPİ*

Qurani-kərim azadlıq hərəkatlarını dəstəkləyir və onlardan bir neçəsinə işarə edərək buyurur: "Şübhəsiz ki, Biz öz peyğəmbərlərimizə və iman gətirənlərə həm dünyada, həm də şahidlərin şəhadət verəcəyi gündə [qiyamət günündə] yardım edəcəyik"[1].

Başqa bir yerdə isə buyurulur: "Əgər sizinlə vuruşsalar, şübhəsiz ki, sizə yardım edəcəyik"[2].

Digər ayələrdə isə, haqq-ədalət uğrunda aparılan mübarizələrin himayə olunmaması qətiyyətlə pislənilir. "Sizə nə olub ki, bir-birinizə kömək edə bilmirsiniz"[3]. Kömək istəmək, zülmə məruz qalan şəxslərin haqqıdır və köməklik istədikdə, onlara hökmən yardım olunmalıdır: "Zülmə məruz qaldıqdan sonra [həddi aşmadan] onun əvəzini çıxanlara, heç bir cəza verilməz [onların heç bir günahı yoxdur, çünki uğradıqları haqsızlığın əvəzini çıxmışlar]"[4].

Ənfal surəsinin 72-ci ayəsində isə deyilir: "Əgər onlar din yolunda istəsələr, onlara kömək göstərmək sizə vacibdir".

İnsaf və ədalət, haqq yolunda aparılan mübarizə və hərəkatların himayə olunmasını tələb edir. Lakin hal-hazırda sülh və əmin-əmanlıq bəhanəsi ilə BMT-nin ədalətsizliyə yönəldiyi hiss olunur. BMT-nin nizamnaməsinin 33-cü bəndində deyilir: "Beynəlmiləl əmin-amanlığı təhlükə ilə üzləşdirə biləcək bütün ixtilaflar hər şeydən əvvəl müzakirə, vasitəçilik, saziş, mühakimə və müxtəlif təşkilatlara müraciət etməklə həll olunmalıdır".

Maddədən belə bir nəticəyə gəlmək olur ki, zəiflə güclü, zalımla məzlum, haqlı ilə haqsız arasında meydana gələn bəzi ixtilafların həlli güclü və zalım tərəfin xeyrinə nəticələnməlidir. Şübhəsiz ki, bu maddə zülmə məruz qalmış və azadlıq uğrunda mübarizəyə atılan millətlərin daha çox istismar olunmalarına münasib şərait yaratmış olur. Çünki, bu mübarizələr beynəlmiləl təhlükəsizliyi ciddi təhlükə ilə üzləşdirə bilər. İstismarçı ölkələrin tabeçiliyində olan qruplaşmaların azadlıq uğrunda apardıqları hərəkatlar, beynəlmiləl

---

[1] Möminun surəsi, ayə 51

[2] Həşr surəsi, ayə 11

[3] Saffat surəsi, ayə 25

[4] Şura surəsi, ayə 41

səviyyədə himayə olunmalıdır. Bütün bunlardan ən başlıca məqsəd, haqq-ədalətə əsaslanan beynəlmiləl təhlükəsizliyin qorunub saxlanılmasıdır. Peyğəmbər (s)-dan nəql olmuş rəvayətlərdən birində deyilir: "Müsəlmanlardan yardım istəyən bir şəxsin fəryadını eşidib ona cavab verməyən şəxs, müsəlman deyildir."

Rəvayətdə fəryad dedikdə, yardım nəzərdə tutulur və yardım istəyən şəxs istər müsəlman olsun, istərsə də qeyri-müsəlman, əgər müsəlmanlardan yardım istəmişsə, heç bir fərq qoymadan səsinə səs verib, yardım əl uzadılmalıdır.

Rəvayət, din və milliyyətlərdən asılı olmayaraq yardım səsini ucaldan bütün insanlara köməklik olunmasının zəruriliyini çatdıran onlarla nümunədən birini təşkil edir. Bir çox hallarda isə, qeyri-müsəlman dövlətlər müsəlman təbliğatçılarına haqqı tapdanılan şəxsləri, İslam qanunları ilə tanış etməyə imkan vermirlər. Bu səbəbdən cəmiyyət müsəlmanların hədəf və amallarının ədalətli olduğu və onların haqqı tapdanılan şəxsləri müdafiə etdiklərini bilib əxlaqi dəyərlərinə iman gətirmələri kifayət edər.

Haqq-ədalət və azadlıq uğrunda aparılan hərəkatlardan himayə prinsipi, heç də hər hansı bir şəxsin təşəbbüsü ilə həyata keçirilən prinsip deyildir. Bəlkə, bu mühüm işi öhdəsinə götürmüş qüvvələrə aiddir. İmam Sadiq (ə)-dan nəql olmuş rəvayətdə İslamın bu məsələyə yetirdiyi diqqət, belə açıqlanır. Əbu Əmr Zubeyri deyir: "İmam Sadiq (ə)-a dedim: "Camaata Allaha doğru çağırmaq və Allah yolunda vuruşmaq barədə açıqlamalar verməyinizi istərdim. Buna yalnız müəyyən şəxslərin haqqı çatır, yoxsa Allaha və Onun peyğəmbərinə iman gətirmiş hər bir şəxs insanları təkallahlığa çağırıb Onun yolunda cihad edə bilər?" İmam Sadiq (ə) sualın cavabında buyurur: "Bunlar yalnız müəyyən şəxslərə aiddir və onlardan savayı kimsə bu işləri görməz". Onların kim olduğunu soruşduqda, İmam Sadiq (ə) buyurdu: "O kəslər ki, Allah-təala mübarizə üçün onlara lazımi şərait yaratmış olsun. Kim bu şəraitə malik olarsa, başqalarını təkallahlığa çağırıb Onun yolunda cihad da edə bilər. Lazımi şəraitə malik olmayan şəxslərin isə nə Allah yolunda cihad etməyə, nə də camaatı təkallahlığa dəvət etməyə haqqı vardır." Daha sonra İmam Sadiq (ə)-dan həmən şəraitlərin açıqlanmasını xahiş etdim. Buyurdu: "Allah-təala öz kitabında

(Quran) insanların Ona tərəf dəvət olunmalarına dair lazımi məlumatlar verir və bu ağır məsuliyyəti üzərinə götürmüş şəxsləri gözəl adlarla vəsf edərək, onların yüksək məqamlara nail olacaqlarını bildirir. Allah-təala bildirir ki, Hamıdan əvvəl O, özünü Ona tabe olmağa çağırmışdır."

Yunus surəsinin 25-ci ayəsində bu haqda buyurulur: "Allah [bəndələrini] əmin-amanlıq yurduna [cənnətə] çağırır və istədiyini doğru yola salır".

Başqa bir yerdə Peyğəmbər (s) haqqında söz açıb buyurur: "[Ya Məhəmməd!] İnsanları hikmətlə [Quranla, tutarlı dəlillərlə] gözəl öyüd-nəsihət [moizə] ilə Rəbbinin yoluna [İslama] dəvət et. Onlarla ən gözəl surətdə [şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə] mübahisə et"[1].

Demək, Allahın göstərişləri ilə müxalif olan və insanları Quranla deyil, digər vasitələrlə Allaha tərəf çağıran şəxslər həqiqi Allah mübəlliğləri hesab olunmurlar. Allah-təala başqa bir ayədə Peyğəmbər (s)-a müraciət edərək buyurur: "Sən düz yola yönəldirsən"[2]. Yəni düz yola hidayət edirsən. Üçüncü mərhələdə isə, Quran haqda söz açaraq buyurur: "Həqiqətən, bu Quran [bütün bəşəriyyəti] ən doğru yola [İslama] yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir"[3].

Ali-imran surəsinin 104-cü ayəsində isə, Allah və Onun peyğəmbərindən sonra insanları haqqa dəvət edən şəxslərə işarə olunaraq buyurulur: "[Ey müsəlmanlar!] İçərinizdə [insanları] yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar, [bu camaat] həqiqətən, nicat tapmış şəxslərdir". Daha sonra onların kim olduqlarını açıqlayır: "İbrahim və İsmayıl (ə)-ın nəslindən olub Məkkədə məskunlaşmış bu şəxslər, Allahdan başqa ayrı bir varlığa pərəstiş etməz və hər zaman bu iki peyğəmbərin başladıqları hərəkatı davam edərlər. Onlar o kəslərdirlər ki, Allah-təala bütün eyb və nöqsanlardan uzaq etmiş və onları yüksək məqamlarla mükafatlandırmışdır".

---

[1] Nəhl surəsi, ayə 125

[2] Şura surəsi, ayə 52

[3] Isra (Bəni Israil) surəsi, ayə 9

Yusif surəsinin 108-ci ayəsində də məhz bu mətləbə toxunularaq buyurulur: "[Ya Məhəmməd!] De ki, bu mənim [təbliğ, dəvət] yolumdur. Mən və mənə tabe olan [möminlər] açıq-aşkar bir dəlillə [insanları] Allaha çağırırıq". Yəni Peyğəmbər (s)-ın arasında zühur etdiyi və ona iman gətirən ümmət, heç vaxt Allahdan başqa ayrı bir varlığa ibadət etməmiş və Ona şərik qoşaraq küfr çirkabına aludə olmamışlar. Başqa bir ayədə Allah-təala peyğəmbərinin davamçılarını yaxşı işlərə dəvət, pis işlərdən çəkindirən və insanları Ona doğru çağıran bir ümmət kimi vəsf edir: "[Ya Peyğəmbər!] Sənə və sənin ardınca gedən möminlərə təkcə Allah bəs edər". Daha sonra Peyğəmbər (s)-a tabe olub onun davamçılarına çevrilmiş möminləri vəsf edərək buyurulur: "Məhəmməd əleyhissəlam Allahın peyğəmbəridir. Onunla birlikdə olan [möminlər] kafirlərə qarşı sərt, bir-birinə [öz aralarında] isə mərhəmətlidirlər. Sən onları [namaz vaxtı] rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə nişanəsidir. [Qiyamət günü onlar üzlərindəki möminlik nuru, alınlarındakı möhür yeri ilə tanınarlar.] Bu onların Tövratdakı vəsfidir"[1]. Başqa bir ayədə isə deyilir: "O gün Allah öz peyğəmbərini və onunla birlikdə iman gətirənləri rüsvay etməz. "Onların [iman] nuru [qıl körpüsü üstündə onlara yol göstərmək üçün] önlərindən və sağ tərəflərindən axıb şölə saçar"[2] . Möminun surəsinin 1-ci ayəsində isə belə vəsf olunurlar: "Həqiqətən, möminlər nicat tapmışlar". Həmin surənin növbəti ayələrində başqalarının özlərini onların cərgəsinə sala bilməmələri üçün buyurulur: "O kəslər ki, namazlarında [hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha] müti olub Ona boyun əyərlər! [Allahın qarşısında kiçilərlər!]". "O kəslər ki, zarafatdan, lüzumsuz şeylərdən [qadağan olunmuş əməllərdən] üz döndərərlər"[3].

Nəhayət, həmin surənin 11-ci ayəsində buyurulur: "Firdovsi cənnətinə varis olanlar, orada əbədi qalarlar!"

Furqan surəsinin 68 və 69-cu ayələrində onların fəzilət və üstün xüsusiyyətləri haqqında buyurulur: "Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə

---

[1] Fəth surəsi, ayə 29

[2] Təhrim surəsi, ayə 8

[3] Möminun surəsi, ayə 1-3

qəsd və zina etməzlər. Hər kəs bunu [bu işləri] etsə, cazasını çəkər. Qiyamət günü onun əzabı qat-qat olar və o əzab içində zəlil olub? daim qalar".

Daha sonra mömin və onların xüsusiyyətlərinə malik olan şəxslərin can və mallarını Onun yolunda döyüşüb, ölüb-öldürdükləri üçün cənnət bahasına aldığını bildirir: "Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin can və mallarını Tövrat, İncil və Quranda haqq olaraq vəd edilmiş
cənnət müqabilində satın almışdır". Ayənin davamında Allahın verdiyi vədəyə əməl edəcəyi haqda buyurulur: "Allahdan daha çox əhdə vəfa edən kimdir? Etdiyiniz sövdəyə [müamiləyə] görə sevinin. Bu ən böyük qurtuluş və uğurdur!". Bu ayə nazil olduqdan sonra bir şəxs Peyğəmbər (s)-ın yanına gəlib ondan soruşur: "Ey Peyğəmbər! Sənin nəzərincə, qılıncını siyirib Allah yolunda cihad edən və döyüş meydanında həlak olmuş, lakin günah da edən bir şəxs şəhid hesab olunurmu?" Elə həmən an Allah-təala Peyğəmbər (s)-a bu ayəni nazil edir: "[Onlar Allaha] tövbə edən, ibadət və şükr səna edənlər, oruc tutanlar [və ya cihad uğrunda, elm təhsil etmək üçün yurdundan ayrılıb başqa yerlərə gedənlər], rüku və səcdə edənlər [namaz qılanlar] yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlərdir. [Ya Məhəmməd!] Belə möminləri [Cənnətlə] müjdələ"[1].

Sonra Peyğəmbər (s) mömin mücahidlərə belə bir böyük mükafatla müjdə verib buyurur: "Tövbə edib günahdan uzaq olanlar, Allaha şərik qoşmayıb yalnız ona pərəstiş edənlər, Allaha istər adi halda olsun, istərsə də çətinliklərdə şükr və səna edənlər, namaz qılıb oruc tutanlar, səcdə və rükuya getdikdə son dərəcədə diqqətli olanlar, namazlarını vaxtlı vaxtında qılanlar və bütün bunlarla yanaşı, başqalarını xeyirli işlərə dəvət edib özləri də ona əməl edənlər və başqalarını pis işlərdən çəkindirib özləri də onlardan uzaq olanlara öldürüldükdə, cənnət müjdəsi veriləcəkdir". Nəhayət Həcc surəsinin 38 və 39-cu ayələrində yalnız bu xüsusiyyətə malik olan şəxslərə döyüş izni verildiyinə işarə olunaraq buyurulur: "(Şübhəsiz ki, Allah iman gətirən kəslərdən [kafirlərin əzab-əziyyətini] dəf edər. Allah həqiqətən, heç bir xaini və nankoru sevməz", "Zülmə məruz qaldıqlarına görə vuruşanlara [kafirlərə qarşı Allah yolunda

[1] Tövbə surəsi, ayə 112

döyüşməyə] izn verilmişdir. Allah onlara kömək etməyə əlbətdə qadirdir".

Çünki, yerdə və göylərdə mövcud olan bütün varlıqlar Allaha, Onun peyğəmbərinə və qeyd olunan xüsiyyətlərə malik olan möminlərə məxsusdur. Deməki, Quranın işarə etdiyi xüsusiyyətlərə malik olan şəxslər mömin hesab olunurlar. Zülmə məruz qalıb haqları tapdalandıqda isə, onlara cihad və mübarizə icazəsi verilir.

Bir qədər əvvəl qeyd olunan Həcc surəsinin 39-cu ayəsinə istinad edərək belə bir nəticəyə gəlmək olar ki, kamil imana malik olmayan şəxslər tövbə edənədək, mübarizə aparılacaq şəxslərin sırasına daxildirlər. Möminlərin malik olduqları xüsusiyyətlərin tam əksinə malik olan şəxslər, zülmə məruz qalanların sırasına deyil, zalimlərin sırasına daxildirlər və onlar heç bir səlahiyyətə malik olmadıqları üçün nə cihad, nə təkallahlığa dəvət və nə də yaxşı işlərə sövq edib pis işlərdən çəkindirə bilərlər. Əleyhinə cihad olunan şəxslər cihad etmək, təkallahlığa dəvət olunan şəxslər başqalarını təkallahlığa dəvət etmək, yaxşı işlər görməyə sövq olunan şəxslər başqalarını yaxşı işlər görmək və pis işlərdən çəkindirilən şəxslər başqalarını pis işlərdən çəkindirməkdə heç bir hüquqa malik deyillər. Bir sözlə, Allahın müəyyən etdiyi xüsusiyyətlərə malik olan şəxslər təbii olaraq zülmə məruz qalanlardan olacaqlar. Məhz buna görə də, onlara cihad izni verilir. Necə ki, Peyğəmbər (s)-ın yaxın əshabları həmin xüsusiyyətlərə malik olmuş və zülmə məruz qaldıqları üçün Allah yolunda cihad etmişlər. Çünki, bəzi hallar istisna olmaqla bəzi məsələlər hamıya vacib olduğu kimi, Allahın verdiyi bu hököm də əvvəlkilər üçün necə zəruri olmuşsa, gələcəkdəkilər üçün də eyni qayda olaraq, vacib və zəruri olacaqdır. Yəni əvvəlki ümmətlərin üzərinə hansı vəzifə düşmüş və məsuliyyət daşımışlarsa, gələcək ümmətlərin üzərinədə həmən vəzifələr düşüb eyni qaydada olaraq məsuliyyət daşıyacaqlar.

Əvvəlki ümmətlər necə mühakimə olmuşlarsa, onlar da həmin şəraitdə mühakimə olunacaqlar. Demək, şəxs möminlərə xas olan xüsusiyyətlərə malik olmayınca, Allah yolunda cihad edib mübarizə aparmaq üçün heç bir səlahiyyətə malik deyil və o belə bir addımı yalnız müəyyən olunmuş xüsusiyyətlərə malik olduqdan sonra ata bilər. Bütün bunları nəzərə alaraq, insan Allahdan qorxmalı və

Allahın onu uzaq olmağa əmr etdiyi nəfsani istəklərə tabe olmamalıdır. O, özünü aldanıb Allah və Quran barədə uydurulan iftiralara əsaslanaraq, Quran hafizləri və din qoruyucularından uzaq düşməməlidir. Allahdan qorxmalı və Onun bərabərində əsassız və şübhəli dəlillər gətirməlidir. Çünki, Allah yolunda şəhadətə nail olmaqdan başqa ikinci böyük bir məqam yoxdur.

Bu səbəbdən hər bir şəxs, özünü dəyərləndirməyi və özü haqda hökm çıxarmağı bacarmalıdır. O, Quranı hər şeydən üstün tutaraq, əməllərini onunla müqaisə etməlidir. Çünki, insanı özündən yaxşı kimsə tanımır. Buna görə də şəxs, cihad üçün lazım olan xüsusiyyətləri özündə müşahidə etdikdə, dərhal mübarizə meydanına atılmalıdır. Özünüzdə nöqsan və çatışmamazlıq müşahidə etdikdə isə, Allahın cihad üçün müəyyən etdiyi xüsusiyyətlərə nəzər salıb, həmin xüsusiyyətləri özündə cəm etməyə çalışmalıdır. Cihad etmək istəyən şəxslərə "cihad etməyin" demək istəməyirik. Demək istədiyimiz şey bundan ibarətdir ki, insan Allahın Onun yolunda mübarizə aparmaq istəyən şəxslər üçün müəyyən etdiyi xüsusiyyətlərə nəzər salmalı və özündə müşahidə etdiyi çatışmamazlığı aradan qaldırmağa səy etməlidir. Özlərini islah edib həmin xüsusiyyətlərə yiyələndikdə isə, cihada izn verilmiş şəxslərin sırasına daxil olarlar. Günah çirkabına qərq olub itaətsizliyə davam etdikdə isə, məhşərdə mühakimə olunub layiqli cəzalarına çatarlar.

Bu haqda nəql olmuş rəvayətlərdən birində deyilir: "Allah-təala dini, fəzilət sahiblərinin vasitəsilə yaşadar".

Demək, insan Allahdan qorxmalı və qeyd olunan mənfi xüsusiyyətlərə yiyələnən şəxslərdən uzaq olmalıdır. Artıq hər şey açıqlandı və bundan belə kimsə bilməyib xəbərsiz olduğunu bəhanə edə bilməz. Allahdan böyük qüdrət sahibi yoxdur və Allah kifayətdir bizə. Ona arxalandıq və son dönüş Ona doğrudur[1].

## *(2-3) QURAN VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR*

[1] "Islamın təkamül mərhələsi" Cəlaləddin

Ən kamil ilahi kitab və müsəlmanların qanun məcəlləsi olan Quran "Allah suda və quruda nə varsa bilir"[1] həqiqətini bəyan etməklə, "Bu [Quran] insanlar üçün bəsirət gözüdür"[2] şüarı ilə müsəlmanlar və digər millət və dövlətlərin beynəlmiləl əlaqələrinin əsasını qoyur.

İslam, insan fitrəti ilə tam həmahəng və ümumbəşəri çağırışa malik olduğu üçün insan təbiəti onu bir gün bu müqəddəs dinə üz tutmağa vadar edir. Qurani-kərim bu haqda ayələrin mübəlliğ və icraçısı olan Peyğəmbərə (s) işarə edərək bu mətləbi, yəni İslamın ümumbəşəri din olduğunu bir daha sübuta yetirir:

1-"[Ya Məhəmməd!] De ki, ey insanlar! Mən Allahın sizin hamınıza göndərilmiş peyğəmbəriyəm"[3].

Göründüyü kimi bu ayədə Allah-təala öz peyğəmbərinə, bütün insanlar üçün göndərilmiş peyğəmbər olduğunu əmr edir.

2-"Allah yanında [məqbul olan] din, əlbətdə İslamdır"[4].

Dinin ruhunu, mahiyyətini Haqqın qarşısında təslim olmaq təşkil edir. Bütün dövrlərdə Allahın nəzərində həqiqi din və dinin ruhu, təslim olmaqdan ibarət olmuşdur. Peyğəmbər (s)-ın gətirdiyi din də, ilahi dinlərin ən üstünü olduğu üçün "İslam" adlandırılmışdır. Bu səbəbdən bu ilahi din, bütün dövrlərə şamildir.

3-"Səni də [Ya Məhəmməd!] aləmlərə [bütün insanlara və cinlərə] ancaq bir rəhmət olaraq göndərdik"[5].

Ayədə Peyğəmbər (s)-ın vücudunun aləmlər üçün rəhmət olduğuna işarə olunur. Quran, istər kafir olsun, istərsə də mömin, bütün insanların Peyğəmbərin (s) rəhmətinə borclu olduqlarını bildirir. Çünki, o ümumbəşəri bir dini öz öhdəsinə götürmüş və onların nicat tapmasına da səbəb olan məhz onun özüdür. Yox əgər camaat ondan lazımınca istifadə edə bilməmişlərsə, artıq bu onların özlərinə aiddir və bunun bağışlanmanın, rəhmətin hamıya şamil olmasına heç bir təsiri yoxdur. Məhz buna görə də, bu ayədən İslam dininin ümumbəşər bir din olduğu bəlli olur.

---

[1] Ənam surəsi, ayə 59
[2] Casiyə surəsi, ayə 20
[3] Əraf surəsi, ayə 158
[4] Ali-imran surəsi, ayə 19
[5] Ənbiya surəsi, ayə 107

İndi isə Quran nöqteyi-nəzərindən İslamın xarici siyasət üsullarına nəzər salaq:

### *(2-3-1) İSLAMA DƏVƏT*

Müsəlmanlar və onlara rəhbərliyi öz üzərinə götürmüş şəxs, yaranmış ilk fürsətdə kafirləri [dinsizləri] təkallahlığa, Həzrət Məhəmməd (s)-ın peyğəmbərliyi və İslamın digər əqidəvi məsələlərinə dəvət etməlidir. Demək dəvət, müsəlmanların başqalarından din və əqidələrini qəbul etmələrini istəmələrindən ibarətdir. Belə bir ağır məsuliyyəti üzərinə götürmüş şəxs, bu istiqamətdə gördüyü bütün işləri Allah dərgahında qəbul olunması üçün saf niyyət və səmimiyyətlə yerinə yetirməlidir. Quranın bir neçə ayələrində bu məsələyə birbaşa işarə olunduğu üçün İslama dəvət, dinin ən ümdə və zəruri məsələlərindən biri hesab olunur. Dəvət, şəxsi rəy (ictihad) əsasında həyata keçirilmədiyi üçün olduqca böyük əhəmiyyət kəsb edir. Bunun üçün də böyük fiqh alimləri təlif etdikləri kitablarda cihad (Allah yolunda savaş) barədə söz açarkən, bunu kafirlərə qarşı silahlı mübarizədən daha önəmli hesab etdikləri üçün bu mətləbə xüsusi yer vermişlər.

Qeyd etdiyimiz kimi, dəvət ibadi məsələlərdən birini təşkil edir və bu səbəbdən Allahın razılığını qazanmaq məqsədilə, yalnız Ona xatir həyata keçirilməlidir. İndi isə, bu mətləbə dəlalət edən Quran ayələrinə nəzər salaq. Nəhl surəsinin 125-ci ayəsində deyilir: “[Ya Məhəmməd!] İnsanları hikmətlə [Quranla, tutarlı dəlillərlə], gözəl öyüd-nəsihət [moizə] ilə Rəbbinin yoluna [İslama] dəvət et, onlarla ən gözəl surətdə [şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə] mübahisə et. Həqiqətən Rəbbin yolunda azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!”.

Ayənin əvvəlində istifadə olunan "dəvət et" felindən və Peyğəmbər (s)-ın siyasi həyatında dəvətə verilən əhəmiyyətdən belə bir qənaətə gəlmək olar ki, müşrik və kafirlərin İslama dəvət olunması, hər bir müsəlmanın üzərinə düşən ən başlıca vəzifələrdən birini təşkil edir. Buradan belə bir sual meydana çıxır: dəvət hər bir müsəlman tərəfindən ayrı-ayrılıqda olmalıdır, yoxsa müəyyən şəxslərin bu işlə məşğul olması yetər?

Alimlərin bir çoxu bu barədə belə bir fikirdədirlər ki, bir qrup şəxs kafirlərlə silahlı mübarizə apararaq cihadın vacibliyini başqalarının üzərindən götürdükləri kimi, müəyyən şəxslərdə bu işlə məşğul olmaqla, hökmün vacibliyini başqalarının üzərindən götürmüş olurlar. Deməli, dəvət etməzdən əvvəl heç bir müsəlmanın kafirlərlə cihad etməyə haqqı yoxdur. Səfəvilər dövründə yaşayıb fəaliyyət göstərmiş Şeyx Bəhayi özünün Came Abbasi adlı təlif etdiyi kitabında düşmənlə cihad etməzdən əvvəl üç vacib məsələyə işarə edərək, yazır: "... Müsəlmanlar düşmənlə mübarizəyə, yalnız imam (və ya onun nümayəndəsi) onları təkallahlığa, Həzrət Məhəmməd (s)-ın peyğəmbərliyinə, Əli (ə) və onun övladlarının imamətinə və dinin digər göstərişlərinə dəvət etdikdən sonra başlaya bilərlər. Müsəlmanlardan biri onlardan hər hansı birini İslama dəvət etməzdən əvvəl öldürərsə günah etmiş olur, lakin bunun müqabilində nə qisas alınır, nə də qan bahası verilir".

Məşhur şiə alimlərindən olan Mərhum Əllamə Hilli də özünün Təbsirət ül-Mütəallimin adlı kitabında dəvətin cihad və mübarizədən əvvəlki mərhələ olduğuna işarə edir. Şura surəsinin 15 və Fussilət surəsinin 33-cü ayələrində bir daha məlum olur ki, hər bir müsəlman qeyri-müsəlmanları İslama dəvət etməli və İslam dövləti digər dölətlərlə məhz bu prinsip əsasında əlaqə yaratmalıdır.

Yuxarıda qeyd olunan ayələrdə deyilir: “[Ya Məhəmməd!] Buna görə də, sənə əmr edildiyi kimi bu yolda səbatlı ol”, “[Xalqı] Allaha tərəf çağırın, yaxşı iş görən və "Mən müsəlmanam!"-deyən kəsdən daha gözəl danışan kim olar bilər?”

İslam dövlətinin qeyri-İslam dövlətlərinə səfir və nümayəndələr göndərərək o ölkə əhalisini İslam dininə dəvət etmələri, bu sahədə görülən ən mühüm işlərdən birini təşkil edir. Peyğəmbər (s)-ın müxtəlif məntəqələrə elçi və nümayəndələr göndərməsindən ən başlıca məqsədi də məhz bu olmuşdur.

### *(2-3-2) QURANİN İCBARİ ƏQİDƏYƏ MƏNFİ MÜNASİBƏTİ*

Əqidə azadlığını "Dində məcburiyyət [zorkılıq] yoxdur"[1] , heç bir halda heç nəyə göz dikməməyi "Kim yaxşı bir iş görərsə, xeyri özünə, kim də bir pislik etsə, zərəri özünə olar"[2] və nəhayət, düzgün təbliğat üsulunu "[Ya Məhəmməd!] İnsanları hikmətlə [Quranla, tutarlı dəlillərlə], gözəl öyüd-nəsihət [moizə] ilə Rəbbinin yoluna [İslama] dəvət et, onlara ən gözəl surətdə [şirin dillə, mehribanlıqla, əqli səviyyələrinə müvafiq şəkildə] mübahisə et"[3] bəyan edən bu üç ayə inkar olunmaz prinsiplərdir. Bu üç prinsipi diqqətdən keçirməklə belə bir qənaətə gəlmək olar ki, Quran icbari əqidəni qətiyyətlə rədd edir. Bu səbəbdən əqidəvi mübarizə (İslama dəvətin) sülh şəraitində aparıldığı kimsədə şübhə doğurmamalıdır. İnsanları hidayət və onların dünya görünüşünü islah etmək hər bir müsəlmanın vəzifəsidir. Əslində, bu İslam vasitəsilə əldə olunan böyük ilahi nemətlərin şükrünü yerinə yetirmək mənasını daşıyır. Elə bir şükr ki, onun xeyiri Allaha deyil, yalnız Onun bəndələrinə şamil olur.

Beynəlmiləl səhnəyə nəzər saldıqda, müsəlmanların dini təbliğ etdikləri ölkələrdə, dövlət rəhbərlərinin maddi və siyasi çətinliklərlə qarşılaşdıqlarını görərkən, dərhal İslam və müsəlmanlara qarşı silahlı mübarizələrə başladıqlarının şahidi oluruq.

İslam "icbari hidayət" və "icbari xoşbəxtlik"i qəbul etməyir. Belə ki, bir qrup şəxs dünya görüşlərinin artması və xoşbəxtliyə can atmadıqda, İslam müsəlmanlara öz əqidələrini icbari olaraq onlara qəbul etdirmələrinə icazə vermir. İnsanların hidayət olunmaları müsəlmanlar üçün yalnız o zaman vəzifəyə çevrilir ki, onlar hidayət və səadətə can atmış olsunlar və onların üzərinə düşən ən başlıca vəzifə, insanlarda istək və iradə yaratmaq deyil, onlara nail olmağa köməklik etməkdən ibarətdir. Yalnız belə bir şəraitdə onlar apardıqları mübarizələrdə qalib gələrək, qarşılarına qoyduqları hədəfə çata bilərlər.

---

[1] Bəqərə surəsi, ayə 256

[2] Casiyə surəsi, ayə 15

[3] Nəhl surəsi, ayə 125

### *(2-3-2) QURANİN QEYRİ-MÜSƏLMANLARLA SAXLANİLAN ƏLAQƏ VƏ SƏMİMİ DOSTLUQ MÜNASİBƏTLƏRİNƏ OLAN BAXİŞİ*

İslam dostluq, həmrəylik, qarşılıqlı anlaşıqlıq və nəhayət, fitri bir din olduğu üçün insanın fitrət və təbiət ilə əsla ziddiyyətlik təşkil etmir. Mumtəhinə surəsinin 8-ci ayəsində bu haqda deyilir: "Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxışılıq və onlara ədalətli rəftar etməyi qadağan etməz".

Göründüyü kimi, Quran qeyri-müsəlmanlarla bərqərar olunan əlaqələri adi hal kimi qiymətləndirir. Əlbətdə bir şərtlə ki, aşağıdakı hallara yol verilməmiş olsun:

1-Bərqərar olunan dostluq əlaqələri bir tərəfli, yəni yalnız müsəlmanlar tərəfindən deyil, hər iki tərəfdən olaraq qarşılıqlı xarakter daşımalıdır;

Ali-imran surəsinin 118-ci ayəsində bu mətləbə işarə olunaraq buyurulur: "Ey iman gətirənlər! Özünündən başqasını özünüzə dost tutmayın". Həmin surənin 119-cu ayəsində buyurulur: "Bəli, siz o kimsələrsiniz ki, onları sevirsiniz, onlar isə sizləri sevməz".

2-Bərqərar olunan dostluq əlaqələri, müsəlmanların qeyri-müsəlmanlara itaət və tabe olmalarına səbəb olmamalıdır;

"Ey iman gətirənlər! Əgər kafirlərə itaət edəcək olsanız, onlar sizi geri [öz dinlərinə] döndərər və siz də zərər çəkmiş halda geri dönərsiniz"[1].

3-Qeyri-müsəlmanlara arxa olub, onlara etimad olunmamalıdır;

"Zülm edənlərə [rəğbət bəsləməklə, kömək göstərməklə,] meyl etməyin"[2].

Belə ki, qeyri-müsəlmanlara etimad edib onlara arxa olmaq, bir çox hallarda onların daha da qüvvətlənməsinə səbəb olur. Onların qüvvətlənməsi isə zülm və haqsızlığa gətirib çıxarır.

4-Qeyri-müsəlmanların qarşısında sadəlövhlük göstərib onlara aldanılmamalı;

---

[1] Ali-imran surəsi, ayə 149

[2] Hud surəsi, ayə 113

“[Ya Məhəmməd!] Küfr edənlərin diyar-diyar gəzib-dolanması [ticarətdən, əkinçilikdən mənfət əldə edərək, xoş güzəran keçirməsi] səni aldatmasın”[1].

Bütün dövrlərdə insanları belə bir sual maraqlandırmışdır. O da ki, görəsən nə üçün zalım və fironlar daim gözəl və tam təminatlı həyat tərzi keçirmiş, haqsevər iman sahibləri isə, həyatlarını ehtiyac və yoxsulluq içində başa vurmuşlar? Quran bu suala cavab verərək buyurur: (Dünya özünün zahiri ləzzətləri ilə fani, və keçicidir.) Deməк başqalarının var-dövləti aldadaraq özünə aludə etməməlidir.

5-Kafirlərin rəhbərliyi qəbul olunmamalıdır.

Nisa surəsinin 144-cü ayəsində bu mətləbə toxunularaq buyurulur: “Ey iman gətirənlər! Möminləri qoyub, kafirləri dost tutumayın”. Bu kimi dostluqlar kafirlərin möminlərin üzərinə hakim olmaları ilə nəticələndiyi üçün qətiyyətlə pislənilir və bu məzmunda nazil olmuş digər, ayələrdə müsəlmanlara buna yol verilməmələri əmr olunmuşdur.

Bərqərar olunan dostluq əlaqələri öz çərçivəsindən çıxıb bir qədər əvvəl qeyd olunan beş haldan birinə səbəb olduqda, Quran nöqeyi-nəzərindən qətiyyətlə pislənilir və bu əlaqələrə son qoyub, onlarla həmfikir olan şəxslərlə münasibətdə olmağa əmr olunur.

### *(2-3-4) QURANİN HÖKMRANLİQ MƏSƏLƏSİNƏ OLAN MƏNFİ MÜNASİBƏTİ*

Kafirlərin müsəlmanların üzərinə hakim olmalarına yol verməmək, dinin ən mühüm məsələlərindən birini təşkil edir. Nisa surəsinin 144-cü ayəsində bu haqda deyilir: “Allah heç vaxt kafirlərə möminlərin əleyhinə olan bir yol göstərməz”. (Və lən yəcələllahu lilkafirinə ələl mumininə səbilə).

"Səbil" kəlməsinin lüğəvi mənası "yol" olsa da, İslam dinində xüsusi termin olaraq "qanun" və ya "şəriət" mənalarını daşıyır.

Allah-təala, kafirlərə möminlərin üzərinə hakim olacaq heç bir yol qoymamaqla yanaşı, müsəlmanlara da buna şərait yaradacaq hər hansı bir iş görməyi haram etmişdir. Bütün bunları nəzərə alaraq qətiyyətlə deyə bilərik ki, bu məsələ İslamın xarici əlaqələrində bir

---

[1] Ali-imran surəsi, ayə 196

növ "veto" xarakterini daşıyır. Əgər kafirlərin hökmüranlığına səbəb olacaq hər hansı bir iqtisadi, siyasi, mədəni saziş bağlanılar, hətta əgər bu və digər sahələrdə məqalə və çıxış dərc olunarsa, bu qanuna əsasən, batil və əsassız hesab olunur. Hətta əgər tərəflər arasında saziş rəsmi olaraq imzalansa belə, "əhdə sadiq qalma prinsipi" ilə ziddiyyətlik təşkil etdiyi və müsəlman cəmiyyətinin zərərinə olduğu üçün öz etibarını itirib ləğv olunur. Ayənin əvvəlində gələn "lən" bütün zamanlara şamil olan qəti inkaredici şəkilçi və qeyri-müəyyənlik halında gələn "səbil" kəlməsindən belə bir qənaətə gəlmək olur ki, Allah-təala kafirlər üçün müsəlmanların üzərinə hakim olacaq heç bir yol qoymamışdır.

Munafiqun surəsinin 8-ci ayəsi bu həqiqəti bir daha sübuta yetirir: "Şərəf-şan da, qüvvət və qələbə də yalnız Allaha məxsusdur".

Demək, belə bir qəti hökəm verildiyi bir halda Allahın müsəlmanların xar və rüsvay olmalarına səbəb olan hər hansı bir şeyə yol verilməsi, muhal və qeyri-mümkün bir məsələdir.

Peyğəmbər (s)-dan nəql olmuş "İslam hər şeydən ucadır və heç bir şey ondan uca deyildir"[1] hədisi bir daha bu mətləbi sübuta yetirir. Demək ayə və nəql olmuş hədislərin məzmunu ümumi xarakter daşıyıb, müsəlmanların kafirlərlə bərqərar etdikləri əlaqələrin bütün sahələrinə şamil olur.

### *(2-3-5) QURANİN MÜXTƏLİF MİLLƏTLƏRİN TANİNİLMASİNA OLAN BAXİŞİ*

Hücərat surəsinin 13-cü ayəsində bu haqda deyilir: "Ey iman gətirənlər! Biz sizi kişi və bir qadından [Adəm və Həvvadan] yaratdıq. Sonra bir-birinizi tanıyasınız [kimliyinizi biləsiniz] deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız, Allahdan ən çox qorxanınız və pis əməllərdən ən çox çəkinəninizdir. Həqiqətən, Allah [Hər şeyi] biləndir, [hər şeydən] xəbərdardır".

Ayədə bəşəriyyətin müxtəlif xalq və millətlərdən təşkil olduğuna işarə olunsa da, sonda hədəfin yalnız həyatın asanlaşması və onların bir-birlərini tanımalı olduqları bildirilir. Bütün bunlar maddi həyata

[1] Hürr Amuli "Vəsail uş-şiə" 17-ci cild, səh 367

aiddir. Mənəvi həyata gəldikdə isə, təqva və imandan savayı başqa heç bir şey nəzərdə tutulmur.

İslamın xalq və millətləri müxtəlif qruplara bölməsinə səbəb, bəlkə də aşağıdakı iki amil olmuşdur:

1-Bəşərin hələ də bütün ixtilafları kənara qoyub, vahid ümmət halında yaşamaq tərzi-təfəkkürünə yiyələnməməsi.

2-Müxtəlif millət və xalqlar bir-birlərindən fərqli maddi və mənəvi ehtiyaclara malik olması və bu sahədə düzgün siyasətin aparılmaması.

Hərçənd ki, hal-hazırki beynəlmiləl hüquq nizamnaməsində bu məsələ ilə əlaqədar XVİİ əsrdə tətbiq olunmuş qanundan istifadə olunur.

İslam, müxtəlif millət və xalqlarla bərqərar etdiyi əlaqələrdə bu həqiqəti onlara çatdırmışdır ki, tanışlıq onun nöqteyi-nəzərindən təbii bir hal almaqla yanaşı, həm də olduqca zəruri bir məsələdir. Mədinədə Peyğəmbər (s) ilə məsihi və yəhudi qəbilələri arasında yazılan ilk saziş, bu məsələ ilə əlaqəli olan heç bir şübhəyə yer qoymur. Hərçənd İslam, yer üzündə yaşayan bütün insanları vahid "möminlər ictimaiyyətinə" çevirmək istəyir. Yəni qarşıya qoyulan məqsədə - təkamülə çatmaq üçün bəşəriyyətin bütün fəaliyyətlərini bir səmtə istiqamətləndirib, onları ideal cəmiyyətə çevirmək istəyir. Lakin eyni zamanda bəşəriyyət həyatına hasil olan inkarolunmaz acı həqiqətləri də beləcə bəyan edir:

1-İnsanlar ixtilafa düçar olmazdan əvvəl vahid ümmət halında olmuşlar;

"İnsanlar [əvvəlcə] ancaq tək bir ümmət idilər [eyni bir dində idilər]. Sonra [aralarına ixtilaf düşdüyü üçün] ayrıldılar"[1].

2-Yaranmış bu çatışmamazlığı aradan qaldırmaq üçün onlara peyğəmbərlər göndərilmişdir;

"İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən [əzabla qorxudan] peyğəmbərlər göndərdi"[2].

3-Sonra bu cəmiyyət - müsəlmanlar başqalarına örnək olsun deyə, orta və ədalətli bir ümmət halına çevrilir.

---

[1] Yunus surəsi, ayə 19

[2] Bəqərə surəsi, ayə 213

"[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik"[1] . Hər bir millət istədiyi halda onlara birləşib müştərək hədəfə yiyələnə bilər.

"Allah yanında [məqbul olan] din, əlbətdə, İslamdır"[2] həqiqətini bəyan etməklə, "Budur sizin ümmətiniz - vahid və yeganə ümmət və Mənəm sizin pərvərdigarınız. Elə isə Mənə ibadət edin"[3] meydana gələn ümmətin mahiyyət və üzərinə düşən vəzifəsini açıqlayır.

## *(2-3-6) QURANİN BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ ƏLDƏ OLUNMALİ OLAN SÜLH VƏ BİRLİYƏ BAXİŞİ*

Sülh və birliyə dair iki ümumi baxış mövcuddur və bu iki baxışa Qurani-kərimdə işarə olunmuşdur:

1-Sülh və birliyə müştərək əqidə əsasında çağırış;

"[Ya Məhəmməd!] Söylə ki, ey kitab əhli, sizinlə bizim aramızda eyni olan [fərqi olmayan] bir kəlməyə tərəf gəlin! [O kəlmə budur ki] Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub, bir-birimizi [özümüzə] Rəbb qəbul etməyək!"[4].

Ayədən belə bir nəticəyə gəlmək olar ki, təkallahlıq səmavi dinlər arasında müştərək bir nöqtədir. Bu səbəbdən bu müştərək qüdrətə arxalanıb, sülh və birliyi onun əsasında bərqərar etmək lazımdır. Peyğəmbər (s) Rum imperatoru Herakl və Misir padışahı Məquqəsə göndərdiyi dəvət məktubunda da məhz bu ayəyə istinad etmiş və onları sülh və birliyə çağırmışdır.

2-Sülh və birliyin tam əksini təşkil edən düşmənə qarşı mübarizə, yeri gəldikdə müharibənin elan olunması.

"Kafir olanları, [insanları] Allah yolundan döndərənləri, sonrada kafir kimi ölənləri, şübhəsiz ki, Allah bağışlamayacaqdır! Buna görə də [cihadda] zəiflik göstərməyin və [kafirlərə] üstün [qalib] gəldiyiniz zaman [onları] sülhə dəvət etməyin. Allah sizinlədir"[5].

Bu kimi hallarda düşmənlə sülh saziş bağlayıb onların qarşısında yumşaqlıq göstərmək, müsəlmanlar üçün haram və yolverilməz bir

---

[1] Bəqərə surəsi, ayə 143
[2] Ali-imran surəsi, ayə 19
[3] Ənbiya surəsi, ayə 93
[4] Ali-imran surəsi, ayə 64
[5]Surənin adı və ayənin nömrəsi verilməyib

haldır. Yaranmış belə bir şəraitdə onlara qarşı müvafiq əks-əməl göstərilib gördükləri işlərdən əl çəkməyə vadar olunmalıdırlar.

Çünki onların müxalifəti, Allah, Onun Peyğəmbəri (s) və bütün müsəlmanlarla müxalifət etmək deməkdir. Bu isə müəyyən zaman və şəraitə deyil, bütün dövr və məkana şamildir. Demək bu kimi müxalifətlər olduqda, sülh və birlik heç bir məna və məfhum kəsb etmir.

Başqa bir ayədə buyurulur: "Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə [itaətinə] qayıdana qədər vuruşun. Təcavüzkarlıq edən [Allahın əmrinə] qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər"[1].

### *(2-3-7) QURANİN MÜQAVİLƏ ƏSASİNDA BƏRQƏRAR OLUNAN ƏLAQƏLƏRƏ OLAN MÜNASİBƏTİ*

Beynəlmiləl əlaqələrin bərqərar olunmasında istifadə olunan müəssir üsullardan birini də, məhz bu təşkil edir. İslam, beynəlmiləl əlaqlərdə nəinki bunun dəyər və əhəmiyyətini azaltmır, bəlkə əksinə olaraq onun zəruriliyinə təkid edir. Bu səbəbdən İslamın siyasi ideologiyasında beynəlmiləl əlaqələrin yaradılmasına böyük yer verilmişdir. Məhz buna görə də, İslamın xarici əlaqələrində, sazişlərin bağlanılması və sülh sazişlərinin daha da möhkəmləndirilməsi üçün yaranmış fürsətlərdən lazımi qaydada istifadə olunur.

İslam beynəlmiləl saziş və əlaqlərə böyük əhəmiyyət verməklə yanaşı, müxtəlif millət və qruplaşmaları da sülh müqavilələrini bağlamağa dəvət edir və eyni zamanda, İslam cəmiyyətinə bu sahədə ilk addımı ataraq, əlaqələri genişləndirmək və gücləndirməyi tövsiyə edir. Belə ki, tarix boyu sülh müqavilələrinin bağlanılması, hakimiyyəti öz üzərinə götürmüş İslam dövlətinin əsas vəzifələrindən biri hesab olunmuşdur. Nisa surəsinin 9-cu ayəsində bir başa bu mətləbə işarə olunaraq buyurulur: "Ancaq sizinlə aralarında əhd olan bir tayfaya sığınanlar, yaxud sizinlə və ya öz

[1] Hucərat surəsi, ayə 9

qövlərilə vuruşmaqdan ürəkləri sıxılaraq [xoşlanmayaraq], sizin yanınıza gələn şəxslər müstəsnadır"[1].

Bir qədər əvvəl əhdə sadiq qalmağın zəruriliyi haqqında söz açarkən qeyd etdik ki, Quran ayələrinə əsasən bağladığımız əhd-peymanların qarşısında məsuliyyət daşısaq da, bəzən yaranmış şəraiti nəzərə alaraq onlara qarşı çıxıb, pozmalı oluruq. Bu kimi hallar isə daha tərəf müqabili öz əhdini pozduğu təqdirdə baş verir.

"Məscidül-həramın yanında [Hudeybiyyədə] müqavilə bağladığınız kəslər [Bəni-Zəmirə, Kinanə qəbilələri] istisna olmaqla, müşriklərin Allah və Onun Peyğəmbəri yanında necə əhdi ola bilər?! Onlar sizinlə doğru-düzgün davrandıqca [əhdi pozmadıqca] siz də onlarla doğru-düzgün dolanın. Həqiqətən, Allah müttəqiləri [xəyanətdən, əhdi pozmaqdan çəkinənləri] sevər"[2].

Ənfal surəsinin 56, 57 və 58-ci ayələri də bu mətləbə dəlalət edir: "(Əgər [əhdi bağladığın] bir tayfanın sənə xəyanət edə biləcəyindən qorxsan, [döyüşə başlamazdan əvvəl] onlarla olan əhdini pozduğunu açıq-aydın [mərdi-mərdanə] özlərinə elan et. Çünki, Allah xainləri sevməz"[3], "Onlar [sənə qarşı müharibə etməmək barədə] əhd bağladığın kimsələrdir ki, [onu bağladıqdan] sonra hər dəfə əhdlərini pozar və Allahdan da qorxmazlar. Əhdi pozanları müharibədə ələ keçirtsən, onlara elə bir divan tut ki, arxalarınca gələnlərini də qorxudub dağıt. Bəlkə [bundan] ibrət alsınlar! [Və bir daha əhdi pozmağa cürət etməsinlər!]"[4].

Demək, Quran ayələrinin bir qismi tərəf müqabili bağladığı əhd-peymana sadiq qaldığı təqdirdə, müsəlmanlara da ona sadiq qalmaları, pozduqda isə eyni əks-əməl göstərib, bağladıqları əhd-peymanlara qarşı çıxıb onları pozmalarını əmr edir.

### *(2-3-8) QURANİN CİHADA OLAN BAXİŞİ*

Bu barədə müxtəlif məsələlər ortaya çıxır və onlar bir neçə hissəyə bölünür:

*1-Cihadın fəziləti*

---

[1] Nisa surəsi, ayə 90
[2] Tövbə surəsi, ayə 7
[3] Ənfal surəsi, ayə 58
[4] Ənfal surəsi, ayə 56, 57

Qurani-kərim cihad və onun fəzilətinə böyük əhəmiyyət verir, lakin cihad hökmünü verməzdən əvvəl güzəşt və dözümlüyə çağırır: "Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!"[1].

Başqa bir ayədə isə pisliklərin müqabilində yaxşılıq etməyi əmr edir. Qeyri-müsəlmanlar Peyğəmbər (s) və möminlərdən səmimi münasibət görüb, İslama meyl edə bilərlər: "Yaxşılıqla pislik eyni ola bilməz! [Ey mömin kimsə!] Sən pisliyi yaxşılıqla dəf et! [Qəzəbə səbirlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver!] Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən!)[2].

Cihadın fəzilət və əhəmiyyəti haqda isə buyurulur: "Allah yolunda öldürülənlərə [şəhid olanlara] "ölü" deməyin. Əksinə, onlar [Allah dərgahında] diridirlər, lakin siz bunu dərk etmirsiniz"[3].

Cihaddan boyun qaçıranlar isə belə məzəmmət olunurlar: "Ancaq varlı olduqları halda [döyüşə getməmək üçün] səndən izn istəyənlər məzəmmətə layiqdirlər. Onlar [cihada getməyib] arxada qalanlarla [qadınlar və uşaqlarla] bir yerdə qalmağa razı oldular. Allah onların ürəklərini [qazandıqları günaha görə] möhürləmişdir. Buna görədə onlar [başlarına gələcək müsibəti] bilməzlər"[4].

*2-Səfərbərlik və döyüş əmri*

Səfərlik dedikdə, canlı qüvvə və döyüş alətlərinin hazırlıq vəziyyətinə gətirilməsi nəzərdə tutulur.

Ənfal surəsinin 60-cı ayəsində bu haqda deyilir: "[Ey möminlər!] Allahın və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri qorxutmaq üçün kafirlərə qarşı bacardığınız qədər qüvvə və [cihad üçün bəslənilən] döyüş atları tədarük edin. Allah yolunda nə xərcləsəniz, onun əvəzi sizə artıqlaması ilə ödənilər və sizə heç bir haqsızlıq edilməz"[5].

Allah-təala öz qoşununa cihad iznini verərək, buyurur: "Allah yolunda vuruş [cihad et]"[6].

---

[1] Əraf surəsi, ayə 199
[2] Fussilət surəsi, ayə 34
[3] Bəqərə surəsi, ayə 154
[4] Tövbə surəsi, ayə 93
[5] Nisa surəsi, ayə 84
[6] mənbə verilməyib

*3-Müharibəyə qanunilik verən səbəblər*

Qurani-kərim müsəlmanlara qarşı hər hansı bir təcavüzə yol verildikdə və ya onlarla bağlanılan sülh sazişi tərəf müqabilləri tərəfindən pozulduğu təqdirdə, özlərini müdafiə etmək üçün onlara döyüş izni verir: "Zülmə məruz qaldıqlarına görə vuruşanlara [kafirlərə] qarşı Allah yolunda döyüşməyə izn verilmişdir. Allah onlara kömək etməyə, əlbətdə, qadirdir!"[1] , "O kəslər ki haqsız yerə və ancaq "Rəbbimiz Allahdır" dediklərinə görə yurdlarından çıxarıldılar. Əgər Allah insanların bir qismini digər qismi ilə [müşrikləri möminlərlə] dəf etməsəydi, sözsüz ki, soməələr [rahiblərin yaşadıqları monastırlar], kilsələr, yəhudi məbədləri və içərisində Allahın adı çox zikr olunan məscidlər uçulub dağılmışdı. Allah Ona [öz dininə] yardım edənlərə, şübhəsiz ki, yardım edər. Həqiqətən, Allah yenilməz qüvvət və qüdrət sahibidir"[2].

*4-Döyüşün qayda-qanunları*

Cihad hökmü verilən digər ayələrə nəzər salaq: "Hörmətlər qarşılıqlıdır. Sizə qarşı həddini aşanlara sizdə həmin ölçüdə həddi aşın [cavab verin]"[3].

1-Döyüşün başlanması;

"Ey iman gətirənlər! Ehtiyatı əldən verməyib, silahınızı götürün və [düşmənə qarşı cihada] ya dəstə-dəstə, ya da hamınız bir yerdə çıxın!"[4].

2-Döyüş zamanı;

"[Ya Məhəmməd!] Haram olan ayda vuruşmaq haqqında səndən soruşanlara söylə: "O ayda vuruşmaq böyük günahdır"[5].

3-Döyüş məkanı.

(Onlar sizinlə Məscidül-həram yanında vuruşmayınca, sizdə onlarla vuruşmayın!"[6].

*5-Quranın cihada olan baxışı və aparılan döyüşlərdən məqsəd*

Aşağıdakı ayələrdə kafir və müşriklərlə aparılan döyüşlərdən hədəf və məqsədlər beləcə açıqlanır:

---

[1] Həcc surəsi, ayə 39

[2] Həcc surəsi, ayə,40

[3] Bəqərə surəsi, ayə 194

[4]Nisa surəsi, ayə 71

[5] Bəqərə surəsi, ayə 217

[6] Bəqərə surəsi, ayə 191

1-Fitnənin aradan qaldırılması;

"Müşriklərin fitnəsi aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək, onlarla vuruşun"[1].

2-Zəif və çarəsizlərə yardım;

"[Ey müsəlmanlar!] Sizə nə olub ki, Allah yolunda və [hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb] "ey Rəbbimiz, bizi əhalisi zalim olan bu şəhərdən [Məkkədən] kənara çıxart, bizə Öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" - deyə, dua edən aciz kişi, qadın və uşaqlar uğrunda vuruşmursunuz?"[2].

3-Dinin qorunması

"Əgər onlar din yolunda kafirlərə qarşı sizdən kömək istəsələr, aranızda saziş olan bir tayfa əleyhinə yardım istisna olmaqla, onlara kömək göstərmək sizə vacibdir"[3].

## *(2-4) DÖVLƏT KONSTİTUSİYASİNİN İRANİN XARİCİ SİYASƏTİNƏ OLAN BAXİŞİ*

Deyilənlərə nəzər saldıqdan sonra İran İslam Respublikasının Konstitusiyasında onun xarici siyasətinə dair qüvvədə olan nizamnaməyə diqqət yetirməyi daha məqsədə uyğun hesab edirik. 1358-ci hicri-şəmsi (miladi - 1979-cu il) ilində qüvvəyə minmiş və 1368-ci ildə (1989) islahatlar aparılmış bu nizamnamə aşağıdakı bəndlərdən ibarətdir:

1. maddə - 152:

İran İslam Respublikasının xarici siyasəti, digər dövlətlərin hökmüranlığına tabe olmamaq, onları öz tabeçiliyinə vadar etməmək, ölkənin ərazi bütövlüyü və müstəqilliyinin bütün sahələrdə qorunması, bütün müsəlmanların hüquqlarını müdafiə etmək və müharibə aparmayan dövlətlərlə sülh şəraitində olub, istismarçı qüdrətlərin müqabilində heç bir vəzifə daşımamaq əsasında qurulmuşdur.

2. maddə - 153:

[1] Bəqərə surəsi, ayə 193

[2] Nisa surəsi, ayə 75

[3] Ənfal surəsi, ayə 72

Yadelli dövlətlərin ölkənin mədəniyyət, iqtisadiyyat, ordu, təbii sərvətlər və s. sahələri ələ keçirmələrinə dair onlarla hər hansı bir saziş və ya müqavilə imzalamaq qadağan və yolverilməzdir.

3. maddə - 154:

İran İslam Republikası insanların xoşbəxtliyini özünün ən başlıca hədəfi və müstəqillik, azadlıq və ədalətli Hakimiyyəti bütün insanların haqqı hesab edir. Bunun üçün də digər dövlətlərin daxili işlərinə müdaxilə etməməklə yanaşı, istismarçı qüvvələrə qarşı azadlıq və haqq-ədalət uğrunda mübarizə aparan müstəzəfləri himayə edir.

4. maddə - 155:

İran İslam Respublikası dövlət qanunlarına əsasən xain və tamahkar kimi tanınan şəxslər istisna olmaqla, bu ölkədən siyasi sığınacaq istəyən digər şəxslərə siyasi sığınacaq verə bilər.

### *İSTİFADə OLUNAN MəNBəLəR*


1. Cavadi Amuli, "Din fəlsəfəsi", "Bəşəriyyətin hüquq fəlsəfəsi", İsra nəşriyyatı, 1-ci çap, 1374-cü hicri şəmsi ili (1996);
2. Səid Cəlili, "Peyğəmbər (s)-ın xarici siyasəti", İslami təbliğat nəşriyyatı, 1-ci çap, 1368-ci hicri şəmsi ili (1988), bahar;
3. Doktor Səid Xəlil Xəlilyan, "İslamın beynəlmiləl hüququ", İslam mədəniyyət mərkəzi nəşriyyatı 3-cü çap, 1368-ci hicri şəmsi ili (1988) bahar;
4. Abbasəli Əmid Zəncani, "Siyasi fiqh", "İslamın beynəlmiləl hüququ", 3-cü cild, Əmir Kəbir nəşriyyatı, 2-ci çap, 1373-cü hicri şəmsi ili (1991);
5. Doktor Əhməd Bəxşayeşi Ərdistani, "İran İslam Respublikasının üsulları", Nur səsi nəşriyyatı, 1-ci çap, 1375-ci hicri şəmsi ili (1995);
6. Şeyx Tusi konfransında iştirak edən təhqiqatçıların birgə elmi işi, "İslam və cəmiyyət", 1-ci cild, Şeyx Tusi konfransının nəşriyyatı, 1-ci çap 1376-cı hicri şəmsi ili (1997).
7. Doktor Məhəmməd Həmidulla, tərcümə edən Seyyid Məhəmməd Hüseyni, "Həzrət Məhəmməd (s)-ın siyasi məktub və sazişləri, İslamın zühur etdiyi ilk illərin rəsmi sənədləri", Süruş nəşriyyatı, 1-ci çap, 1374-cü hicri şəmsi ili (1995);

8. Rəsul Cəfəriyan, "İslamın hicrətin 4-cü ilinədək siyasi tarixi", 2-ci cild, İslam mədəniyyət mərkəzi nəşriyyatı, 2-ci çap, 1369-cu hicri şəmsi ili (1990) payız;
9. Ustad Abbasəli Əmid Zəncani, "İslamın siyasi ideologiyasının əsasları", İslam mədəni və ideoloji təhqiqatlar nəşriyyatı, 1-ci çap, 1374-cü hicri şəmsi ili (1995);
10. Şeyx Taifə Cəfər Məhəmməd ibni Əli Tusi, "Təhzibul Əhkam", Əli Əkbər Ğəffarinin düzəliş və əlavələri ilə, 6-cı cild, Şabək nəşriyyatı, 1-ci çap, 1372-ci hicri şəmsi ili (1997);
11. Cavad Mənsuri, "İslam İnqilabına qarşı aparılan mədəni müharibə", Astan Quds Rəzəvi nəşriyyatı, 2-ci çap, 1372-ci hicri şəmsi ili (1991);
12. "Qurani-kərim";
13. "Nəhcül Bəlağə", Doktor Sübhi Saleh, Beyrut çapı, 1378-ci hicri şəmsi ili (1999), İran çapı 1359-cu hicri şəmsi ili (1980);
14. "İran İslam Respublikasının Konstiusiyası", Dövlət orqanı nəşriyyatı, 1368-ci hicri şəmsi ili (1991). 152, 153, 154 və 155-ci maddələr;
15. "İslam və Ərəb svilizasiyası", tərcümə edən Fəxr Dai Gilani;
16. "İbni Hişamın Sirəsi", 4-cü cild, Əbdül Məlik, Sirətun-nəbəviyyə, Darul əhya turasul ərəbiyyə nəşriyyatı, (tarixsiz);
17. Surinsen;
18. İbn Səd, Təbəqat, Həmidulla nəql edərək, Siratut-təbəqat ul-kubra, Beyrut çapı, 1959-cu il;
19. "Nəhcül Bəlağə", tərcümə edən Mohsen Farsi;
20. "Təfsiri-nümunə", 6, 2, 13, 9, 3, 22 və 21-ci cildlər;
21. "Ruh ul-yəqin", tərcümə edən Əli Əkbər Muhtədi;
22. "İslamda qununvericilik fəlsəfəsi", Sübhi Məhməsani, tərcümə edən Gülüstani, Tehran, Əmir Kəbir nəşriyyatı 1358 (1979);
23. Bizans tarixi, 1-ci fəsl;
24. Məkatiburrəsul, Əli Əhməd Miyanəci, 1-ci cild, 104, 117, 118, 121, 133, 134 və 169-cu səhifələr;
25. Sivilizasiya tarixi, Vil Dorant;
26. Hicrətin 4-cü ilində İslamın svilizasiya tarixi, Müəllif Adam Metz, tərcümə edəni Əlirza Zəkavəti, 1-ci cild, 1 və 2-ci fəsllər;

27. İslamın Osanlı imperatorluğu dövründə beynəlmiləl əlaqələri (məqalə N.12);
28. Dünyada yazılmış ilk konstitusiya;
29. Afrika hərəkatları, müəllif Petros Qali, tərcümə edən Doktor Fərəculla Nasiri;
30. Svilizasiya tarixi, Corci Zeydan, Ərəb qəbilələri haqda söhbət açılan fəsil;
31. Cəlinin Sirəsi, 1-ci cild və "Məsnəd" Əhməd İbni Hənbəlin 1-ci cild;
32. İslamın siyasi tarixi, 1-ci cild.

## *ÜÇÜNCÜ FƏSİL*

# *SİYASİ COĞRAFİYA VƏ GEOPOLİTOLOGİYA*

## *ÖN SÖZ*

Coğrafiya elmində atmosfera (ərazi) və yer kürəsinin üst səthinin quruluş və xüsusiyyətləri haqda söhbət açılır.

Müxtəlif şaxələrə bölünən coğrafiya elminin bir qolunu da, siyasi coğrafiya təşkil edir.

Siyasi coğrafiya[1] (geopolitologiya) insanın fəza, ətraf mühit və oradakı ünsürlərlə qarşılıqlı siyasi münasibətlərinə deyilir. Bir əsrlik tarixə malik olan siyasi coğrafiya müstəqil elm halında yalnız 1897-ci ildən fəaliyyət göstərərək, ali elm ocaqlarında müzakirə olunmağa başlanmışdır.

Məşhur alman coğrafiyaşünası Fridrik Ratzel (1844-1904) ilk dəfə olaraq təlif etdiyi kitabı "Siyasi coğrafiya" adı altında nəşr etmişdir.

Elmin bu şaxəsi ilə əlaqəli olan mövzular qədim zamanlardan bəri ictimai və siyasi filosof və mütəfəkkirlərin əsərlərində dəfələrlə öz əksini tapmışdır. Belə ki siyasi coğrafiyanı tarixi baxımdan, siyasət və coğrafiya elmləri ilə eyni dövrə aid etmək olar və bütün bunları nəzərə alaraq, Aristoteli (e.ə - 322-381) ilk siyasi coğrafişünas hesab etməliyik. O, özünün "Siyasət" adlı kitabında böyük cəmiyyət və əraziyə malik və müəyyən hədəfi olan nümunəvi bir dövlətə işarə etmişdir. Orada nümunənin cəmiyyət, ərazi və dövlətin qüdrət və zəifliyi ilə əlaqəli olan rabitəsini açıqlayır. Həmçinin dövlətin cəmiyyətlə ərazi arasında olan qarşılıqlı əlaqəyə işarə edərək asiya, avropa və yunanlıların siyasi davranışlarına təsir göstərən siyasi və psixoloji xüsusiyyətləri tərif etmişdir.

Təqribən üç əsr sonra rum-yunan coğrafiyaşünası Strabon (miladi - 24-63) özünün on yeddi cildlik kitabında siyasi coğrafiya məsələlərini araşdırmış və Rum imperatorluğu kimi böyük siyasi qurumu idarə etmək üçün lazım olan alimlərə işarə etmişdir. O da Aristotel kimi qatı milliyyətçi olduğu üçün öz ölkəsinin abu-həvasını və mövcud şəraiti hakimiyyət üçün hər şeydən daha münasib hesab edirdi.

İslam zühur etdikdən sonra bəzi müsəlman alim və coğrafiyaşünasları da siyasi coğrafiya məsələləri ətrafında geniş araşdırmalar aparmışlar. Onların arasında daha çox şöhrət tapmış

---

[1] Political Geography

İbni Xəldun, təbii mühit ilə siyasi rəftarlar arasında əlaqə yaratmış və özünün dövlət barədə irəli sürdüyü məşhur nəzəriyyəsini onu üzərində qurmuşdur. İbni Xəldun "Əsəbiyyət"[1] (və ya təəssübkeşlik) xüsusiyyətini dövlət və siyasi qurumu meydana gətirən hərəkətəgətirici qüvvə və səhra həyatından mütəəssir olduğunu hesab edir. O, belə bir əqidədə olmuşdur ki: "Hər bir dövlət təəssübkeşlik əsasında meydana gəlir və mövcud olduğu dövrdə bu beş mərhələni keçməli olur:

1-Yaranış və zəfər;

2-Qüdrətin mərkəzləşdirilməsi;

3-Asudəlik (maddi məsələlərə diqqət və onların inkişafı);

4-Yüksək həyat tərzi və ondan razılıq hissi;

5-İsraf, hərc-mərclik və dövlətin süqutu;

İbni Xəldundan sonra Baden, Monteskyu (1689-1755) kimi avropa alimləri də coğrafi amillərin insanın siyasi rəftar və davranışlarına və dövlətin qüdrət və qəbul etdiyi qərarlara təsir göstərdiyinə işarə etmişlər.

XİX əsrin ortalarında Berlin universitetinin coğrafiya müəllimlərindən biri olan Karl Reyter İbni Xəldunun irəli sürdüyü nəzəriyyəyə oxşar (bəlkədə ondan mütəəsir olaraq) "Dövlətin əsası" nəzəriyyəsini irəli sürmüşdür.

Fridrix Ratzel özünün "Siyasi coğrafiya" adlı məşhur əsərini təlif edib bu elmin bünövrəsini qoyanadək, XİX əsrin son illərinə qədər bu kimi pərakəndə nəzəriyyələrin verilməsi davam etmişdir. Məhz bu səbəbdən o, Siyasi coğrafiya elminin əsas banisi hesab olunur. Ratzel "Qanuni dövlət"[2] nəzəriyyəsini irəli sürməklə, ölkənin qüdrətinin nədən ibarət olduğunu, mövqeiyyətlə mühit və dövlət ünsürləri arasında olan əlaqəni tərif etmişdir.

Ratzeldən daha sonra Siyasi coğrafiyada, bir çox hallarda təbii amillərin, coğrafi mühit və mövqeyyətin dövlətlərin qüdrətinə qoyduğu təsir, habelə hökmüranlıq və hegemonluq barədə söhbət açılmağa başlamışdır. Avropa dövlətləri, coğrafiyaşünas və siyasətçilər xüsusi olaraq siyasi coğrafiyaya bu istiqamətdən nəzər

---

[1] Ibni Xəldun əsəbiyyət (və ya təsübkeşlik) dedikdə, əsl nəcabətə qarşı sadiq qalıb qəbilə təəssübkeşliyinə malik olmağı nəzərdə tutur.

[2] Organic Goverment

salmışlar. Buna görə də XX əsrin birinci yarısında siyasi coğrafiyaya aid olan mövzular, bu sahənin beynəlmiləl əlaqələr və dövlətlərin hegemonluğunda tanınan geopolotologiyaya doğru istiqamətlənməyə başlamışdır. Həmçinin geopolitoloji[1] və geostrateji[2] sahələrində İ və İİ dünya müharibələrinə, hegemon dövlətlər arasında gedən soyuq müharibələrə və nüvə rəqabətləri kimi mühüm hadisələrə təsir göstərən məşhur nəzəriyyələr, məhz bu dövrdə irəli sürülmüşdür. İİ Dünya Müharibəsindən sonra geopolitoloji və siyasi coğrafi mövqeiyyətə böyük zərbə dəymişdir.

Müharibə başa çatdıqdan sonra, sərhdələrin müəyyənləşdirilməsi, ərazi ixtilafların aradan qaldırılması və bu kimi məsələlərin həll olunması üçün Bumen və Conson (ABŞ), Domarton (Fransa), Ohbluyi (İngiltərə), Rumer (Polşa) və Seviç (Serbiya) kimi məşhur alimlərdən istifadə olunsa da, elmin bu sahəsinə qarşı olan tərzi-təfəkkür onun mövqeyyətinin yaxşılaşmasına imkan verməmişdir. Lakin baş verən sonrakı hadisələr, siyasi coğrafiya və geopolitologiyanın yenidən meydana gəlməsinə səbəb olmuşdur. XX 60-70-ci illərində Amerika və Avropa coğrafiyaşünasları və beynəlmiləl siyasət mütəxəssislərinin göstərdikləri səy və fəaliyyətlər nəticəsində, yeni ərsəyə qədəm qoymuş, 80-90-cı illərdə isə daha da inkişaf etmişdir.

Mövzu baxımından da siyasi coğrafiyanın məfhum və fəlsəfəsinədə baş verən dəyişiklər ona yeni istiqamət bəxş edib siyasi təhlil və nəticələri diqqət mərkəzinə çevirdi. Geopolitologiya da artıq bir elm kimi yeni mərhələyə qədəm qoyub, inkişaf etdi. Siyasi coğrafiya ilə çiyin-çiyinə, iqtisadi və mədəni baxışlarla siyasi məclislərə və ali elm ocaqlarına daxil oldu və tez bir zamanda çox geniş bir ədəbiyyata malik olmağa başladı.

Bu günlər siyasi coğrafiya və onun bəhrəsi olan geopolitologiya tək nəzəri baxımdan deyil, bəlkə əməli baxımdan da böyük əhəmiyyət kəsb edərək, bir çox məsələlərin həllini öz üzərinə götürmüşdür. Bu sahələrdə aparılan mütaliə və araşdırmalar, dövlət məsələlərinin həlli, konstitusiyaların yazılması, idarəetmə orqanının nizama salınması, milli təhlükəsizliyin təmin olunması, beynəlmiləl

---

[1] Geopolitical

[2] Geostrategical

əlaqələrin yaradılması, sülh və müharibə məsələləri, milli strategiya, daxili siyasət, diplomatiya, xarici siyasət və bu kimi məsələlərdə geniş istifadə olunur.

Həm geopolitologiya, həm də siyasi coğrafiya özü-özlüyündə böyük əhəmiyyət kəsb etdiyi üçün onlar haqda ayrı-ayrılıqda söhbət açmağı daha məqsədə uyğun hesab edirik.

## *(3-1) SİYASİ COĞRAFİYA*

### *(3-1-1) SİYASİ COĞRAFİYANİN MƏFHUM VƏ TƏRİFİ*

Zaman keçdikcə siyasi coğrafiya müxtəlif məna və məfhumlar daşımalı olmuşdur. Belə ki, keçmiş zamanlardan hal-hazırki dövrədək, siyasi coğrafiyanın məna və məfhumunu açıqlamaq üçün müəyyən fərq və oxşarlıqların olmasına baxmayaraq, üç ümumi baxışa işarə etmək olar:

*1-Ekoloji baxış*

Qədim zamanlardan başlayaraq XX iyirminci əsrin əvvələrinədək, siyasi coğrafiya tərzi-təfəkkürü məhz ekoloji baxışdan meydana gəlmişdir.

Ekoloji baxış, insanın siyasi rəftar və davranışlarını mütaliə edən, siyasi coğrafiyanı təbii amillərin təsiri altında olduğunu hesab edir. Belə bir baxışa əsasən fəza, ərazi, təbii mənbələr, abu-həva, torpaq, mövqeyyət, mühit kimi təbii amillər insanın siyasi tərzi-təfəkkürünə təsir qoymaqla yanaşı, onun həyatı üçün zəruri olan ünsürləri də təşkil edir. Aristotel, Monteskyu, Reyter, Ratzel, İbni Xəldun kimi alimlər və Herodot, Strabon kimi tarixçilər bu dəstəyə aiddirlər. Onlarla yanaşı, XİX əsrin axırları və XX əsrin əvvəllərində (hətta hal-hazırki dövrdə belə) yaşamış geopolitologiya mütəxəssisləri belə bir baxışa əsaslanmışlar. Bu baxış, determinizm (coğrafi cəbr) məktəbinin çərçivəsində məna və məfhum tapmağa başlamışdır. Əvvəllər olduğu kimi ekoloji baxış bir o qədər də mühüm mövqeyyətə malik olmasa da, təbii amillərlə dövlət və millətlərin siyasi rəftar və davranışları arasında yaradılan əlaqələr, onun elmin bəzi sahələrində mötəbər olduğundan xəbər verir.

*2-Regional baxış*

Regional baxış siyasi coğrafiyada XX əsrin əvvəlinci illərində geniş miqyasda meydana gəlmişdir. Burada deyilir: "Yer üzünün üst səthi olduqca fərqli və qeyri-həmahəng olduğu üçün kiçik və həmahəng hissəyə bölündükdə, ayrı-ayrı ölkə və dövlətlər müxtəlif xüsusiyyətlərə malik olduqlarından, bu həmahəngsizlik siyasi sahədə dərhal özünü biruzə verir. Bunun üçün də siyasi coğrafiyada, yer kürəsinin bir-birindən fərqli və ya oxşar siyasi məntəqələri haqqında söhbət açılır". Görkəmli Amerika coğrafiyaşünası Riçard Hartşorn siyasi coğrafiyanı regional baxış əsasında tərif etdiyi üçün bu baxışın banisi hesab olunur. Onun verdiyi tərifdə deyilir. "Vahid məcmuə halında olan ayrı-ayrı məntəqələrin siyasi fərq və oxşarlıqları mütaliə edən elm, siyasi coğrafiya adlanır".

Siyasi coğrafiyaşünas Norman Pandez də (1972) siyasi coğrafiyanı "Siyasi formalaşmış məntəqələrin mütaliəsi" hesab edərək, onu eyni qaydada tərif edir.

Ümumilikdə götürsək, bu baxış siyasi coğrafiya məclislərində yetmişinci ilədək ən üstün və mükəmməl baxış hesab olunmuşdur. Regional baxışa əsasən, siyasi coğrafiyada dövlətlərin siyasi quruluşu, sərhəd və siyasi xüsusiyyətləri, siyasi dövlət və məntəqələr arasında yaradılan əlaqələr və onları siyasi orqan və tətbiq etdikləri siyasət haqqında söhbət açılır.

Bu baxış çərçivəsində, 1964-cü ildə Cekson tərəfindən irəli sürülmüş tərifədə işarə etmək lazımdır: "Siyasi coğrafiyada ayrı-ayrı məntəqələrdə baş verən siyasi hadisələr araşdırılır və mütaliə olunur".

*3-Ərazi baxışı*

Bu baxış, 60-cı illərin sonu və 70-ci illərin əvvəllərində siyasi coğrafiyada əldə olunan nailiyyətləri ümumiləşdirmək və ümumi elmi qanunlara yol tapmaq üçün irəli sürülür. İlk dəfə olaraq Kasperson və Minçi tərəfindən irəli sürülən bu nəzəriyyə, bu günlər hakim və olduqca güclü bir nəzəriyyəyə çevrilmişdir. Onlar siyasi coğrafiyanı, siyasi proseslərin (cərəyanların) ərazi və təhlili kimi tərif etmişlər. Bu nəzəriyyə 1971-ci ildə Kohen və Rozentalın irəli sürdükləri nəzəriyyə ilə daha da genişlənmişdir. Onların fikrincə siyasi coğrafiya, hər hansı bir ərazinin xüsusiyyət və münasibətlərinin mütaliə olunmasından ibarətdir. Bu baxışa əsasən

insanın siyasi rolu, özünü siyasi quruluş və məktəb halında əks etdirən əqidəvi quruluş, mədəniyyət və yaşadığı mühit və ərazidən nəşət tapır. Müəyyən ərazidə yaşayan və müştərək siyasi amala malik olan ictimai kütlə, öz səylərini nəzərdə tutduqları siyasi qurumun (ona xas olan xüsusiyyətlərlə birgə) təsis olunması, qorunub saxlanılması və ya dəyişilməsinə yönəldir. Beləliklə siyasət, qəbul olunan qərar və proqramlar çərçivəsində aparılan siyasi fəaliyyətlər ictimai, siyasi və mədəniyyət sahələrində olan gələcəyə baxışı dəyişdirir və yeni qüvvə meydana gətirərək siyasi fəaliyyət və onun qoyduğu əksül-əmələ təsir göstərir. Bu baxışa əsasən siyasi coğrafiya üç əsas ünsürdən, yəni millət, fəza və siyasi qurum ibarətdir.

Millət və xalq ⇒ Siyasi quruluş ⇒ fəza və mühit

Coğrafi perespektiv, siyasi qurum və millətin tərkib hissəsini bu qayda ilə göstərmək olar:

İctimai-siyasi qüvvələr (millət) ⇒ siyasi quruluş ⇒ qanunvericilik ⇒ qanunun icrası ⇒ ümumi baxış.

Ərazi baxışı bir növ məntəqə baxışıdır. Fərqi isə, yalnız siyasi coğrafiyada olan baxış və münasibətini dəyişməsindən ibarətdir. Burada yeni elmi üsullardan istifadə olunaraq, qarşılıqlı əlaqələrin qanunları əldə olunması məqsədilə ümumiləşdirilməsinə cəhd olunmuşdur. Lakin bu günlər geopolotologiyanın diqqət mərkəzində olan siyasi coğrafiya məsələlərinin bir hissəsi unudularaq, kənarda qalmışdır. Qeyd olunan baxış və tarixi prosesləri nəzərə alaraq qətiyyətlə deyə bilərik ki, dövlət və millətlərin təbii amillər və ətraf mühitlə əlaqli olaraq dövlət və insanların siyasi rəftar və xüsusiyyətlərini araşdıran siyasi coğrafiya, coğrafiya elminin bir qolunu təşkil edir. Başqa sözlə desək geopolitologiya siyasi coğrafiyada öz əhəmiyyətini itirmiş və bunun üçündə siyasi coğrafiya: "Ərazi, cəmiyyət və siyasi quruluşdan ibarət olan siyasi qurumun mütaliəsi" kimi tərif olunmuşdur və bu kitabın növbəti fəsillərində onların hər biri haqda ayrı-ayrılıqda söhbət açılacaqdır.

## *(3-1-2) SİYASİ MƏNTƏQƏ*

Siyasi məntəqə o yerlərə deyilir ki, hər hansı bir siyasi qüdrətin siyasi hakimiyyət dairəsində yerləşmiş olsun.

Siyasi qüdrət hər hansı bir coğrafi məntəqəyə hakim olan fərd dövlət, siyasi qurum, təşkilat və ya kütlədən də ibarət ola bilər. Siyasi qüdrət və təşkilatlar müxtəlif formalarda olduğu kimi, yer üzündə mövcud olan coğrafi məntəqələr də bir-birləri ilə qonşu və ya daxilində olan müxtəlif nahiyələrə bölünürlər. Hal-hazırda yaşadığımız dünyada 199 müstəqil dövlət və ya siyasi qurum mövcuddur. Onlardan hər biri müəyyən əraziyə və qonşuluq etdiyi dövlətlərlə sərhəd sahələrinə malikdirlər. Onlarla yanaşı, məntəqə və ya bütün dünyanın (və ya bəzi) məsələlərini həll və onları istədikləri kimi idarə edən böyük qüdrətə malik olan təşkilatlar da fəaliyyət göstərirlər. Bu təşkilatların ixtiyarında olan qüdrət və səlahiyyətlər ona üzv olan ölkə və dövlətlərə aiddir. Hal-hazırda ixtiyarında olan ixtiyar və səlahiyyətlərlə bütün dünyaya nəzarət edən BMT-ni buna misal çəkmək olar.

## *(3-1-3) SİYASİ MƏNTƏQƏLƏRİN XÜSUSİYYƏTLƏRİ*

Siyasi məntəqələr adətən aşağıdakı xüsusiyyətlərə malik olurlar:

*1-Müəyyən olunmuş sərhədlərə yiyələnmək;*

Siyasi məntəqələr onları bir-birlərindən ayıran müəyyən olunmuş sərhədlərə malik olurlar. Yer üstü, yer altı, dəniz və havada müəyyən olunmuş bu sərhədlər rəsmi siyasi hakimiyyətin iqtidarından xəbər verir. Təyin olunmuş bu sərhədlər həm qonşu dövlətlərin ünsiyyətdə olduqları, həm də bir-birlərini zərərsizləşdirdikləri nöqtə hesab olunur.

Qeyd etmək lazımdır ki, dövlətlərarası sərhədlər onların son qüdrət nöqtəsi olsa da, bəzi hegemon dövlət və təşkilatlar iqtidarı qoruyub-saxlamaq üçün həmin ölkələrə daxil olaraq, oradakı nüfuzlarını daha da gücləndirməyə çalışırlar. Dövlətlərin tabeçiliyinə gətirib çıxaran bu addımın isə, heç bir ölçü və meyarı yoxdur. Bu kimi qeyri-sabit və qeyri-rəsmi sərhədlər coğrafi termin olaraq "geopolitoloji sərhədlər" adlanır.

*2-Müəyyən mərkəz dairəsinə yiyələnmək;*

Hər bir siyasi məntəqə siyasi qüdrətinin yerləşdiyi mərkəz dairəsinə malik olur. Burada ölkənin idarə olunmasına nəzarət və lazımi fərmanlar verilir. Müsətqil dövlətlərdə "paytaxt" adını almış mərkəz dairəsinin coğrafi baxımdan ölkənin mərkəzində yerlməşməsinə heç bir lüzum yoxdur. Paytaxt dövlət başçısının, sair dövlət rəhbərlərinin, nazir və nazirliklərin habelə müstəqil dövlət təşkilatlarının yerləşdiyi əsas mərkəz dairəsi hesab olunur.

Onlarla yanaşı bəzən iqamətgah adlanan beynəlmiləl mərkəz dairələridə fəaliyyət göstərir. Vaşinqtonda yerləşən Beynəlmiləl Millətlər Təşkilatının iqamətgahını buna misal çəkmək olar. Ölkənin daxilindədə dövlət qanunları çərçivəsində və dövlət nəzarəti altında "rayon mərkəzi" və "əyalət mərkəzi" adlı ayrı-ayrı mərkəzi dairələrdə fəaliyyət göstərir.

*3-Çox mərhələli siyasi quruluşa yiyələnmək.*

Bütün siyasi məntəqələrdə onun tərkib hissəsini təşkil edən müxtəlif ünsürlər, silsiləvari şəkildə bir-birləri ilə əlaqədə olurlar və beləliklə də, siyasi rəftar və əlaqələr vüsət halını taparaq, genişlənməyə başlayır. Dövlət tərəfindən verilən fərmanlar silsiləvari şəkildə müxtəlif mərhələləri keçərək, qüvvəyə minir və dövlət səviyyəsində yayılmağa başlayırlar.

Siyasi səhnədəki silsiləvari mərhələlər isə aşağıdakılardan ibarətdir:

1-Məntəqə və ərazi:

Ölkə və ya Yer kürəsinin özü bir neçə kiçik və ondan da kiçik nahiyələrə bölünürlər:

a) dünya, qitə, ölkə;

b) ölkə, rayon və ya əyalət, şəhər, rayon kənd.

2) Ölkə daxili:

Belə bir bölgü siyasi qüdrətin əlaqə və sıx bağlılığından xəbər verir.

Paytaxt, əyalət mərkəzi, rayon mərkəzi, kənd mərkəzi.

3)Hakimiyyət:

Dövlət işlərinin idarə olunması və onların istiqamətləndirilməsi arasında olan əlaqələrdən xəbər verir:

Prezident, əyalət başçısı (mer), şəhər icra hakimi, rayon icra hakimi, kəndxuda.

4-İdarəçilik:

Dövləti idarə edən mərkəzlər:

Nazirlik, Baş idarə, şəhər (və ya rayon) icra hakimiyyəti, ayrı-ayrı sahələrin idarə və şöbələri.

## *4-SİYASİ İQTİDARİN MƏRKƏZDƏN ƏTRAFA DOĞRU ZƏİFLƏMƏSİ*

Dövlətin siyasi qüdrəti zəiflədikcə, tabeçiliyində olan təşkilatları özünə cəzb etməsi və apardığı siyasət eyni qaydada zəifləyərək? tənəzzülə uğrayır. Digər amillər bu məsələyə müdaxilə etsə də, fasilə amili təklikdə hakimiyyəti öz təsiri altına ala bilir. Əlbətdə, əgər təsir altına düşən coğrafi ixtilaflar kimi amillər mövcud olarsa, dövlətin apardığı siyasət və ona olan tabeçilik, zəifliyə doğru gedəcəkdir. Mərkəzi hakimiyyətdən uzaq düşən məntəqələr özlərində dövlətdən onlara qarşı soyuqluq və həmahəngsizlik hiss edərək, müstəqillik tələblərini irəli sürməyə başlayırlar.

Deyə bilərik ki, mərkəzi hakimiyyət dairəsindən başlayaraq sərhəd məntəqələrinədək dövlətin siyasi qüdrəti zəifliyə doğru gedir. Bu səbəbdən bu məntəqələr, az təminatlı məntəqələr sırasına daxil olurlar. Yaranmış belə bir şəraitdə az təminatlı bu məntəqələrdə azadlıq və müstəqillik şüarı ucalmağa başlayır və bu cərəyan, dövlətin mərkəz dairəsinin qüdrəti zəifləyənədək davam edir. Yuqoslaviyada baş verən cərəyanları buna misal çəkmək olar. Belqrad bütün məntəqələrdən uzaq olduğu üçün baş verən toqquşmalarda bir o qədərdə böyük insani və maddi itki vermədən ilk dəfə olaraq, Sloveniya Yuqoslaviyadan ayrılıb müstəqilliyini əldə etdi. Sonra Belqrad Sloveniyadan yaxın olan Krovasiyadakı toqquşma və verdiyi itkilərdən sonra ayrılaraq ikinci müstəqil dövlətə çevrildi.

Üçüncü mərhələdə Belqrada yaxın olan Bosniya və Hersoqovina müsəqillik tələblərini irəli sürdü və onların ardınca bu cərəyan Serbiyada da öz əksini tapdı.

Buna görə də Belqrad dövləti Bosniya və Hersoqovinanı əldən verməmək üçün bütün mümkün vasitələrdən istifadə etdi. Bunun

üçün də həm əldə olunan müstəqillik tam müstəqillik olmur, həm də insani və maddi itkilər digər məntəqələrlə müqaisədə qat-qat çox olur. Paytaxtdan uzaqda yerləşən və onun tam nəzarəti altında olmayan Krovasiya və Sloveniyada isə, verilən itkilər az oldu, həm də Serblərin törətdikləri cinayətlərdən yaxa qurtara bildi.

*5-Özünəməxsus atributlara yiyələnmək*

Hər bir ölkə və ya siyasi bir məntəqə, onu tanıtdıran özünəməxsus atributlara malik olur və həmin ölkə ya siyasi məntəqənin sakinləri bu atributlara ehtiyac duyaraq, bir növ onlardan asılı vəziyyətdə olurlar. Siyasi nahiyə və məntəqələr milli səviyyədə daha çox məna və məfhum kəsb edir.

Hər bir ölkə və məntəqəyə xas olan xüsusiyyətlər bunlardan ibarətdir: ad, bayraq, himn, gerb, dil və əlifba, vətəndaşların pasport və ya şəxsiyyət vəsiqələri, pul, statistka komitəsi, avtomobillərin nömrələri, milli və ya məhəlli məhsulların ixracatı, milli musiqi, milli geyim, milli mətbəx, ictimai adət və ənənələr...

*6-Birlik və həmrəylik*

Birlik və həmrəylik hər bir coğrafi məntəqənin ən başlıca xüsusiyyətlərindən biri hesab olunur. Siyasi coğrafi məntəqənin birlik və həmrəyliyinə səbəb olan amil, orada müştərək siyasi amal və ideologiyaya malik olan millətin məskunlaşdığından xəbər verir.

Belə bir həmrəyliyə malik olmayan cəmiyyət isə parçalanmaya düçar olaraq, bir-birindən fərqli siyasi amallara yiyələnməli olur. Hər bir siyasi amal özünəməxsus quruluş tələb etdiyi üçündə istər-istəməz həmin məntəqə parçalanaraq, ayrı-ayrı kiçik nahiyələrə çevrilmiş olur.

Bütün bunlar isə millət, dövlət və ölkənin formalaşmasında müşahidə olunan proseslərdən birini təşkil edir. Belə bir proseslər zamanı daha güclü həmrəyliyə nail olan böyük məntəqə sakinləri, müstəqil siyasi hakimiyyət tələbini irəli sürərək, yeni siyasi məntəqə təsis etmək fikrinə düşürlər. Hətta ölkənin daxilində belə müstəqil məntəqələr meydana gəlib, onun sair orqan və təşkilatlarından daha çox ixtiyarlara malik olurlar. Böyük bir ölkənin bölünərək on beş yeni siyasi nahiyənin (keçmiş Sovetlər İttifaqını) meydana gəldiyini buna misal çəkmək olar.

Hər hansı bir cəmiyyət və ya məntəqə sakinlərinin müştərək siyasi amal və ümumi həmrəyliyə nail olması isə onun təbii, topoqrafiq, dini və dini xüsusiyyətlər qrupuna daxil olan sair sifət və xüsusiyyətlərindən asılıdır.

Cəmiyyətin malik olduğu xüsusiyyətlər arasında olan oxşarlıqlar nə qədər güclü və sabit olarsa, siyasi hədəfin meydana gəlməsinə münasib şərait yaratmış olur. Məhz buna görə də, dövlət başçıları və siyasətçilər milli həmrəyliyin qorunub-saxlanılmasına və parçalanaraq müxtəlif siyasi hədəflər meydana gəlməməsi və onların genişlənməsinə can atırlar.

7-*Siyasi təşkilat və idarələrə malik olmaq*

Təhlükəsizlik, ictimai rifah və asayişin təmin olunması, iqtisadi və mədəni ehtiyacların aradan qaldırılması və sağlam və qarşılıqlı əlaqələrin bərpa olunması üçün dövlət, vahid və münəzzəm quruluşa malik olan idarə və təşkilatlara ehtiyac duyur. Buna görə də yuxarıda qeyd olunan məsələlərin öhdəsindən gəlmək üçün ölkə daxilində müvafiq idarə və təşkilatların təsis olunması üçün lazımi tədbirlərə əl atılır.

Siyasi təşkilat və ya dövlət komitələri, əslində ölkə və ya siyasi məntəqənin yerli ya yerli olmayan əhalinin özlərinə və yaşadıqları əraziyə aid olan məsələlərin öhdəsindən gəlmək üçün göstərdikləri siyasi fəaliyyətlər nəticəsində meydana gəlir. Əhalinin təhlükəsizliyinin təmin olunması, əlaqələrin yaxşılaşdırılması, bir sözlə, maddi və mənəvi ehtiyacların aradan qaldırılması üçün bütün məsələlərin həllini dövlət təşkilatlarına həvalə edir.

Məntiq və siyasi coğrafiya baxımından siyasi hakimiyyətin meydana gəlməsi, davam gətirib qanuni ad alması və milli bir dövlətdə fərd və ya hakim orqan həmin siyasi məntəqəyə borclu olub, hakimiyyəti millətə qulluq edən şəxslər təşkil etsə də, təcrübələr göstərir ki, siyasi quruluş, fərd və ya hakim təbəqə daha çox əldə etdikləri mövqeyyəti şəxsi istəklərinə nail olmaq üçün ən gözəl vasitə hesab etmişlər. Bəzən də nəinki millətə xidmət etməmiş, bəlkə əksinə olaraq müxtəlif bəhanələrlə onlara qarşı saysız-hesabsız zülm və haqsızlıqlar etmiş və nəticədə, tamamilə xalqı bütün haqqlarından məhrum edərək, qarşılarında diz çökməyə vadar etmişlər.

Hakim və dövlət rəhbərləri ilə camaat arasında yaranmış bütün bu haqsızlıq və bərabərsizliklər barədə ayrı-ayrılıqda söhbət açmaq lazımdır. Lakin bütün bunların, həris insanların qüdrət və hakimiyyət istəyindən meydana gəldiyinə dair irəli sürülmüş fərziyyədə deyilir: Siyasi quruluş və onun müştərək ünsürləri, seçici və iqtidarda olanların seçki mexanizmi, rəsmi və qeyri-rəsmi siyasi partiya və təşkilatlar kimi ictimai qrupların göstərdikləri siyasi fəaliyyətlər diqqətlə araşdırılmalı və dövlətin idarə olunması bu sahədə səriştəsi olan mütəxəssislərə həvalə olunmalıdır. Yalnız belə bir şəraitdə milli dövlətçilik öz həqiqi məna və məfhumunu özünə qaytara bilər. Çünki hər bir siyasi məntəqədə məskunlaşmış millət və ya əhali, istər-istəməz özünü nizama salmalı və istədiyi siyasi qurumu hakimiyyətə seçməlidir. Seçdiyi hakimiyyətin xüsusiyyətləri isə konstitusiyada bəlli olunmalı və konstitusiyanı da ümumi rəy sorğusu - referendum vasitəsilə təyid edilməlidir. Daha sonra isə dövlətin idarə olunması üçün müəyyən olunmuş qanunlar əsasında ayrı-ayrı şəxsləri müxtəlif vəzifələrə təyin olunmalıdır.

Cəmiyyət üzvləri siyasi quruluşu (hakimiyyət) təsis edib dövlət nümayəndələrini seçdikdən sonra onların üzərinə bir neçə mühüm vəzifə qoyulmuş olur:

1)Ümumi işlərin idarə olunması, ətraf mühitin qorunub abadlaşdırılması, əldə olunan təbii sərvətlərə nəzarət, məktəb, xəstəxana, kitabxana və bu kimi müəssisələri təsis etmək, baş verən təbii hadisələr zamanı dəyən xəsarətin aradan qaldırılması, vətəndaşların sosial təminatlarını ödəmək və bu kimi işlərə nəzarət və həyata keçməsi üçün lazımi tədbirlərin görülməsi;

2)Zorakılıq və ədalətsizliklərin qarşısını almaqla, vətəndaşların təhlükəsizliklərinin təmin edilməsi, xalqın hüququnun tapdalanmasının qarşısının alınması;

Dövlət bütün bunların öhdəsindən gəlmək üçün məhkəmə, polis və bu kimi təşkilatları təsis etməlidir.

3) Müxtəlif (xüsusilə də qonşu) dövlətlərin təcavüzünün müqabilində, əhalinin təhlükəsizliyinin təmin edilməsi;

Belə ki, bəzi dövlətlər qonşu dövlətlərin ərazi və ya təbii sərvətlərinə göz dikir və qüdrət əldə etdikdə oranı işğal edərək, təbii sərvətlərini ələ keçirməyə başlayırlar. Buna görə də dövlətin öz

vətəndaşlarının təhlükəsizliklərini təmin etmək, onun ən başlıca vəzifələrindən biri hesab olunur və o, bunun öhdəsindən yalnız millətin köməyi ilə gələ bilər. Dövlətlər bu kimi halların qarşısını almaq üçün milli ordu və gizli kəşfiyyat idarələri təsis edirlər.

4) Vətəndaşların digər ölkə vətəndaşları ilə yaxın münasibət qurmaları üçün lazımi şəraitin yaradılması;

Qədim zamanlardan bəri müxtəlif ölkə və siyasi məntəqələrdə məskunlaşmış millətlər bir-birləri ilə ictimai, ticari, iqtisadi hətta siyasi (təhlükəsizlik) sahələrdə əlaqələr yaratmış və beləliklə, bir-birlərinin ehtiyaclarını aradan qaldırmışlar.

Bu günlər millətlər arasındakı iqtisadi, elmi, mədəni, hərbi, dini, ictimai, habelə turizm, idman və təhlükəsizlik sahələrindəki əlaqələr daha da genişlənmiş və vüsət halını tapmışdır. İki və ya çox tərəfli belə əlaqələr zaman keçdikcə genişlənmiş, gələcəkdə də genişliyə doğru gedəcəkdir. Dünyanın gələcəyə olan baxışı gələcəkdə daha da inkişaf edərək, bu əlaqələrdən daha səmərəli şəkildə istifadə edəcəklərindən xəbər verir.

Bütün bunları nəzərə alaraq, dövlət vətəndaşlarının digər millətlərlə daha güclü əlaqələr yaratmaları üçün Xarici İşlər Nazirliyi və digər beynəlmiləl təşkilatlar təsis edir.

5) Əhalinin ehtiyaclarının aradan qaldırılması;

İnsan maddi və mənəvi ehtiyacı olan bir varlıqdır. Bu səbəbdən o, öz ehtiyaclarına layiqli cavab verməlidir.

Qədim zamanlarda dövlət və insanların həyat tərzi - bu günlər olduğu kimi - bir-birləri ilə sıx əlaqəli olmadığı üçün insanlar nə bir o qədər məsuliyyət daşıyır, nə də dövlətdən nə isə gözləyirdilər. Sadəcə olaraq, coğrafi mühit və ixtiyarlarında olan imkanlardan istifadə edərək, özləri üçün müəyyən həyat tərzi seçər və beləliklə onu idarə edərdilər. Lakin son on illərdə milli dövlətlər, idarəetmə və təşkilatçılıq kimi məsələlər meydana gəldikdən sonra dövlətlərin müdaxilə dairəsi insanların həyatında daha geniş hal almağa başlamışdır. İnsanlar dünyaya gəldikləri ilk gündən ömürlərinin sonunadək, həyatın bütün sahələrində idarəetmə və təşkilatçılıq məsələlərinə tam şəkildə tabe olmalı olurlar. Təşkilatçılıqla yanaşı, insanların sonralar adət etdikləri bürokrktiya da meydana gəlir. Əlbətdə, bürokratiyanın - xüsusilə də, onun mənfi yönümünün -

geniş vüsət hal tapması dövlətin əhalinin işlərinə müdaxilə etməsi və üzərinə götürdüyü məsuliyyətlərlə sıx əlaqəlidir. Bürokratiya, əhalinin seçdiyi dövlətdən, onların maddi və mənəvi ehtiyaclarını aradan qaldırmağı gözləmələrinə səbəb oldu. Dövlətlər də öz növbələrində düzgün siyasət aparmaq, habelə şəxsi və ümumi imkanlarından istifadə etməklə, əhalinin maddi və mənəvi ehtiyaclarını aradan qaldırmalıdırlar. Hərçənd dövlətlər bir çox hallarda müxtəlif dəlillər üzündən o cümlədən ehtiyacların çoxluğu, imkanların məhdud olması və mütəxəssislərin azlığından əhalinin bütün ehtiyaclarını aradan qaldırmağa nail olmurlar. Bunun üçün də əhalinin müəyyən bir hissəsi daimi ehtiyac və çatışmamazlıq içində yaşamalı olurlar.

Əhalinin duyduğu ehtiyacların mühüm hissəsini isə bunlar təşkil edir: qida məhsulları, geyim, ev (sükunət), yanacaq və enerji, iş və məşğuliyyət, təlim-tərbiyə, tibbi yardım və sanitariya, gəzinti və boş vaxtdan səmərəli istifadə, idman və bədən tərbiyəsi, incəsənət, din, əxlaq, nəqliyyat vasitələri, yaşayış üçün zəruri olan məişət əşyaları, sağlam ətraf mühit və s.

Dövlət bütün bu ehtiyacların aradan qaldırılması üçün kənd təsərrüfatı, energetika, təhsil, səhiyyə, din, iqtisadiyyat, yol, tikinti və sair nazirlikləri təsis edir.

6) Cəmiyyətin ideologiya və tərzi-təfəkkürü səviyyəsinin qaldırılması;

Əxlaq, istedad, şüur və tərzi-təfəkkürə malik olan insan dəyişiklik və irəliləyiş xüsusiyyətinə malikdir. Buna görədə o ideoloji, əqli və mənəvi, təkamülə nail olmaq üçün lazımi şəraitə ehtiyac duyur. Bunun üçün dövlət əhalinin ideoloji və tərzi-təfəkkür səviyyəsini qaldırmaq məqsədilə təlim-tərbiyə ocaqları, universitet, universitetə hazırlıq kursları, elm və tədqiq mərkəzləri, radio-televiziya kimi kütləvi informasiya mərkəzləri, habelə kinoteatr, incəsənət və təbliğat müəssisələri təsis edir.

7) Milli şəxsiyyətin qorunması;

Hər bir ölkə vətəndaşı yaşadığı ərazini sevir və onun şan-şöhrətinin ucalmasını arzulayır. Milli qəhrəmanlar, milli mədəniyyət, milli dəyərlərlə tanışlıq və onların qorunub-saxlanılması, vətəndaşlarda milli qürur və milliyyətçilik hissini yaşanmasına

böyük təsir göstərir. Dövlətlərin üzərinə düşən ən başlıca vəzifələrdən biri də, bu kimi hissləri onlarda gücləndirmək və milli dəyərlərə zərbə vuran bütün mənfi ünsürlərin qarşısını almaqdan ibarətdir.

8-Əlaqə vasitələrinə yiyələnmək

Hər bir siyasi məntəqə müəyyən qanunlar çərçivəsində fəaliyyət göstərən müxtəlif əlaqə vasitələrinə malik olur. Onların fəaliyyətini isə vətəndaşlar və ölkə daxili müxtəlif qurumlar ifa edir.

Bütün vasitələr milli və ictimai həmrəyliyin qorunub-saxlanılmasına yaxından köməklik edir və bununla yanaşı, ölkə və onun sakinlərinin ideoloji, ictimai-iqtisadi və mədəni potensialının artmasına səbəb olur. Buna görə də, dövlətlər siyasi və coğrafi məntəqələrdə şəbəkə əlaqələrindən geniş şəkildə istifadə etməklə, bir tərəfdən milli birliyə, digər tərəfdən də iqtisadi, ictimai, mədəni inkişafa nail ola və bütün bunlarla yanaşı, hakimiyyət dairəsində olan məntəqəyə daha yaxşı nəzarət edə bilirlər.

### *(3-1-4) SİYASİ MƏNTƏQƏLƏRİN NÖVLƏRİ*

Siyasi məntəqələr bir neçə hissədən ibarət olur və ümumilikdə, onları dörd hissəyə ayırmaq olar.

*1-Milli səviyyəli siyasi məntəqələr;*

Bu kimi məntəqələrin özləri iki hissədən ibarət olur:

a) ölkə və ya müstəqil siyasi məntəqələr;

Siyasi məntəqənin ən gözəl nümunəsini də məhz onlar təşkil edir. Bir qədər sonra onların hər biri haqda ayrı-ayrılıqda söhbət açacağıq.

b) Qeyri-müstəqil siyasi məntəqələr

Onlar adətən müstəqil məntəqələrə tabe və ya onlardan asılı vəziyyətdə olurlar. Bu kimi məntəqələrin müstəqil məntəqələrlə çox oxşarlığı olsa da, müstəqil ölkəyə xas olan müstəqillik və rəsmi tanınma kimi xüsusiyyətlərə malik olmurlar. Qeyri-müstəqil məntəqələr bir neçə halda mövcud olmuş və ya hal-hazırda mövcud olmaqdadır.

*1) İstismar olunmuş məntəqələr;*

Qədim zamanlarda bu kimi ölkələrə xüsusilə, Asiya və Afrikada çox rast gəlmək olardı. İİ Dünya Müharibəsindən sonra baş verən

cərəyan və dəyişikliklərdən sonra onlar öz müstəqilliklərini əldə edib, ölkə halına çevrildilər.

Bu günlər Sakit okeanda yerləşən adamların bir neçəsi hələ də Afrika, Fransa və İngiltərənin müstəmləkəsi altında, yarı-müstəqil halda qalmaqdadır.

*2) Bitərəf məntəqələr*

1969-cu ilədək İraqla Küveyt və 1981-ci ilədək İraqla Səudiyyə Ərəbistanı arasında iki bitərəf ərazi yerləşirdi. Bu günlər isə bu ərazilər həmin dövlətlər arasında bölünmüş və artıq heç bir bitərəflik xüsusiyyətinə malik deyillər. Lakin Fars körfəzinin cənub sərhədlərində hələ də bu kimi ərazilərə Dubay, Əbu Zəbi, Oman, Əcman Ərəb Əmirlikləri arasında rast gəlmək olar.

*3) Müştərək hakimiyyət əraziləri*

Bu kimi ərazilər iki dövlət tərəfindən idarə olunur. İspaniya və Fransa tərəfindən idarə olunan Andorra, Amerika və Yeni Zellandiya tərəfindən idarə olunan Tokalo kimi.

*4) Himayə altında olan ərazilər*

Bu ərazilər, İ və İİ Dünya Müharibələrində məğlub olmuş ölkələrin müstəmləkələri olmuşlar. İ Dünya Müharibəsindən sonra o dövrdə fəaliyyət göstərən Xalqlar Birliyi, İİ Dünya Müharibəsindən sonra isə BMT-nin nəzarəti altında qeydiyyata alınmışlar. Bu təşkilatlar öz nəzarətlərini qorumaq üçün onlardan bir neçəsini müharibədən qalib çıxmış dövlətlərə həvalə etmiş və onların müstəqilliyi üçün lazımi şərait yaratmışlar. 1994-cü ildən etibarən BMT-nin Himayə Şurasının himayəsi altında olan son əraziyə - Palaoya müstəqillik verərək, Sakit okeanda yerləşən Mikrenezi adalarında faktiki olaraq öz fəaliyyətini dayandırdı.

## *2-ÖLKƏ DAXİLİNDƏ YERLƏŞƏN SİYASİ MƏNTƏQƏLƏR*

## *(AVTONOM VİLAYƏTLƏR)*

Ölkənin tabeliyində olan ərazilərə istənilən səviyyədə xidmət göstərilməsi üçün onlar ayrı-ayrı vilayətlərə bölünür və bu bölgü ya şəhər ya da ölkə halında aparılır.

Bütün şəhərlər sabit məntəqə, prospekt və küçələrdən ibarət olur. Lakin ölkələrə gəldikdə, bu kimi bölgülər onların dövlət quruluşuna

müvafiq olaraq aparılır və bunun üçün də onların arasında bəzi fərqlər nəzərə çarpır. Federal hakimiyyət qurluşunda ölkə, "əyalət" (ştat) adlı bir neçə siyasi məntəqəyə bölünür və bu əyalətlərin hər biri qeyri-federal dövlət kimi vilayət, şəhər, rayon və kəndlərdən ibarət olur. Lakin bəzi federal və qeyri-federal dövlətlərdə məntəqəyə xas (siyasi-idari) ixtiyarlara malik olan siyasi məntəqələr müşahidə olunur. Bosniya və Hersoqovinada aparılan siyasi bölgü, Fələstində, sabiq Sovetlər İttifaqında, Rusiyadakı Dağıstan, Çeçen və İnquşetiya və Çindəki muxtar vilayətləri kimi buna misal çəkmək olar.

*3-Ölkə xaricində olan siyasi nahiyələr*

Bu kimi nahiyələr bir neçə müstəqil ölkə və ya siyasi məntəqələr və ya müştərək hədəf və amala malik olan ümumi və xüsusi qruplaşmalar təşkil edir. BMT və iki ümumi siyasi təşkilat olan EKOA və Avropa Polad və Daşkömür Birliyi ixtisas birliklərini təşkil edir.

Ölkəxarici siyasi məntəqələr coğrafi və ərazi bölgü baxımından bir neçə hissəyə bölünür:

1)Məntəqə - EKO, İran körfəzinin Həmkarlıq Şurası, Sakit Okean, Şimal-cənub dəhliz təşkilatları kimi.

2)Qitə - Avropa birliyi və Afrika birlik təşkilatı kimi.

3)Qitəxarici - İslam Konfransı kimi.

4)Ümumdünya - BMT və onun tabeliyində olan Yuniko, Yunisef, EKAO və sair təşkilatlar kimi.

5)Siyasi təşkilatların meydana gəlməsinə səbəb olan meyarlar;

Hər bir siyasi təşkilatın meydana gəlməsi üçün bir və ya bir neçə əsas şərt lazımdır və bu meyarlar aşağıdakılardan ibarətdir:

1)Müəyyən təbii sərhədlər və vahid coğrafi fəza[1] (ərazi)"

2)Təcrübələrlə birgə qədim tarixə və müştərək tarixi əfsanələrə yiyələnmək"

3)Müştərək ağrı-acılar və olunan təhdidlər;

4)İctimai quruluş, irq və müştərək insani xüsusiyyətlər - qövmiyyət;

5)Din, dil, əlifba, musiqi, adət-ənənələr kimi müştərək mədəni xüsusiyyətlər"

---

[1] Topoqrafiya

6)Müştərək siyasi hədəf və amal;

7)Ölkə xaricində siyasi qüdrətlərin hegemonluq məqsədilə apardıqları rəqabətlər;

8)Siyasi qüdrətlərin nüfuz dairəsi;

9)Qarşılıqlı iqtisadi, ictimai, mədəni bağlılıqlar;

10)Müştərək mədəniyyətə hər hansı bir millət və ya cəmiyyətin əhatə dairəsi;

11)Müştərək mənafe, nümünəvi məişət və birgə iqtisadi perepektivlər.

### *(3-1-5) ÖLKƏ VƏ YA MÜSTƏQİL SİYASİ MƏNTƏQƏ*

*1-Tərif*

Müstəqil siyasi məntəqə, hər hansı bir cəmiyyətin hakimiyyət dairəsində məskunlaşmış coğrafi ərazidən ibarətdir.

Demək, müstəqil siyasi məntəqə və ya ölkə aşağıdakı üç əsas ünsürdən meydana gəlir:

1) Ərazi və ya coğrafi məntəqə;

2) Cəmiyyət və ya yerli əhali;

3) Hakimiyyət və ya siyasi quruluş.

Yer quru sahələri, onu əhatə edən su hövzəsi və orada yerləşən adalar ölkə və dövlətlər halında müxtəlif hissələrə bölünmüş və dünyanın siyasi xəritəsini meydana gətirmişlər. Dünyanın belə bir siyasi bölgüsü və onun ardınca ölkələrin sayı daim dəyişməkdə olur.

Hal-hazırda adalarla birlikdə yer üzərində 199 müstəqil ölkə və ya müstəqil siyasi məntəqə fəaliyyət göstərir və onların 185-i BMT-nin üzvüdür[1].

*2-Ölkənin meydana gəlmə gedişatı*

Bu günki ölkə və ya müstəqil siyasi məntəqələr aşağıda qeyd olunan amil və gedişatlar nəticəsində meydana gəlmişlər:

1)Tarixi amil: hər hansı bir ölkə və ya dövlətin davam gətirməsinə səbəb olmuşdur: İran, Misir və Çin dövlətləri kimi.

---

[1] BMT-nin Tehranda yerləşən nümayəndəliyinin 1997-ci ilin statistikası

2)Sülh və Vestifaniya[1] müqaviləsi amili: 1648-ci ildə milli dövlətləri rəsmi olaraq tanıdı və bunun nəticəsində bir neçə dövlət meydana gəldi.

3)İstismar amili: bir vaxtlar dünyanın böyük bir hissəsi hegemon dövlətlərin istismarı altında idi. Lakin onlar öz hakimiyyətlərini əldən verdikdən sonra həmin ölkələr öz müstəqilliklərini əldə edib müstəqil dövlətlərə çevrildilər.

İİ Dünya Müharibəsindən sonra Avropa dövlətlərinin bir çox müstəmləkələri Asiya, Afrika, Amerika, Avstraliya qitələri və Okeaniyada müstəqil dövlətlər halına çevrildilər.

4)Millətlər təşkilatı amili: öz himayəsi altında bəzi müstəmləkələrin müstəqilliyinə lazımi şərait yaratdı.

5)Regional və ümumdünya hegemon dövlətlər qüdrətqoruyucu ölkə təsis etmək məqsədilə, öz rəqiblərini siyasi səhnədən uzaqlaşdırmağa çalışırdılar. Bunun nəticəsində təsis olan Əfqanistan və Livan dövlətlərini buna misal çəkmək olar.

Qeyd olunduğu kimi dünyada mövcud olan dövlətlərin sayı daim dəyişilmiş və eyni zamanda, milli və ərazi, birlik və pərakəndəliklər müəyyən şəraitdə ərazi və orada məskunlaşmış cəmiyyətin tərkib hissəsinə təsir göstərmişdir. Bəzi sabiq Sovetlər birliyi kimi bir ölkə bir neçə hissəyə bölünmüş, bəzən də şərqi və qərbi Almaniya və ya şimali və cənubi Yəmən kimi bir ölkə birləşərək, vahid ölkəyə çevrilmişlər.

Lakin ümumi cərəyan dəyişikliyə doğru getmiş və tədriclə ölkələrin sayı artmağa başlamışdır.

Məlum olduğu kimi, XX əsrin əvvəllərindən İİ Dünya Müharibəsinin sonunadək, ölkələrin sayında çox az irəlləyiş olmuşdur. Lakin İİ Dünya Müharibəsindən sonra Avropa istismarı və Sovetlər birliyi süquta uğradığı üçün müstəmləkə ölkələr öz müstəqilliyini əldə etmişlər.

3-Ölkələr barədə statistik məlumatlar

Qeyd olunduğu kimi hal-hazırda dünyanın beş qitəsində 199 ölkə və ya müstəqil siyasi məntəqə fəaliyyət göstərir. Afrikada qitəsinin payına 59 ölkə ya 29,5%, Asiya qitəsinin payına 47 ölkə ya 24%,

[1] Almaniyanın qərb əyaləti

Avropa qitəsinin payına 43 ölkə ya 21,5%, Amerika qitəsinin payına 35 ölkə ya 17,5%, Okeaniyanın payına isə 15 ölkə ya 7,5% düşür.

Həmin 199 ölkədən isə 185-i BMT-NİN üzvüdür və bundan 53 ölkə ya 28,5%-i Afrika qitəsinin, 46 ölkə ya 25%-i Asiya qitəsinin, 41 ölkə ya 22%-i Avropa qitəsinin, 35 ölkə ya 19%-i Amerika qitəsinin və 10 ölkə ya 5,5%-i Okeaniyanın payına düşür.

*Birləşmiş millətlər təşkilatına üzv olan ölkələr. (1995 Mart)*

| Ölkələrin adı | Üzv olma tarixi |
|---|---|
| Azərbaycan Respublikası | 1992-ci il 2 mart |
| Anqola | 1976-cı il 1 Dekabr |
| Andora | 1993-cü il 28 Yanvar |
| Atiqu Avbarbuda | 1981-ci il 11 Noyabr |
| Avstraliya | 1945-ci il 1 Noyabr |
| Argentina | 1945-ci il 24 Oktyabr |
| Cənubi Afrika | 1945-ci il 7 Noyabr |
| Albaniya | 1995-ci il 14 Dekabr |
| Almaniya | 1973-ci il 17 Sentiyabr |
| ABŞ | 1945-ci il 24 Oktyabr |
| Mərkəzi Afrika Respublikası | 1960-cı il 20 Sentyabr |
| Barbados | 1966-cı il 9 Dekabr |
| Bahama | 1983-cü il 18 Sentyabr |
| Bəhreyn | 1971-ci il 21 Sentyabr |
| Braziliya | 1945-ci il 24 Oktyabr |
| Brunoyi | 1962-ci il 18 Sentyabr |
| Bruney | 1984-cü il 21 Sentyabr |
| Belgiya | 1945-ci il 27 Sentyabr |
| Bolqarıstan | 1995-ci il 14 Dekabr |
| Beliz | 1981-ci il 25 Sentyabr |
| Banqladeş | 1974-cü il 17 Sentyabr |
| Benin | 1960-cı il 20 Sentyabr |
| Butan | 1971-ci il 21 Sentyabr |
| Botsvana | 1966-cı il 17 Oktyabr |
| Burkinafaso | 1960-cı il 20 Sentyabr |
| Bosniya Hersoqovina | 1992-ci il 22 May |

| | |
|---|---|
| Başviya | 1945-ci il 14 Noyabr |
| Belarus | 1945-ci il 24 Oktyabr |
| Vanvato | 1981-ci il 15 Sentyabr |
| Venesuela | 1945-ci il 15 Noyabr |
| Vyetnam | 1977-ci il 20 Sentyabr |
| Qırğızıstan | 1992-ci il 2 Mart |
| Qazaxıstan | 1992-ci il 2 Mart |
| Qatar | 1971-ci il 21 Sentyabr |
| Qabon | 1960-cı il 20 Sentyabr |
| Qambiya | 1965-ci il 21 Sentyabr |
| Qrenada | 1974-ci il 17 Sentyabr |
| Qvatemala | 1945-ci il 21 Noyabr |
| Quyan | 1966-cı il 20 Sentyabr |
| Qana | 1971-ci il 17 Oktyabr |
| Danimarka | 1945-ci il 20 Oktyabr |
| Dominiken | 1945-ci il 24 Oktyabr |
| Dominika | 1978-ci il 18 Dekabr |
| Efiopiya | 1945-ci il 13 Noyabr |
| Estoniya | 1995-ci il 17 Sentyabr |
| Ekvador | 1945-ci il 21 Dekabr |
| Ermənistan | 1992-ci il 2 Mart |
| Əfqanistan | 1946-cı il 19 Noybar |
| Əlcəzair | 1962-ci il 18 Oktyabr |
| Birləşmiş Ərəb Əmirlikləri | 1971-ci il 9 Dekabr |
| Səudiyyə Ərəbistanı | 1945-ci il 24 Oktyabr |
| Zabiya | 1964-cü il 1 Dekabr |
| Zimbabve | 1980-cı il 20 Avqust |
| Zair | 1960-cı il 20 Sentyabr |
| İndoneziya | 1950-ci il 28 Sentyabr |
| İspaniya | 1995-ci il 14 Dekabr |
| İsrail | 1949-ci il 11 May |
| İngiltərə | 1945-ci il 24 Oktyabr |
| İordaniya | 1995-ci il 14 Dekabr |
| İslandiya | 1945-ci il 19 Noyabr |
| İrlandiya | 1955-ci il 14 Dekabr |
| İtaliya | 1959-ci il 14 Dekabr |

| | |
|---|---|
| İran | 1945-ci il 24 Oktyabr |
| İraq | 1945-ci il 21 Dekabr |
| İsveç | 1946-ci il 19 Noyabr |
| Kosta-rika | 1945-ci il 2 Noyabr |
| Kamboçiya | 1955-ci il 14 Dekabr |
| Kamerun | 1960-ci il 20 Sentyabr |
| Şimali Koreya və Cənubi Koreya | 1991-ci il 17 Sentyabr |
| Kanada | 1945-ci il 9 Noyabr |
| Krovasiya | 1992-ci il 22 May |
| Kolumbiya | 1945-ci il 5 Noyabr |
| Kenya | 1963-ci il 16 Dekabr |
| Kipr | 1960-ci il 20 Sentyabr |
| Kuba | 1945-ci il24 Oktyabr |
| Ketdivuar | 1960-cı il 20 Sentyabr |
| Kaif | 1975-ci il 12 Noyabr |
| Küveyt | 1963-ci il 14 May |
| Kipverdi | 1975-ci il 16 Sentyabr |
| Kenya | 1957-ci il 12 Dekabr |
| Ginestevao | 1967-ci il 12 Noyabr |
| Gürcüstan | 1992-ci il 31 Yanvar |
| Ginebisao | 1974-ci il 17 Sentyabr |
| Yeni Ginea papua | 1975-ci il 10 Oktyabr |
| Livan | 1945-ci il 24 Oktyabr |
| Latviya | 1991-ci il 17 Sentyabr |
| Luksenburq | 1945-ci il 24 Oktyabr |
| Litva | 1991-ci il 17 Sentyabr |
| Liberiya | 1945-ci il 2 Noyabr |
| Libiya | 1955-ci il 14 Sentyabr |
| Laoe | 1955-ci il 14 Dekabr |
| Lesoto | 1966-ci il 17 Oktyabr |
| Lixteşteyn | 1990-ci il 18 Sentyabr |
| Madaqaskar | 1960-ci il 20 Sentyabr |
| Miliviya | 1964-ci il 1 Dekabr |
| Malta | 1964-ci il 1 Dekabr |
| Maldiv | 1965-ci il 21 Sentyabr |
| Malaziya | 1957-ci il 17 Sentyabr |
| Mali | 1960-ci il 28 Sentyabr |

| | |
|---|---|
| Macarıstan | 1955-ci il 14 Dekabr |
| Misir | 1945-ci il 24 Oktyabr |
| Mərakeş | 1956-cı il 12 Noyabr |
| Monqolustan | 1961-ci il 27 Oktyabr |
| Meksika | 1945-ci il 7 Noyabr |
| Mavritaniya | 1961-ci il 27 Oktyabr |
| Moris | 1968-ci il 24 Aprel |
| Mozambik | 1975-ci il 16 Sentyabr |
| Moldaviya | 1992-ci il 2 May |
| Monaqua | 1993-cü il 28 May |
| Myanmar | 1948-ci il 19 Aprel |
| Marşal adaları | 1991-ci il 7 Dekabr |
| Mikroneziyo federal respublikası | 1991-ci il 17 Sentyabr |
| Makedoniya | 1993-cü il 8 Aprel |
| Monaqua | 1993-cü il 28 May |
| Namibiya | 1990-cı il 23 Aprel |
| Nepal | 1955-ci il 14 Dekabr |
| Norvegiya | 1945-ci il 27 Noyabr |
| Niger | 1960-cı il 20 Sentyabr |
| Nigeriya | 1960-cı il 7 Oktyabr |
| Nikraqua | 1945-ci il 24 Oktyabr |
| Oristoriya | 1993-cü il 28 May |
| Oman | 1971-ci il 17 Oktyabr |
| Özbəkistan | 1992-ci il 2 May |
| Polşa | 1945-ci il 24 Oktyabr |
| Paraqvay | 1945-ci il 24 Oktyabr |
| Pakistan | 1947-ci il 30 Sentyabr |
| Palao | 1994-ci il 15 Dekabr |
| Panama | 1945-ci il 13 Noyabr |
| Portuqaliya | 1955-ci il 14 Dekabr |
| Peru | 1945-ci il 31 Oktyabr |
| Ruanda | 1962-ci il 18 Sentyabr |
| Rumıniya | 1955-ci il 14 Sentyabr |
| Rusiya federasiyası | 1945-ci il 24 Oktyabr |
| San Marino | 1992-ci il 2 Mart |
| Sevaziland | 1968-ci il 24 Sentyabr |
| Sudan | 1956-cı il 12 Noyabr |

| | |
|---|---|
| Surinam | 1975-ci il 4 Dekabr |
| Suriya | 1945-ci il 24 Oktyabr |
| Somali | 1960-cı il 20 Dekabr |
| Siralion | 1976-cı il 26 Sentyabr |
| Sisil | 1976-cı il 21 Sentyabr |
| Salvador | 1945-ci il 24 Oktyabr |
| Sloveniya | 1992-ci il 22 May |
| Solomen adaları | 1978-ci il 19 Dekabr |
| Sirilien | 1976-cı il 26 Sentyabr |
| Samua | 1976-cı il 15 Dekabr |
| Sau tume və Perensib | 1975-ci il 16 Sentyabr |
| Sen lusya | 1979-cu il 18 Sentyabr |
| Sen vinsent və Karnadin | 1980-cı il 16 Sentyabr |
| Sinqapur | 1965-ci il 21 Sentyabr |
| Seneqal | 1960-cı il28 Sentyabr |
| Türkiyə | 1945-ci il 24 Oktyabr |
| Türkmənistan | 1992-ci il 2 May |
| Tacikistan | 1992-ci il 2 May |
| Tayland | 1946-cı il 16 Dekabr |
| Trininad və Tobaqo | 1962-ci il 18 Dekabr |
| Toqo | 1960-cı il 20 Sentyabr |
| Tunes | 1956-cı il 12 Noyabr |
| Tanzaniya | 1961-ci il 14 Dekabr |
| Uruqvay | 1945-ci il 18 Dekabr |
| Ukrayna | 1945-ci il 24 Oktyabr |
| Uqanda | 1962-ci il 25 Oktyabr |
| Fransa | 1945-ci il 24 Oktyabr |
| Fillandiya | 1955-ci il 14 Dekabr |
| Fiçi | 1970-ci il 13 Oktyabr |
| Filippin | 1945-ci il 24 Oktyabr |
| Yaponiya | 1956-cı il 18 Dekabr |
| Yamayka | 1963-cü il 18 Sentyabr |
| Yəmən | 1947-ci il 30 Sentyabr |
| Yuqoslaviya (Serbiya və montineqro) | 1945-ci il 24 Oktyabr |
| Yunanıstan | 1945-ci il 25 Oktyabr |
| Hindistan | 1945-ci il 30 Oktyabr |
| Hollandiya | 1945-ci il 10 Dekabr |

| | |
|---|---|
| Haiti | 1945-ci il 24 Oktyabr |
| Honduras | 1945-ci il 17 Dekabr |
| Çexoslavakiya | 1993-cü il 19 Yanvar |
| Çin | 1945-ci il 24 Oktyabr |
| Çad | 1960-cı il 20 Sentyabr |
| Çibuti | 1977-ci il 20 Sentyabr |
| Cəmi | 185 üzv |

Yuxarıda qeyd olunan ölkələrlə yanaşı, dünyada müsəlmanların 50%-ini təşkil edən və hamılıqla BMT-yə üzv olan başqa 51 ölkə də fəaliyyət göstərir.

Məhz bu ölkələr milli təhlükəsizlik şurasının ifa etdiyi rola baxmayaraq, BMT-nin 28% iqtidarını təşkil edir. Dünyanın bu ölkələri isə, Asiyadan-Tayvan, Avropadan-Vatikan və İsveçrə, Avstraliya və Okeaniadan beş və Afrikadan altı ölkə BMT üzvlüyünə daxil deyillər.

*4-Ölkə və ya müstəqil siyasi məntəqələrin xüsusiyyətləri*

Hər bir ölkə ya müstəqil siyasi məntəqə, özünə məxsus xüsusiyyətlərə malik olmalıdır. Onların bəzilərinə siyasi məntəqələrin xüsusiyyətləri barədə söhbət açarkən işarə etdik. Bu xüsusiyyətlər isə aşağıdakılardan ibarətdir:

1)-Quru, hava və dəniz sərhədlərinə malik olmaq;

2)-Müəyyən siyasi mərkəz dairəsinə yiyələnmək;

3)-Siyasi təşkilatçılıq, siyasi quruluş və ya hakimiyyətə yiyələnmək;

4)-Müxtəlif sahələrdə silsiləvari nəzarət və idarəetmə orqanlara yiyələnmək;

5)-Hakimiyyət və ya siyasi quruluşa malik olmaq;

6)-Siyasi iqtidarı mərkəz dairəsindən ətraf dairələrə azaltmaq;

7)-Onu tanıtdıran atributlara yiyələnmək;

8)-Həmahəng qovşaqlar əlaqələrinə yiyələnmək

Bu xüsusiyyətlərlə yanaşı, hər bir ölkə və ya müstəqil siyasi məntəqə beynəlmiləl hüquq, siyasi coğrafiya və siyasətdə haqqında söhbət açılan digər xüsusiyyətlərə də malik olur və bu xüsusiyyətlər aşağdakılardan ibarətdir:

1)Ərazi;

Hər bir müstəqil dövlət quru, hava və dəniz sərhədləri ilə onu digər ölkələrdən fərqləndirən müəyyən əraziyə malik olmalıdır.

2)Cəmiyyət;

Cəmiyyət, dövlətin ən başlıca ünsürlərindən birini təşkil edir, bunun üçün də onu yerli əhali təşkil etməlidir. Əlbətdə, beynəlmiləl sazişlərə əsasən, dövlətlər digər ölkələrin vətəndaşlarına öz ərazisində yer verib, onları da öz vətəndaşlığına qəbul edə bilərlər.

Bu halda, hüquqi və ictimai baxımdan onlarla yerli əhali arasında heç bir fərq olmur.

3)Milli iqtidar və müstəqillik

Bu o deməkdir ki, hər bir dövlət özünə aid olan məsələlərdə istədiyi hökm və qərarı qəbul edə bilsin və digər dövlətlər onu nəzərdə tutduğu qərarın tam əksinə olan başqa bir qərar qəbul etməyə vadar etməsin. Bunun üçün də müstəmləkə ərazilərini dövlət hesab etmək olmaz.

Digər tərəfdən də, bu günlər müstəqillik nisbi bir məsələyə çevrilmişdir Çünki xarici qüvvələr bir çox milli dövlətlərin daxili işlərinə müdaxilə edir və onlar da bütün bu müdaxilələrin qarşısını ala bilmirlər. Hal-hazırki dövrdə dövlətlərin müstəqilliyinə zərbə vuran amillər aşağıdakılardan ibarətdir:

1)-Beynəlmiləl təşkilatların dövlətlərə etdikləri təkliflər, verdikləri tapşırıqlar, onların yerinə qəbul etdikləri qərarlar və həmin dövlətlərin irəli sürülən tələbləri qəbul edərək, yerinə yetirmələri;

Milli dövlətlər beynəlmiləl təşkilatların meydana gəlməsin və qəbul etdikləri qərarlar icrasında təsir göstərsə də, həmin təşkilatların qəbul etdikləri qərarlar, heç vaxt onların xeyrinə olmur. Digər tərəfdən də beynəlmiləl təşkilatlara üzv olub nizamnamələrə tabe olduqları üçün onların qarşısında təslim olmaqdan başqa bir çıxış yolu görmürlər. BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qərarları, dənizlərin beynəlmiləl hüquq konvensiyasını, beynəlmiləl məhkəmə, ali Lahe məhkəməsini və ya Yunesko və BMT-nin ictimai-iqtisadi şurasını buna misal çəkmək olar.

2)İctimai, iqtisadi, hərbi və digər sahələrdə qoyulan beynəlmiləl qadağa (enbarqo) və cəzalandırmalar;

Təhlükəsizlik Şurasının İraqa qarşı tətbiq etdiyi sanksiyanı və bu ölkənin müstəqilliyini əldən verməsini buna misal çəkmək olar.

3)Böyük qüdrətlərin zəif dövlətlərdə qarşılarına qoyduqları hədəf və məqsədlər; Bəzən hegemon dövlətlər kiçik və zəif dövlətlərdə iqtisadi-strateji və s. mənafe məqsədilə, bir tərəfli addımlar atır və həmin dövlətləri azad hakimiyyət və müstəqillikdən məhrum edirlər. İİ Dünya Müharibəsində İranın müttəfiqləri tərəfindən işğal olunduğunu və Amerikanın Panamaya hərbi müdaxiləsini buna misal çəkmək olar.

4)Böyük qüdrətə malik olan qüdrətlərin fəaliyyəti;

Bu kimi qüdrətlərin fəaliyyətini zəif dövlətlərin daxili işlərinə olunan qeyri-rəsmi və gizli müdaxilə adlandırmaq da olar və bu müdaxilələr siyasi, iqtisadi, ictimai, mədəni, din, elm və s. sahələrdə özünü biruzə verir.

Bu kimi hallarda zəif dövlətlər, adətən öz şəxsi mənafeinə göz yumub, ona təzyiq göstərən hegemon dövlətin irəli sürdüyü tələblərə tabe olmağa məcbur olurlar. Çünki onlara qarşı müxalif əks-əməl göstərdikdə, hegemon dövlətlərin daha güclü təzyiq və hədə-qorxularına məruz qalmış olurlar.

5)Rəsmi tanınma

Hər bir dövlət və ya müstəqil siyasi məntəqəyə xas olan xüsusiyyətlərdən biri də onun digər dövlətlər tərəfindən rəsmi olaraq tanınmasıdır. Belə ki, beynəlmiləl hüquq nizamnaməsinə əsasən, hər bir dövlət özünün coğrafi dairəsində bərabər hakimiyyət hüququna malik olur. O, belə bir hüquqa eyni qayda olaraq, beynəlmiləl səhnədə də malik olur. Bu səbəbdən hər bir dövlət və ya müstəqil siyasi məntəqə təsis olunduqdan sonra onun digər dövlətlər tərəfindən rəsmi olaraq tanınması, onun üçün böyük əhəmiyyət kəsb edir. Onların hakimiyyət halında belə rəsmi olaraq tanınması böyük əhəmiyyət kəsb edir. Çünki siyasi məntəqə kimi rəsmi olaraq tanınmadıqda - Siralionda hərbi çevriliş nəticəsində hakimiyyəti ələ keçirən üsyançılar kimi - böyük çətinliklərlə qarşılaşmalı və bir müddətdən sonra süquta uğrayıb aradan getmiş olur. Çünki dövlətlər bir-birlərinə qarşılıqlı olaraq ehtiyac duyur və heç bir dövlət bağlı ada kimi öz həyatını davam edə bilmir. Tanınmış dövlətlərdə tətbiq olunan hər bir yeni hakimiyyət üsulu tanılmağa

ehtiyac duyur və o hər zaman bunun, digər dövlətlər arasında daha çox rəğbət qazanmasına can atır.

6. Özünəməxsus iqtisadi qurluşa yiyələnmək;

Hər bir müstəqil dövlət özünə məxsus iqtisadi quruluşa malik olur və o digər ölkələrin iqtisadi qurluşu ilə bəzi oxşarlığa malik olsa da, özünə məxsus iqtisadi qurluşu, malikiyyəti, pulu, bank və gömrük sistemi, maliyyə və sosial təminatı, qiymətlərə nəzarət və onların təyin olunması, idxalat və ixracatı ilə digər dövlətlərdən fərqlənmənir. İqtisadi ünsürlərin eyni və bərabər səviyyədə olduğunu beynəlmiləl təşkilatların hakimiyyət dairəsinin genişlənməsi və onun nəticəsində dövlətlərin qüdrət və iqtidarının məhdudlaşmasında da müşahidə etmək olar. Avropa cəmiyyətinin buna misal çəkmək olar.

7. Özünəməxsus ictimai qurluşa yiyələnmək

Yuxarıda qeyd olunan xüsusiyyətlər, siyasi coğrafiya baxımından yalnız siyasi müstəqil məntəqəyə, yəni ölkəyə xas olan xüsusiyyətlərdir. Onlar ümumi şəkildə bütün siyasi məntəqələrə şamil olmasa da, bir qədər əvvəl qeyd etdiyimiz səkkiz xüsusiyyət müstəqil siyasi məntəqə və ya ölkəyədə şamil olur. Buna görə də, siyasi coğrafiya baxımından müstəqil ölkə və dövlətlərin ən azı on dörd xüsusiyyətə malik olduqlarını hesab edə bilərik. Lakin siyasi hüquq və digər elmlər baxımından adətən dörd və ya beş ən başlıca xüsusiyyətlərlə, yəni ərazi, cəmiyyət, hakimiyyət, müstəqillik və digər dövlətlər tərəfindən rəsmi tanınma ilə kifayətlənilir. Siyasi coğrafiyada nəzərdə tutulan xüsusiyyətlər isə bunlardan ibarətdir.

### *(3-1-6) MİLLİ DÖVLƏT[1] VƏ YA SİYASİ MƏNTƏQƏLƏRİN NÖVLƏRİ*

Yaşadığımız dünyada milli dövlətlərin müxtəlif növləri vardır və biz onları siyasi coğrafiya baxımından üç hissəyə bölə bilərik:

1. Sadə və ya unitar dövlətlər;
2. Federal dövlətlər;
3. Regional dövlətlər.

---

[1] Siyasi coğrafiyada milli dövlət dedikdə ərazi, yerli əhali, siyasi quruluş və müstəqil idarəetmədən ibarət olan quruluş nəzərdə tutulur.

## *1-SADƏ VƏ YA UNİTAR DÖVLƏTLƏR*

Belə bir dövlətçilik üsulu dünyanın digər ölkələrinə, xüsusilə müstəmləkə ölkələrə Fransadan yol tapmışdır. Napaleon siyasətindən meydana gəlmiş dövləti sadə (və ya unitar) dövlətlərin ən bariz nümunəsi hesab etmək olar. Fransa, Napaleondan əvvəl qeyri-sadə və mərkəzləşməmiş bir ölkə olmuşdur. Lakin Napaleon təşkilatçılıq siyasətini irəli sürməklə, Fransa əhalisinin regional asılılıqlarına son qoyaraq, qüdrəti Parisdə mərkəzləşdirməyə nail olur. Bu tarixi gedişat da siyasi mərkəzə çevrilmiş Parisin payına çox şey düşürdü. Hal-hazırda dünyanın beş qitəsində yüzdən çox unitar dövlət fəaliyyət göstərir. Sadə dövlətlərin nümunəsini isə aşağıdakı dövlətlərdə daha çox müşahidə etmək olar.

1. Milli və ərazi parçalanma təhlükəsi qarşısında duran İndoneziya və Çili kimi dövlətlərdə;
2. Fransanın sabiq müstəmləkəsi olan və Parisin təyin etdiyi siyasət üzrə idarə olunan Kamboça kimi dövlətlər;
3. Bəzi kommunist və ya Fars körfəzində yerləşən dikdator dövlətlər kimi;
4. Müxtəlif millətlərdən ibarət olan İran, Türkiyə,İspaniya və Hollandiya kimi ölkələr;

   Adı çəkilən ölkələrdə əhalinin əksər hissəsi birlik və həmrəyliyə malikdirlər və azlıq təşkil edən digər millətlər, ölkənin ətraf məntəqələrində məskunlaşmışdır.
5. Danimarka kimi kiçik, sıx və tək milliyyətli ölkələr.

Belə ki, milli həmrəylik bu ölkədə əhali arasında bərqərar olunan əlaqələrin daha da genişlənməsinə yaxından köməklik edir.

## *SADƏ (UNİTAR) DÖVLƏTLƏRİN NÖVLƏRİ*

Sadə dövlətlər mərkəzləşmə baxımından iki hissəyə bölünürlər:

1. Mərkəzləşmiş dövlətlər;

Siyasi quruluşa və mərkəzləşdirilmiş idarəçiliyə malik olan bu dövlətlərdə, bütün siyasi və idari qərarlar mərkəzdə qəbul olunur və icraedici orqan ondan aşağı mərhələdə yerləşir. İran və Şimali Koreyanı bu ölkələrə daxil etmək olar.

2. Mərkəzləşdirilməmiş dövlətlər.

Bu dövlətlər siyasi, siyasi qərar qəbul etmə və qanunvericilik baxımından mərkəzləşdirilmiş, idari və sair baxımdan isə mərkəzləşdirilməmiş hesab olunurlar və onlar məhəlli dövlətlər tərəfindən idarə olunurlar. Yaponiya, İtaliya, Cənubi Koreya və İndoneziyanı buna misal çəkmək olar.

Sair sadə dövlətlər isə siyasi və idari mərkəzləşmə baxımından bu iki dəstənin arasında yerləşirlər. Unitar dövlət əhalinin hakimiyyətdə ifa etdiyi rol baxımından iki hissəyə bölünürlər:

1. Danimarka, İsveç, İran, Fransa, İtaliya kimi yüksək demokratiyaya malik olan ölkələr;
2. Səudiyyə Ərəbistanı və Şimali Koreya kimi demokratiyanın olduqca zəif olduğu ölkələr.

Belə bir bölgüyə əsasən, digər ölkələr də bu iki dəstənin arasında yerləşir.

Sadə dövlətlər əhalinin tərkib hissəsi və milli həmrəylik baxımından da iki hissəyə bölünürlər:

1. Fransa, Danimarka və İsveç kimi güclü milli həmrəyliyə malik olan ölkələr;
2. İraq və Əfqanıstan kimi olduqca zəif milli həmrəyliyə malik olan ölkələr.

Digər dövlətlər də bu iki dəstənin arasında yerləşirlər.

### *UNİTAR DÖVLƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ*

Unitar dövlətlər aşağıdakı xüsusiyyətlərə malik olurlar:

1. Xalqın istəyi, işlərin gedişatının zəif olduğundan qaçmaq amili və bu kimi digər bəhanələrlə hakimiyyət mərkəzləşdirilmir;
2. Milləti tanıtdıran və milli xüsusiyyətləri özündə mərkəzləşdirən mərkəz dairəsinə malik olur;
3. Konstitusiya milli və məntəqə səviyyəsində qanun və nizamnamələr təyin etmək və bu kimi bütün ixtiyarları, hökumət

və milli səviyyədə olan təşkilatların üzərinə qoyur və onlar da öz növbələrində qanun qarşısında cavabdeh olurlar;

4. Vahid milli qanunvericilik orqanına malik olur və aşağı orqan və təşkilatlar heç bir qanunvericilik səlahiyyətinə malik olmurlar;

Başqa sözlə desək, unitar dövlətlər vahid mərkəzləşdirilmiş hüquqa malik olurlar.

5. Siyasi qüdrət, ictimai, iqtisadi, mədəni ideal ölkə və dövlətin bütün sahələrində eyni qaydada tətbiq olunur;

Belə bir üsul milli birliyə nail olmaq məqsədilə, ölkənin müxtəlif ərazilərində aydın şəkildə həyata keçirilə bilər.

Təcrübələr göstərmişdir ki, unitar dövlətlər eyni siyasəti icra etmək və milli səviyyədə müxtəlif nizamnamələr qəbul etməklə, böyük ziyan və xəsarətlərə uğramışlar və bununla yanaşı nəzərdə tutduqları siyasəti, yəni bərabərlik siyasətini də əməli olaraq həyata keçirə bilməmişlər.

Çünki zaman keçdikcə və bərabərlik siyasətinə arxa olan siyasi qüdrət aradan getdikdən sonra məntəqə təəssübü yenidən biruzə vermiş, özünə qayıdış daha kəskin şəkildə ortaya atılmışdır. Yuqoslaviya, komunist Sovetlər İttifaqı və Fransanın uğursuz təcrübələri bütün bu iddiaların şahididir.

6. Mərkəzi dövlət, dövlət və milli büdcəni təyin, mərkəzi məclis (parlament) isə təsdiq edir. Ölkənin gəlir və məxaricinin hesablanması da mərkəzi dövlətin üzərinə düşür. Lakin belə bir üsul milli inkişafa mənfi təsir bağışlayır.
7. Hökumət təşkilatları milli səviyyədə özünə yer tapır;

Bu zaman dövlət bir nömrəli şəxsin əlində mərkəzləşir və ya müxtəlif təşkilatlar arasında bölünür. Üçlük təşkil edən qanunvericilik, icraedici, məhkəmə və ya mətbuat, kütləvi informasiya vasitələri və bu kimi sair təşkilatlar.

8. Unitar dövlətlər bərabər quruluş (siyasi və idari), ictimai birlik (hamının qanun qarşısında bərabər məsuliyyət daşıması) və bərabər əraziyə (qanunun ölkənin bütün ərazisində bərabər olaraq icra olunması) malik olur.
9. Məhəlli dövlətlər və ictimai təşkilatlar, mərkəzi və milli dövlətin qəbul etdiyi qərarlar və qanunverici orqan tərəfindən təsis olunur;

İqtidarın bütün səlahiyyətləri də mərkəzi dövlət və qanunvericilik orqanın tam ixtiyarında olur. Bu səbəbdən milli səviyyədə olan qanunvericilik orqanı, ona verilən ixtiyarları geri ala və ya həmin məhəlli və ictimai təşkilatların fəaliyyətini dayandıraraq, rəy verə bilər.

İctimai və məhəlli ixtiyarların verilməsi və ya əhalinin ictimai, iqtisadi hətta siyasi məsələlərdə iştirak etməsi, mərkəzi dövlətin məhəlli və ictimai təşkilatlar arasında yaradılan əlaqə və münasibətlərindən asılıdır. Belə ki, münasibətlər yüksək səviyyədə olduqda, onlara daha çox ixtiyar verilir. Əks təqdirdə mərkəzi dövlət və milli məclis, ya onları malik olduqları ixtiyarlardan məhrum edir, ya da dövlətin icraedici orqanları müxtəlif vasitələrdən istifadə edərək, milli və ictimai təşkilatların qarşısına məhdudiyyətlər qoyur və nəticədə birgə iştirak heç bir məna və məfhum kəsb etməyir.

10. Mərkəzləşdirmə cəmiyyətin inkişafının qarşısında maneələr yaratdığı üçün ixtiyarlar milli səviyyədən aşağı səviyyəyə enir və eyni zamanda yüksək vəzifəli şəxslər olduqca aşağı səviyyəyə enməli olurlar.

### *UNİTAR DÖVLƏTLƏRİN ÜSTÜNLÜKLƏRİ*

1. Böhran şəraitində dərhal lazımi qərar qəbul etməsi;
2. Milli həmrəylik yüksək səviyyədə qorunur və milli parçalanmaya olan meyl zəifliyə doğru gedir.

### *UNİTAR DÖVLƏTİN ÇATİŞMAMAZLİQLARİ*

1. Demokratiyanın səviyyəsi azalır və onun ardınca əhalinin siyasi azadlığı məhdudiyyətlə qarşı-qarşıya durur. Bütün bunlarla yanaşı, onların siyasi, ictimai, iqtisadi və mədəni fəaliyyətləri bərabərləşərək, eyni səviyyəyə düşür;
2. Bürokratiya sürətlə artır, xalq və dövlət təşkilatları bir çox çətinliklərlə üzləşir. Məntəqə və xalqla əlaqəli olan işlərin icrası təxirə salınaraq ləngidilir;
3. Məntəqənin iqtisadi, ictimai və mədəni məsələlərinin aradan qaldıra bilinməməsi, coğrafi bərabərsizlik və ədalətsizliklər nəticəsində şəhərlərin zəngin və yoxsul məhəllələrə bölünməsi;

4. Təhsil, demokratik təcrübələr və əhalinin kütləvi iştirakında müşahidə olunan zəiflik və çatışmamazlıqlar və bu sahələrdə camaata qarşı tətbiq olunan diktatura;
5. Hakim və dövlət rəhbərlərinin əhaliyə qarşı olan laqeyidsizliyi və birtərəfli mövqe tutmalarının özünü biruzə verməsi;
6. Əhalinin şüur, istedad və bacarıqlarında heç bir irəlləyişin hiss olunmaması.

Nəticədə əhali və dövlətdə fəaliyyət göstərən aşağı vəzifəli şəxslər, üzərlərinə heç bir məsuliyyət qəbul edə bilmir və beləliklə, bu təbəqədə dövlətə qarşı etimadsızlıq hissi yaranmağa başlayır.

## *2-FEDERAL DÖVLƏTLƏR*

Müstəqillik uğrunda aparılan müharibələrdən sonra 1787-ci ildə ilk dəfə olaraq ameriklılar "federal" adlı dövlətçilik üsulunu təsis etmişlər. Müstəqillik əldə olunduqdan sonra Amerikada Konfederal dövlətçilik üsulu təsis olunur, lakin altı illik təcrübədən sonra federal dövlətçilik üsulu onun yerini əvəz edir və indi dövürədək fəaliyyət göstərir.

Hal-hazırda, dünyada 12 federal ölkə fəaliyyət göstərir və onlar aşağıdakılardan ibarətdir: Amerika, Kanada, Avstraliya, Argentina, Braziliya, Meksika, Almaniya, İsveç, Nigeriya, Hindistan, Pakistan.

Prezident və baş nazirin rəhbərlik etdiyi federal ölkələr qanunverici, icra edici, senat, parlament, federal ədalət və konstitusiya məhkəməsi tərəfindən idarə olunur. Müdafiə, xarici siyasət, xarici əlaqələr, pul, bank və gömrük sistemi kimi ümumi məsələlər isə, müştərək olaraq vahid və qanun nizamnamələri çərçivəsində icra olunur. Federal və əyalət dövlətlərin hüquq və nizamnamələri konstitusiyada müəyyənləşdirilmişdir. İxtilaf doğuran məsələlərə federal məhkəmədə baxılır.

## *FEDERAL DÖVLƏTLƏRİN NÖVLƏRİ*

Keçmiş və hal-hazırkı federal dövlətləri beş hissəyə bölmək olar:

1. Olduqca sadə əraziyə malik olan Argenina və Avstraliya kimi dövlətlər;

   Bu kimi dövlətlərdə belə bir şəraiti yalnız ərazisinin böyüklüyü və cəmiyyətin siyasi əhval-ruhiyyəsi meydana gətirir.

2. Pakistan, Nigeriya və Kanada kimi müxtəlif regional xüsusiyyətlərə malik olan ölkələr;

   Bu məntəqələr ölkə məsələlərində payları düşən şeylərdə nisbi bərabərliyə malik olurlar.
3. Parçalanaraq aradan getmiş Yuqoslaviya, Sovet İttifaqı, Mərkəzi Afrika və üç illik Misir və Suriya federasiyası kimi ölkələr;
4. Unitar dövlətçilik üsulunu federal dövlətçilik üsulu əvəz etmiş Kamerun, Kenya, Tanzaniya və Uqanda kimi ölkələr;
5. Federal təşkilatlar meydana gəlməzdən əvvəl vahid birlik halında fəaliyyət göstərmiş Birləşmiş Ərəb Əmirlikləri və Malaziya kimi ölkələr.

Onların bir dövlət kimi meydana gəlməsinə səbəb olan amil, məhz həmin birlik olmuşdur. Bu kimi dövlətlərə federasiya adı verilsə də, əslində federal dövlət hesab olunmurlar. Bəlkə də, onları bir növ regional dövlət adlandırmaq olar.

### *FEDERAL DÖVLƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ*

Geniş və müxtəlif coğrafi əraziyə malik olan federal dövlətlər aşağıdakı xüsusiyyətlərə malik olurlar:

1. Yüksək siyasi hüquqi xüsusiyyətlərə malik olan əyalət, dövlət və məntəqələrə yiyələnir və özünün adət-ənənəsi, mədəniyyət və ideologiyası ilə həmahəng olan qanun və siyasət tətbiq edir;
2. Digər məntəqələrdən fərqlənən özünə məxsus məntəqələrə, habelə ictimai-siyasi baxımdan böyük əhəmiyyət kəsb edən nüvə silahı mərkəzlərinə malik olur;
3. Siyasi mərkəz və ya ölkənin paytaxtı əyalətlərin birgə rəyi əsasında müəyyənləşdirilir və onlardan heç birinə aid olmayıb, federal dövlətin səlahiyyət çərçivəsində idarə olunur.

   Vaşinqton, Ottava, Kamberra və İslamabadı buna misal çəkmək olar.
4. Federal dövlətlər əyalətlərin siyasi razılıqları əsasında meydana gəlir və onun qorunması bir çox səylər tələb edir;
5. Federal dövlətlərdə ən başlıca məqsəd birlik və həmrəyliyə nail olmaq deyil, sülh, əmin-amanlıq və həmkarlıq şəraitində yaşamaqdır;

6. İctimai-iqtisadi proqram və siyasətini həyata keçirməklə maliyyə, vergi, sərmayə qoyuluşu kimi məsələlər və eyni zamanda, ictimai və iqtisadi sahələrdə inkişaf və rəqabət meydana gəlir.
7. Federal dövlətlərdə bir-biri ilə zidd olan iki yönüm fəaliyyət göstərir. Federal dövlət əyalət dövlətin mərkəzləşdirilməsinə, əyalət dövlətlər isə federal dövlətin iqtidarının zəifləməsinə və mərkəzləşdirilməyə yol verməməyə can atır;
8. Federal dövlətlərdə ikilik təşkil edən - federal və əyalət - təşkilatlar üç hissədən ibarət ayrıca quruluşa malik olurlar. Yəni onların hər birində xüsusi qanunverici, icraedici və məhkəmə orqanları və özünəməxsus nazirliklər fəaliyyətlər göstərir;

   Bu təşkilatlar federal dövlətlərdə bir-birlərindən fərqlidə ola bilərlər. Əyalətlərin özündə də federal dövlətə məxsus olan gömrük, polis, universitet və bu kimi sair müəssisələr təsis olunur.
9. Əyalət və federal dövlətlərin hər biri ayrıca büdcə, gəlir və mühasibata malik olur.
10. Əyalət dövlətlər, senatdakı nümayəndələrinin vasitəsilə icbari deyil, ixtiyari olaraq federal məsələlərdə iştirak edir və federal dövlətin qorunub saxlanılmasını, əyalətlərarası əlaqələri, icraedici orqanın nəzarət və idarə olunmasını təmin edirlər;
11. Əyalətlər arasında bərqərar olunan əlaqələr daxili, digər ölkələrlə yaradılan əlaqələr isə, beynəlmilələ hüquq əsasında qurulur.

    Başqa dövlətlərlə əlaqələr yaratmaq federal dövlətlərin üzərinə düşür. Əlbətdə, Kanada və ya sabiq Sovet İttifaqında hər bir əyalət və ya respublika, digər ölkələrlə birbaşa əlaqələr yarada bilər (və ya bilərdi).
12. Federal dövlət beynəlmiləl hüquq, ərazi bütövlüyünün qorunub saxlanılması, milli təhlükəsizliyin təmin olunması, qanunvericilikdə (tərcümə olunmayıb kitab 168, vərəq 442-ci səh. Bax)

### *FEDERAL DÖVLƏTİN FƏALİYYƏTLƏRİ*

1. Əyalətlər arası təcrübə mübadilələrinə münasib imkan yaranır. Hətta çatışmamazlıqların nədən ibarət olduğunu bilmək üçün

dövlətin nəzərdə tutduğu proqramları sınaq məqsədilə əyalətlərdən birində həyata keçirmək olur;

2. Coğrafi ərazinin bölünmə prinsipini nəzərə alaraq, federal dövlətlərdə qüdrətin mərkəzi dövlətin əlində mərkəzləşdirilməsinin qarşısı alınır və əvəzində fərdi və kütləvi siyasi azadlıq, unitar dövlətlərdən daha yaxşı təmin olunur;
3. Mərkəzi hakimiyyətin vəzifələri azaldığı üçün bürokratiya və müdiriyyətin mərkəzləşdirilməsi də azalmağa doğru gedir, yəni ümumi məsələlər, məsuliyyət və təzyiqlər hamının üzərinə düşdüyü üçün mərkəzi hakimiyyətin üzərinə düşən yük dəfələrlə yüngülləşmiş olur;
4. Federal dövlət, əhalinin müştərək siyasi fəaliyyəti üçün təlim və tərbiyəvi rol oynayır və eyni zamanda, cəmiyyətdəki siyasi əhval-ruhiyyəni, habelə xalqla dövlət arasında olan əlaqələri həmkarlıq və həmrəylik əsasında öz axarına salır;
5. Məhəlli təşkilat və dövlət aparatının müxtəlif sahələrində tərzi-təfəkkür, məsuliyyət hissi daha da inkişaf edir və özünə arxayınlıq əhval-ruhiyyəsi güclənərək, özünün son mərhələsinə çatır.

## *FEDERAL DÖVLƏTİN ÇATİŞMAMAZLİQLARİ*

1. Əyalət, dövlətlərin birgə iştirakından asılı olduğu üçün milli məsələlərin icrası üçün nəzərdə tutulan qərarlar təxirlə qəbul olunur.
2. Səlahiyyət, federal və əyalət məsələlərində milli dövlətin malik olduğu ixtiyarların üzərində milli dövlətlə əyalət dövlətləri arasında gedən keşməşkeşlər geniş vüsət halını tapır.
3. Milli mənafe və mənbələri ələ keçirmək üçün əyalətlər arasında aparılan rəqabət və məntəqə təəssübkeşliyi daha da çox güclənməyə başlayır.

## *FEDERAL VƏ KONFEDERAL DÖVLƏTƏLƏR ARASİNDA OLAN FƏRQLƏR*

Konfederal dövlətlər bir neçə müstəqil dövlətin iqtisadiyyat, müdafiə və bu kimi sahələrdə bir-birləri ilə həmrəy və müştərək hədəfə malik olmaları nəticəsində meydana gəlir. Bu kimi dövlətçilik üsulunda müstəqil dövlətlər bağladıqları sazişə əsasən, hakimiyyətlərinin bir hissəsini ayrıca olaraq konfederal dövlətlərə həvalə edir və ondan ayrı və azad olmağa can atırlar.

Konfederal dövlətçilik üsulu qanunverici təşkilatlardan, müştərək ordu, məhkəmə sistemindən ibarət olsa da, qeyri-sabit olur. O ya öz fəaliyyətini dayandırıb aradan gedir, ya da federal dövlətçilik üsuluna üz tutur. Çünki onun təşkilatları lazımi qüdrətə malik olmurlar. Buna görə də, beynəlmiləl əlaqələrdə konfederal sistemə üzv olan dövlətlər müstəqil addımlar ata bilir. Misal olaraq, bir neçə nümunəyə işarə edirik:

-İsveç özünəməxsus coğrafi mövqeyə malik olan bir dövlətdir. 1971-ci ildə ilk dəfə olaraq üç Kantuldan (inzibati ərazi bölgəsi) ibarət olan konfederal dövlətçilik üsulunu təsis etsə də, 1848-ci ildə onu federal dövlətçilik üsulu ilə əvəz etdi.

-1815-ci ildə 38 ölkənin üzvülüyü ilə Jerman konfederasiyası təsis olunur və 1846-cı ildə müəyyən dəyişikliklərdən sonra federal dövlət üsula çevrilir. İİ Dünya Müharibəsindən sonra 1949-cu ildə Hindistan, Çin, Hollandiya və ya İndoneziya kimi ölkələrlə birlikdə meydana gələn Fransa konfederasiyaları, 1353 və 1354-cü illərdə öz fəaliyyətini dayandırırlar. Hal-hazırda heç bir konfederal təşkilat fəaliyyət göstərmir. Hərçənd, Avropa birliyi və BMT-nin bəzi sahələrdə göstərdiyi fəaliyyətləri buna bənzətmək olar.

Federal və konfederal üsullar arasında olan fərqlər:

1. Konfederal təşkilatlarda ən başlıca yeri ona üzv olan hakimiyyət və dövlətlərin müstəqilliyi tutur. Konfederal təşkilatlar məhdud ixtiyarlara malik olsalar da, federal hakimiyyət üsulunda, mərkəzi dövlətin hakimiyyətinə daha çox yer verilir və burada əyalət dövlətləri daha az ixtiyarlara malik olurlar.
2. Konfederal hakimiyyət üsulunda ona üzv olan dövlətlərarası əlaqələr beynəlmiləl hüquq əsasında, federal hakimiyyət üsulunda isə əyalət dövlətləri arasında yaradılan əlaqələr və daxili hüquq əsasında tənzimlənir.

3. Konfederal hakimiyyət üsulunda ona üzv olan dövlətlərin digər dövlətlərlə yaratdığı əlaqələr həm konfederal təşkilatların vasitəsi, həm də birbaşa olaraq bərqərar olunur. Lakin federal dövlətçilik üsulunda əyalət dövlətlərinin digər müstəqil dövlətlərlə yaratdığı əlaqələr yalnız federal dövlətin vasitəsilə mümkündür.
4. Federal dövlətçilik üsulu, konfederal üsuldan daha çox davam gətirir. Belə ki, konfederal hakimiyyət üsulları bu vaxtadək ya zəifləyib aradan getmiş, ya da federal hakimiyyət üsuluna çevrilmişdir.

## *3-REGİONAL DÖVLƏTLƏR*

Məşhur ispan alimi Xoan Fernando mərkəzləşdirmə və onun tam əksi olan iki dövlətçilik üsullarını, yəni federal və unitar dövlətçilik üsullarını nəzərdən keçirdikdən sonra "Regional dövlətçilik" nəzəriyyəsini irəli sürmüşdür. Belə bir dövlətçilik üsulunda unitar mərkəzi dövlət özünün siyasi qüdrətinin bir hissəsini daxili məntəqələrə həvalə edir. Bu məntəqələrdə özünə məxsus mədəniyyət millətçilik hissinə malik olaraq, mərkəzi dövlətə təzyiq göstərib azadlıq və müstəqillik şüarını verə bilər. Bütün bunların qarşısını almaq məqsədilə, mərkəzi dövlət həmin məntəqələrə müəyyən siyasi səlahiyyət verir. Bu kimi muxtar vilayətləri İtaliya, İspaniya, Finlandiya, Rusiya, Azərbanycan və Çində müşahidə etmək olar. İngiltərəni isə qədim regional dövlət hesab edə bilərik. Bu ölkədə Şotlandiya, Şimali İrlandiya və Uels muxtariyyata malik olsalar da, bütün hüquq və ixtiyarlar İngiltərə parlamentində müəyyənləşdirilir.

Regional Muxtar vilayətlər unitar dövlətlərin daxilində iki formada fəaliyyət göstərir:

1. İcbari muxtariyyat - mərkəzi dövlət bu kimi vilayətləri xalqın tələb və göstərdikləri təzyiq nəticəsində təsis edir;

2. Azad muxtariyyat - mərkəzi dövlət onu azad ticarət və ya iqtisadi zonaya yiyələndiyi üçün oranın ifa etdiyi rol və malik olduğu xüsusiyyətləri nəzərə alaraq, ölkə daxilində könüllü olaraq muxtar vilayətlər təsis edir.

### *(3-1-7) MÜSTƏQİL DÖVLƏT VƏ YA ÖLKƏNİN TƏHLİL VƏ ARAŞDİRMASİ*

Bir qədər əvvəl ölkə və ya dövləti təşkil edən ünsürlər haqqında, yəni coğrafi mövqeyyət, ərazi və quruluş, paytaxt və siyasi mərkəz dairələri, sərhəd və oraya hakim olan siyasi əhval-ruhiyyə barədə ixtisarlada olsa, söhbət açdıq. Burada isə onların hər biri barədə ayrı-ayrılıqda söhbət açaraq, müəyyən izahatlar verməyi daha məqsədə uyğun hesab edirik.

### *1-DÖVLƏTİN MEYDANA GƏLMƏ SƏBƏBLƏRİ*

Hər bir dövlətin meydana gəlib fəaliyyət göstərməsinə bir və ya bir neçə amil səbəb olur. Bəzən bu amillər aradan gedir və onları digər amillər əvəz edir və ya ölkənin fəaliyyət göstərməsinə zəmanət verir. Dövlətlər mövcudiyyət və fəaliyyətin əhəmiyyətini nəzərə alaraq, onların güclənməsinə daha çox diqqət yetirir və bu da amillərin artmasına səbəb olur. Məsələn, millətlər arasında olan oxşarlıq dövlətin meydana gəlməsi üçün müəssər amillərdən biri ola birlər.

Belə ki, bu amilin qorunub-saxlanılması, ölkənin də qorunub-saxlanılmasına səbəb olur. Millətlə ərazini bir-birinə bağlayan ən başlıca amil, millətin məskunlaşdığı ərazi hesab olunur. Buna görə də, dövlətlər ərazi bütövlüyü və milli birliyin qorunub*saxlanılmasına çalışırlar. Bu da siyasətçilər və dövlət rəhbərləri arasında ixtilaf və qarşıdurmalara səbəb olan ən başlıca amillərdən biri hesab olunur.

Dünya ölkələrinin meydana gəlmə amillərini iki hissəyə bölmək olar: daxili və xarici amillər.

Bəzən bu iki amil bir-birlərinə qarşılıqlı əksül-əməl göstərir və hətta xarici amillərin təsiri altında meydana gəlmiş dövlətlər daxili amil və ya amillərə arxalanır.

*a) Xarici amillər*

Xarici amillər aşağıdakılardan ibarət olur:

1. İstismar;

Avropa istemarçıları Afrika, Latın Amerikası, Okeaniya və Avstraliya qitələrində böyük əraziləri işğal edərək, onları öz aralarında müxtəlif nahiyələrə bölmüşlər. Müstəqilliklərini əldə etdikdən sonra həmin ərazilər, ayrı-ayrılıqda müstəqil dövlət halında fəaliyyət göstərməyə başlamışlar.

2. Məntəqə və ümumdünya hegemon dövlət arasında gedən rəqabətlər;

Nüfuza malik olan xüsusilə qonşu hegemon ölkələr arasında gedən mübarizələr, vəziyyətin daha da genişlənməsinə səbəb olur. Buna görə də? onlar bəzən yaranmış gərgin vəziyyətin qarşısını almaq məqsədilə, sipər ölkəsini təsis etməli olurlar. Pakistan, Əfqanıstan, İran və Livan belə bir mövqedə yerləşmiş dövlətlər hesab olunurlar.

3. İİ Dünya Müharibəsi

İİ Dünya Müharibəsi yeni ölkələrin təsis olunmasında iki mühüm təsir bağışladı:

a) Müharibədə qarşı-qarşıya duran qüdrətlərin zəifləməsi;

Bir vaxtlar böyük əraziləri istismar edən həmin hegemon dövlətlər artıq onları idarə edə bilməyir, digər tərəfdən də yerli əhalinin siyasi azadlıq hərəkatı onları öz müstəmləkələrinə müstəqillik verməyə vadar edirdi. Cənubi, cənub-şərqi Asiya və Afrika dövlətlərinin əldə etdikləri müstəqilliyi buna misal çəkmək olar.

b) Millətlər Təşkilatının təsis olunması;

Məğlub olmuş dövlətlərin müstəmləkələrinin himayəsini öz üzərinə götürmüş bu təşkilat, lazımi şərait yaratmaqla, həmin ərazilərə müstəqillik verməyə çalışmışdır və bu günlər həmin uğurlu addım həyata keçmiş və həmin ərazilər adı çəkilən təşkilatın himayəsi altında müstəqilliklərini əldə etmişlər.

4-Dünyada qütbləşmənin dağılması və Soyuq Müharibənin sona çatması;

Bu cərəyan Sabiq Sovetlər İttifaqında on beş, Yuqaslaviyada altı, Çexoslavakiyada iki yeni müstəqil respublikanın meydana gəlməsi,

şərqi və qərbi Almaniyanın, habelə şimali və cənubi Yəmənin birləşməsi nəticəsində baş verdi.

5-Xarici təhdidlər

Hər hansı bir ərazinin başqa bir dövlət tərəfindən siyasi və ya hərbi sahələrdə təhdid olunması, millətin birlik və həmrəyliyinin artmasına gətirib çıxarır. Belə bir amil həm Serblərin təhdidlərinin müqabilində Bosniya və Hersoqovina kimi dövlətlərin təsis olunmasına, həm də İran İslam Respublikası kimi bir dövlətin İraq və Amerika təhdidlərinin müqabilində milli həmrəyliyini qoruyub saxlamasına yaxından kömək edə bilər.

*a) Daxili amillər:*

1. *Tarix;*

Coğrafi ərazidə Misir, Yunanıstan, İran və Çin kimi dövlətlərin qədim və köklü tarixə malik olması, onun uzun müddət dövlət halında fəaliyyət göstərməsindən xəbər verir. Hər hansı bir coğrafi ərazinin əhalisinin uzun müddət orada məskunlaşması, ictimai əlaqələrin genişlənməsi, birlik və həmrəyliyə nail olmaları ilə nəticələnir. İnsanlar həyatın ağrı-acılarını, sevinc və şirinliklərini birgə daddıqları üçün bir növ bir-birlərində asılılıq hissi tapmağa başlayırlar. Müştərək sevinc, qəm-qüssə və tale onları bir-birlərinə yaxınlaşdıraraq, aralarında sıx birlik yaradır.

2. *Ərazi birliyi;*

Ərazi, müəyyən insan kütləsinə özünə məxsus cazibə və bağlılıqları ilə yer verən əhatə dairəsindən ibarətdir. İran kimi böyük coğrafi əraziyə malik olan bir ölkə orada insan kütləsi və vahid mədəniyyətin meydana gəlməsinə səbəb olur. Sivilizasiyaya nail olmuş bir çox ərazilərdə coğrafi dairənin təbii sərhədləri, mədəniyyət və sivilizasiya sərhədləri ilə birgə olur. Çünki sərhədə malik olan coğrafi ərazi sakinləri, orada yaşayan və bir-birlərinə yaxın münasibətdə olan evə bənzəyir. Bu kimi müştərək həyat tərzindən meydana gələn belə bir birlik və bağlılıq millətin təməlini qoyan mədəni insan kütləsinin yaranmasından xəbər verir.

3. *Mədəniyyət;*

Mədəniyyətin müxtəlif sahələrdə bir-birilə oxşar və həmahəng olması millətin birliyinə və vahid şəxsiyyətin formalaşmasınaköməklik edir. Mədəniyyətin özü müxtəlif amillərin təsiri altına

düşsədə din, dil və ədəbiyyat, əlifba, adət-ənənələr, milli atributlar, milli qəhrəmanlar və əfsanələr, milli bayram, geyim, mətbəx və s. kimi amillər hər hansı bir millətin meydana gəlməsinə səbəb ola birlər.

4. *İrq;*

İnsan kütlələri arasında olan bağlılıqlar, qohumluq əlaqələri və müştərək cismani xüsusiyyətlərə yiyələnmək, digər müştərək xislət və ünsürlərlə yanaşı, bəzən ruslar, jermen və serb kimi irqlərin meydana gəlməsinə səbəb olur.

5. *Siyasi hədəf*

Siyasi hədəf, hər hansı bir coğrafi ərazidə məskunlaşmış insan kütləsinin müştərək dəyərlər əsasında təsis etdikləri hakimiyyət, onun çərçivəsində fərd və ya ümumi kütlə üzərində tətbiq etdiyi qanunlardan və idarəetmə üsulundan ibarətdir. Siyasi hədəf, müəyyən baxışın və vahid siyasi quruluşu təsis etməyə can atan kütlənin müştərək istək və tələblərinin mənşəyini təşkil edir. Bu səbəbdən, siyasi hədəfin ifa etdiyi ən başlıca rol, milli birliyi yaratmaq və onu genişləndirməkdən ibarətdir. Siyasi hədəflər isə aşağıdakı hallarda özünü biruzə verir:

a) İdeal şəxsə təmayül;

Millətin müəyyən bir şəxsə göstərdiyi siyasi bir meyl. İran camaatının İmam Xomeyniyə, yuqoslaviyalıların Titova və çinlilərin Maoya olan siyasi rəğbətlərini buna misal çəkmək olar.

b) Dinə yönəlmə;

İran İslam Respublikasında olduğu kimi camaatın dini ideologiya üzərində qurulmuş siyasi quruluşa olan meyl və istəyini buna misal çəkmək olar.

v) Millətçilik;

Coğrafi əhatə dairəsi ilə birgə müştərək milli dəyərlər, milli və ərazi asılılıqlar əsasında meydana gəlir və orada milli mənafe və onun üzvlərinə, digər millətlərdən daha çox diqqət yetirilir.

q) İrqçilik;

Nasizm Almaniyasında olduğu kimi irqçiliyə olan siyasi meyl.

ğ) Fəlsəfi təmayül;

Kommunizm, anarxizm və bu kimi məktəblərdə olduğu kimi özünə məxsus fəlsəfə ilə ideoloji məktəbə olan etiqad.

d) Regional təmayül

Siyasi hədəfin, vətən və müştərək regional dəyərlər üzərlərində formalaşması.

Artıq məlumdur ki, hər bir ölkənin dövlət rəhbərləri və siyasətçilərini özünə cəlb edən ən mühüm məsələ, dövlətin davam gətirməsinə səbəb olan ən başlıca amil, yəni milli həmrəyliyi qoruyub-saxlamaqdan ibarətdir. Belə ki, onlar heç vaxt bu məsələyə biganə olub, etinasızlıqla yanaşa bilməzlər. Bu səbəbdən milli həmrəyliyi qoruyub-saxlamaq üçün müxtəlif üsullardan istifadə olunur. Biz onlardan bir neçəsinə işarə edirik:

1. Milli hisslərin gücləndirilməsi;

   Bu isə, adətən dövləti meydana gətirən daxili amillərin əsasında mümkün olur.
2. Ölkənin adı, bayraq, gerb, himn, adət-ənənə, milli bayramlar, milli idmanlar, milli komanda, milli pul vahidi, milli istehsal və dövləti tanıtdıran bu kimi digər yeni atributların təsis, köhnələrinin isə gücləndirilməsi;
3. Milli münasibətlərin, qəhrəmanlıq və fədakarlıq nümunələrinin, söz və qələm ustalarının, elm xadimlərinin və digər milli iftixarların dirçəldilməsi;
4. Siyasi partiyaların təşkili və ölkə səviyyəsində onlara üzv olmaq üçün şəraitlərin yaradılması;
5. Milli kökləri gücləndirmək və ölkənin sərhədlərini qorumaq məqsədilə, ordudan istifadə edilməsi, lazım gəldikdə, ölkə ərazisində yerlərininin dəyişdirilməsi;
6. Milli həmrəyliyi gücləndirmək və əhalinin rəftar və tərzi-təfəkkür səviyyəsini qaldırmaq məqsədilə, kütləvi informasiya vasitələrindən istifadə edilməsi;
7. Dərsliklərin təlif və təlim-tərbiyə ocaqlarında istifadə edilməsi;
8. Vahid dil və əlifbadan istifadə edilməsi;
9. Əhalinin paytaxt və ölkənin siyasi mərkəz dairələrinə olan asılılıqlarını gücləndirmək məqsədilə, mərkəzi dövlət idarələrindən istifadə edilməsi;
10. Əhkam arasında həmrəylik yaratmaq məqsədilə, bir və ya bir neçə siyasi amal meydana gətirilərək, təbliğ edilməsi;

11. Siyasi məsələlərə dair qərar qəbul etdikdə, ölkənin bütün məntəqələrinin nümayəndələri, milli partiya və qruplaşmaların iştirakı ilə yanaşı, ümumi kütlənin cəlb olunması;
12. Məntəqələrarası ictimai, iqtisadi və mədəni münasibətləri genişləndirmək məqsədilə, bu sahələrdə nəzərə çarpan boşluqların aradan qaldırılması;
13. Dövlət, yüksək vəzifəli şəxslərin ictimai coğrafi ədalətə riayət edərək, ölkə daxilində yaşayan millətlərə qarşı birtərəfli mövqe tutmayıb, onlarla bərabər şəkildə davranmalı;
14. Xarici ölkələr arasında yaranmış ixtilaflardan səmərəli istifadə etməli və əhali arasında milli həmrəyliyin daha da gücləndirilməsinə xüsusi diqqətin yetirilməsi.

İran İslam Respublikasının ölkə xaricində İraqla ABŞ arasındakı ixtilaflardan səmərəli istifadə edərək, milli həmrəylik yolunda atdığı addımları buna misal çəkmək olar.

## *2-COĞRAFİ MÖVQE VƏ ONUN SİYASİ ROLU*

Hər bir ölkənin coğrafi mövqeyi, onun siyasi rəftar və davranışları və milli qüdrətinə müxtəlif təsirlər göstərə bilər:

1. *Riyazi mövqe;*

Ölkənin ekvator xəttinə və ya coğrafi enə yaxın və ya uzaq olması, oranın ab-hava, iqtisadi fəaliyyət, əkinçilik və əhalinin cismani qurluşuna böyük təsir qoymaqla yanaşı, onun milli qüdrətinin azalıb çoxalmasına da köməklik edir.

2. *Ayırıcı mövqe;*

Əgər hər hansı bir ölkə iki və ya daha artıq ölkə arasında yerləşib, qüdrətli bir ölkə olarsa, özünün tam müstəqilliyini qoruyub-saxlaya bilər. Lakin heç bir qüdrətə malik olmayıb ölkə zəif olarsa, digər hegemon ölkələr onun daxili və xarici siyasətinə müdaxilə edəcəklər. İran, Əfqanıstan və Livanın XX əsrdə qarşılaşdığı belə bir acınacaqlı vəziyyəti buna misal çəkmək olar.

3. *Strateji mövqe;*

Strateji mövqe, hər hansı bir ölkənin başqa bir ölkə ilə apardığı böyük hərbi əməliyyatlar nəticəsində malik olduğu mövqeiyyətə deyilir. Sülh şəraitində bu kimi ölkələrdən hərbi hissə, müharibə şəraitində isə işğal və hərbi əməliyyatlar aparmaq məqsədilə istifadə

olunur. İİ Dünya Müharibəsində İran, Türkiyə, Belgiya, Yaponiya və Cənubi Koreyanın belə bir mövqeiyyətə malik olmalarını buna misal çəkmək olar.

4. *Keçici mövqe;*

Hər hansı bir ölkə ərazisinin bütün və ya bir hissəsindən insan, mal və məmulatların bir ölkədən başqa bir ölkəyə keçirilməsində istifadə olunmasına keçici mövqeiyyət deyilir və təbii olaraq, bu kimi ölkələr daim digər ölkələrin diqqət mərkəzində olur. İran, Panama, Nikaraqua, Polşa və Türkiyə kimi ölkələrin belə bir dünya əhəmiyyətli strateji mövqeiyyətdə - körfəz zonalarında yerləşmələrini buna misal çəkmək olar.

5. *Nisbi mövqe;*

Bir ölkənin digər ölkə və ya coğrafi nahiyələrə qarşı malik olduğu mövqeiyyətə, nisbi mövqeiyyət deyilir.

a) Dəniz sərhədləri;

Dəniz və ya digər su hövzələri ilə sərhədə malik olan ölkələr, dünyanın digər ölkələri ilə azad əlaqələr yaratmaqla yanaşı, dəniz qüvvələrinə də yiyələnmək imkanına malik olurlar. Bu günlər dəniz vasitəsilə yaradılan əlaqələr və yükdaşıma sənayesi əvvəlki dövrlərlə müqaisədə daha çox inkişaf etmişdir. Hələ son beş əsrdə İngiltərə, Hollandiya, İspaniya, Portuqaliya, Fransa, İtaliya, Almaniya və Amerika kimi hegemon ölkələr açıq dənizə birbaşa çıxışa malik olmuş və bu sahədə böyük irəliləyişə nail olmuşlar.

b) Quru sərhədləri;

Bəzi ölkələr yalnız quru sərhədlərinə malikdirlər və bu günlər onların sayı otuza çatır. Yalnız quru sərhədlərə malik olan ölkələr daim ərazilərindən istifadə etdiyi digər ölkələrin qarşısında təvazökar olmaqla yanaşı, bir çox hallarda xəsarət çəkməli olurlar. Bu səbəbdən zəif və geridə qalmış ölkələr sırasına daxili olurlar. Əlbətdə, sabiq Sovet İttifaqı və ya bu günki Rusiya Federasiyası bəzi "quruluq qüdrəti" də adlanır. Hərçənd bu ölkənin okean və azad sulara kifayət qədər çıxmaq imkanı vardır.

*v) Qonşuluq mövqeyi;*

Qüdrətli ölkələrlə qonşuluq edilərək onlarla yaradılan əlaqələrə, qonşuluq münasibətləri deyilir. Qüdrətli ölkələrlə qonşuluq edən, lakin onlarla yaxşı münasibətdə olmayan ölkələri Hindistan kimi

qüdrətli ölkə ilə qonşuluq edən Pakistanı daimi təhlükə gözləyir. Banqladeş tək Hindistanla gözəl münasibətlər yaradan və ya güclü müdafiəyə malik olan ölkələr isə qənaət bəxş qonşuluq mövqeiyyətinə malik olmağa nail olurlar.

Bərabər qüdrətə malik olan, lakin bir-birlərinə qarşı qərəzli mövqe tutan İranla İraq kimi ölkələr isə daim biri digərinə düşmən gözü ilə baxır və bir-birlərini zərərsizləşdirməyə çalışırlar. Lakin İranla Pakistan kimi iki qonşu ölkə arasındakı əlaqələr yüksək səviyyədə olduqda, hər iki tərəf bir-birlərinə yaxından köməklik və ehtiyaclarının aradan qaldırılmasında birgə əməkdaşlıq edirlər. Qonşu ölkədən qüdrətli olan hər bir ölkə, təhlükəsizliyini daha çox yaxşı təmin edərək, onların daxili və xarici siyasətlərinə daha çox təsir göstərə bilir. Hətta beynəlmiləl məsələlərdə məntəqə daxili təşkilatlar da onların rəhbərliyini öz üzərinə götürə bilir. Səudiyyə Ərəbistanının Fars körfəzinin Həmkarlıq Şurasında, Hindistanın Hindistan yarmadasında, Negeriyanın qərbi Afrikada və Avstraliyanın okeaniyadakı fəaliyyətini buna misal çəkmək olar.

q) *Təbii sərvət və ehtiyat mövqeyi*

Hər hansı bir ölkənin yanacaq, enerji, dəmir və sair təbii sərvətlərə, habelə həyat üçün zəruri olan qida məhsullarına malik olması, həmin ölkəyə ehtiyat mövqeiyyətini bəxş edir. Şimaldan Xəzər dənizi, cənubdan isə Fars görfəzinin təbii sərvətlərindən bəhrələnən İran İslam Respublikasını buna misal çəkmək olar. Ölkənin yerləşdiyi belə bir mövqeiyyət daim qüdrətli ölkələrin diqqətini özünə cəlb edir və sözün əsl mənasında həmin ölkələrin rəqabət meydanına çevrilir. Kifayət qədər qüdrət və bacarığa malik olduqda, malik olduğu mövqeiyyətdən milli təhlükəsizliyin təmin olunması və qarşısına qoyduğu hədəfə çatmaq üçün lazımınca istifadə edə bilir.

## *3-ƏRAZİ*

Ölkə və ya dövləti təşkil edən ünsürlər haqqında söhbət açdıqda, ərazi genişliyi, quruluş, təbii mənbə və relyefə həmin ərazinin xüsusiyyətlərindən biri kimi nəzər salınır.

## *ƏRAZİ GENİŞLİYİ*

Hər hansı bir ölkənin geniş, xüsusilə də münbit əraziyə malik olması onun böyük qüdrətə yiyələnməsindən xəbər verir. Bütün bunlarla yanaşı, ölkənin geniş əraziyə malik olması, ona milli ehtiyaclarını aradan qaldırmağa yaxından köməklik edir. İqtisadi-ictimai abadlaşdırılma sahələrində aparılan fəaliyyətlərin günbəgün artması, şəhər və kəndlərin genişləndirilməsi üçün daha geniş ərazilər tələb edir. Bu səbəbdən geniş əraziyə malik olan dövlətlər abadlaşdırılma və tikinti sahələrində çətinliklərlə olduqca az qarşılaşırlar. Belə ki, ərazi, iqlim, mövqeiyyət, təbii sərvət və münbit torpaq kimi müsbət xüsusiyyətlərə malik olduqda, inkişaf və irəliləyişə də bir o qədər çox nail olmuş olur. Sabiq Sovet İttifaqı kimi bir ölkənin geniş əraziyə malik olması müsbət amil hesab olunsa da, bu geniş ərazidə səhra, çöllüklər, dağlıqlar, bataqlıqlar və bir-birindən fərqli ərazilərin mövcud olması onun üçün ciddi çətinliklər yaradırdı. Belə ki, müxtəlif iqlim və coğrafi mövqeiyyətə malik olan belə bir ölkənin sərhədlərinin qorunması və milli təhlükəsizliyinin təmin olunması çətin olmaqla yanaşı, onun parçalanması üçün də ciddi təhlükə yaradır. Necə ki, geniş və müxtəlif iqlim və coğrafi şəraitə malik olan Sovet İttifaqında belə oldu.

## *ƏRAZİ QURULUŞU*

Ölkənin ərazi quruluşu onun siyasi mərkəz dairəsi, idarəçiliyi, mərkəzi hakimiyyətin daxili nəzarəti, milli həmrəylik və onun xarici işlərinə böyük təsir göstərir. Ümumiyyətlə, ölkənin ərazi quruluşu aşağıdakı qrupların birindən ibarət olur:

1. Sıx quruluş;

Belə bir quruluşa malik olan ölkələr, adətən dairə və ya kvadrata bənzər əraziyə malik olurlar. Qısa sərhədlər, asan müdafiə, asan və yüksək səviyyəli nəzarət bu kimi ərazilərin ən başlıca xüsusiyyətlərini təşkil edir. Belçika, Polşa, Kamboça, Fransa və Amerikanı bu xüsusiyyətə malik olan ölkələr sırasına daxil etmək olar.

2. Uzunluq;

Çili, İtaliya və İsveç kimi ölkələri belə bir özünə məxsus quruluşa malik olan ölkələrdən hesab etmək olar. Onlar müxtəlif iqlim və mühitə malik olsalar da, onları daim parçalanma və ayrılma təhlükəsi gözləyir.

3. Pərakəndəlik;

Bəzi ölkələr ərazi quruluşu baxımından digər ölkələrdən fərqli olaraq pərakəndə quruluşa malik olurlar və bu ölkələr ya İndoneziya, Yaponiya və sair ölkələr kimi pərakəndə adalardan və ya Hormoz boğazının cənubunda yerləşən Oman kimi vahid adadan ibarət olurlar. Belə bir xüsusiyyətə malik olan ölkələr daim iki ciddi çətinliklə qarşılaşmalı olurlar:

- Bir-birindən ayrı və pərakəndə halında olan ərazilər arasında birlik və həmahənglik yaratmaq;
- Ərazilərin qüdrət əldə etdikləri təqdirdə, mərkəzi hakimiyyətdən ayrılma təhlükəsi.

Banqladeşin Pakistandan və Timur adasının İndoneziyadan ayrılmasını buna misal çəkmək olar.

4. Nüfuzedici quruluş;

Tayland, Əfqanıstan və Namibiya kimi ərazi quruluşuna malik ölkələrin ərazilərinin bir hissəsi qonşu ölkələrin ərazisinə nüfuz etmiş və buna görə də, "nüfuzedici quruluş" adını almışlar.

5. Ərazisinin bütün hissəsinin başqa bir ölkənin daxilində olan ölkələr, daxili quruluşa malik olan ölkələrin sırasına daxildirlər. İtaliyanın ərazisində yerləşən Andora və Cənubi Afrika Respublikasının ərazisində yerləşən Lesotanı buna misal çəkmək olar.

## *RELYEF*

Hər bir ölkənin ərazi bərabərsizliyi onun mədəni və milli həmrəyliyinə, habelə hakimiyyət quruluşuna böyük təsir göstərir. Məsələn, İsveçrədə aparılan ərazi bölgüsü coğrafi şəraitin bərabərsizliyindən, mədəni və insani bölgüdən mütəəssir olmuş və buna görə də, istər-istəməz federal dövlətçilik üsulunu qəbul etmişdir. Ekvadorda ərazi bərabərsizliyinin təsiri altına düşərək, üç insani-mədəni məntəqəyə bölünmüşdür. Bütün bunlarla yanaşı,

Norvegiyada məhəlli hökumətlərin meydana gəlib geniş vüsət halını tapmasını da, ərazi bərabərsizliyi ilə əlaqələndirmək olar.

Ərazi bərabərsizliyi yol tikintisi, yük daşıma, əhalinin səfər və gəzintiyə çıxmalarına böyük çətinliklər yaradır. Geologiya elmi baxımından cavan ərazilərin quruluş və bərabərsizliyi, zəlzələ və yer sürüşgənliyi kimi təbii hadisələrin baş verməsi, vaxtaşırı milli sərvətlərin məhv olub aradan getməsi və nəhayət ölkənin qüdrət əldə etməsinin qarşısını ala bilər.

İran İslam Respublikası seysmik zonada yerləşən ölkələrdən biri hesab olunur. Buna görə də, hər il onun maddi mənbələri, milli ehtiyatları və canlı qüvvəsi ağır itkilərlə üzləşməli olur. Lakin Almaniya, İngiltərə və Avropanın digər şərq və qərb ölkələri bu kimi çətinliklərlə üzləşmirlər.

## *TƏBİİ MƏNBƏLƏR*

Hər bir ölkə müxtəlif təbii mənbələrə böyük ehtiyac duyur. İnsan həyatı üçün zəruri olan torpaq, su, hava, bitkilər aləmi və iqlim, yerin dərin qatlarından ixrac olunan neft, qaz, daş kömür və sair yanacaq vasitələri təbii mənbələrin əsas hissəsini təşkil edir. Sənətdə istifadə olunan əlvan metal, daş, duz və müxtəlif üsullarla əldə olunan mis, qızıl, gümüş, aliminium, almaz, marqanis və sair əlvan metallar, habelə meşə və dənizdən əldə olunan məhsullar təbii sərvətlər hesab olunurlar.

Təbii sərvətlər ölkənin qüdrət və mövqeini gücləndirdiyi üçün müasir avadanlığa malik olan hər bir ölkə onlardan səmərəli istifadə edərək, milli sənaye və iqtisadiyyatda nəzərə çarpacaq tərəqqiyə nail ola bilər. Müasir avadanlığa malik olmayan və ehtiyaclarının aradan qaldırılması üçün təbii sərvətlərin ixracatına göz dikən ölkələr, qüdrətli ölkələr arasında gedən rəqabətlərdə həmin mənbələrə ehtiyac duyurlar.

Yerli və yad qüvvələrin apardıqları gizli danışıqlar və daxili siyasi cərəyanların meydana gəlməsi, onlardan mütəssir olaraq belə bir ölkələrin daxili və xarici siyasətinə öz təsirini göstərir.

Təbii sərvətlərin aparılan siyasətlərə qoyduğu təsir o qədər bəlli və göz qarşısındadır ki, onların miqdar və yerləşdiyi mövqe barədə

ətraflı məlumatlar əldə etməklə, ölkənin gələcək siyasətini tənzim və müəyyən belə etmək olar.

## *MİLLƏT*

Millət-hər hansı bir ərazidə müştərək xüsusiyyət, birlik və həmrəyliyə malik olan məskunlaşmış yerli əhaliyə deyilir.

Millətlər tarix, mədəniyyət, dil, irq, din, siyasi amal, ərazi və vahid coğrafi mövei kimi müştərək amillər əsasında meydana gəlir və hər hansı bir millətin meydana gəlməsi üçün yuxarıda qeyd olunan amillərdən bir və ya bir neçəsi bir-birlərinə təsir göstərə bilərlər.

**Sadə millət:**

Müştərək sifət və xüsusiyyətə malik olan bir millətə sadə millət deyilir. Alman, Fransız və Türk millətlərini buna misal çəkmək olar. Milli azlıqlar isə ya bu kimi xüsusiyyətə malik olmur və ya olduqca az əhəmiyyət kəsb edirlər.

**Mürəkkəb millət:**

Adətən, bir neçə ictimai qruplaşma və ya milli azlıqlardan ibarət olur. Bu kimi millətlər tərkib baxımından ictimai qruplaşmalara daxil olurlar. Kiçik milli qruplaşmalar birgə olaraq ictimaiyyətin tərkibi və ölkənin bütün ərazisində pərakəndə şəkildə yaşayırlar. Amerikadakı dini və irqi azlıqları buna misal çəkmək olar. Bu kimi ölkələrdə adətən siyasi və təhlükəsizlik aksiyaları, habelə dini və irqi qruplaşmalar arasında gedən toqquşmalar özünü biruzə verir. Lakin ölkənin parçalanma ehtimalı olduqca zəif olur. Coğrafi tərkib də, ölkənin ətraf məntəqələrində məskunlaşmış ayrı-ayrı qövm və qruplaşmalardan meydana gəlir.

İranın ətraf məntəqələrində məskunlaşmış dini azlıqları, sabiq Yuqoslaviya və Sovet İttifaqının ərazisində yaşayan müxtəlif millətləri buna misal çəkmək olar. Bu kimi ölkələrdə məskunlaşmış azlıqlar coğrafi əraziyə malik olduqları üçün müstəqillik və ayrılıq tələbləri irəli sürməyə başlamışlar.

Sabiq Sovet İttifaqı, Yuqoslaviya və Çexoslavakiyanın ərazisində baş verənləri buna misal çəkmək olar. Bəzən də iki hissəyə bölünmüş bir dövlət, baş verən cərəyanlar nəticəsində yenidən öz birliyini əldə

edir. Soyuq müharibələrdən sonra Şimali və Cənubi Yəmən, şərqi və qərbi Almaniyanın birləşməsini də buna misal çəkmək olar.

Millətlərin başqa bir bölgüsü, stabil və qeyri-stabil dəstələrə bölünmüş azlıqlar əsasında aparırlır. Stabil dəstələrə aid olan azlıqlar, istər ictimai baxımdan olsun, istərsə də coğrafi, ərazi baxımından nisbi bərabərliyə malik olurlar və belə olduqda, ölkə federal dövlətçilik üsulunu qəbul edir.

Pakistan, Sabiq Sovet İttifaqı və Yuqoslaviyanı buna misal çəkmək olar. İctimai baxımdan siyasi qüdrət milli səviyyədə - dövlət, parlament və sair orqanlar arasında bölünür.

Qeyri-stabil millətlər də cəmiyyəti əksəriyyətlə birgə, bir və ya bir neçə azlıqlar təşkil edir. Belə bir ictimai qurluşu İranda, əhalinin əksəriyyətini təşkil edən fars və türklərlə birgə kürd, ərəb, lor, bəluç, türkmən kimi azlıqları müşahidə etmək olar. Bu kimi millətlərdə siyasi qüdrət, əksəriyyətin ixtiyarında olur və əksəriyyət iqtisadi, mədəni, hərbi və siyasi iqtidardan istifadə edərək, daxili ixtilaf və parçalanmaya düçar olmasın deyə, bərabərlik və azlıqlar arasındakı həmrəyliyi qoruyub-saxlamağa çalışır. İctimai azlıqlar və ya az cəmiyyətli kiçik coğrafi ərazilər, adətən mövcudluğunu qoruyub-saxlamaq üçün mərkəzi hakimiyyətlə öz səmimi münasibətlərini qoruyub saxlamağa və onunla müxalifət etməməyə çalışırlar.

İstər sadə olsun, istəsədə mürəkkəb bütün millətlər toplum və özəyə malik olurlar. Unitar millətlərdə bir, İran, Hindistan, Rusiya, Çin və İngiltərə kimi ölkələrdə isə bir-birlərindən aralı bir neçə pərakəndə özək məntəqə mövcuddur. Özək məntəqə isə hər hansı bir millətin ərazisində o məntəqələrə deyilir ki, müştərək dəyərlər, millət və ya milli azlıqların xüsusiyyətləri orada digər məntəqələrdən daha çox nəzərə çarpmış olsun.

Məsələn fransız millətinin özək məntəqəsi Parisin, rus millətinin özək məntəqəsi isə Moskva şəhərinin ətraf məntəqələri hesab olunur.

## *SİYASİ MƏRKƏZ DAİRƏSİ*

Paytaxt, dövlətin siyasi qüdrət, rəhbərlər, dövlət adamları, nazirlik və səfirliklərinin yerləşdikləri siyasi mərkəz dairəsindən ibarətdir. Paytaxtlar tarix boyu iqtidara malik olduqları, milli təşkilatlar, iqtisadi fəaliyyətlər, pul dövriyyəsi və bank sistemini

özündə cəmləşdirdikləri üçün adətən ölkənin ən böyük şəhərlərindən biri, milli mədəniyyət mərkəzi və ən mühüm tarixi ocaqlardan biri olmuşdur. Paris, London, Bağdad, Pekin, Berlin və sair paytaxt şəhərlərinə işarə etmək olar.

1. *Paytaxt şəhərlər*

Uzun müddət ərzində paytaxta xas olan və paytaxtın üzərinə düşən vəzifələri icra edən London, Paris, Berlin və Rom kimi böyük şəhərləri qədim paytaxt şəhərləri sırasına daxil edə bilərik.

2. *Yeni paytaxtlar*

Onlar ya qədim paytaxları əvəz etmiş və ya federal dövlətçilik üsuluna çevrilmişlər.

Ankara, İslamabad, Braziliya, Kamberra və Ottava kimi şəhərləri buna misal çəkmək olar.

## *PAYTAXTLARİN TƏSİS OLUNMASİNA TƏSİR GÖSTƏRƏN ƏN MÜHÜM AMİLLƏR*

1. *Tarix və milli baxış;*

Paytaxt uzun illər boyu öz mövqeyyətini qoruyub saxladığı və siyasi baxımdan ölkə üçün böyük əhəmiyyət kəsb etdiyi üçün əhali belə bir mərkəz dairəsinə yiyənlənməyi özünə lazımlı və zəruri hesab edir. Dəməşq, Rom, Paris və Afina kimi qədim paytaxt şəhərlərini buna misal çəkmək olar.

2. *Hakim qruplaşma;*

Qeyri-stabil bir neçə milliyyətli ölkələrdə siyasi iqtidar və qüdrət, hakim qruplaşmanın ixtiyarında olduğu üçün daim siyasi qüdrəti öz əhatə dairəsində qoruyub saxlamağa çalışır. Sabiq Sovet İttifaqının paytaxtı olan Moskva, Tehran və Belqrad kimi şəhərləri buna misal çəkmək olar.

3. *Xarici əlaqələr;*

İstismar olunmuş ölkələrdə, istismaçı və istismar olunmuş ölkələr arasındakı əlaqələrin və həmin ölkələrdən aparılan təbii sərvətlərin daşınılmasının asanlaşdırılması üçün paytaxt şəhərləri adətən dəniz kənarında salınırdı.

Pakistanın ilk paytaxtı Kəraçi, Cənubi Afrikanın paytaxtı Keyptanu, Nigeriyanın paytaxtı Laos və Kvineya körfəzində yerləşən bir çox ölkə paytaxtlarını buna misal çəkmək olar.

4. *Müdafiə-strateji mövqe;*

Bir tərəfdən nisbi təhlükəsizliyi təmin etmək, digər tərəfdən də ölkə sərhədlərindən xaricdə yerləşən bəzi məntəqələrə diqqət yetirmək üçün dövlətlər paytaxtın harada təsis olunmasına xüsusi diqqət yetirirlər.

Pakistanın İslamabad və İranın Tehran və digər tarixi paytaxt şəhərlərini buna misal çəkmək olar.

5. *Siyasi razılaşma;*

Bəzi paytaxtlar siyasi təşkilatların və məhəlli dövlətlərin gəldikləri razılaşma əsasında təsis olunur. Avstraliyadakı Kamberra, Kanadadakı Ottava və Amerika Birləşmiş Ştatlarında təsis olunan paytaxt şəhərlərini buna misal çəkmək olar.

6. *Mərkəziyyət*

Ölkənin müxtəlif məntəqələrində məskunlaşmış əhalinin ehtiyaclarını aradan qaldırmaq və siyasi nəzarətin istənilən səviyyədə aparılması üçün bəzən paytaxtın ölkənin mərkəzi və strateji əhəmiyyət kəsb edən şəhərlərindən birində təsis olunmasına səy göstərilmişdir. Hələ qədim zamanlarda Polşanın Varşava, İspaniyanın Madrid, Banqladeşin Dəkkə paytaxt şəhərləri təbii olaraq təsis olunmuş, müasir dövrdə isə Türkiyənin Ankara və Qazaxıstanın Astana paytaxt şəhərləri məhz bu zərurət üzündən seçilmişdir.

Paytaxtlar yuxarıda qeyd olunan amillərin bir və ya bir neçəsindən meydana gəlsələr də, zaman keçdikcə qüdrətə yiyələndiyi üçün özünə məxsus xüsusiyyətə malik olmağa başlayır və hər şeydən başlıcası ölkənin ictimai təşkilatları arasında mərkəz dairəsinə çevrilir. Beləliklə, özü-öz iqtidarını qoruyub saxlayır və milli mənbələri özünə doğru cəlb edərək, tez bir zamanda əhatə dairəsini genişləndirməyə nail olur. Belə bir halı bir çox hallarda üçüncü dünya ölkələrində və qədim müstəmləkələrdə müşahidə etmək olar.

Avropa və dünyanın digər inkişaf etmiş ölkələrində idarəetmə, nəzarət, milli sərvətin ölkə ərazisində yayılması, digər şəhərlərə

diqqətin yetirilməsi, qiymətlərin aşağı salınması və əhalinin sayının nisbi artırılmasını həyata keçirməklə paytaxt şəhərlərinin genişlənmələrinin qarşısını alsalar da, yenə də bu şəhərlər öz aparıcı rolunu qoruyub saxlayır və ölkənin bir nömrəli şəhərləri hesab olunurlar.

## *SƏRHƏD*

Sərhəd iki qonşu ölkəni və ya iki siyasi məntəqəni bir-birindən ayıran coğrafi zolağa deyilir.

Qədim zamanlarda qonşu ölkələr arasındakı sərhədlər dəqiq müəyyənləşdirilməmişdir. Bu səbəbdən də həmin ərazilər "sərhəd məntəqəsi" adlandırılmışdır. Lakin bu günlər ölkələrarası sərhədlər dəqiqliklə müəyyənləşdirilmiş və xüsusi şərti işarələrlə əlamətləndirilmişlər.

Sərhədlərin ifa etdiyi ən başlıca rol, ölkə və məntəqələri bir-birindən ayırmaq olsa da, bu günlər ölkələrin qarşılıqlı ehtiyac və əlaqələri günbəgün genişləndiyi üçün sərhədlər onlara xas olan bu xüsusiyyəti əldən verməli olmuşlar. Bəlkədə yaxın gələcəkdə dünyanın bəzi məntəqələrində sərhədlər öz əhəmiyyətini itirərək, tamamilə aradan götürələcəkdir. Necə ki bu günlər Avropa, EKO, Fars körfəzinin Həmkarlıq Şurası və Şimali Amerika (Nefta) ölkələrində buna artıq nail olunmuş və ölkələrarası sərhədlər demək olar ki, aradan götürülmüşdür.

## *SƏRHƏDLƏRİN İFA ETDİYİ ROL*

1. *Ayırıcı;*

   Sərhədlə iki siyasi quruluş - dövlət, millət və mədəniyyət arasında ayrılıq salır.
2. *Birlik və həmrəylik;*

Sərhədlər ölkə daxilində yaşayan millətləri bir-birləri ilə həmrəy və həmfikir edir.

3. *Fərqləndirmə;*

Sərhədlər iki ölkənin iqtisadi, ictimai və siyasi məsələlərdə arasında olan fərqi özündə əks etdirir.

4. *Keşməkeş;*

Sərhədlər rəqib qonşu dövlət və millətlərin mübarizə və qarşıdurma meydanıdır. İrqi, milli, dini, mədəni, ərazi, iqtisadi və bu kimi digər ixtilaflar iki qonşu dövlət arasında düşmənçilik və müharibənin yaranmasına belə səbəb ola bilər.

5. *Əlaqələr*

Sərhədlər müxtəlif dövlət və millətlərin qarşılıqlı əlaqə və münasibətlər dairəsi hesab olunur. Bu münasibətlər rəsmi və qeyri-rəsmi halda müxtəlif sahələrdə bərqərar olunur. Rəsmi əlaqələr gömrük, qeyri-rəsmi əlaqələr isə sərhəd zonasının müxtəlif nöqtələrində yaradılır. Ölkəyə daxil olan qaçaq mallar və müsafirlər qeyri-rəsmi əlaqələrə aiddirlər.

## *SƏRHƏD NÖVLƏRİ*

Sərhədlər üç hissəyə, yəni quru, dəniz və hava sərhədlərinə bölünürlər və üçü birlikdə yer üzərində yerin mərkəzindən sərhəd nöqtələrinədək müəyyən məntəqələr təşkil edərək, vertikal istiqamətdə hava sərhədlərinin son nöqtəsində başa çatır.

Yer altı, yer üstü, su və hava əhatə dairəsini də, nəzərdə tutduğu qanunları tətbiq və icra etmək üçün milli dövlətin hakimiyyəti və ya ərazi dövlətinin ixtiyarına qoyur.

## *TORPAQ SƏRHDLƏR*

Torpaq sərhədləri ya dağ, çay və bu kimi təbii əlamətlər və ya coğrafi enlik və uzunluqla müəyyən olunur. Amerika ilə Kanada arasında təyin olunmuş 49 dərəcə şimali enlik sərhəd zolağını buna misal çəkmək olar.

Bunlardan əlavə sərhədlərin təyin olunmasında, insani amillər də mühüm rol oynayır. Yəni hər hansı bir ictimai qrupun məskunlaşdığı məntəqə, ölkənin sərhəd zolağı təyin olunur və bu sərhədlərə "tətbiq olunmuş sərhədlər" deyilir. Ermənistanla Türkiyə arasındakı sərhəd zolağını buna misal çəkmək olar.

Bəzi sərhəd zonaları da icbari olaraq, yəni ya keçmiş işğalçılıq siyasətini, ya ümumdünya və ya regional hegemon ölkələrin şəxsi

mənafeləri əsasında müəyyənləşdirilmişdir. Buna görə də, bəzən müəyyən ərazilər iki və ya daha artıq hissəyə bölünərək, dövlətlər arasında ciddi qarşıdurmalara gətirib çıxarır.

## *DƏNİZ SƏRHƏDLƏRİ*

Dəniz sərhədləri, 1982-ci ilin Hüquq Konvensiyasına əsasən təyin olunur və onlar bir neçə ölçü vahidinə malik olurlar. Onlardan ən çox istifadə olunanı - 12 dəniz milidir və sahil dövlətin əhatə dairəsi məhz bu ölçü vahidi ilə müəyyənləşdirilir. Ümumiyyətlə, suda ərazinin əhatə dairəsi 12 milə qədər çəkilir. Suda sərhəd zolağının təyin olunması üçün əvvəl sahil haşiyəsi olan "başlanğıc xətt" adlı bir xətti çəkilir. Əraziyə aid olan məntəqənin kordinatları müəyyən olunduqdan sonra dəniz sərhədləri müəyyən fasilələrlə həmin xəttdən təyin olunur.

Bu məsələlər isə aşağıdakılardan ibarətdir:

1. Dəniz əhatə dairəsi, 3-12 dəniz milinədək;
2. Nəzarət məntəqəsinin əhatə dairəsi, 12 dəniz mili;
3. İqtisadi məntəqənin əhatə dairəsi 176 dəniz mili.
4. Qitə plato əhatə dairəsi - fəza məhdudiyyəti olmadıqda, ya 2500 metrlik dərinlik və ya 350 dəniz mili ölçüsündə xətt çəkilir. Lakin adətən fəza məhdudiyyətləri belə bir genişliyə mane olur;
5. Azad dənizin və ya insanların müştərək ərazilərinin əhatə dairəsi.

Bu kimi ərazilərdən əldə olunan təbii sərvətlər bütün bəşəriyyətin payına düşür.

## *HAVA SƏRHƏDLƏRİ*

Hər bir ölkənin hava sərhədləri torpaq sərhədlərinin üzərində yerləşən hava qatlarından başlayaraq, son fəza qatlarınadək davam edir. Hava sərhədlərinin son əhatə dairəsi - atmosfer qatı məfhum baxımından müəyyən, ölçü baxımından isə heç də belə deyildir. Çünki müxtəlif hündürlüklərdə hava qatları bir-birlərindən fərqli olur. Buna görə də 150-120 milə yaxın hündürlükləri ölkələrin hava əhatə dairəsi nəzərdə tutulmuşdur.

1947-ci il icrası zəruri olan 1919-cu ilin Paris və 1944-cu ilin Çikaqo konvensiyasına əsasən, hər bir dövlətin hava və dəniz sərhədlərinə olan tam hakimiyyəti təyid və təsdiq olundu. Bundan

belə heç bir təyyarələri ölkənin icazəsi olmadan, onun hava sərhədlərinə daxil olaraq orada uçuşlar apara bilməzdi. Buna riayət olunmadıqda, hava sərhədləri pozulmuş ölkələrə həmn ölkəyə məxsus olan təyyarələri vurmaq ixtiyarı verilirdi. 1960-cı ildə Sovet İttifaqının kəşfiyyat, 1983-cü ildə Saxalin üzərində vurulan sərnişin təyyarələrini buna misal çəkmək olar.

Hava qatlarının arxa tərəfində heç bir ölkənin ixtiyarında olmayan və azad okean məntəqələri kimi bütün ölkələrin sülh məqsədilə istifadə edə bildikləri sonsuz fəza yerləşir. 1957-ci ildə yer kürəsinin ətrafında ilk kosmik dayanacaq yerləşdirildikdən sonra düzgün istifadəetmə qanunlarının tənzim olunma fikri irəli sürüldü və beləliklə, 1967-ci ildə beynəlmiləl saziş imzalanaraq, qüvvəyə mindi. Bu sazişdə kosmonaftlarla davranış tərzi, qeyri-dövləti təşkilatların fəzadakı fəaliyyəti, atom bombaları və kütləvi qırğın silahları arasında olan bağlılıqlar və fəzadan sülh məramlı məqsədlər üçün istifadə etmək kimi məsələlər müzakirə olunaraq qüvvəyə mindi.

## *ƏRAZİNİN SİYASİ İDARƏETMƏ VƏ TƏŞKİLATÇİLİĞİ*

Dövlətlər ixtiyarlarında olan əraziləri daha yaxşı idarə etmək üçün ölkə ərazisini müxtəlif məntəqə və nahiyələrə bölür və oraya olan nəzarət və idarəetmə imkanlarını daha da genişləndirməyə nail olurlar. Ölkə ərazisində aparılan bölgülər müxtəlif amillərdən asılıdır və onlar aşağıdakılardan ibarətdir:

## *ƏRAZİLƏRİN SİYASİ TƏŞKİLATÇİLİĞİNA NƏZARƏT EDƏN AMİLLƏR*

1. Əhalinin sayının artması və ehtiyacların aradan qaldırma zərurətləri;
2. Həyat tərzinin dəyişilməsi və yeni-yeni ehtiyacların meydana gəlməsi;
3. Texnologiya və istehsalda baş verən dəyişiklər, yüksək və yeni texnologiyanın yayılması;
4. İnsanların dünya görüşlərinin ardıcıl olaraq artması, onların dövlət məsələlərində daha çox iştirak etməyə meyillənmələri və iqtidarın zəifləməsini arzulamaları;

5. Yaşayış üçün yararlı olan ərazilərin azalması və dövlətin həmin ərazilərdən səmərəli istifadə və sabit inkişaf etmək üçün həyata keçirdiyi tədbirlər;
6. İctimai, iqtisadi, mədəni fəaliyyətlərin və coğrafi məntəqələrin artması;
7. Əhalinin suallarına cavab, qadağa və nəzarətin gücləndirilməsi kimi siyasi zərurətlər;
8. Beynəlmiləl və azad qüvvələrin fəaliyyəti

## *ƏRAZİLƏRİN SİYASİ TƏŞKİLATÇİLİĞİNDAN MƏQSƏD VƏ YA ÖLKƏ BÖLGÜSÜ*

1. Əhaliyə daha yaxşı xidmət göstərmək, onların ən başlıca ehtiyaclarını aradan qaldırmaq və ictimai-iqtisadi rifahın yaxşılaşdırılması;
2. Məntəqənin daha yaxşı idarə olunması üçün idarə rəhbərlərinin üzərinə düşən vəzifələri azaltmaq, ölkənin kiçik məntəqə və nahiyələrə bölünməsi;
3. Milli hədəflərə çatmaq üçün aparılan siyasi nəzarət və bərabərsizlik, narahatçılıq və ayrılıq tələblərinin qarşısının alınması;
4. Əhalinin siyasi, iqtisadi və mədəni sahələrdə öz müqəddəratlarını həll etməsi üçün lazımi şəraitin yaradılması;
5. Məntəqənin inkişaf planının həyata keçirilməsi və ya məntəqədaxili iqtisadi, ictimai və mədəni imkanların kənara qoyulması;
6. Dövlət aparatındakı idarəçilik və təşkilatçılığı genişləndirmək məqsədilə, lazımi coğrafi əhatə dairəsinin əsasını qoymaq.

## *ƏRAZİNİN MÜTƏŞƏKKİL HAL TAPMASİ ÜÇÜN LAZİM OLAN ŞƏRTLƏR*

Siyasi ərazinin (ölkənin) idarə olunması üçün aşağıdakı prinsiplərə riayət olunur:

1. Əhaliyə göstərilən xidmətlərin asanlaşdırılma prinsipi;
2. Əhalinin xidmət mərkəzlərindən istifadə edə bilmə prinsipi;
3. Əhalinin razılıq prinsipi;

4. Əhalinin ölkə və ya məntəqənin qəbul etdiyi qərarlarda iştiraketmə prinsipi;
5. Məhəlli işlərin, məhəlli təşkilatlara həvalə olunma prinsipi;
6. Milli birliyə sadiq qalma prinsipi;
7. İdarə və təşkilatçılıq birlik prinsipi;
8. Məntəqənin fəaliyyət və ifa etdiyi prinsipi;
9. Regional imkanat prinsipi;
10. Milli və məhəlli təşkilatların oxşarlıqlar prinsipi;
11. Ümumi təhlükəsizlik prinsipi;
12. Milli siyasətin təyin olunmasında əldə olunan mərkəzləşdirilmə, icrasında mərkəzləşdirilməmə prinsipi.

## *SİYASİ ƏRAZİNİN (ÖLKƏ VƏ MƏNTƏQƏ) TƏŞKİLATLANDİRİLMASİNDA* DİQQƏT YETİRİLMƏSİ LAZİM OLAN MƏSƏLƏLƏR

1. Ərazinin bölünməsinə dair irəli sürülən siyasətin həyata keçirilməsinin mümkün olub-olmadığını müəyyənləşdirilməyin mümkünlüyü;
2. Belə bir təşkilatçılıqda üzərlərinə düşən vəzifələri və ifa etdikləri rolu müəyyənləşdirmək üçün şəhər və məntəqələrin müxtəlif dərəcələrə bölünməsi;

Çünki bərabər şəraitə malik olan məntəqələr heç vaxt biri digərinin tabeçiliyinə düşmək istəmir və onlardan hər biri qüdrətin öz ərazisində mərkəzləşdirilməsinə can atır.

3. Münasib quruluş;

Ərazinin sıx quruluşa malik olması ölkə üçün daha əlverişlidir. Bunun üçün də hər bir ölkə ərazisinin - xüsusilə sərhəd zonalarında - uzun və qeyri-bərabər quruluşa malik olmasına can atır.

4. Qeyri-bərabər məntəqələrin ölkə ərazisindən ayrılması üçün adətən ölkənin digər vilayət və məntəqələrindən birinə əlavə olunur;
5. Siyasi məntəqənin və ona tabe olan ərazinin tarixi keçmişə malik olması yeni təşkilatçılıqdan hesab olunur;
6. Özünütəmin gedişatının genişlənməsi üçün məntəqənin iqtisadi, ictimai və mədəni bacarıqlarına diqqət yetirmək lazımdır;

7. Mərkəz dairəsinin təyin olunmasında əhalinin əlinin asanlıqla oraya çatması və oranın əhali tərəfindən qəbul olunmasına diqqət yetirmək lazımdır.

## *COĞRAFİ ƏSASLAR*

## *BEYNƏLXALQ ƏLAQƏLƏRDƏ MÖVCUD ZİDDİYYƏTLƏR*

Adətən dövlətlər, daxili və xarici - insani və ya təbii - amillərə, qonşu və ya hegemon ölkələrdən fərqli baxışa malik olurlar.

Belə bir şəraitdə, onlar arasında ixtilaf və qarşıdurmalar meydana gəlir. Dövlətlərarası münasibətlərə təsir göstərən amillər aşağıdakılardan ibarətdir:

1. Torpaq və ərazi;

Kiçik və qüdrətli ölkələr daim qonşu dövlətlərin ərazilərinə göz dikir, hətta onların ərazilərin işğal etməkdən belə çəkinmirlər. Fələstin ərazilərinin İsrail dövləti və ya digər qüdrətli ölkələrin müxtəlif əraziləri işğal etmələrini buna misal çəkmək olar.

2. Əlaqə yolları;

Dənizə çıxışı olmayan ölkələr, xarici aləmlə əlaqə yaratmağa ehtiyac duyurlar. Bəziləri də ticarət və döyüş gəmilərinin gediş-gəlişi üçün öz ixtiyarlarında olmayan boğazlara ehtiyac duyurlar. Bunun üçün də bir tərəfdən keçid və boğazlara ehtiyac duyan ölkələrin göstərdikləri səylər, digər tərəfdən də həmin boğazlara yiyələnən ölkələrin ixtiyarlarında olan imkanlardan mümkün qədər çox bəhrələnmək istəyi, bir çox hallarda dövlətlərarası ixtilaf və narazılıqlara səbəb olur. Panama ölkəsinə hakim olan dövlətlərin aqibətini buna misal çəkmək olar.

3. Çayların mənbə və mənşəyi;

Çayın öz axarını dəyişməsi nəticəsində ölkələr arasısərhəd ixtilafları meydana gəlir. Amerika ilə Meksika arasında yerləşən Reo-Qrande və İranla İraq sərhədlərində cərəyanda olan Ərvənd çaylarını buna misal çəkmək olar. Əlbətdə, bu kimi hallarda iki qonşu dövlətlər ixtilafların aradan qaldırılması üçün lazımi tədbirlər görür. Lakin görülən tədbirlər heç bir nəticə vermədikdə, ixtilafların güclənəcəyini ehtimal vermək də olar.

4. Bir neçə ölkənin ərazisindən keçən və onların su ehtiyaclarını qismən də olsa təmin edən Fərat, Dəclə, Nil, Qanq və Hirmend çayları kimi ərazilərindən çay keçən bu ölkələrin, hər biri özlərini suyun həqiqi sahibi hesab edir və onlardan istədikləri kimi istifadə etdikləri üçün (suvarmada həddindən artıq istifadə etmək, su bəndələri tikmək və s.) ixtilaf və qarşıdurmaların meydana gəlməsinə səbəb olur.
5. Müştərək dəniz sərhədləri;

Müştərək dəniz sərhədlərindən düzgün istifadə etmə qanunları dəniz hüququ konvensiyasında müəyyənləşdirilsə də, bəzən dəniz altı təbii sərvətlər, heyvanat və bitkilər aləminə yiyələnmə və onlardan istifadə ölkələrarası ixtilaflara səbəb olur. Sakit Okenda yerləşən Sprateli adalarına görə yaranmış ixtilafları buna misal çəkmək olar.

6. İxtilaf doğuran göllərin alt sərhədlərinin təyin olunması;

Uzun müddət hüquqi statusu və dəniz sərhədlərinin təyin olunmasında ixtilaf və bəzi hallarda qarşıdurmalara səbəb olan Xəzər dənizini buna misal çəkmək olar.

7. Sərhəd zonasında yerləşən təbii sərvətlər;

Belə ki, qonşu ölkələr arasında təbii sərvətlərdən istifadə olunmasına dair razılıq əldə olunmadıqda, aralarında ixtilaf və qarşıdurmalar belə meydana gələ bilər. Fars körfəzinin neft və qaz ehtiyatlarına görə yaranmış ixtilafları buna misal çəkmək olar.

8. Paytaxt və ya ölkənin böyük şəhərlərindən birinin sərhəd zonasında yerləşməsi və oranın təhlükəsizliyinin qorunması;

1939-cu ildə Sovet İttifaqının Leninqradın təhlükəsizliyini təmin etmək bəhanəsilə Finlandiyanı işğal etməsini buna misal çəkmək olar.

9. Strateji mövqeiyyətə yiyələnmək;

Belə bir mövqeiyyətə malik olmaq, ölkənin siyasi qüdrətinə böyük təsir göstərir və ona digər dövlətlərin təzyiq göstərsinə imkanı vermir. Pakistanla Hindistanın Keşmir uğrunda apardıqları uzun illik mübarizəni buna misal çəkmək olar.

10. Ölkənin külli miqdarda yanacaq və mineral ehtiyaclarına yiyələnməsi; Qonşu və ya hegmon ölkələr, adətən bu kimi dövlətlərin təbii sərvətlərinə göz dikir və onları öz ixtiyarına

keçirməyə can atırlar. ABŞ-ın Fars körfəzində öz qonşularını yerləşdirməsi və 1990-cı ildə İraqın Küveyti işğal etməsini buna misal çəkmək olar.

11. Rütubət yaratmaq məqsədilə süni buludlardan istifadə;

Lakin belə bir addım kifayət qədər illik rütubətdən bəhrələnən ölkələrin etirazına səbəb olur. İrana çatmaq üçün müxtəlif ölkələrdən ötüb keçən Aralıq dənizinin üzərində cərəyandan olan buludları buna misal çəkmək olar.

12. Yaylaq və qışlaq köçərilərindən asılı olan köçəri insanların sürdükləri belə bir həyat tərzi, dövlətlərarası ixtilaf və qarşıdurmalara səbəb olur;

Çünki bəzi hallarda köçəri tayfaların yeni otlaqlar tapmaq məqsədilə digər ölkələrin ərazilərinə nüfuz etməsi, həmin ölkələrin etirazına səbəb olur. İranın qərb köçəri tayfalarının İraq ərazilərindən istifadə etmələrini buna misal ola bilər.

13. Milli azlıqların ayrılıq tələbləri;

Hər hansı bir ölkənin ərazisində məskunlaşmış dini və milli azlıqlar kifayət qədər geopolitik imkanlara malik olduqda və eyni zamanda, xarici amillər onlara köməklik etdikdə, ana ölkəyə qarşı çıxaraq, onunla arxasında duran ölkələr arasındakı əlaqələrə böyük təsir göstərir. Acarların Gürcüstandan və Kürdlərin İraq və Türkiyədə irəli sürdükləri azadlıq tələblərini buna misal çəkmək olar.

14. Ana ölkənin ərazisisində məskunlaşmış azlıqlar Azərbaycanın dağlıq Qarabağ vilayətində məskunlaşmış ermənilərin, Ermənistan erməniləri tərəfindən dəstəklənərək, ayrılıq tələblərini irəli sürmələri və bunun nəticəsində Azərbaycanla Ermənistan arasında ciddi qarşıdurmaların meydana gəldiyini buna misal çəkmək olar.

15. Sərhədlərin iki tərəfində məskunlaşmış pərakəndə azlıqlar;

İran, Türkiyə, İraq və Suriya ərazilərində pərakəndə olaraq məskunlaşmış və vahid amal "Azad Kürdüstan" uğrunda mübarizə aparan və məntəqədə meydana gəlməsinə səbəb olan kürd hərəkatlarını buna misal çəkmək olar.

16. Bir ölkədən başqa bir ölkəyə gəlmiş və orada yayılmış azlıqlar;

Ölkənin ətraf məntəqələrində məskunlaşmış azlıqlar əslində başqa bir ölkənin millətinin nümayəndələri hesab olunurlar. Çünki, o millətlər bir çox oxşarlıqlara malikdirlər və ana dövlətlər istəsələr, bu kimi azlıqlardan istifadə edərək qonşu dövlətlərə qarşı təzyiq məqsədilə istifadə və ya onları o ölkədən ayrılıb onlara qoşulmalarına sövq edə bilərlər. Alman dövlətinin qurduğu plan əsasında Polşanın Çuert vilayətində məskunlaşmış milliyyətcə alman olan əhalinin Polşadan ayrılıb Almaniyaya birləşməsini buna misal çəkmək olar.

Pakistan puştunlarının Pakistanın Sind əyalətinin hindu qaçqınları ilə birgə qarşılaşdığı vəziyyəti başqa bir misal kimi göstərə bilərik.

17. Mədəni ziddiyyətlər

Bəzən qonşu millətlər dini və mədəni xüsusiyyətlər baxımından bir-birləri ilə tam müxalif olurlar və buna görə də bu ixtilaflar onların arasında müharibə və qarşıdurmalara səbəb olur. 1958-ci ildə İraqda baş verən dövlət çevrilişindən sonra İranla İraq, Hindistan yarmadasında müsəlmanlarla hindular, (və bunun nəticəsində Pakistanın meydana gəlməsini), ərəb və İsrail, erməni və türklər, serb və müsəlmanlar arasında tarix boyu gedən müharibələri buna misal çəkmək olar.

## *İSTİFADƏ OLUNAN MƏNBƏLƏR*


1. Preskat, "Siyasi coğrafiyada yeni sahələr", tərcümə edəni Doktor Dərrə Mir Heydər, Tehran universiteti – 1358
2. Hafiz Niya, Məhəmmədrza, coğrafi amillərin insana təsir qoyması sahəsində İbni Xəldunun irəli sürdüyü nəzəriyyələr, Müdərris jurnalı, 2-ci buraxılış, 1-ci nömrə, qış 1358-ci il
3. Sadiqpur, Əbülfəzl, bir neçə məqalə. Dövlət idarəetmə hazırlıq mərkəzi, Tehran – 1369
4. Tahiri, Əbülqasim, Regional dövlətlər və mərkəzləşdirilməmək, Qomes nəşriyyatı 3-cü çap, Tehran – 1375
5. Alim Əbdürrəhman, "Siyasət elminin əsasları", 3-cü çap, Ney nəşriyyatı, Tehran - 1376
6. Qazi, Əbülfəz, "Siyasi təşkilatların hüquq nizamnamələri", 1-ci cild, Tehran – 1373
7. Kelyar, Klud Albert, "Beynəlmiləl əlaqələr təşkilatı", tərcümə edəni Hidayət İlahi Fəlsəfi, No nəşriyyatı, Tehran – 1368
8. Muqtədir, Huşəng, "Ümumi beynəlmiləl hüquq", 3-cü çap, Siyasi və Beynəlmiləl mütaliə mərkəzi, Tehran – 1374
9. Mir Heydər, Dərrə, Siyasi coğrafiyanın istifadə olunduğu yer və qoyulan məhdudiyyətlər. "Siyasi-iqtisadi mütaliələr", 128-137-ci nömrə, 12-ci il, 1377 (fərvərdin-ordibehişt)
10. Mir Heydər, Dərrə, "Siyasi coğrafiyanın əsasları", 3-cü çap, Simət mütaliə və təsis təşkilatı Tehran - 1373 (h.ş.) (1994)
11. Nəbəvi, Mustafa, "İranda idari mərkəzləşdirmə və mərkəzləşdirilmənin həyata keçirilməsi", Tehran - 1356-cı il (1978)
12. Haket, Piter, "Yeni coğrafi tərkib", 2-ci cild, tərcümə edəni Doktor Şapur Qudərzinejad, Simət nəşriyyəsi, Tehran - 1375 (1996)
13. Henceni, "Beynəlmiləl hüquq", dərslik, Şəhid Behişti universiteti, Tehran - 1369-7 (1992-93)
14. Adhikati, Suderta, "Siyasi coğrafiya", Ravat nəşriyyəsi, Yeni Dehli – 1997
15. Dikşit, R.D. "Siyasi coğrafiya", 2-ci çap, Tata Mak-Qravhil, Yeni Dehli – 1995
16. Qlassnet, "Siyasi coğrafiya", Çon Viley və Sons, Nyu-york – 1993
17. Conston, R.C. "Regional coğrafiya" London – 1990

18. Muir Riçard, “Müasir siyasi coğrfiya”, Mak Milan Pres, London – 1975
19. Pacion, M. “Progress in to Political Geograpy”, Groom Helm, U.S.A – 1985
20. Şort R.C. “Siyasi coğrafiyanın quruluşu”, London, Rutled nəşriyyəsi, 1921 və 1993-cü illər
21. Taylot, R.”Siyasi coğrafiya”, 3-cü çap, Nyu-york – 1993
22. Birləşmiş Millətlər 50, Birləşmiş Millət, Nyu-york – 1995
23. ”Yeni coğrafi quruluş”, London - 1989

## *(3-2) GEOPOLİTOLOGİYA*

"[Ey möminlər!] Allahın və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri qorxutmaq üçün kafirlərlə qarşı bacardığınız qədər qüvvə [cihad üçün bəslənilən] döyüş atları tədarük edin"[1].

Firdovsi şerlərindən birində deyir:

*Təvana bovəd hər ke dana bovəd*

*Ze daneş del pir borna bovəd*

(Şerin məzmunu; Elmli olan bacarıqlı olar, elmə yiyələnməklə qoca cavan olar.)

Başqa bir misrada deyir:

*Ze niru bovəd mərd ra rasti*

*Ze sosti kəci ayəd və kasti.*

(Şerin məzmunu; İnsan güc və qüdrətlə haqqını əldə edə bilər. Süstlüklə yalnız haqdan tənəzzülə uğramaq olar)

Qeyd olunan ayə və misralardan məqsəd geopolitoloji mövzulardan əldə olunan məna və nəticələrdir. Belə ki, onlardan hər biri qüdrətlə əlaqəli və həmahəngliyə malikdirlər. Bu mənada ki, geopolitologiyada sabit və qeyri-sabit coğrafi amillər dövlətlərin potensial qüdrəti çərçivəsində olur.

Əlbətdə, geopolitik amillərin - qüdrətin artması, zaman və məkanın dəyişilməsindən asılı olaraq bir-birlərindən fərqli olur. Buna görə də qüdrət ölkələrin həmişəyaşar xüsusiyyətlərindən birini təşkil edir.

Bununla yanaşı qeyd olunan müəssir amillər, dövlətlərin qarşılıqlı siyasi davranışlarında da bir-birlərindən fərqli xüsusiyyətə malik olurlar. Məsələn, qədim zamanlarda şimal qütbü beynəlmiləl əlaqələrdə bir o qədərdə əhəmiyyət kəsb etmirdi. Lakin qüdrətli ölkələr atom əsrinə qədəm qoyduqdan və qitələrarası nüvə raketləri meydana gəlikdən sonra bu coğrafi məntəqə olduqca böyük əhəmiyyət kəsb etməyə və Amerika, Sovet İttifaqı, Kanada və sair qüdrətli ölkələrin rəqabət meydanına çevrilməyə başlamışdır. Belə ki, onlardan hər hansı biri şimal qütbünə nəzarət edə bilsəydi, məntəqədəki strateji mövqeiyyətini daha da gücləndirə bilərdi.

---

[1] Ənfal surəsi, ayə 60

İraqla Suriyadakı su böhranını buna başqa bir misal çəkmək olar. Belə ki Fərat çayının mənbəsinə toxunulmaqla, bu ölkələrin Türkiyə ilə olan əlaqələrinin pozulmasına səbəb ola bilər. Yaranmış belə bir şəraitdə İraqla Suriya arasındakı münasibətlər yaxşılaşıb, onların birləşmələri ilə nəticələnə bilər.

Mümkün qədər çox qüdrətin əldə olunmasından ən başlıca məqsəd, bir çox hallarda milli mənafe və milli təhlükəsizliyin təmin olunmasıdır. Buna görə də müasir geopolitologiya elmi dövlət və ölkələrin qüdrət və iqtidara can atma səbəblərini, onun sabit və dəyişgən amillərini, dövlətlərin beynəlmiləl səhnədə rəftar və davranışlarına qoyduğu təsiri, habelə dövlətlərin dünya səviyyəsində malik olduqları mövqeiyyət barədə təhlil və araşdırmalar aparır. Geopolitologiya, qarşıdurma, birlik və ayrılıq, iqtidar və qüdrət, nüfuz dairəsi, rəqabət, qərara gəlmək, böhran, nəzarət, nüfuz və hegemonluq, sülh və həmkarlıq, ətraf mühit və təbii mənbələr, ərazi, milli mənafe, regional əlaqələr, təhlükəsizlik, milli birlik, milli iqtidar, strategiya və s. məsələləri özünün diqqət mərkəzində saxlayaraq, onlar barədə dəqiq araşdırmalar aparır.

### *(3-2-1) GEOPOLİTOLOGİYANİN TƏRİF VƏ MƏFHUMU*

XX əsrin əvvəllərində geopolitik məsələlər o qədər geniş inkişaf etməyə başlamışdır ki, hətta siyasi coğrafiyanı da öz təsiri altına almışdır. Geopolitologiya məktəbi Almaniyada iki dünya müharibələri arasında böyük nüfuz və qüdrət əldə edərək, Almaniya dövlətinin siyasətinin formalaşması, eləcə də dünya müharibəsinə böyük təsir qoyur.

İsveçli Rudolf Kelen (1861-1922) 1916-cı ildə ilk dəfə olaraq "canlı varlıq olan dövlət"- nəzəriyyəsini irəli sürərək, geopolitologiya kəlməsindən istifadə etmişdir. Alman coğrafiyaşünası Ratzelin nəzəriyyələrindən mütəəssir olan Kelen, irəli sürdüyü nəzəriyyədə digər terminlərdən də istifadə edir.

Geopolitologiya bir elm kimi XX əsrin əvvəllərində meydana gəlmiş və irəli sürülən məşhur nəzəriyyələr sayəsində inkişaf edərək daha da genişlənmişdir. İİ Dünya Müharbəsi başa çatdıqdan sonra geopolitik mütaliələr zahirdə nəticəsiz qalır, lakin geopolitik mütaliə və məfhumlar iki qüdrətli ölkənin, yəni ABŞ və Sovet İttifaqının

diqqət mərkəzinə çevrilir. Belə ki, üç ildən sonra geopolitologiya kəlməsi Kesincer, Berjinski, Kevini Qeri, Kohen və digər Amerikan siyasətçiləri tərəfindən geniş şəkildə istifadə olunmağa başlamış və tez bir zamanda dillərə düşmüşdür. 80-cı ildən sonra isə zindandan azadlığa çıxmış insan kimi azad nəfəs almağa başlamış və genişlənərək siyasət, universitet və mədəniyyə ocaqlarında, habelə kütləvi informasiya vasitələrində öz əksini tapmağa başlamışdır. Bütün bunlarla yanaşı Paris, London və digər ölkələrdə xüsusi gopolitologiji müəssisələr təsis olunmuşdur. Böyük əhəmiyyətə malik olduğu üçün universitet və elmi ocaqlardan əvvəl siyasət və diplomatik mərkəzlərdə görkəmli geopolitologiya mütəxəssisləri tərəfindən istifadə olunmuşdur. Bu proseslərin getdiyi dövrdə siyasi coğrafiyanın bu şaxəsinə xas olan ədəbiyyat tez bir zamanda inkişaf etməyə başlamış və onun daxilində enerji, su, məlumat və nüvə geopolitologiyası və sair yeni ixtisaslar meydana gəlmişdir. Bir sözlə, geopolitologiya bir elm kimi son illərdə özünün nəzəri və əməli formasında diqqət mərkəzinə çevrilmişdir. Bütün bunlar isə gopolitologiyanın nəzəri və akademik əhatə dairəsinin diqqət mərkəzində olmadığı bir halda baş verir. Lakin indinin özündə də bir çox suallar bizim üçün qaranlıq olaraq qalmaqdadır. O cümlədən; geopolitologiya elmdir yoxsa sənət? Baxışdır, yoxsa məktəb? Müstəqildir, yoxsa asılı? Bir sözlə əsas mahiyyəti nədən ibarətdir? Lakin məlum olan budur ki, bu elm yenidən ayağa qalxmış və günbəgün dünyada özünə daha yüksək mövqe tapmaqdadır. Nəzəri baxımdan da siyasi coğrafiyanın bir şaxəsini təşkil edir. Hərçənd beynəlmiləl əlaqələrdə, iqtisadiyyat, politologiya və sair elmlərdə haqqında söhbət açılan mövzularda da geopolitik məsələlərə işarə olunur.

İndiyədək geopolitologiyanın tərif və mənası müxtəlif ibarətlərlə bəyan olunmuşdur. Onlardan ən mühümlərinə işarə edirik:

1. Geopolitologiya - qüdrətə yiyələnmək elmidir;
2. Geopolitologiya - rəqabət və nüfuz dairəsinin genişlənmə elmidir;
3. Geopolitologiya - coğrafi amillərin, dövlətlərin siyasət və beynəlmiləl əlaqələr elmidir;
4. Geopolitologiya - böhranlı məntəqələr elmidir;
5. Geopolitologiya - məntəqə və məntəqə xarici siyasi təhlil elmidir;

6. Geopolitologiya - sərhəd uğrunda mübarizə və qarşıdurma elmidir;
7. Geopolitologiya - strateji məntəqələrə nəzarət elmidir;
8. Geopolitologiya - bir dövlətin başqa bir dövlətə siyasi hakimiyyət və hökmüranlıq elmidir;
9. Geopolitologiya - qüdrət və onun bərabərlik, hökmüranlıq və hökmüranlığa tabeçilik nəticəsində dəyişikliyə məruz qalma əsasında dövlətlərarası əlaqələr elmidir;
10. Geopolitologiyanın iqtisadi əlaqələr və ümumdünya qüdrət qurluşu və dəyişilmə mənasına malik olması iqtisadi gedişatdan irəli gəlir;
11. Geopolitologiya - həyat əhəmiyyətli təbii mənbələrin tələbat və tələbatçıya çatdırmaq arasında olan həmahəngsizlik elmidir.

Bu mənadakı yemək, su, enerji, dəmir və sair mənbələr yer üzündə bəşəriyyətin ehtiyac və istəklərinə uyğun olaraq bölünməmiş buna görə də, dövlətlərarası ixtilaf və keşməkeşlər meydana gəlmişdir.

12. Geopolitologiya - ümumdünya qüdrət qurluşunun dəyişgənlik elmidir.

Göründüyü kimi, geopolitologiya barədə müxtəlif və bir-birindən fərqli təriflər verilmişdir və bu da onun müxtəlif elmi xüsusiyyətlərə malik olmasından xəbər verir. Lakin ümid bəsləmək olar ki, universitet və digər elmi ocaqlarda elmin bu sahəsinə daha çox diqqət yetirməklə, mövcud çatışmamazlıqları aradan qaldırılmış olsun. Geopolitologiya barədə digər təriflər də deyilir.

Robert Straveş Hop 1942-ci ildə geopolitologiyanı belə tərif etmişdir: "Geopolitologiya - nəyə yiyələnməli olduğumuzu və nəyə yiyələnməli olmadığımızı bizə bəyan edən əsaslı bir plan və bələdçidir. O bizə qələbənin ən sadə yolu olan hərbi strategiyanın nədən ibarət olduğunu bəyan edir".

Qraham Foller bu barədə deyir: "Geopolitologiya - qədim fənnlərdən birinin bir qolunu təşkil edir və dövlətlərin rəftar və davranışlarının təyinedici amili və özünün müasir forması olan coğrafiyaya xüsusi diqqət yetirir".

Doktor İzzət İlahi İzzəti deyir: "Geopolitologiya, əslində coğrafi amillərin siyasətin üzərinə qoyduğu təsir və nəticələrdən, başqa

sözlə desək coğrafi amillərin millətlərin siyasətində ifa etdiyi rolu araşdırmaqdan ibarətdir".

Patrik Osilvan yazır: "Geopolitologiya - istər bir, istərsədə bir neçə ölkəyə rəhbərlik edən qüdrətli dövlətlər arasına olan əlaqələrin coğrafi mütaliəsinə deyilir".

Müasir ali məktəb geopolitoloqlarından olan Sol Kohen yazır: "Geopolitologiya - siyasətlə coğrafi fəza (ərazi) arasında yaradılan əlaqələrin mütaliə olunmasından ibarətdir. Geopolitologiyada iki tərəfli atmosfer təsir, forma və quruluşlar siyasət və təşkilatların etiqadları ilə birgə mütaliə olunur...Qarşılıqlı ərazi münaqişələrini, məhəlli, milli, qitə və ümudünya səviyyəsindəki siyasi gedişatı, habelə beynəlmiləl geopolitik quruluşa özünə məxsus forma verərək meydana gətirilmişdir".

"Tənqidi geopolitologiya" kitabının müəllifi C.O.Totayl yazır: "Geopolitologiya - qüdrətli dövlətlərin qüdrət mərkəzlərinin vasitəsilə beynəlmiləl siyasətdə atmosferanın meydana gətirilməsindən ibarətdir".

Oksford və bir çox digər lüğət kitablarında geopolitologiya - coğrafi amillərin siyasətlərin üzərinə qoyduğu təsir kimi tərif olunmuşdur. Yuxarıda qeyd olunan tərifləri nəzərə alaraq ümumi olaraq geopolitologiyanı belə tərif edə bilərik: "Geopolitologiya - dövlət, qrup və təşkilatların insan, mühit və əraziyə qarşı olan siyasi rəftar və davranışlarının[1] araşdırılmasına deyilir."

## *BƏZİ GEPOLİTİK TERMİNLƏR*

1. *Geopolitik çəki;*

Qüdrətlərin kəsb etdiyi mövqeiyyətə, hər hansı bir ölkənin milli qüdrətinə təsir göstərən müsbət və mənfi amillərə, başqa sözlə desək milli qüdrətin icbari yığımına geopolitik çəki deyilir.

Cəmiyyət, mövqeiyyət və təbii mənbələr kimi geopolitik amillərin hər biri həm müsbət, həm də mənfi xüsusiyyətlərə malikdirlər. Buna görə də hər iki xüsusiyyəti, özünə xas olan mühasibatda nəzərdə tutmaq lazımdır. Geopolitik çəki bir ölkənin

[1] Siyasi rəftar və davranışlar müxtəlif formalardan ibarətdir. Qarşıdurma, qərar qəbuletmə, icra, islahat, rəqabət, nəzarət və idarəetmə, hökmüranlıq, birlik (həmrəyylik), ayrılıq, qüdrətə can atma, hakimiyyət dairəsini genişləndirmə və s.

milli qüdrəti və ya onun dünya səviyyəsindəki genolitik mövqeini müəyyən edir.

Geopolitik çəki və mövqe, ölkənin məntəqə və dünyadakı milli strategiyasına böyük təsir qoyur və ölkənin nüfuz hövzəsini orada müəyyən edir. Eyni zamanda qarşılıqlı olaraq ölkənin nüfuz dairəsinin kəmiyyət və keyfiyyəti, onların milli qüdrəti və geopolitik çəkisinə təsir göstərir. Bu səbəbdən dövlətlər özlərinin nüfuz dairələrini ölkələr arasında bölməyə çalışırlar. Buna nail olduqda isə, coğrafi atmosfer (fəza) məfhumuna malik olan ölkənin nüfuz dairəsi genişlənir, milli təhlükəsizliyi təmin olunur, xarici təhdidlər azalır və milli mənafeə daha çox zəmanət verilir.

2. Geopolitik əhatə dairəsi;

Həmahəng regional quruluş və Fars körfəzinin geopolitik hövzəsi kmi digər hövzələrlə müqaisədə. özünə məxsus fəaliyyətə malik olan hərbi struktur təsis edən bir və ya bir neçə müştərək amil əsasında müəyyən olunan qonşu dövlətlərin siyasi vahidlər məcmuəsinin yerləşdiyi əraziyə, geopolitik əhatə dairəsi deyilir.

Geopolitik dairə hər hansı bir dövlət ya ölkənin bir və ya bir neçə mədəni, siyasi, ictimai, iqtisadi və s. amilləri əsasında meydana gəlmiş nüfuz dairəsinə deyilir. Bunun əsasında da ana ölkənin ətrafında özünəməxsus iqtisadi əlaqələr əsasında yaranmış ölkələr ana ölkənin keopolitik əhatə dairəsini təşkil edirlər.

3. Geonaltalofi silsiləvari mərhələ;

Dövlət və geopolitik hövzələrin milli qüdrət əsasında və qarşılıqlı əlaqələrlə birgə dünaya, məntəqə və ölkə daxili şəhərlərə iqtisadi rəhbərlik, geonalitik silsiləvari mərhələ adlanır. Dünya iqtisadiyyatına rəhbərlik edən Tokiya, Nyu-york, London ya regional iqtisadiyyata rəhbərlik edən Honq-Konq, Dubay, Sinqapur, Moskva və ya ölkədaxili iqtisadiyyata rəhbərlik edən Tehran, Aşqabad və Ankara kimi paytaxt şəhərləri buna misal çəkmək olar.

4. Geopolitik strategiya;

Hər hansı bir dövlət, təşkilat və ya beynəlminəl qruplaşmanın qarşısına qoyduğu hədəfə milli mənafe və təhlükəsizliyə nail olmaq üçün sabit və qeyri-sabit geonalitik amillər və coğrafi xususiyyətlər əsasında tutduğu yola, geonaltik strategiya deyilir.

5. Geopolitik mübarizə;

Digər ölkələrin siyasətinə təsir göstərmək üçün sabit və qeyri-sabit geopolitik amillərə əsaslanan hansı bir dövlət və ya ölkə üçün yaranmış şəraitə geopolitik mübarizə deyilir. Ərəb əmirliklərinin Fars körfəzində üç adaya sahiblik iddasında olması, Əfqanıstanda Taliban, Pakistanda Səhabə hərəkatı, dünya bazarında neftin qiymətinin aşağı salınması, İran püstəsinin zəhərli olduğunun elan olunması, Pakistanda Kəraçi böhranı və sairi buna misal çəkmək olar. Amerikanın terorizmi himayə və ümumbəşər hüquqlarının pozulmasına dair Çinə İran və digər müxalif dövlətlərə qarşı sürdüyü ittihamlar isə siyasi, hüquqi və ictimai xarakter daşıdığı üçün geopolitik mahiyyətə malik olmur.

6. Geopolitik ayrılıq

Hər hansı bir ölkənin digər dövlətlərlə əlaqələri kəsməsinə geopolitik ayrılıq deyir.

Geopolitik ayrılıq ya icbari, ya ixtiyari, ya da həm icbari, həm də ixtiyari ola bilər. Birma və bəzi kommunist dövlətlərin atdıqları addımı ixtiyari, BMT-nin İraq dövlətinə qarşı tətbiq etdiyi sanksiyanı icbari, göstərilən nəticəsində bəzi qüdrətli ölkələrin müxtəlif sahələrdə İran İslam Respublikası ilə əlaqələri tam və ya qismən kəsməsini, bəzi sahələrdə (mədəniyyət və s.) özünün əlaqələri zəiflətməsini isə həm icbari, həm də ixtiyari geopolitik ayrılığa aid etmək olar. Geopolitik ayrılığa düçar olan dövlətlər, xarici münasibətlərin azaldığı üçün iqtisadi böhranla qarşılaşmalı olurlar və yaranmış belə bir şəraitdə ölkədəki ölümün sayı da artaraq, ictimaiyyətə ağır zərbə vurmuş olur.

### *(3-2-2) GEOPOLİTİK AMİLLƏR*

Geopolitik amillər iki hissəyə bölünən həmin coğrafi amillərdir: insani və təbii amillər. Fərq yalnız bundan ibarətdir ki, geopolitologiyada siyasi amillərin ifa etdikləri rola daha çox diqqət yetirilir. Təbii amillər dedikdə, ictimai qrupların ünsür və xüsusiyyətləri nəzərdə tutulur. Amillərdən hər biri özünəməxsus şərait və siyasi əhəmiyyətə malik olur və bunun üçün də, bəşəriyyətin siyasi həyatında olduqca böyük rol oynayır. Geopolitologiyada işarə olunan amillər də iki hissəyə, yəni sabit və qeyri-sabit amillərə bölünürlər.

Aydındır ki, sabit amillər dəyişilməz, qeyri-sabit amillər isə dəyişgən xüsusiyyətə yiyələnərək, bir çox hallarda insani xislətə malik olurlar. Təbii mənbələr kimi bəzi amillər də şəraitdən asılı olaraq bəzən sabit, bəzən də dəyişgən xüsusiyyətə malik olurlar.

## *1-SABİT GEOPOLİTİK AMİLLƏR*

1. Mövqeiyyət;

Ölkə və dövlətlərin quruluşu haqqında söhbət açarkən, coğrafi mövqeyyətə işarə etmişdik və onun ifa etdiyi rol da diqqət mərkəzinə çevrildi.

Milli dövlətlər, regional və ümumdünya quruluşuna malik olan geopolitologiya, coğrafi mövqe və onun ifa etdiyi siyasi rolu daim diqqət mərkəzinə çevirir. Məntəqələrin coğrafi mövqeiyyəti oradan mümkün qədər çox bəhrələnib, milli mənafeni təmin etmək məqsədilə qarşıya çıxan çətinlikləri aradan qaldırıldığı üçün daim dövlətlərin diqqət mərkəzində olmuşlar. Məntəqə və nahiyələrin malik olduğu strateji mövqe, təhlükəsizlik və ifa etdiyi siyasi roldan lazımi qaydada bəhrələnməyin ən başlıca şərti, coğrafi mövqelərin həqiqi mahiyyəti, xüsusiyyət və ifa etdiyi rol barədə düzgün təhlil və araşdırmalara yiyələnməkdir. Məsələn İran İslam Respublikası əgər malik olduğu coğrafi mövqein (Fars körfəzi və Xəzər dənizi arasında yerləşdiyini, onların arasında rabitə rolunu oynadığını, habelə Fars körfəzində Hormoz boğazı kimi olduqca əhəmiyyətli mövqeə malik olduğunu) əhəmiyyətinə diqqət yetirərsə təbii ki, xarici ölkələrlə yaratdığı əlaqələrin nəzmə salınmasında əldə etdiyi fürsət və öz coğrafi bacarıq və potensialından daha yaxşı istifadə edə bilər. Buna nail olduqda, o, xarici səfərlərini güclü və zəif, böyük və kiçik ölkələrlə yüksək səviyyəli diplomatik əlaqələr yaradıb məntəqədə malik olduğu mövqesini daha da gücləndirə bilər.

2. Ərazi genişliyi;

Bu bir həqiqətdir ki, hər bir ölkənin beynəlmiləl hüquq çərçivəsində geniş əraziyə yiyələnməsi, ona ehtiyaclarını aradan qaldırmağa daha çox köməklik edir. Hərçənd, bu günlər hər hansı bir ölkənin geniş əraziyə malik olmasına bir o qədər də əhəmiyyət verilmir. Belə ki, əhalinin sayının artması hər bir vətəndaşın payına düşən ərazinin azalması və bunun nəticəsində ölkə daxilində sıxlığın

yaranmasına səbəb olur. Əhalinin sayının artması nəticəsində vətəndaşların payına düşən ərazinin azalması, hal-hazırda əhalisi çox olan bir çox dövlətlər üçün ciddi çətinliklər yaratmışdır. Ərazi, insanların ehtiyaclarının aradan qaldırılmasında çox məqsədli rol oynayır. Dövlətlər əhalini yaşayış və əkin sahələri ilə təmin etmək, habelə ölkəni sənayeləşdirmək, sosial təminatı yaxşılaşdırmaq, yol salmaq, işıq çəkmək, komunikasiya vasitələrini quraşdırmaq, hərbi hissələr yaratmaq, əhalinin asudə vaxtının səmərəli keçməsinə şərait yaratmaq, təbii mədənlərdən istifadə və bir sözlə, ictimaiyyətdəki müxtəlif fəaliyyətlərin inkişaf olunması üçün geniş əraziyə ehtiyac duyur. Ərazi məhdudiyyəti isə ölkənin iqtisadi, hərbi, ictimai, mədəni və digər sahələrdəki fəaliyyətlərinin məhdudlaşmasına səbəb olur.

Şəhər ərazisinin genişləndirilməsi kimi mühüm məsələlərdə, dövlətlər öz üfüqi hərəkətlərini, şaquli hərəkətlə məhdudlaşdırmalı olurlar.

Ərazi azlığı dövlətlərin bu məsələyə daha ciddi yanaşmaları və bu sahədə yeni planlar həyata keçirib özünəməxsus siyasətlər irəli sürmələrinə səbəb olmuşdur. Çünki ərazi zaman keçdikcə yenilməyən milli bir sərvətdir və buna görə də digər milli sərvətlərdən istifadə olunduğu kimi, israfa yol vermədən ondan necə istifadə olunmalı olduğuna son dərəcə diqqət yetirmək lazımdır. Müasir dövrdə keçmişdə olduğu kimi insanlar bir o qədər də ərazilərə malikiyyət [mülkiyyət] və abadlaşdırma ixtiyarına malik deyillər. Belə ki, dağlar, səhra və meşələr bütünlüklə şəxsi malikiyyətə çevrilmədən dövlət və hökumətin ixtiyarında olub, ümumi milli sərvət hesab olunurlar. Bu kimi ərazilər müəyyən qanunlar çərçivəsində dövlət, şəxsi və ya kooperativ təşkilatlara həvalə olunurlar.

İran İslam Respublikasının konstitusiyasının 45-ci maddəsində bu mətləbə işarə olunaraq deyilir: "Sahibi dünyasını dəyişmiş və ya sahibi olmayan ərazilər, dəniz, gölməçə, çay və digər ümumi sular, dağ, dərə, meşə və çöllüklər, sahibi olmayan otlaqlar, varisi olmayan irslər, sahibinin kim olduğu bilinməyən mallar və qəsbkarlardan geri alınan ümumi mallar ümumi mənafenin yaxşılaşdırılması üçün

İslam dövlətinin ixtiyarına qoyulur və dövlət onların hər biri barədə müəyyən qanunlar tərtib edir".

Ərazi genişliyinin əhəmiyyət kəsb etdiyi məsələlərdən biri də, ölkədə milli təhlükəsizliyin təmin olunması və silahlı qüvvələrin yerləşdirilməsidir. Buradan belə bir sual meydana gələ bilər: atom əsri və dövlətlərin qitələrarası raket və qırıcı təyyarələrlə təchiz olunduğu bir dövrdə ərazi genişliyi nə kimi əhəmiyyət kəsb edə bilər?

Bu bir həqiqətdir ki, müasir müharibələrdə hər hansı bir ölkənin geniş əraziyə yiyələnməsi təhlükəsizliyinin təmin olunmasında ən başlıca rollardan birini oynayır. İİ Dünya Müharibəsində Sovet İttifaqı, Almaniya və Çinin, Yaponiyanın işğalından yaxa qurtarmasına səbəb olan əsas amillərdən biri də, məhz bu ölkələrin geniş ərazilərə yiyələnmələri olmuşdur.

Çünki düşmən ölkə ərazisinə daxil olduqdan sonra onlar mərkəzi rəhbərlik idarələri, strateji təsisatları və sair mühüm obyektləri ölkə daxilinə ötürmüş və düşmən əlinə keçməyə qoymamışlar.

Fransa, Polşa, Belgiya kimi kiçik ölkələr isə, bu işin öhdəsindən gələ bilməyib tez bir zamanda alman ordusu tərəfindən işğal olunmuşlar. İran-İraq müharibələrində İranın mərkəzi və şərqi məntəqələri bu ölkə üçün təhlükəsizlik rolunu oynayırdı.

İsrail, sehyonist rejimi kimi ölkələr ilə geniş əraziyə malik olmadığı üçün təhlükə ilə qarışılaşdıqda, öz strateji mövqeini gücləndirmək və milli təhlükəsizliyini qorumaq üçün qonşu dövlətlərə hücüm edir və onların ərazilərini zor gücünə ələ keçirir.

Təhlükəsizlik zonasına malik olmayan bəzi ölkələr müharibə şəraiti ilə üzləşdikdə, qonşu dövlətlərin ərazilərindən istifadə etmək məqsədilə onlarla səmimi munasibətlər yaradır və bu əlaqələri gün bəgün gücləndirməyə çalışırlar. Pakistanın, Hindistanla mübarizə aparmaq üçün İranın coğrafi ərazisinə duyduğu ehtiyacı buna misal çəkmək olar. Məhz bu ehtiyac hissi Pakistanın yüksək rütbəli hərbiçilərinin İrana qarşı olan baxışlarını əvəz etmiş və onların ehtiyatı əldən verməməklərinə səbəb olmuşdur. Buna görə də, Pakistanın Hindistan dövləti ilə qarşı-qarşıya durduğu zaman İrana olan geostrateji ehtiyac, bu iki dövlət arasında qarşılıqlı əlaqələrin gücləndirməsində ən başlıca rollardan birini oynayır. Coğrafi

ərazilər müxtəlif xüsusiyyətlərə malik olurlar. Məsələn yararsız, qeyri-münbit və ya kifayət qədər əhalisi olamayan ərazilər, ölkənin düşmən qarşısında təhlükəsizliyini təmin etmək, abadlaşdırma işlərini aparmaq və bu kimi işlərin həyata keçirilməsində bir çox ciddi çətinliklər yarada bilər. Əkinçilik üçün tam yararlı, münbit, iqtisadi fəaliyyətlər üçün münasib və neft, qaz, dəmir kimi təbii sərvətlərə malik olan ərazilər isə əksinə olaraq, hər bir dövlət üçün sərvət və gəlir mənbəyi ola bilər.

Bütün bunlarla yanaşı, hər bir dövlətin kifayət qədər su ehtiyatı (xüsusilə də şirin su), gözəl abu-həva və strateji mövqeə malik olması və ya keçid məntəqələrdə yerləşməsi onun qüdrət və iqtidarına müsbət təsir göstərə bilər.

3. Ərazi bərabərliyi və bərabərsizliyi;

Hər hansı bir ölkənin ərazisi həm bərabər və oxşar, həm də dağlıq, bataqlıq, səhra və meşəlik kimi müxtəlif və bir-birlərindən fərqli xüsusiyyətə malik ola bilər.

Belə bir xüsusiyyətə və eyni zamanda əkinçilik, iqtisadiyyat və digər yararlı əraziyə malik olmayan ölkələrdə, milli birlik və dövlətidarəetmə, abadlaşdırma üsulları və ölkədaxili əlaqələr zəifləyərək dövlət büdcəsinə böyük zərər verir və bu da dövlətlərin böyük çətinliklərlə qarşılaşmalarına səbəb olurlar. Yol qəzaları, yanacağın həddindən artıq istifadə olunması, yolların təhlükəsizliyinin təmin olunması, yolların bərbad vəziyyətdə olmasını, təbii hadisələr zamanı yolların bağlanması və dövlətə dəyən digər ziyanları buna misal çəkmək olar.

İranın şimal, cənub, şərq və qərb məntəqələrində müşahidə olunan ərazi bərabərsizliyini buna misal çəkmək olar. Ölkənin bir çox dağlıq əraziləri seysmik zonada yerləşmiş və eyni zamanda, ölkə ərazisinin böyük bir hissəsini səhra və yarımsəhra, quru və qeyri-münbit ərazilər tutmuşdur. Belə bir ərazi bərabərsizliyi dövlət üçün yol tikintisi, əhalinin məskunlaşdırılması, onların əkinçilik fəaliyyətinin yaxşılaşdırılması, habelə abadlaşdırılma işlərinin aparılmasında ciddi çətinliklər yaradaraq, dövlət büdcəsinə ağır zərbə vurur. Bütün bunlarla yanaşı, hər il dövlət və ayrı-ayrı şəxslərə külli miqdarda mali [maddi] və cani [fiziki, mənəvi] zərərlər dəyir.

Bu səbəbdən İranda abadlaşdırma işləri üçün sərf olunan büdcə, bərabər coğrafi əraziyə malik olan digər ölkələrlə müqaisədə olduqca çoxdur. Bu kimi çətinliklərlə qarşılaşmayan Polşa, Almaniya və Çin kimi ölkələr isə büdcəyə qənaət edərək, bu kimi işlərin həyata keçirilməsi üçün dövlət büdcəsindən ayrılan maddi vəsaiti, milli inkşafın genişlənməsinə sərf edirlər.

4. Ölkə quruluşu;

Hər bir dövlətin xarici (coğrafi) quruluşu onun qüdrət və ya zəifləməsinə böyük təsir göstərir və biz bu nəticəyə, bir qədər əvvəl siyasi coğraiyada söhbət açdığımız üçün bir daha yenidən qayıtmaq istəməyirik. Yalnız bununla kifayətlənirik ki, ölkə ərazisinin dairəvi və sıx (kvadrat və s.) quruluşa malik olması ölkəyə nəzarət və idarəetmənin təhlükəsizliyinin təmin olunması, milli birlik və düşmən qarşısında müdafiəyə hazırlığı qat-qat asanlaşdırır və dövlətlərin milli qüdrətinə müsbət təsir göstərir.

Uzun və pərakəndə əraziyə yiyələnmək isə milli birliyin qorunub saxlanılması, ölkəyə nəzarət və idarə olunması, müdafiə və bu kimi sair məsələlərdə ciddi çətinlik yaradır və bu da dövlətin zəifləməsinə gətirib çıxarır.

5. Ölkə sərhədləri;

Sərhədlər, yerləşdiyi mövqe, xüsusiyyət baxımından ölkənin müdafiə və milli idarəetmənin təhlükəsizliyinin təmin olunmasında müxtəlif funksiyalara malik olur. Ölkənin qonşu dövlətin ərazisində yerləşən çökək sərhədləri daim həmin dövlətlərin diqqətini özünə cəlb edir və beləliklə, ilk hərbi hədəfə çevrilir.

İİ Dünya Müharibəsində Polşa sərhədlərinin Alman dövləti tərəfindən, İranın çökəklikdə yerləşən (Mehran, Şirin qəsri və s.) qərb sərhədlərinin İraq dövlətini diqqətini cəlb edərək işğal olunmasını, buna misal çəkmək olar.

Bir sözlə, bu kimi sərhədlər qonşu düşmən dövlətlər üçün işğal etməyə əlverişli imkan yaratdığı üçün dövlətlər həmin məntəqələrə daha çox diqqət yetirib, orada öz qoşunlarını yerləşdirməlidirlər. Sərhədlərin düzlük [düzən] ərazidə yerləşməsi isə, adətən, hər iki tərəfin bərabər qüdrətə yiyələnməsinə səbəb olur.

Sərhədlər yerləşdiyi məkan və mövqe baxımından da böyük əhəmiyyət kəsb edir. Çayların axarı olan çökəkliklər və ya dağların

zirvəsindən keçən sərhəd zonaları hər iki tərəfin bərabər qüdrətə yiyələnmələrinə səbəb olur. İranla Türkiyə arasındakı sərhəd zonalarını buna misal çəkmək olar. Lakin sərhədlərin dağ yüksəkliklərindən və çay kənarlarından keçməsi bir ölkə üçün olduqca əlverişli, başqa bir ölkə üçün isə təhlükə və müdafiə baxımından bir çox çətinliklər yaradır. Məsələn, Cövlan təpəliklərindən keçən Suriya və İsrail sərhədləri daim Suriyanı böyük təhlükə ilə qarşı-qarşıya qoyur və bu səbəbdən, Dəməşq qonşu İsrail dövlətindən hər zaman təhlükə gözləyir. Məhz buna görə də, Çolan təpəliklərinə görə iki ölkə arasında aparılan sülh danşıqları indinin özünədək nəticəsiz qalmış və tərəflərarası münaqişələr öz həllini tapmamışdır.

Sərhədlərin nəzarət olunması çətin olan meşə, səhra və bu kimi məntəqələrdən, habelə müxtəlif qəbilələrin məskunlaşdığı sahələrdən ötüb keçməsi də, daim dövlətlər üçün bir çox çətinliklərə səbəb olmuşdur. Dövlət büdcəsinə ağır zərbə vuran təhlükəsizlik, qaçaq, casusluq və bu kimi amilləri buna misal çəkmək olar.

## *2-DƏYİŞKƏN GEOPOLİTİK AMİLLƏR*

1. Cəmiyyət;

Cəmiyyət kəmiyyət və keyfiyyət baxımından ölkənin siyasət və milli qüdrətinə müxtəlif təsirlər qoyur və cəmiyyət ən başlıca ehtiyaclarını aradan qaldırmaq üçün kifayət qədər enerji və təbii sərvətə malik olduqda, qüdrət mənşəyidə ola bilər; Çünki bir tərəfdən istehsal amili olan canlı qüvvəni təmin edir, digər tərəfdən də istehsal olunmuş malların istehlak olunması üçün münasib şərait yaradır və bütün bunlar, milli iqtisadiyyatın inkişaf etməsinə yaxından köməklik edir.

Bütün bunlarla yanaşı, əhalinin çoxluğu ölkənin müdafiə və təhlükəsizliyinin təmin olunmasın, müharibə zamanı sərhədlərin keşiyində durulması, habelə əhalinin səfərbər olunması, hərbi sənayenin inkişafı və hərbi ləvazimatların modernləşdirilməsində aparıcı rol oynaya bilər. Əhalinin çoxluğu hər zaman hərbi əməliyyatlarda həlledici rol oynadığı kimi çox güman ki, gələcəkdə öz əhəmiyyətini qoruyub saxlayacaq və öz əhəmiyyətini qoruya bilməsində ən başlıca amillərdən biri hesab olunacaqdır. Lakin

əhalisi çox olan və milli sərvətləri mövcud ehtiyacları aradan qaldırmadığı ölkələrdə yoxsulluq baş alıb gedir və olduqca məhdud olan milli sərmayə əhalinin zəruri ehtiyaclarının aradan qaldırılmasına sərf olunur. Bütün bunlar milli sərmayənin hər hansı bir sahəyə qoyulmasına mane olur. Nəticədə, ölkə öz milli istehsal qüdrətindən məhrum olur. Bu kimi ölkələrdə əhalinin çoxluğu nəinki qüdrət və iqtidar mənşəyinə səbəb olmur, bəlkə əksinə olaraq, milli qüdrətin zəifləməsinə gətirib çıxarır. Bəzi Afrika, Latın Amerikası və Hindistan kimi ölkələri buna misal çəkmək olar. Əlbətdə, bəzi ölkələr əhalinin ehtiyaclarını aradan qaldırmaq imkanına malikdirlər, lakin beynəlmiləl iqtisadi əlaqələr və bu ölkələrə hakim olan hakimiyyət və idarəetmə üsulu, orada süni yoxsulluğun meydana gəlməsinə səbəb olur.

Cəmiyyət keyfiyyət baxımından da müxtəlif təsirə malik olurlar. Hər hansı bir ölkənin əhalisi əgər yüksək təhsil səviyyəsi və standarta [dünya standartlarına] uyğun ictimai rifaha yiyələnərsə, sözsüz ki, milli qüdrətə yiyələnmək imkanına da malik olacaqdır. Yaponiya, İngiltərə və Almaniyada baş verənləri buna misal çəkmək olar.

Əksinə olaraq, əhali yüksək təhsil səviyyəsi və ictimai rifaha yiyələnmədikdə, milli qüdrət günü-gündən zəifləyib, tənəzzülə uğrayır. Banqladeş, Hindistan, Somali, Əfqanıstan və Şri-Lanka kimi ölkələrin mövcud şəraitini buna misal çəkmək olar.

Cəmiyyət mədəni və milli tərkib baxımından da böyük əhəmiyyət kəsb edir. Həmahəng cəmiyyət, millətin həmrəyliyi və milli birliyin meydana gəlməsinə səbəb olur. Bir haldakı müxtəlif milliyyət və ünsürlərdən ibarət olan pərakəndə olan cəmiyyət, dövlət daxilində milli və ərazi parçalanmaya gətirib çıxarır. Sabiq Sovet İttifaqı və Yuqoslaviyanı buna misal çəkmək olar.

Cəmiyyət, hökumətlə həmfikir və onun irəli sürdüyü şüarlarla həmrəy olma baxımından da böyük əhəmiyyət kəsb edir. Hökumətə etimad edən və ona sadiq qalan bir millət, sözsüz ki, qüdrətli bir hökuməti təsis etməyə nail olur. Çünki hər bir hökumət ona sadiq olan ölkə vətəndaşlarına arxalanır. Amerika və İraqın İranla apardığı müharibə illərində İran əhalisinin dövlətə qarşı göstərdikləri sədaqət və fədakarlıqları buna misal çəkmək olar.

Cəmiyyət üzvləri dövlətə arxa olmadıqda, ölkə daxilində dövlətin zəifləməsi ilə nəticələnən ixtilaf və keşməkeşlər meydana gəlir.

2. Təbii sərvətlər;

Təbii sərvətlər sabit amillərdən hesab olunurlar. Lakin qoyduğu müxtəlif təsir və istifadə olunduğu yerlər baxımından, habelə daimi istifadə olunduğu üçün baş verən dəyişiyliklərə görə, dəyişgən amillər sırasına da daxil olurlar.

Eyni qayda olaraq, əgər ölkələr sabit inkişaf üsuluna yol tapıb təbii sərvətlərdən istifadəni cəmiyyətin ehtiyacları ilə həmahəng edə bilərlərsə, başqa sözlə desək, bir tərəfdən təbii sərvətlərdən daimi istifadə, digər tərəfdən isə coğrafi mühitin ekoloji bərabərsizliyi sabit bərabərliyə səbəb olur. Bəlkə də, təbii sərvətlərin bütün və ya bir hissəsini bu baxımdan sabit geopolitik amillərdən biri hesab etmək olar.

Təbii sərvətlər müxtəlif növlərə bölünürlər və onlardan hər biri dövlətlərin siyasət, rəftar və davranışlarına özünə məxsus təsirlər qoyur.

Təbii sərvətlər bunlardan ibarətdir: həyat, enerji, sənət və hərbi sahələrdə istifadə olunan mineral mənbələr.

Həyat mənbələrinə elə bir təbii sərvətlər daxildir ki, bəşəriyyətin ən başlıca ehtiyaclarını aradan qaldıraraq, təbii həyatı birbaşa onlarla əlaqəli olmuş olsun və bu təbii sərvətlərə su, torpaq, yaralı əkin sahələri, hava, bitki örtüyü, fəza və heyvanat aləmi daxildir. Bu amillər bir-birləri ilə əlaqəli olaraq, ekosistemi təşkil edir və insanın orada yaşaya bilməsi üçün coğrafi mühitdə bir növ ekoloji bərabərlik yaradır.

Sabit inkişafın qarşısına qoyduğu ən başlıca hədəflərdən biri də ekoloji stabillik və iqtisadi, ictimai, mədəni, siyasi inkişaf gedişatında sabitliyi bərqərar və yaratmaqdan ibarətdir. İnsan təbii sərvətlərin hər birindən düzgün istifadə etmədikdə, ekoloji stabillik pozulur və ətraf mühitə ağır zərbə dəymiş olur.

İkinci dəstə, insanların həyatında geniş istifadə olunan enerji mənbəyidir. Neft, qaz, daş kömür, taxta, günəş, hidroelektrik, atom enerjisi və s. enerji mənbələrinin bəziləri isə əvəz olunmazdır. Bu günlər enerji mənbələri hərbi, yükdaşıma, istehsal, əkinçilik və hər

bir ailənin ictimai həyatına geniş şəkildə nüfuz etmişdir. Belə ki, əhalinin onlardan müəyyən müddət məhrum olması, onları ciddi çətinliklərlə qarşı-qarşıya qoyur.

Üçüncü dəstəyə aid olan təbii sərvətlər, sənətdə istifadə olunan və insanların ən zəruri ehtiyaclarını aradan qaldıran dəmir və bir çox mineral maddələrdən ibarətdir. Əlbətdə, sənaye özünün xammala olan ehtiyacını ödəmək məqsədilə yalnız yeraltı qazıntılardan deyil, həyat üçün zəruri olan məhsullardan belə istifadə edir. Məsələn, əkinçilik, heyvandarlıq kimi fəaliyyətləri meydana gətirir və bununla yanaşı, insanların geyim və qida məhsullarını təmin edir.

Dördüncü dəstəyə isə, ölkənin müdafiə və hərbi sənayesində istifadə olunan mis, dəmir, uran və bu kimi məhsullar daxildir.

Bütün bu təbii sərvətlərin dünyada qeyri-bərabər şəkildə yerləşməsi, ölkələrarası siyasi rəqabət, istismar və müharibələrin aparılmasına səbəb olmuşdur və bu da təbii olaraq, onların xarici siyasət və əlaqələrinə öz təsirini qoymuşdur.

Dövlətlər yuxarıda qeyd olunan təbii sərvətləri əldə etmək üçün öz və digər ölkələrin ərazilərində onları axtarır və istixrac olunması üçün milyonlarla pul sərf edirlər.

Məhz bunun üçün ölkələrarası yaradılan əlaqələr qarşılıqlı ehtiyacların aradan qaldırılması əsasında qurulur.

3. Dövlət və hökumət orqanı;

Siyasi coğrafiyada bu haqda söhbət açarkən qeyd etdik ki, hər hansı bir ərazinin sakinləri öz siyasi formalaşma və qəbul etdikləri qərarları hökumətə həvalə edirlər. Hökumət və siyasi orqan, ölkəni ərazisində məskunlaşmış əhalinin işlərini idarə etəmək üçün müxtəlif dövlət təşkilatları təsis edirlər.

Geopolitologiyada əhəmiyyət kəsb edən isə, bu təşkilatın hansı malik olduğu qurluş və göstərdiyi fəaliyyətlərdən ibarətdir. Bu mənada ki, kifayət qədər güc və həmahəngliyə malik olduqda, əhalinin ehtiyaclarını aradan qaldırmağa nail olmaqla yanaşı, ölkənin idarə və beynəlmiləl səviyyəyə çatdırılmasında da müəssər addımlar atmağa qadir olacaqdır. Yox, əgər dövlət birlik və həmahənglikdən məhrum olarsa, hərcmərclik onun üzərinə hakim olaraq bürokratiyanın genişlənməsi, milli qüdrətin zəifləməsi, dövlət

büdcəsi və təbii sərvətlərin məhv olub aradan getməsi və nəhayət, narazılıqların artmasına səbəb olacaqdır.

4. Təlim-tərbiyə;

Daimi inkişafda olan elm, insanların ən başlıca ehtiyaclarından birini təşkil edir. Gündəlik çoxalmaqda olan əhali isə həyatın reallıqları ilə ayaqlaşmalı, əldə olunan yeniliklə tanış olmalı və nəhayət, gələcək həyatını təmin etmək üçün hər hansı bir elmi sahə və ya sənətə yiyələnməlidir.

Təhsil ocaqlarının üzərinə düşən ən başlıca vəzifə, cəmiyyətin, xüsusilə də yeni nəslin ictimai, əxlaqi xüsusiyyətləri və yiyələndikləri ixtisasları daha da təkmilləşdirməkdən ibarətdir. Onlar üzərlərinə düşən bu vəzifənin öhdəsindən gəlmədikdə, cəmiyyət üzvlərinin ictimai, iqtisadi, mədəni və məhkəmə sahələrindəki ehtiyacları təmin olunmayacaq, inkişafdan qalaraq, geriliyə düçar olacaqdır. Çünki inkişafa səbəb olan amillərdən düzgün təlim-tərbiyənin edilmədikdə, inkişafın ehtiyacları ödənməyəcəkdir. İstər müasir olsun, istərsə də qədim cəmiyyətin təlim-tərbiyə ocaqları məktəb, universitetdən əvvəlki hazırlıq müəssisələri, universitet, klassik və qəzet, jurnal və komunikasiya vasitələri olan radio, televiziya, kompyüter, internet kimi qeyri-klassik məlumat vasitələrini insanın ixtiyarına qoyur.

Cəmiyyətin təlim-tərbiyə və elm ocaqları fəal olub, hər zaman cəmiyyət üzvlərinin məlumat dairəsini genişləndirdikdə, ölkənin milli qüdrətinə də müsbət təsir qoymuş olur.

5. Ordu və müdafiə;

Hər bir ölkənin milli inkişafı, ölkə ərazisi və milli təhlükəsizliyin təmin olunmasından asılıdır. Ordu, ümumi təhlükəsizlik və ölkədə əmin-amanlığın bərqərar olunması və vətəndaşların canı, malı və namusunun qorunması məqsədilə yaradılır. Bunun üçün də, ordunun say və malik olduğu qüdrət, milli inkişafa böyük təsir göstərir. Hər hansı bir ölkənin müasir silah, hərbi qurğu və avadanlıqlar, habelə güclü strategiya və təcrübəli sərkərdələrlə təmin olunması qonşu dövlətlərin onun ərazisinə göz dikmələrinə mane ola bilər. Güclü ordu milli təhlükəsizliyin təmin olunması, dövlət və millətin ölkə ərazisində sərbəst fəaliyyət göstərməsinə ən müəssir amil hesab olunur.

### *İQTİSADİ POTENSİAL*

İqtisadi amillər sənayedə istifadə olunan məhsul, əkinçilik, mal və pul, idxalat və ixracat, əhalinin məşğuliyyəti, qoyulan sərmayə [kapital], malikiyyət və s. sahələrə şamil olur və bu sahələrdə göstərilən fəaliyyətlərə ölkənin özünəməxsus iqtisadi şəraiti hakim ola bilər.

Əgər iqtisadi amillər fəal quruluşa malik olub müsbət nəticə verərsə, milli qüdrətin artmasına səbəb olar; Çünki iqtisadi sərvət və imkanların toplanmasına səbəb olmaqla yanaşı, hər tərəfli inkişafa möhkəm arxa yaradır. Əgər hər hansı bir ölkə iqtisadi baxımdan inkişaf etməyib istər büdcə, istər dövlət, istərsə də xüsusi, ümumi və şirkət sahələrində milli inkişaf lahiyəsinin icrasına hazır olmazsa, hökumət əhalinin zəruri ehtiyaclarının aradan qaldırılmasına belə qadir olmayacaqdır. Eyni qayda olaraq iqtisadi, ictimai, mədəni, siyasi, hərbi və sair sahələrdə də böyük çətinliklərlə qarşılaşacaqdır. Çünki, mali [maddi] imkansızlıq nəzərdə tutulan bütün planların qarşısını alır. İnkişaf planlarının qarşısının alınması isə, ölkənin geriləməsi və zəifləməsi deməkdir.

7.Ölkənin siyasi rəhbərliyi

Ölkə rəhbərləri siyasi demokratik və ya qeyri-demokratik gedişatlar nəticəsində bu vəzifələri tutduqları üçün onlara hakim olan hədəf və düşüncələr də heç də bir olmur. Ölkəyə rəhbərlik edən quruluşun sifət və xüsusiyyətləri, habelə əzm və ruhiyyəsi milli taleyə və onun qüdrətinə təsir qoya bilər. Qüdrət tələb, millətpərəst, tədbirli, milli, əhali və ya biganə dövlətlərin dəstəklədikləri rəhbərlərin hər biri milli taleyə özünəməxsus təsir göstərir. Milli, insani, siyasi, təbii və sair imkan və bacarıqları üzə çıxarmağa qadir olan ictimai və humanitar elmlər mütəxəssisi olan dövlət rəhbərləri, ölkənin milli qüdrəti barədə kifayət qədər məlumatlara yiyələnərək, milli strategiyanın əsasını qoyurlar. Gələcəyə olan baxış, onlara milli sərvətlərin [vasitəsilə] ehtiyacların aradan qaldırılılması və müxtəlif sahələrdə milli inkişafa nail olmasına köməklik edir. Digər dövlətlərlə yaratdığı əlaqələrdə də irəli sürdüyü məntiqi siyasətlə milli təhlükəsizliyi ən aşağı səviyyəyə çatdırmağa, beynəlmiləl səhnədə milli mənafe və təhlükəsizliyi təmin etməyə, daxildə isə cəmiyyət üzvlərinin, habelə ictimai-siyasi qüvvələr arasındakı əlaqələri nizama salaraq, milli birliyə nail olmağa kömək edir. Bütün

bunlarla yanaşı, ölkənin milli iqtidarını beynəlmiləl səhnədə genişləndirməyə, milli mənafe, siyasi ehtiyaclar, ictimai rifah və milli təhlükəsizliyin təmin olunmasına da müsbət təsir göstərir.

### *(3-2-3) XX ƏSRİN GEOPOLİTİK NƏZƏRİYYƏLƏRİ*

XX əsrdə irəli sürülən geopolitik nəzəriyyələr ümumdünya qüdrət, hegemonluq və qüdrətli dövlətlərin apardıqları rəqabətlərdən xəbər verir və onlar üç hissəyə bölünür:

1. Atmosfer-ərazi baxışı.

Klassik baxış kimi tanınan bu nəzəriyyə XİX əsrin axırlarında 1970-ci ilədək geopolitik ideologiyada özünə yer etmişdir.

İlk klassik nəzəriyyə Ratsel, sonuncusu isə Sevirski tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyəyə, qüdrət ərazilərin, xüsusilə də strateji əhəmiyyətli məntəqələrin işğal və ələ keçirilməsini qüdrət və hegomonluğun mənşəyi hesab edir və bu yolla mümkün qədər çox qüdrət əldə etməyə münasib şərait yaradır. Bu nəzəriyyəyə əsasən, ölkənin nüfuz və iqtidarı hər hansı bir məntəqədə çox olarsa, dövlətin qüdrəti də bir o qədər olmuş olar. Buna görə də bu nəzəriyyə ümumdünya hegemonluğa nail olmaq üçün əraziləri ələ keçirib və orada güclü nüfuza malik olmağı zəruri hesab edir. Belə olduğu bir şəraitdə, ərazilər ələ keçirib orada öz hökmüranlığını bərqərar etmək üçün ordudan istifadə onun üçün zəruri bir hala çevrilir. Bəzi ümumdünya strategiya çərçivəsində irəli sürülən belə nəzəriyyələr "strateji nəzəriyyə" kimi qələmə verilir.

2. İqtisadi baxış;

Bu nəzəriyyə müasir amerikan gepolisti Saul Kohen tərəfindən irəli sürülmüşdür. O, ərazi-atmosfer baxışlarını təsdiq etməklə, qüdrətin mənşəyini ölkələrin ümumdünya təcrübə və əlaqələrində görür. Onun irəli sürdüyü nəzəriyyədə yeni geopolitik terminlər müşahidə etmək olar.

3. Mədəni baxış

Bu nəzəriyyəyə əsasən, mədəni xüsusiyyətlər coğrafi ərazilər arasında yaradılan əlaqələrə təsir göstərən rəqabətlərin mənşəyini təşkil edir. İlk dəfə olaraq bu nəzəriyyə məşhur amerikan alimi Samuel Hantinqen tərəfindən irəli sürülmüşdür.

Bu nəzəriyyələrin hər birinin məcmuəsi altında ayrı-ayrı nəzəriyyələr irəli sürülmüşdür və biz onları diqqətdən keçirməyi zəruri hesab edirik. Bu səbəbdən, XX əsrdə irəli sürülmüş və dünyada əsaslı dəyişiklərə səbəb olan bəzi məşhur geopolitik nəzəriyyələrə ixtisarla işarə edirik.

### *1-RATZELİN HƏYATİ ATMOSFER NƏZƏRİYYƏSİ (1895)*

Siyasi coğrafiyanın banisi olan Ratzel Darvinin təkamül nəzəriyyəsindən mütəəsir olmuşdur. O, "Canlı varlıq olan dövlət" nəzəriyyəsini irəli sürərək, onun üçün doğuş, inkişaf, yetginlik və ölüm mərhələlərini təyin edir. Ratzel ölkəsinin inkişafı üçün enerji ilə təmin olunmasına təkid edir. Enerji dedikdə isə, coğrafi ərazi və təbii sərvətləri nəzərdə tutur. Ratzel ölkə ərazilərinin inkişafı üçün yeddi bənddən ibarət qanun və nizamnamə müəyyən edir və onlar aşağıdakılardan ibarətdir:

1/1 Ölkənin inkişafında mədəniyyətin payına böyük pay düşür və hər hansı bir ərazinin ətraf məntəqələrlə olan mədəni asılığı, ərazi birliyinə yaxından köməklik edə bilər. Mədəniyyət, ərazi birliyi və sıx həmahəngliyə səbəb olan bir vasitədir və mədəniyyətdə diqqət yetirilən dəyərləri, insanlar arasında birliyin möhkəmləndirilməsində istifadə etmək olar.

1/2 Mədəniyyətlə yanaşı, ölkə ərazisinin genişlənməsinə səbəb olan digər amillər də nəzərdə tutulmalıdır. Çünki yol və çay axarları kimi amillər insanlar arasında ictimai-iqtisadi əlaqələrin genişlənməsinə səbəb olur.

1/3 Kiçik siyasi vahidlər (hissələr) tədriclə böyük siyasi vahidlərə cəzb olunub və onun bir hissəsinə çevrilir.

1/4 Sərhədlər, ölkənin əhatə dairəsini təşkil edir və sabitsizlik üzündən bəzi dəyişikliklərə məruz qalır.

1/5 Güclü dövlətlər digər ölkələrin ərazilərini ələ keçirməkdə oranın siyasi və strateji dəyərlərinə xüsusi diqqət yetirir və təbii sərvət, habelə strateji mövqeə malik olan ərazilərə daha çox əhəmiyyət verirlər.

1/6 Ölkə ərazisini genişləndirmə tərzi-təfəkürü güclü bir baxışla başqalarına da sirayət edir.

1/7 Ölkə ərazisinin genişlənmə tərzi-təfəkkürünün artması, kiçik dövlətlərə öz ərazilərini qoruyub-saxlamaq üçün necə və hansı yolla qüdrət əldə etməli olduqlarını öyrədir.

Ratzelin irəli sürdüyü nəzəriyyələrə iradlar tutulmuş və onlardan bəziləri xüsusilə də zəif ölkələrin güclü ölkələrə birləşərək ərazinin bir hissəsini təşkil etmə nəzəriyyəsi bu günlər heç bir etibar (və ya əhəmiyyət) kəsb etməyir.

### *2-DƏNİZ QÜDRƏTİ NƏZƏRİYYƏSİ (1890)*

Bu nəzəriyyə 14 il Amerika dəniz ordusunda xidmət etmiş Alfred Mahan tərəfindən irəli sürülmüşdür. Mahan dəniz və okeanlara nəzarəti qüdrət və iqtidarın mənşəyi hesab edir. O, belə bir əqidədə olmuşdur ki, dünyanın açıq suları quruda yerləşən qüvvələri idarə və mühasirə etməyə imkan verir. Mahanın təfəkkürünə təsir qoyan şey (və ya amil), su və quru ərazilərin yer üzərində necə yerləşməsi və aralarında olan əlaqələr olmuşdur. O, İngiltərənin malik olduğu dəniz mövqeyyətinə işarə edərək, dünyanın bir çox məntəqələrinə hakim ola biləcəyini hesab edirdi. Eyni zamanda, Rusiyaya da özünə məxsus çətinliklərlə quru ərazilərə hakim olan qüdrətli dövlət gözü ilə baxırdı. Çünki o hər zaman dəniz qüvvələrinin mühasirəsində qala bilərdi. Bun səbəbdən, Rusiya bu çətinlikdən yaxa qurtarmaq üçün Çində Mançoriya[1] vilayətindən, İran və Əfqanıstandan azad sulara yol tapıb həmin dəniz qüvvələrinin qarşısına sədd çəkməli idi.

Mahan Amerikanı özünəməxsus coğrafi mövqeyinə arxalanaraq, İngiltərənin yerini tuta biləcək yeganə dövlət hesab edirdi. Bu səbəbdən də, o dövrün Amerika prezidentinə lazımi tövsiyələr edirdi. İki böyük okeanı yəni Sakit və Atlantik okeanlarını bir-birləri ilə birləşdirən Panama kanalının qazılmasını və beləliklə, dəniz vasitəsinin Amerikanın şərqi ilə qərbi arasında olan əlaqələri asanlaşdırmağı, bəzi mühüm boğazları, habelə Sakit Okeanda yerləşən Havay adalarının ələ keçirilməsi və sairi olunan tövsiyələrə misal çəkmək olar.

Mahan dəniz qüdrətinə yiyələnmək üçün bu altı şərti zəruri hesab edirdi.

[1] Çinin şimali şərq Rusiya ilə sərhəd zolağında yerləşir.

1. Dəniz mövqeinə yiyələnmək;
   Yəni ölkənin dəniz və okean kənarında yerləşməsi.
2. Uzun məsafəli sahilə yiyələnmək;
3. Gəmilərin yan ala bilməsi və limanların salınması üçün sahillərə yiyələnmək;
4. Dəniz qüvvələrinin təmin olunması üçün ölkədə kifayət qədər əhalinin yaşaması;
5. Ölkədə dəniz və dənizçilik əhval ruhiyyəsinə malik olan əhalinin yaşaması;
6. Dənizçilik fəaliyyətinin genişləndirilməsi üçün dövlətlərin həyata keçirdikləri lazımi siyasətlər.

Mahanın irəli sürdüyü bu nəzəriyyə amerika siyasətçilərinin diqqətini özünə cəlb və onları dəniz hegemonluğuna sövq edir. Hal-hazırda ABŞ dünyanın ən güclü dəniz qüdrətinə malikdir və bunun üçün də dünyanın ən uzaq məntəqələrində belə öz siyasətini həyata keçirməyə lazımi şərait yaratmışdır.

### *3-TORPAQ QÜDRƏTİ NƏZƏRİYYƏSİ (1904)*

Bu nəzəriyyə Helford Mekinder tərəfindən irəli sürülmüşdür. O, İngiltərənin coğrafi səltənət təşkilatı və bir neçə il gəmiçilik səltənət komitəsinə rəhbərlik etmiş, 12 il İngiltərə parlamentində dövlət vəkili olmuşdur. Mekinder quru ərazilərə daha çox üstünlük vermiş və onların ələ keçirilməsini dünyaya hegemonluq hesab etmişdir. Mekinderin irəli sürdüyü bu nəzəriyyə "Harteld" (yerin ürəyi) kimi daha çox şöhrət tapmışdır və onun özü yer kürəsini üç dairəyə bölmüşdür.

1. Volqa ilə Yenisey çayları arasında yerləşən məntəqə, habelə cənubda Alp və Əlborz yüksəklikləri və şimaldakı Şimal buzlu okeanına şamil olan Avrasiya;

Mekinderin nəzərində bu coğrafi ərazi dəniz qüvvələrinin ixiyarından xaric olan bir qala idi. Bunun üçün o bu məntəqəyə "Harteld" və ya “Yerin ürəyi” adını verir. Hal-hazırda bu məntəqə mərkəzi Asiya və Sibir əraziləri hesab olunur.

2. Avrasiya, şimali Afrika, Avrasiyanın sahil və bir neçə yarımadanı əhatə edən daxili haşiyə;

3. Yaponiya, Avstraliya, İngiltərə və sair ölkələrin ətrafında yerləşən adalar və Cənubi Afrikanın (səhranın cənubunu) əhatə edən xarici haşiyə.

Mekinder məqsədyönlü şəkildə Hertald nəzəriyyəsini irəli sürür və onu hegemonluq və qüdrətliyin açarı hesab edirdi. Onun nəzərində hertald Şərqi Avropadan keçən yolun açarı idi. Buna görə dəə o özünün məşhur nəzəriyyəsini beləcə irəli sürür: "Kim Avropanın şərqini ələ keçirərsə, yerin ürəyinə hakim olacaqdır. Hertalda hakim olan şəxs isə, ümumdünya adaya hakim olacaqdır".

Ümumdünya adaya hakim olan şəxs isə bütün dünyaya hakim olmuş olur. Mekinderin irəli sürdüyü nəzəriyyə Avropanın, xüsusilə də Almaniyanın strateji tərzi-təfəkkürünə böyük təsir qoyur və onun atmosfer dairəsini müəyyən dəyişiyliklərlə sonralar irəli sürülmüş nəzəriyyələr də qoruyub-saxlaya bilir.

İ Dünya Müharibəsindən əldə olunan təcrübələr, Mekinderi irəli sürdüyü nəzəriyyədə müəyyən dəyişiyliklər aparmağa vadar edir. Beləliklə, o Şimali Amerikada başqa bir Hertaldın da mövcud olduğunu hesab etməyə başlayır. O, belə bir qənaətə gəlir ki, iki Hertaldın bir-biri ilə birləşməsi böyük bir qüdrətin meydana gəlməsi və Almaniyanın yaratdığı təhlükənin dəf olmasına səbəb olacaqdır.

### *4-REYMLANDEN NƏZƏRİYYƏSİ (1942)*

Bu nəzəriyyə ilk dəfə olaraq amerikan Spaykmen tərəfindən irəli sürülür. O, quruya daha çox üstünlük verən və Hertaldı hegemonluq açarı hesab edən Mekinderin əksinə olaraq, haşiyəvi mühasirəyə (və ya daxili aypara) daha çox üstünlük verməyə başlayır. O belə bir əqidədə idi ki, Reymlanda nəzarət edən hər bir dövlət, ümumdünya hegemonluğu əldə etmiş və ya qüdrəti öz milli mənafeinə doğru istiqamətləndirilmiş olur. Spaykmen haşiyəvi ərazilərin və ya Reymlanden üçün həm dəniz, həm də quruluq xüsusiyyətinə malik olan iki mahiyyətdən ibarət olduğunu hesab edir. O, belə ki bəzən dəniz, bəzən də quru quvvələrə üz tutur.

O, Amerika dövlətinə Avrasiyanın haşiyəvi məntəqələrini ələ keçirməyi tövsiyə edir. Buna görə də bəziləri belə bir əqidədədirlər ki, Amerkanın həyata keçirdiyi nüfuzun qarışısını alma siyasəti, məhz "Reymland" nəzəriyyəsi olmuşdur. Çünki Amerika dövləti

Sovet İttifaqının nüfuz və haşiyəvi genişlənməsindən çox narahat idi. Bu səbəbdən bəzi ölkələri özünə cəlb etməyə başlayır. Amerika dövlətinin İran, Türkiyə, Yunanıstan kimi ölkələrə Sovet İttifaqının və komunistlərin toruna düşməmələri məqsədilə etdiyi maddi yardımları buna misal çəkmək olar. Çünki bu ölkələr strateji baxımdan olduqca mühüm mövqeə malik olmuş və nazik "Reymland" divarını təşkil edirdilər. Bunun üçün də son iki əsrdə şimal və cənubdakı iki quru qüdrət arasında bir növ fasilə rolunu oynamış və daim qüdrətli ölkələrin nüfuz və rəqabət mərkəzinə çevrilmişdir.

### *5-HAVA QÜDRƏTİ NƏZƏRİYYƏSİ (1950)*

Hava qüdrət nəzəriyyəsi ilk dəfə olaraq əsliyyəti (və ya milliyyətcə) rus olan amerikan zabiti Severiski tərəfindən irəli sürülmüşdür. Severiski irəli sürülmüş iki əvvəlki nəzəriyyədən fərqli olaraq, hava qüdrətinə daha çox üstünlük vermişdir. O, bu barədə bir neçə kitab təlif etmiş və dünyanı Azimutal sistemi əsasında təsəvvür etməyə başlamışdır. Bu sistem əsasən, şimal qütbündəki Amerika ilə Sovet İttifaqı arasındakı strateji fasilə bir-birlərinə daha yaxınlaşır. O, belə bir əqidədə idi ki, şimal qütbünə nəzarət edə bilən hər bir ölkə, qüdrəti öz mənafeinə doğru istiqamətləndirə bilər. Məhz bu səbəbdən şimal qütbü strateji əhəmiyyət kəsb etməyə başlayır. Beləliklə, hərbi fəaliyyətlər, məntəqəyə nəzarət və hərbi hissələrin təsis olunması geniş vüsət halı tapmağa başlayır. Suriski bu sistemin əsasında dünyanı müxtəlif hissələrə bölərək, onları ayrı-ayrılıqda təhlil etməyə başlayır və istər quru qüdrətlərin olsun, istərsə də, dəniz onların hər biri üçün müəyyən nüfuz və əhatə dairəsi nəzərdə tutur. Lakin bu iki əhatə dairəsi bir məntəqədə bir-birlərinin ərazisinə daxil olmuş və bunun üçün də buraya "qərar qəbul olunma məntəqəsi" adını vermişdir.

### *6-KOHENİN SİSTEM NƏZƏRİYYƏSİ*

Müasir Amerikan coğrafiyaşünası Saul Kohen özünün hərəkətəgətirici və fəal xüsusiyyətə malik olan ümumdünya gepolitik nəzəriyyəsini iki yönümdə, yəni atmosfer quruluşu və qüdrətin bölünməsi ilə irəli sürür. Sabit baxışa malik olan və dövlətlərarası əlaqələri mövqe, ərazi genişliyi, quruluş və bu kimi sabit coğrafi amillər əsasında araşdıran klassik geopolistlərdən fərqli olaraq, Kohen dünyanın geopolitik sistemini ölkələrin dünyadakı qüdrət və mövqei əsasında təhlil və araşdırmağa başlamışdır. Keçmiş dövrlərdə döyüş və müharibə xüsusiyyətinə malik olan Sovet İttifaqı ilə ABŞ-ı dünyanı nüvə rəqabətləri ilə qeyri-fəal və hərəkətsiz bir vəziyyətə gətirib çıxaran gepolitik quruluşun əksinə olaraq, o, belə bir əqidədə idi ki, ümumdünya quruluşu təcrübə, ictimai əlaqələr və texnologiya kimi sahələrdə qarşılıqlı ehtiyaclar əsasında daxili həmrəylik və sülhsevərlik xüsusiyyətinə malik ola bilər. Kohenin təklif etdiyi quruluşda, fəaliyyətlə yanaşı baş verən dəyişilikdən sonra quruluşun ifa etdiyi rol, qüdrətində bir növ bərabərlik və stabillik də meydana gəlir. Dövlət və ölkə kimi quruluş üzvlərinin ifa etdiyi rol və malik olduğu qüdrətə təsir qoyan amillər isə aşağıdakılardan ibarətdir:

1. Daxili amil və dəyişikliklər;

Buraya siyasi, iqtisadi, ictimai, mədəni və texnoloji quruluş daxildir.

2. Xarici amillər;

Ölkə və dövlətlərin qarşılıqlı inkişaf və fəaliyyəti, habelə onların birgə həmrəyliyinə köməklik göstərən xarici ticarət, siyasi əlaqələr, hərbi hissələr, mühacirət və sair məsələlər daxildir.

3. Xaricdə fəaliyyət göstərən daxili qüvvələr

Kohen ölkə və dövlətlərin ticari məsələlər və sistematik əlaqələrinə xüsusi diqqət yetirir. Eyni zamanda ticarət və ya iqtisadi, ticari və ictimai əlaqələr arasında müstəqil əlaqənin mövcud olduğunu hesab edir. Əslində, o özünün irəli sürdüyü bu nəzəriyyə ilə ölkə və dövlətlərdəki tənəzzülü bəyan etmək istəyirdi. Bu mənadakı, dövlətlərarası məsələlər nə qədər çox olarsa, ölkədəki stabillik də bir o qədər çox artıb, tənəzzülün qarşısını alacaqdır. Əksinə, bu məsələ nə qədər çoxalarsa, ölkədəki tənəzzül və qeyri-stabillik də bir o qədər artacaqdır. O, daxili quruluşların

parçalanmasını tələfatın artmasında, Sabiq Sovet İttifaqı və Yuqoslaviyanın süqutunu isə, quruluşun bağlı olduğu və bu dərəcənin artmasından irəli gəldiyini hesab edir.

Kohen 1991-ci ildə verilən tələfatlar əsasında dünya ölkələrini bir neçə hissəyə bölmüşdür. Onlardan bəziləri Şimali Amerika kimi ən az, Cənubi Amerika və Cənubi Afrika kimi ölkələr də özünün ən yüksək səviyyəsinə çatmışdır. O, bu on amili əsas götürərək, inkişaf və tənəzzülü onunla müqaisə edir:

1. Əldə olunan pulun miqdarı;
2. Kənd Təsərrüfatı məhsullarının istehsalı;
3. İstehsal olunan mallar;
4. İxracat;
5. İnkişaf məqsədilə aparılan təhqiqatlar;
6. Alimlərin sayı;
7. Mühəndislər;
8. Xarici bocların çoxalması;
9. Elmi mübadilə;
10. Edilən ixtiralar.

Bütün bunlar isə ya ən yüksək, ya yüksək, ya orta və ya aşağı səviyyədə ola bilər.

## *DÜNYANİN GEOPOLİTİK QURULUŞU*

Kohen dünyanın coğrafi və atmosfer (ərazi) baxımından özünəməxsus geopolitik quruluşu barədə açıqlama verir. Bu quruluş özünün ən yüksək dərəcəsində iqtisadi və ticari cərəyanlarda xüsusi diqqət yetirilən iki böyük geopolitik əhatə dairəsinə bölünür. O, bu əhatə dairələrindən birini dünya ticarətinin demək olar ki 70%-ni öz ixtiyarında saxlayan dənizdən, digərini isə dünya ticarətinin 10%-ni öz ixtiyarında saxlayan qitədən asılı olduğunu hesab edir. Kohen belə bir əqidədə olmuşdur ki, geopolitik əhatə dairələrinin hər biri bir neçə daxili və tarixi bağlılıqlar əsasında özünəməxsus xüsusiyyətə malik olan geopolitik məntəqələrə yiyələnirlər. Quru geopolitik əhatə dairəsi dedikdə, o, Avrasiyanın böyük bir hissəsini və iki başqa geopolitik məntəqəni nəzərdə tutur:

1. Sabiq Sovet İttifaqının ərazisi olan Harteld (dünyanın ürəyi) və Sibir;
2. Çin, Monqolustan və Şimali Koreyanın ərazilərinə daxil olan Şərqi Asiya.

Dəniz geopolitik əhatə dairəsi isə altı məntəqədən ibarət olan bir çox Qərbi Avropa, Amerika, Afrika, Şərqi Asiya ölkələrinə şamil olur. Onlar aşağıdakılardan ibarətdir:

1. Qərbi və mərkəzi Avropa;
2. Şimal hövzəsi (neft hövzəsi);
3. Cənubi Amerika;
4. Mərkəzi Amerikada Karib hövzəsi;
5. Avstraliya, Okeaniya və Asiyanın sahil əraziləri;
6. Cənubi Afrika (yeni məntəqə).

Kohenin nöqteyi-nəzərindən, hər bir geopolitik məntəqə daxilində yüksək geopolitik mövqeə malik olan və məntəqəyə rəhbərlik edən regional qüvvələr fəaliyyət göstərir. Həmçinin, o belə bir əqidədə idi ki, qeyd olunan əhatə dairəsində beş qüdrətli ölkə yerləşmişdir və onlar Amerika, Rusiya, Çin, Yaponiya və Avropa birliyindən ibarətdirlər.

Kohen qeyd olunan iki geopolitik əhatə dairəsindən xaricdə özünəməxsus xüsusiyyətə malik olan üç başqa məntəqəni təklif etmişdir və onlar aşağıdakılardan ibarətdir:

1. Cənubi Asiya;

Müstəqil məntəqə olan bu ərazidə Hindistan qüdrətli ölkə hesab olunur. Bu geopolitik məntəqə hal-hazırda dünya ticarətinin 8-10%-ni öz ixtiyarında saxlayır.

2. Şərqi Avropa;

Kohen bu məntəqədə yerləşən dövlətləri "Qapı” (darvaza) ölkələri adlandırır. Quru və dəniz geopolitik əhatə dairəsində yerləşən bu məntəqə, gələcəkdə əlaqələndirici funksiyaya malik olacaqdır.

3. Orta şərq məntəqəsi;

Kohen bu məntəqəyə "sındırıcı kəmər"[1] adı vermişdir. Onun əqidəsinə görə, bu məntəqə yuxarıda adları çəkilən mühüm geopolitik əhatə dairələrinin rəqabət mərkəzinə çevrilmişdir.

---

[1] Sarter Belt

Kohen özünün əvvəlki nəzəriyyəsində Şərqi Asiyanın cənubunu və Cənubi Afrikanı da "sındırıcı kəmər" adlandırmışdır. Lakin belə bir əqidə də olmuşdur ki, Soyuq Müharibədən sonra bu iki məntəqə dəniz geopolitik əhatə dairəsinə üz tutmuş öz sındırıcı xüsusiyyətini itirmişlər. Bunun üçün də o hal-hazırda yalnız Orta şərqi "sındırıcı kəmər" hesab edir. Kohen irəli sürdüyü nəzəriyyədə daxili və xarici amilləri müəssir hesab edir.

Xarici amillər bir çox hallarda geostratejik əhatə dairəsində fəaliyyət göstərən qüvvələri müşahidə edir və bu qüvvələr, ABŞ, Rusiya və Avropa dövlətlərinə şamil olur. Tədriclə, Çin və Hindistan da onlara əlavə olunacaqlar.

Daxili amillər ümumilikdə Orta şərqdə - İran, Türkiyə, İraq, Suriya, İsrail və Misir kimi dövlətlərin daxili ziddiyyətlərini müşahidə edir.

Kohen Orta şərqin meydana gəlib və sındırıcı xüsusiyyətə malik olmasında fərdi və ya kütləvi fəaliyyətləri müssir hesab edir və onun həll olunması üçün lazımi tövsiyələr verir[1]:

1. Məntəqədə dövlətləri bir-birlərinə yaxınlaşdıracaq ticari birliyi yaradıb, onların fəaliyyətini genişləndirmək;
2. Orta şərqdə kütləvi qırğın silahlarının məhv olunması;
3. Orta şərqdə yüngül silahların çoxalması;
4. Məntəqədə bir ölkənin başqa ölkəyə təcavüz etməsinin qarşısını almaq məqsədilə, Amerikanın onların işlərinə müdaxilə etməsi;

Kohen dünyanın bəzi məntəqələri barədə verdiyi proqnozları belə açıqlayır:

1. Orta şərq keçmişdə olduğu kimi sındırıcı kəmər olaraq qalacaqdır;
2. Müttəhid Avropa, bəlkə də, NATO-nun bir hissəsi olaraq qalacaqdır;
3. Rusiya əvvəlki bağlılıqlar əsasında müştərək mənafeli ölkələrdə öz nüfuzunu artıracaq və Sovet İttifaqının başqa bir forması yenidən qorunub-saxlanılacaqdır;

[1] Belə nəzərə çarpır ki, bu tövsiyələr və çıxış yolları Amerika dövlətinin diqqət mərkəzində olmuşdur. Çünki, Amerikanın məntəqədə Orta şərq barədə tətbiq etdiyi siyasət məhz bu nəzəriyyə əsasında qurulmuşdur.

4. Çin öz hərbi qüvvəsini artıracaq və öz iqtisadiyyat qapılarını hamının üzünə açıq qoyacaqdır;
5. Hindistan hərbi və iqtisadiyyat sahələrində inkişaf edəcəkdir;
6. Yaponiya və Avstraliya pasifik hövzəsində regional qüdrət kimi fəaliyyət göstərəcəkdir. Yaponiya iqtisadi qüdrətə xüsusi diqqət yetirəcək. Avstraliya isə əvvəlkindən çox Asiya xüsusiyyətinə yiyələnib, Avropa xüsusiyyətindən uzaq düşəcəkdir;
7. Cənubi Afrikada regional qüdrət olan Nigeriya və Cənubi Afrika inkişaf edəcək və özünə məxsus geopolitik sfera yaradacaqdır;
8. Yer kürəsinin 1/4-ni təşkil edən Cənubi Amerika və Cənubi Afrika daha ağır şəraitlə qarşılaşacaq və dünyanın digər məntəqələrində böhran vəziyyətinin meydana gəlməsinə səbəb olacaqdır. Yoxsulluq, cəmiyyət, ömrün azalması, borclar, böyük həcmli sərmayələrin qoyulması, texnoloji çatışmamazlıq kimi ümumi məsələlər onların əhatə dairəsində daha da artacaqdır.

## *7-SİVİLİZASİYALARİN TOQQUŞMA NƏZƏRİYYƏSİ*

Bu nəzəriyyə, 1993-cü ildə Harvard Universitetində "Amerikanın milli əlaqələri, təhlükəsizlik mühiti" adlı araşdırma proyekti üçün Samuel Hantiqton tərəfindən irəli sürülmüşdür.

Bu nəzəriyyə mədəni dövlət, millət və qruplaşmalararası əlaqələrin hansı səviyyədə olduğunu və aralarındakı atmosfer əlaqələri izah edir.

Bu günlər mədəniyyət müəyyən geopolitik funksiyaya malik olmağa başlamışdır və onun gələcəkdə daha böyük rol oynayacağına da ehtimal vermək olar. Mədəniyyətin müasir dövrdə millət və dövlətlərarası əlaqələrdə meydana gəlməsi son iki on il, xüsusilə də İran İslam İnqilabından sonrakı illərə qayıdır. Çünki İran İslam İnqilabı mədəniyyət ünsürünü həmişə fəal və siyasi rəftar kimi açıqlayır. Mədəniyyətin İslami İnqilab mahiyyətində açıqlanması, digər mədəniyyətlərdə də əks səda doğurmağa başlamışdır.

Dünyanın digər dini rəhbərlərində mədəni agahlıq ruhiyyəsinin meydana gəlməsini buna misal çəkmək olar.

Bu cərəyan İslam dünyasının həm daxili, həm də xaricində öz təsirini qoya bilir. Onların ictimai, siyasi və geopolitik quruluşuna təkan verərək, dini dövlət, millət və qruplaşmaların əlaqələrinə təsir qoyur. Cərəyan genişlənib Qərblə İslam mədəniyyəti arasındakı ziddiyyətlik geniş vüsət halını tapdıqdan sonra Amerikanın dövlət adamları, habelə nəzər sahibləri bu məsələyə diqqət yetirməyə məcbur olurlar. Beynəlmiləl əlaqələr sahəsində müxtəlif nəzəriyyələr irəli sürən Hantiqtonun özü, bu yeni cərəyanı teoriləşdirmiş və dünyanın böyük mədəniyyət əhatə dairələrinin qərəzli rəftar və davranışlarını ortaya çıxarmışdır. O, öz fərziyyəsini svilizasiyaların toqquşması, eyni svilizasiyaya malik olan dövlət və millətlərin davranışları, İslamla qərb arasındakı bağlılıq və qərb mədəniyyətinin qorunub-saxlanılması üçün irəli sürdüyü təkliflər və bu kimi müxtəlif mövzular çərçivəsində irəli sürmüşdür. Bu nəzəriyyənin iki tərəfi vardır: bəyanedici və istifadə olunan. Onların hər ikisinə bəzi iradlar tutulmuşdur. Hərçənd, Hantiqton tutulan iradlara cavab vermək üçün öz nəzəriyyəsini daha da təkmilləşdirməyə çalışmışdır. Hantiqtonun sürdüyü əsas fərziyyədə qeyd edir ki, müasir dünyadakı münasibətlər, bundan belə ideoloji və iqtisadi məsələlər deyil, böyük bölgülərə səbəb olan mədəniyyət olacaqdır. Lakin dünya siyasətində yüksək svilizasiyaya malik olan dövlət və millətlər arasında ciddi qarşıdurmalar meydana gələcəkdir və bu qarşıdurmalar dünya siyasətinə qalib gələcəkdir. Gələcəkdə svilizasiyalar arasında meydana gəlmiş ayrılıqlar, müharibə və qarşıdurma zolağına çevriləcəkdir.

Hantiqton belə bir əqidə də idi ki, svilizasiya, müəyyən insan kütləsinin şəxsiyyətindən xəbər verir və bu ən yüksək bölgü meyarıdır. Bunun əsasında da, bəşəriyyəti hər birinin özünəməxsus xüsusiyyətə malik olan yeddi və ya səkkiz svilizasiyaya bölür:

1. Qərb mədəniyyəti (Amerika və Avropa mədəniyyəti);
2. Slavyan-ortodoks mədəniyyəti;
3. Konfusiyus mədəniyyəti;
4. Yaponiya mədəniyyəti;

5. İslam mədəniyyəti (ərəb və qeyri-ərəb, türk və malay mədəniyyəti);
6. Hind mədəniyyəti;
7. Latın Amerika mədəniyyəti;
8. Afrika mədəniyyəti

O, tarix, dil, irq, din, adət-ənənə, incəsənət, memarlıq, inam və dəyərlərə şamil olan mədəniyyəti və mədəni xüsusiyyətlərin sivilizasiyadan doğduğunu bildirir.

Hantiqton mədəniyyəti, ümumilikdə bir-birindən fərqli olan insan şəxsiyyətinin mənşəyi hesab edir. İnsanın Allah, insanların bir-birləri ilə, insanın ətraf mühit, övladla valideyn, əhali ilə dövlət arasında olan əlaqələri, azadlığı, məsuliyyət və sairi buna misal çəkmək olar.

O, mədəniyyətlər arasında meydana gələn ixtilaf və qarşıdurma amillərinin aşağıdakılardan ibarət olduğunu hesab edir:
1. Bünövrə xarakeri daşıyan mədəniyyət və svilizasiyaların bir-birlərindən fərqlənməsi;
2. Mədəni agahlığın artması;
3. Cəmiyyətin ictimai-iqtisadi sahələrdə modernləşməsi nəticəsində dövlət və millətlər arasındakı əlaqələrin zəifləməsi, mədəni xüsusiyyətlərin formalaşması, beynəlmiləl iqtisadiyyatda regional təmayülün inkişafı və s.

O deyir: “İrqi və regional mədəniyyətlər arası səviyyədə ixtilaf və qarşıdurmalar meydana gələcəkdir və qarşıdurmaların baş verdiyi məkan, mədəniyyətləri bir-birlərindən ayıran orta xətt olacaqdır. Belə ki, hər hansı bir mədəniyyətə malik olan bir ölkə, mədəniyyət baxımından ondan fərqli olan başqa bir ölkə ilə qarşı-qarşıya durarsa, "Mədəni cəmiyyət" yaranıb eyni mədəniyyətə malik olan ölkələr bir-birləri ilə birləşərək digər ölkələrə qarşı müxalif mövqe tutmağa başlayacaqdır.

O, bu məsələyə dair Sabiq Yuqoslaviya, Qafqaz, Hindistan və Afrikada baş verənləri buna işarə edir. Hantiqton apardığı araşdırmalardan sonra belə bir nəticəyə gəlir ki, gələcəkdə dünyada bir neçə qüdrət və mədəniyyət fəaliyyət göstərəcəkdir və Qərb mədəniyyəti də onlardan birini təşkil edərək, hegemonluq iddiası edə bilməyəcəkdir. Hantiqton belə bir əqidədədir ki, gələcəkdə baş

verən qarşıdurmalar İslam mədəniyyəti ilə qərb mədəniyyəti arasında başlayacaq və Konfusiyus mədəniyyəti ilə birləşərək, Qərb mədəniyyətinə qarşı müxalif mövqe tutmağa başlayacaqdır.

Gələcəkdə dünyada baş verən cərəyanlara işarə etməklə yanaşı, Qərb mədəniyyətinin süqutunun qarşısını almaq məqsədilə, bir neçə təklif irəli sürmüşdür və bu təkliflərə qısa və uzunmüddətli razılaşmalar əsasında baxılır. Qısa müddətli təkliflər aşağıdakılardan ibarətdir:

1. Qərb mədəniyyəti, xüsusilədə Şimali Amerika və Avropa mədəniyyətləri arasındakı birlik və həmkarlıq;
2. Qərb cəmiyyətləri ilə Şərqi Avropa və Latın Amerika ilə əldə olunan birlik;
3. Qərbin Rusiya və Yaponiya ilə etdiyi həmkarlıq;
4. Qərbin daxili və xarici mədəniyyəti ilə onunla yeni səviyyədə olan mədəniyyətlər arasında baş verən ixtilafların qarşısını almaq;
5. İslam mədəniyyəti ilə Konfusiyus mədəniyyətləri arasında genişlənməkdə olan həmkarlığın qarşısını almaq;
6. Amerika ordusunun, Asiyanın şərq və cənub-şərqində yerləşdirilməsinə verilən razılıqların artması;
7. İslam mədəniyyəti ilə Konfusiyus mədəniyyəti arasında yaranmış ixtilaflardan bəhrələnmək;
8. Qərb və Amerika silahlı qüvvələrinin azalmasındakı bərabərlik (azalmasının qarşısını almaq);
9. Qərb dəyərləri ilə həmfikir və ona arxa olan digər mədəni qruplaşmaların himayəsi;
10. Beynəlmiləl müəssisələrin gücləndirilməsi və qərbə xas olan dəyərlərin, habelə qərbə olan təmayülün yayılması.

Uzun müddət üçün irəli sürdüyü təkliflər isə bunlardan ibarətdir:

1. Qərbin modern mədəniyyətlərinin həyata keçirilməsi və onların arasında uyğunluq yaratmaq;
2. Qərbin iqtisadi və hərbi qüdrətinin qorunub gücləndirilməsi;
3. Qərbin digər din və mədəniyyətlərin fərziyyə və fəlsəfəsini dərindən dərk etməsi;
4. Qərb və digər mədəniyyətlər arasında olan müştərək ünsürlərin tanınıb gücləndirilməsi

Hantiqdon irəli sürdüyü təkliflərin sonunda mədəniyyətlərarası ixtilafların qarışısını almaq məqsədilə deyir: "Gələcəkdə bir yox, bir neçə mədəniyyət mövcud olacaqdır və onlardan hər biri digəri ilə necə yaşamalı olduğunu öyrənməli olacaqdır".

Mədəniyyətlərin qarşılıqlı rəftar və davranışlarına dair irəli sürülmüş nəzəriyyəni diqqətdən keçirək:

1. Bu nəzəriyyə siyasətçilər tərəfindən bəzi iradlar tutulmuşdur. Lakin dünyada baş verən həqiqətləri özündə əks etdirən bir nümunə kimi öz mövqeini qoruyub saxlaya bilmişdir.
2. Bu nəzəriyyə Qərb mədəniyyətindən meydana gəlmişdir. Belə bir tərzi–təfəkürə əsasən, qərb mədəniyyətinin gələcəyi nigarançılıq doğurmağa başlamış və Hantiqtonun irəli sürdüyü təkliflərin bir çoxu qərb mədəniyyətinin qorunub gücləndirilməsinə istiqamətləndirilmişdir.
3. Bu nəzəriyyə şəxsi nəticələr əsasında formalaşmış və gətirilən dəlillərin kifayət qədər əsası yoxdur.
4. Nəzəriyyədə verilən proqnozların baş verməsi heç də qəti deyildir. Çünki əlaqələr, birlik və ayrılıq gedişatları, təfəkkür səviyyəsinin artması və bu kimi dəyişiyliklər nəzərdə tutulan baxışı dəyişdirə bilər.
5. Nəzəriyyə ilə tanışlıq, yer üzərindəki siyasi vahidlər arasındakı əlaqə və quruluşu özündə əks etdiyi üçün lazımi və zəruridir.

## *(3-2-4) MİLLİ QÜDRƏT*

İnsanın nəzərdə tutduğu işi görmək üçün ixtiyarında olan istedad və bacarığa "qüdrət" deyilir. Başqa sözlə desək qüdrət, insanın hər hansı bir işi görmək üçün və başqa birisinə müsbət münasibət bəsləmək məqsədilə, ixtiyarında olan istedad və bacarığa deyilir. Cəmiyyət və millət kimi yüksək səviyyədə nəzər saldıqda qüdrət, hər hansı bir cəmiyyətin milli qüdrətinə səbəb olan imkan və bacarığına deyilir. Ölkənin milli qüdrəti, milli sərvətlərini qorumaq və nəzərdə tutduğu planları həyata keçirmək üçün ixtiyarında olan imkanlara deyilir. Milli qüdrət istər-istəməz genişlənməyə və millətlər öz qüdrətlərini artırmağa can atırlar.

Ölkələr mümkün qədər çox qüdrət əldə etmək üçün yeni fürsət və imkanlar axtarırlar.

Milli qüdrətə xas olan xüsusiyyətlərdən biri də onun həmişə fəal olmasıdır. Milli qüdrət vasitəçi rolunu oynamaqla yanaşı, ölkənin hədəf və amalı kimi də özünü təcəlli edir. Milli qüdrət, siyasi rəhbərlərinin əlində milli mənafeni qorumaq və onu genişləndirmək üçün ən gözəl vasitədir.

Milli qüdrətin istifadə olunduğu iki əhatə dairəsi vardır:

1. Daxili əhatə dairəsi;

Buraya qanunvericilik, hüquq və nizamnamələrin müəyyənləşdirilməsi, qanunların icrası, ictimai məsələlərin həll olunması, cəmiyyət üzvləri arasındakı əlaqələrin yaxşılaşdırılması, qanunvericilik, məhkəmə və sair qanuni təhlükəsizlik komitələri vasitəsilə daxili təhlükəsizliyin təmin olunması daxildir.

2. Xarici əhatə dairəsi;

Qarşıya qoyulan hədəfə çatmaq, milli mənafeni qorumaq və beynəlmiləl səviyyədə milli təhlükəsizliyi təhlükə ilə üzləşdirən amillərin dəf olunmasında istifadə olunur.

Milli qüdrət iki halda istifadə olunur:

1. Nüfuz;
2. Güc və zorakılığın tətbiqi

Nüfuz, geopolitik mahiyyətə malik olduğu üçün və bu günlər böyük dövlətlərin, kiçik və ya öz səviyyələrində olan dövlətlərə qarşı daim diqqət mərkəzində olur. Güc və zorakılıqdan isə nüfuz heç bir nəticə vermədikdə istifadə olunur.

## *1-MİLLİ QÜDRƏTDƏN İSTİFADƏ OLUNAN MƏRƏHƏLƏLƏR*

Milli qüdrətdən aşağıdakı yerlərdə istifadə olunur.

Sülh məramlı üsullar:

1. Qaneetmə;

Müxtəlif üsullardan, xüsusilə də müzakirə və danışıqlardan istifadə etməklə, tərəf müqabilinə qənaətbəxş cavablar vermək.

2. Təklif və mükafat;
   Bu yolla tərəf müqabili onu maraqlandıran mövzuya cəzb olunur.
3. Mali (maliyyə), siyasi, diplomatik, hərbi və s. köməkliklər etməklə, tərəf müqabilinin mükafatlandırılması.

Düşmənçilik:

1. Cəzalandırma ilə hədə-qorxu gəlmək;
2. İqtisadi enbarqo, təbliğatın qarşısını almaq və bu kimi üsullardan istifadə edərək, qeyri-hərbi təzyiqlərin göstərilməsi;
3. Hərbi xəbərdarlıq;
4. Hərbi üsulardan istifadə.

## *2-MİLLİ QÜDRƏTDƏN İSTİFADƏ OLUNMASİNİN İRADLARİ*

Beynəlmiləl əlaqələrdə milli qüdrətdən aşağıdakı yerlərdə istifadə olunur:

1. Diplomatik müqavilələr;
2. İqtisadi yardıma dair verilən vədələr;
3. Təbliğat;
4. Gömrük tariflərin dəyişilməsi;
5. İqtisadi enbarqo;
6. Hərbi təhdid;
7. Siyasi iqtisadi, mədəni təzyiqlər;
8. Hərbi müdaxilə (ordudan istifadə);
9. Üsyan, terror, casusluq, təhlükəsizlik və partizan müharibələrinə şərait yaratmaqla, ölkənin daxili işlərinə müdaxilə;
10. Hiylə;
11. Siyasi stabilsizliyi yratmaq;
12. Siyasi, əqidəvi, iqtisadi və mədəni nüfuzun göstərilməsi.

## *3-MİLİ QÜDRƏTİN DƏRƏCƏLƏRİ*

Ölkənin milli qüdrəti qoyduğu təsir və şamil olduğu əhatə dairəsi baxımından bir neçə hissəyə bölünür:

1. Ümumdünya milli qüdrət;

Dünyada baş verən cərəyanlara təsir göstərə bilən qüdrətə ümumdünya və ya qlobal milli qüdrət deyilir. Əlbətdə, bəzi qüdrətlər müxtəlif, bəziləri isə müəyyən sahələrdə bu imkanlara

malik olurlar. Məsələn, Yaponiya iqtisadi sahədə öz təsirini qoya bilir.

2. Ümumdünya potensial qüdrət;

Hal-hazırda inkişaf ümumdünya qüdrət səviyyəsinə çatmaqdadır. Çini buna misal çəkmək olar.

3. Regional milli qüdrət;

Hindistan, Nigeriya və Cənubi Afrika kimi belə bir qüdrətə malik olan ölkələr müəyyən nüfuz və əhatə dairəsinə malik olub, yerləşdiyi məntəqə və ya qitəyə öz təsirini qoya bilir.

4. Kiçik və ya məhəlli qüdrət;

Belə bir qüdrətə malik olan ölkə, milli səviyyədə müəyyən məntəqə və nüfuza yiyələndiyi əhatə dairəsinə malik olur. Səudiyə Ərəbistanın Fars körfəzinin həmkarlıq şurasındakı malik nüfuzu buna misal çəkmək olar.

5. Ölkədaxili qüdrət

Yanlız ölkə daxilində iqtidarda olan qüdrətə ölkədaxili qüdrət deyilir. Bir çox hallarda belə bir qüdrətə kiçik dövlətlər malik olurlar.

## *4-MİLLİ QÜDRƏTİN MƏNBƏLƏRİ VƏ YA QÜDRƏTƏ SƏBƏB OLAN AMİLLƏR*

Siyasi coğrafiya, geopolitologiya, beynəlmiləl əlaqələr və siyasət elimlərinin mütəxəssisləri milli qüdrətin meydana gəlməsinə dair müxtəlif nümunələrə işarə etmişlər. Morkent, Arkansiki, Kohen, Kloiter və Mahan kimi nəzər sahiblərini buna işarə etmək olar. Bu numunələr bir çox hallarda bir-birləri ilə oxşar olsalar da, milli qüdrəti dəqiq ölçü və çərçivədə müəyyən edə bilməmişlər. Çünki milli qüdrətin (Tərcümə olunmayıb diqqət et kitab səh 248, vərəq səh.668) bir hissəsi müəyyən kəmiyyət və keyfiyyətə malikdir. Bunun üçün də milli qüdrətə qiymət vermək, bir o qədər də asan deyildir. Ümumi milli qüdrəti səkkiz hissəyə bölmək olar.

1. İqtisadi amillər;
2. Ərazi amilləri;
3. Hökumət amilləri (siyasi və idari amilər);

4. Elmi və texnoloji amillər;
5. İctimai amillər;
6. Mədəni amillər;
7. Hərbi amillər;
8. Ölkə xarici amillər.

İqtisadi amillər:

1. İstehsalın əsasını təşkil edən milli sərmayə, milli büdcə, əhalinin sərmayə qoymağa təhrik olunmaları, enerji, yer altı təbii sərvətlər, ərazi və məkan, nəqliyyat, idarəetmə, istehsal texnologiyasının səviyyəsi, iqtisadi qurum təşkilatı, insan qüvvəsi, mühəndis, müdir və mütəxəssislərə şamil olur;
2. İstehsal miqdarı;
   Sənət, əkinçilik, Heyvandarlıq və sair xidmətlərə şamil olur.
3. İstehsal səviyyəsi;

Milli istehsalın miqdarı[1], başlıq istehsal, özünütəmin etmə səviyyəsi, milli istehsaldan atıq qalan məhsullar, beynəlmiləl istehsal mövqe və istehsal tərkibinə (xammala, sənət, əkinçilik və xidmət) şamil olur.

4. İstehsal mübadiləsi;
   İdxalat, ixracat və ticari bərabərliyə şamil olur.
5. Sərvət və mali mənbələr

Xarici ölkələrə verilən borclara (xarici ölkələrdən tələb olunan borclar) beynəlmiləl ehtiyatlar, qoyulan beynəlmiləl sərmayə, maliyyə xidmətləri (bank və sığorta) və xarici vətəndaşların sərvətinə şamil olur.

Ərazi amilləri:

1. Geopolitik strateji iqlim əlaqə mövqiyyəti və s;
2. Təbii şərait, ərazi quruluşu, tipoqrafiya, təbii təhlükəsizlik və sərhədlərin təyin olunması;
3. Vüsət;

Abadlaşdırılmış, qeyri-münbit və istifadəyə hazır ərazilər və mühüm strateji məntəqələrə şamil olur.

[1] G.N.P.

4. Su, torpaq, hava, bitgi örtüyü, heyvanat aləmi kimi həyat üçün zəruri olan ünsürlər.

Hökumət amilləri (siyasi və idari amillər) aşağıdakılara şamil olur:
1. Siyasi stabillik;
2. Dövlət təşkilatının fəaliyyəti;
3. Siyasi rəhbərlik və idarəetmə;
4. Dövlət quruluşu;
5. Daxili təhlükəsizlik

Elmi və texnoloji amillər aşağıdakılara şamil olur:
1. Elmi-təhqiqat mərkəzləri, universitet, universitet müəllimləri və müəllimlərin sayı, alim və təhqiqatçılar, iyirmi yaşdan yuxarı olan əhali ilə tələbələr, şagirdlərin iyirmi yaşdan aşağı olan əhali və orta təhsil almış şəxslərin ölkə əhalisi ilə müqaisəsi;
2. Elmi artım;

Universitet məzunlarının miqdarı, orta məktəb şagirdlərin sayı, çap olunmuş kitabların çapı, elmi jurnal, məqalə, təhqiqat, seminar, kəşf və ixtiraların sayı.

3. Elmi idxalat;

Çap olunmuş və ya xaricdə keçirilən seminarlara təqdim olunmuş məqalələr, ölkə vətəndaşlarının ölkədən xaricdə əldə olunmuş elmi ixtira və nailiyyətləri və ölkədaxilində təhsil alan xarici tələbələrin sayı.

İctimai amillər:
1. Əhalinin sayının alınması (statistika), yaş tərkibi, ömrün müddəti, ümumi ölüm, uşaqların ölüm sayı, işlə təmin olunmuş fəal cəmiyyət;
2. Milli, dini, irqi birlik və həmrəylik dərəcəsi, vahid dilə yiylənmək;
3. İctimai rifah

Adam başına düşən gəlir, tibb və səhiyyənin vəziyyəti, əhlinin evlə təmin olunma səviyyəsi, saflaşdırılmış su, hamam, elektrik, şəhər əhalisinin tərkib hissəsi və s.

Mədəni amillər:

1. Mədəni səviyyə;

   Savad dərəcəsi, adam başı istifadə olunan kitablar, mətbuat, radio və televiziya.

2. Milli ruhiyyə və xüsusiyyətlər;

   İftixar doğuran milli hisslər, milli xislətlər (ictimai inzibat, dözümlülük, çalışqanlıq və s.).

3. Əqidəvi xüsusiyyətlər;

   Fədakarlıq, mənəvi saflıq dərəcəsi, birliyə can atmaq və s.

4. Mədəni və tarixi irs;

   Tarixi köklər, qədim tapıntılar.

5. Komunikasiya vasitələri, (kompyüter, radio-televiziya) onların qoyduğu təsir və tutduqları əhatə dairələri.

Hərbi amillər:

1. Canlı qüvvənin sayı;
2. Canlı qüvvənin tərkib və keyfiyyəti;
3. Silah və döyüş avadanlıqları;
4. Təşkilatçılığın keyfiyyəti;
5. Hərbi briqadanın ixtiyarında olan texnologiya;
6. Hərbi komandanlığın vəziyyəti (strategiya, döyüş bacarığı, döyüş üsulları).

Hərbi amillər (ölkə xarici):

1. Beynəlmiləl birliyin rəqib və şərikləri;
2. Siyasi ehtiyacların kifayət qədər təmin olunması;
3. Qonşu ölkələrin vəziyyəti (güclü, zəif, bərabər, dost, düşmən);
4. Mədəni əlaqələr və dini mədəniyyətin nüfuzu;
5. Xaricdə olan ölkə vətəndaşları;
6. Beynəlmiləl təşkilatlarda iştirak və fəaliyyət;
7. Ölkə xaricində yerləşən hərbi hissələr;
8. Ətraf məntəqənin təhlükəsizliyi (qonşu və məntəqədə yerləşən digər ölkələr).

### *(3-2-5) MİLLİ MƏNAFE VƏ HƏDƏFLƏR*

Milli mənafe və hədəf, hər bir ölkə vətəndaşının ətrafında toplandığı və qorunub-saxlanılması üçün maddi və mənəvi sərmayə qoyduğu məsələyə deyilir. Milli mənafe bir çox hallarda başqalarının mənafei ilə ziddiyyətlik təşkil edərək, yaradılan əlaqələrdə məna və məfhum kəsb edir. Ziddiyyətli olduğu üçün də bəzən ixtilaf, keşməkeş və müharibələrə səbəb olur. Milli mənafe daxili məsələlərdə də məna və məfhum kəsb edir. Məsələn; dövlət nizam-intizam və inkişafa ciddi yanaşmaq istədikdə, ona milli hədəf, milli əzm və iradə kimi nəzər salır. Milli mənafe və hədəfi adətən dövlət rəhbərləri müəyyən edir. Onların ən başlıcası isə aşağıdakılardan ibarətdir:

1. Milli təhlükəsizlik;

Ölkə üçün təhlükə yaradan bütün ünsürlərin aradan götürülməsi, ən ömdə milli hədəflərdən biri hesab olunur.

2. Milli qüdrətin gücləndirilməsi;

Milli mənafeə nail olub onun qorunması üçün ən gözəl vasitə hesab olunur.

3. Əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədilə milli mənafenin genişləndirilməsi;
4. Ölkə və cəmiyyətin işlərini nizama salmaq üçün milli məsələlərin idarə olunması;
5. Başqalarının qarşısında milli şəxsiyyətin qorunması üçün milli dəyərə yetirilən diqqət;
6. Milli mənafenin müqəddəratını həll edəcək qərarlar qəbul etmək məqsədilə milli müstəqilliyə nail olmaq;
7. Milli mənafe və təhlükəsizlik üçün beynəlmiləl sülh və sabitliyə nail olmaq;
8. Milli iqtidarı qorumaq üçün ərazi bütövlüyünə yiyələnmək;
9. Milli qüdrəti genişləndirmək;

Təhlükələrin qarşısını almaq və siyasi maraqları həyata keçirmək məqsədilə, başqalarının nüfuz və təsirini gücləndirmək;

10. Mədəni, iqtisadi, ictimai sahələrdə milli ehtiyac və milli təhlükəsizliyin təmin olunması;
11. Milli mənafe və milli təhlükəsizliyi irəli aparmaq üçün beynəlmiləl səhnədə milli iradənin həyata keçirilməsinə verilən azadlıqlar;

12. Hegemon ölkələrin ikinci dərəcəli hədəfi olan qüdrət və hökmüranlığı əldə etmək istəyi;
13. Əbərqüdrət və genişlənməyə can atan dövlətlərin ikinci dərəcəli olan hakimiyyət dairəsini genişləndirmək istəyi;
14. Milli müstəqillik və təhlükəsizliyi gücləndirmək məqsədilə, ölkənin daxili işlərində digər dövlətlərin nüfuzunun azaldılması
15. Dəyəcək bütün zərər və xəsarətlərin qarşısının alınması üçün ölkənin öz ərazi bütövlüyünü qoruyub saxlaması;
16. Başqa millətlər arasında milli qürurun qorunması;
17. Mənəvi dəyərlərin, milli hisslərin qorunub-saxlanılması və onun digər millətlər arasında genişləndirilməsinə can atmaq;
18. Ölkədən xaricdə olan vətəndaşların hüquqlarının qorunması.

## *(3-2-6) MİLLİ STRATEGİYA*

"Strategiya" kəlməsi qədim yunan sözü olan "stratequs"-dan götürülmüş və stratequs qədim Yunanda ölkə və ordu başçısına deyilmişdir. Fars dilində bu kəlmənin yerinə aparıcı, aparıcı yol, təfəkkür tərzi, ümumi yol, mövqeyyət seçmək, döyüşə yüksək səviyyədə rəhbərlik, ümumi və münəzzəm plan, döyüşə sövq, rəqabət elmi, fənn və bacarıq və s. kəlmələrdən istifadə olunmuşdur.

Lidel Hart 1929-cu ildə strategiyanı belə tərif etmişdir: "Strategiya elə bir qüdrət və bacarıqdan ibarətdir ki, ordudan istifadə etməklə, dövlət və ya millətin təyin etdiyi siyasətə yol tapmaq olar".

Bu sahədə fəaliyyət göstərmiş Bufer adlı başqa bir alim yazır: "Strategiya, güc və zorakılıqdan istifadə etmək bacarığına deyilir. Belə ki, siyasi hədəfə çatmaq üçün ondan daha çox istifadə etmək mümkün olsun".

1885-ci ildə rus hərbi alayına rəhbərlik etmiş Kluzitus deyir: "Strategiya, döyüşə rəhbərlik və döyüşün nəzərdə tutulan məqsədlə həmahəng olunmasına deyilir".

Pentaqonun ali hərbi mütaliələr təşkilatı strategiya barədə belə bir tərif irəli sürmüşdür: "Strategiya - sülh və müharibə şəraitində milli siyasətə arxa olmaq, qələbə ehtimalını çoxaltmaq məqsədi ilə iqtisadi, ictimai, mədəni və siyasi qüdrətlərin istifadə və genişləndirmə, elm və ya fənninə deyilir".

Fransanın müharibə universitetinin strategiya barədə verdiyi tərifdə deyilir: "Milli və ya ümumi strategiya hər hansı bir millətin istifadə etdiyi qüdrət və həmahəngliyin genişləndirmə fənninə deyilir."

Strategiya barədə digər təriflər də irəli sürülmüşdür. Diqqət yetirməli olunan məsələlərdən biri də budur ki, son vaxtlar strategiya hərbi ədəbiyyatdan çıxmış və iqtisadiyyat, ictimaiyyət, siyasət və mədəniyyət kimi sahələrə nüfuz etməyə başlamış və bəzən də bu sahələrdə oxşar təriflər irəli sürülmüşdür.

Strategiyanın məna və məfhumu barədə deyə bilərik ki, strategiya, iki cəryan və mövzu arasında təcəlli edir. Onlardan biri və onun vasitələri, digəri isə hədəf və amalından ibarətdir. Strategiya onlar arasında bir növ əlaqə vasitəsidir. Başqa sözlə desək, strategiya, hədəfə nail olmaq üçün istifadə olunan qüdrətin əsasını təşkil edir.

İqtidara yiyələnən və bu sahədə fəaliyyət göstərən yüksək rütbəli ordu başçıları, siyasi rəhbərlər və dövlət adamları ixtiyarlarında olan qüdrətdən qarşılarına qoyduqları hədəf və məqsədlərə çatmaq üçün istifadə edirlər. Bunun üçün də həmin məqsədlərə nail olmaq üçün elmi məlumatlarla yanaşı, şəxs güclü bacarıq və qabiliyyətə də malik olmalıdır.

Şirkət və təşkilat müdirləri də strategiyaya böyük ehtiyac duyurlar. Çünki onlar rəhbərlik etdikləri şirkət və ya təşkilatların imkan və bacarıqlarını, qarşılarına qoyduqları hədəf və məqsədə çatmağa doğru istiqamətləndirirlər. Bütün bunları nəzərə alaraq, milli strategiyanı belə tərif edə bilərik: "Milli strategiya, ölkənin siyasi rəhbərlərinin ixtiyarlarında olan qüdrətdən istifadə edərək, milli təhlükəsizliyi təmin etmək məqsədilə həyata keçirdikləri plan və tədbirlərə deyilir".

Milli strategiya ümumi xarakter daşıyaraq, hərbi, ictimai, iqtisadi, mədəni, beynəlmiləl və bir çox digər sahələri əhatə edir. Eyni zamanda strategiyaya, qüdrət və bacarıqların genişləndirilməsində xüsusi diqqət yetirilir. Çünki bütün bunlar strategiyanın formalaşmasının ilk mərhələsini təşkil edir. Ölkə və ya dövlət, zəif və ya heç bir qüdrətə malik olmadıqda, strategiyada heç bir uğur qazana bilmir.

## *İSTİFADƏ OLUNAN MƏNBƏLƏR*


1-Smit Antoni, "Məlumatlar geopolitologiyası", tərcümə edən Firudin Şirani, Süruş nəşriyyəsi, Tehran - 1364 (1986);

2-Ruşəndel, Cəlil "Beynəlmiləl quruluş və milli təhlükəsizlik", Semət nəşriyyəsi, Tehran - 1374 (1996);

3-Corc, Piyer "Azlıqlar geopolitologiyası", tərcümə edən Siruş Səhami, Vaqifi nəşriyyəsi, Məşhəd - 1374 (1996);

4-İzzəti, İzzətullah "Geopolitologiya", Semət nəşriyyəsi, Tehran - 1372 (1994);

5-Fober, Qraham, "İranın geopolitik qibləsi", tərcümə edən Abbas Muxbir, Mərkəz nəşriyyəsi, Tehran, 1373 (1995);

6-Kazimi, Əli Əsğər "Qüdrətin cəmiyyət və beynəlmiləl əlaqələrdə ifa etdiyi rol", Qomes nəşriyyəsi, Tehran 1369 (1990);

7-Bennett, Robert and Estall. R "Global Change and Challenge Routledge", London – 1991;

8-Demko, G.J. and Wood. W. B. Reordering the World, Westview Press, Oxford, U.K. 1994;

9-Diykihk, Gertyan, "National İdentity and Geopolitical Visions, Routledge", London – 1996;

10-Fullet. G.E. and lesser. İ. O. "The Geopolitics of İslam and the West", Rangward books, lahore – 1995;

11-Grrot.P. and Kofman.E "İnternational Geopolitical Analysis", Groom Helm, London – 1987;

12-Haroon, Ahmed, "Contemporary Conflicts", P.P. S, Pakistan - 1991;

13-Jonston. R. J. A "World in Crisis, Basic Black well", U.K - 1990;

14-Mayor, Federico, Science and Power, UNESCO, Paris - 1996;

15-Painter, Joe, "Politics Geography", Arnold, London – 1995;

16-Pierson, Christopher, Modern State, Routledge, London - 1996;

17-Sergelatovche, "Westerniation of the World", Politey Press - 1996;

18-Sullivan. P. O. Geopolitics, Grom Helm, London - 1986;

19-Taylor, Peter, Political Geography, Longman, London - 1989.

20-Thuatail. O. G. Critical Geopolitics, Routledge, London - 1996.